AZƏRBAYCAN RESPUBLIKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ PHŞ

HEYDƏR ƏLİYEV 100

ADNSU
Azerbaijan State Oil & Industry University

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tələbələrin 72-ci elmi-texniki konfransının TOPLUSU

AZƏRBAYCAN RESPUBLIKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ PHŞ

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ

TƏLƏBƏLƏRİN 72-Cİ ELMİ-TEXNİKİ KONFRANSININ

TOPLUSU

Bakı - 2024

Təşkilat Komitəsi

KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

Sədr:
ADNSU-nun rektoru v.m.i.e. dosent Vazeh Əskərov

Sədr müavini:
Elm işləri üzrə prorektor, professor L.Qardaşova

Elmi katib:
Tələbə Elmi Cəmiyyətləri
Şurasının sədri tex. ü.f.d. E. İsmayılov

KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

Q.Məmmədov	- dosent, Tədris işləri üzrə prorektor;
R.Camalov	- dosent, Beynəlxalq əlaqələr üzrə prorektor;
S. Huseynov	- İnzibatı-təsərrüfat işləri üzrə prorektor;
N.Paşayev	- dosent, GKF-in dekanı;
E.İskəndərov	- dosent, QNMF-in dekanı;
S.Məmmədxanova	- professor, KTF-in dekanı;
Ə.Əhmədov	- dosent, NMF-inin dekanı;
A.Əliyev	- dosent, EF-in dekanı;
F.Ağayev	- dosent, İTİF-ın dekanı;
İ.Rüstəmov	- dosent, İ və MF-in dekanı;
M. Abdullayeva	- dosent, Tələbə Elmi Cəmiyyətləri Şurasının katibi
S. Salmanov	-İnformasiya və Kommunikasiya texnologiyaları şöbəsinin müdiri;
B.Nəzərov	-İctimaiyyətlə əlaqələr və marketinq departa mentinin direktoru;
N.Gəncəyev	- Tələbələrin Həmkarlar İttifaqı Komitəsinin sədri;
A.S.Məmmədəlizadə	- mətbəənin direktoru.

MÜNDƏRİCAT

ИЗУЧЕНИЕ ЛИТОФАЦИАЛЬНОЙ ИЗМЕНЧИВОСТИ ОТЛОЖЕНИЙ ПРОДУКТИВНОЙ ТОЛЩИ ПО ДАННЫМ ГИС (НА ПРИМЕРЕ МЕСТОРОЖДЕНИЯ ЛОКБАТАН-ПУТА-ГУШХАНА) 15

ÇOVDAR QIZIL MƏDƏNİNDƏ TEXNOLOJİ PROSSESLƏRİN SƏMƏRƏLİ TƏŞKİLİ..... 20

3D SEYSMİK KƏŞFİYYATLA ZƏRDAB-ŞIXBAĞI GEOLOJİ STRUKTURUNUN DƏQİQLƏŞDİRİLMƏSİ 28

QURU-DƏNİZ (TRANZİT) KEÇİD ZONALARDA MÜASİR SEYSMİK PLANALMA ÜSULLARI 34

AZƏRBAYCAN XƏZƏRYANI ÇÖKƏKLİYİNİN PALEOCOĞRAFİYASI .. 41

THE GEOLOGICAL STRUCTURE OF THE JUNCTION ZONE OF THE GREATER CAUCASUS' SOUTH SLOPE WITH THE KUR DEPRESSION DUE TO THE OIL AND GAS POTENTIAL 47

ROBOTOTEXNIKA - MƏDƏNÇILIYIN GƏLƏCƏYI ÜÇÜN ƏVƏZSIZ ALƏTDIR..... 54

DİAPİR STRUKTUTLARIN QRAVİTASİYA TƏSİRLƏRİ 61

TÜLALAR QIZIL YATAĞININ İŞLƏNMƏSİNDƏ ÇIXARIB YÜKLƏMƏ İŞLƏRİNİN TƏŞKİLİ..... 66

GÜRGAN-DƏNİZ SAHƏSİNDƏ NİSBİ İMPEDANS SEYSMİK ATRİBUTUNUN ANALİZİ İLƏ MƏHSULDAR QATIN ALT LAY DƏSTƏLƏRİNİN PERSPEKTİVLİYİNİN PROQNOZLAŞDIRILMASI 70

GORANBOYDA YUXARI AĞCAKƏND GİPS-ANHİDRİD YATAĞINDA APARILMIŞ GEOLOJİ TƏDQİQATLAR 76

QIZIL DAŞIYAN MİNERAL ASSOSASİYALARI 81

DAGKƏSƏMƏN QIZIL POLİMETAL YATAĞININ FİLİZ DAMARLARINDAKI MİNERALLARININ XARAKTERİSTİKASINA DAİR 84

THE GEOLOGICAL STRUCTURE OF THE JUNCTION ZONE OF THE GREATER CAUCASUS' SOUTH SLOPE WITH THE KUR DEPRESSION DUE TO THE OIL AND GAS POTENTIAL 86

ARPAÇAY HÖVZƏSİNİN BOKSİT YATAQLARI 89

ПОВЫШЕНИЕ НАДЕЖНОСТИ МОРСКИХ НЕФТЕГАЗОВЫХ СООРУЖЕНИЙ ПРИМЕНЕНИЕМ КОМПОЗИТНЫХ МАТЕРИАЛОВ НОВОГО ПОКОЛЕНИЯ 92

STASİONAR PLATFORMALARIN MÖHKƏMLİK VƏ DAYANIQLIĞI 96

QAZLİFT PROSESİNİN İŞ PRİNSİPİ VƏ TƏLƏB OLUNAN AVADANLIQLARI 106

MPD - MANAGED PRESSURE DRİLLİNG 112

MULTILATERAL WELL APPLICATION IN AZERBAIJAN 118

HASİLAT QUYUSUNDA DÖYÜNTÜLƏRİN QUYUDİBİ ZONASINDA SÜZÜLMƏ PROSESİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ 124

YÜKSƏK HASİLATLI NEFT-QAZ QUYULARININ MƏHSULUNUN SEPARASİYASININ STABİLLİYİNİN TƏMİN EDİLMƏSİ ÇƏTİNLİKLƏRİ 132

DƏNİZ HİDROTEXNİKİ QURĞULARIN STATİK VƏ DİNAMİK HESABLANMASI XÜSUSİYYƏTLƏRİ. 140

CHEMICAL GAS WELL DELIQUIFICATION TECHNIQUES 149

SEYSMİK AKTİV ƏRAZİLƏRDƏ TİKİNTİLƏRİN VƏ KONSTRUKSİYALARIN BÜNÖVRƏLƏRİNİN TƏHLÜKƏSİZLİYİ 157

CARBON CAPTURE AND STORAGE TECHNOLOGY 165

AVTOMOBİL SİNLƏRİNİN EMAL MƏHSULLARININ TƏRKİBİNİN VƏ XASSƏLƏRİNİN ÖYRƏNİLMƏSİ 171

MAGISTRAL BORU KƏMƏRLƏRININ KATOD MÜHAFIZƏSI 177

NEFT – QAZ SƏNAYESİNDƏ BİR NEÇƏ NANOTEXNOLOGİYALARIN TƏTBİQİ İSTİQAMƏTLƏRİ 183

NEFT-QAZ QUYULARININ İŞLƏNMƏSİNİN SƏMƏRƏLİ TƏHLİLİ 198

DƏNİZ HİDROTEXNİKİ QURĞULARIN STATİK VƏ DİNAMİK HESABLANMASI XÜSUSİYYƏTLƏRİ. 203

NEFTQAZÇIXARMADA TEXNOGEN TƏSİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ 212

АНАЛИЗ ТЕХНОЛОГИЙ СНИЖЕНИЯ ДИНАМИЧЕСКИХ НАГРУЗОК ВЫЗВАННЫХ ПРИ БУРЕНИИ В МОРСКИХ АКВАТОРИЯХ 220

НАНОТЕХНОЛОГИИ В НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ. 222

THE INFLUENCE OF OIL AND GAS PRICES ON GLOBAL ECONOMY AND POLITICS 224

INCREASING HYDROCARBON RECOVERY PROCESSES THROUGH THE USE OF HORIZONTAL DRILLING 225

BEYNƏLXALQ NƏQLİYYAT ƏMƏLİYYATLARININ MAHİYYƏTİ 227

THE FOAMING PROCESS IN DRILLING FLUIDS 228

RE (V) NİN KÜKÜRD SAXLAYAN LİGANDLARLA KOMPLEKS BİRLƏŞMƏLƏRİ. 232

MİNERALLI SULARIN MEMBRANLI ƏKS OSMOS ÜSULU İLƏ TƏMİZLƏNMƏSİ 234

PREPARATION OF CYCLOALKYLCHLOROPHENOLS AND THEIR AMINOMETHYLATION PRODUCTS 240

SİNTETİK NEFT TURŞULARININ AMİDOAMİNLƏRİNİN NEFTYIĞICI XASSƏLƏRİNİN TƏDQİQİ 246

QARADAĞ KƏRPİC ZAVODUNUN TULLANTILARI ƏSASINDA MODİFİKASİYA OLUNMUŞ SORBENT İLƏ AĞIR METAL İONLARININ SORBSİYA QABİLİYYƏTİNİN TƏDQİQİ 250

SORBENTS FOR WATER PURIFICATION 257

ECO-FRIENDLY GREENHOUSE 258

FENOLUN PROPİLENİN TRİMERİ İLƏ ALKİLLƏŞMƏ REAKSİYALARININ TƏDQİQİ 260

BORU KƏMƏRLƏRİNİN YERALTI VƏ ATMOSFER KORROZİYASINDAN QORUNMASI 265

NEFT VƏ QAZ ÇIXARMADA İSTİSMAR OLUNAN AVADANLIQLARIN KORROZİYASINA TƏSİR EDƏN AMİLLƏR 268

KERAMİK TULLANTILAR ƏSASINDA GEOPOLİMERLİ MATERİALLARIN ALINMASI VƏ TƏDQİQİ 271

ФУНКЦИОНАЛИЗАЦИЯ ХИТОЗАНА ДИАЛЬДЕГИДАМИ И ИССЛЕДОВАНИЕ ИХ МОРФОЛОГИИ, СТРОЕНИЯ И СОСТАВА. 272

BORU KƏMƏRLƏRİNİN KORROZİYASINA QARŞI İSTİFADƏ OLUNAN ÖRTÜKLƏR..... 273

NEFT VƏ QAZ HASİLATİNİN ƏTRAF MÜHİTƏ VƏ İNSAN SAĞLAMLIĞINA TƏSİRLƏRİ 277

KONSTRUKSİYA MATERİALLARININ ENERGETİK DÖZÜMLÜLÜK NƏZƏRİYYƏSİ 289

DƏYİŞƏN YÜKLƏRİN TƏSİRİ ALTINDA QAZMA QURĞULARININ RİYAZİ TƏDQİQİ..... 295

DİSKLİ SİYİRTMƏLƏRİN KİPLƏNDİRMƏ EFFEKTLİYİNİN YÜKSƏLDİLMƏSİ 309

PLAZMA TEXNOLOGİYASI İLƏ REDUKTORUN DİŞLİ ÇARXININ MÖHKƏMLİYİNİN ARTIRILMASININ TƏDQİQİ 313

PLAZMA TEXNOLOGİYASI İLƏ REDUKTORUN DİŞLİ ÇARXININ MÖHKƏMLİYİNİN ARTIRILMASININ TƏDQİQİ 320

BALL VALVES: TYPES, PRINCIPLE OF OPERATION AND APPLICATIONS. 323

THE OVERVIEW OF THE ADVANTAGES OF THE BALL VALVE..... 327

PLASTİK MATERİALLARDAN OLAN HİSSƏLƏRİN YIĞIŞMA DEFORMASİYANIN ÖYRƏNİLMƏSİ..... 330

DƏRİNLİK NASOSUNUN İŞÇİ SƏTHLƏRİNİN MÖHKƏMLİYƏ VƏ YEYİLMƏYƏ DAVAMLILIĞININ ARTIRILMASININ TƏDQİQİ 335

TƏNZİMLƏYİCİ QURULUŞLARIN LAZER ÜSULUNUN TƏTBİQİ İLƏ HİDROABRAZİV YEYİLMƏYƏ QARŞI DAVAMLILIĞININ ARTIRILMASI 340

YÜKSƏKXROMLU TEZKƏSƏN POLADLARIN PÜSKÜRDÜLMÜŞ OVUNTULARINDAN ALINMIŞ BİŞİRİLMİŞ ƏRİNTİLƏRİN STRUKTURUNA VƏ XASSƏLƏRİNƏ MEXANİKİ AKTİVLƏŞDİRMƏ REJİMİNİN TƏSİRİNİN TƏDQİQİ..... 341

D16-Ni ŞİXTƏSİNİN DƏNƏVƏRLİK TƏRKİBİNİN TƏDQİQİ 341

KARBONLU QIZMAR PRESLƏNMİŞ OVUNTU POLADLARININ MEXANİKİ XASSƏLƏRİNƏ ALÜMİNUM MİKROƏLAVƏLƏRİNİN TƏSİRİ 343

ALÜMINIUM MATRISLI HIBRID KOMPOZIT MATERIALLAR VƏ ONLARIN MEXANIKI XASSƏLƏRI..... 345

FƏRQLİ MATERİALLARDAN HAZIRLANAN KƏSİLMƏDƏ MÖHKƏMLİK HƏDDİNƏ İLKİN PARAMTERLƏRİN VƏ FAKTORLARIN TƏSİRİ XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ..... 347

SƏNAYE QURĞULARINDA İŞLƏDİLƏN BAĞLAYICI QURULUŞLARIN İŞLƏNMƏSİ 348

MƏRKƏZDƏNQAÇMA ELEKTRİK DALMA NASOS QURĞUSUNUN YEYİLMƏYƏ QARŞI DAVAMLILIĞIN ARTIRILMASI 349

PİSTONLU KOMPRESSORUN ÖZÜTƏNZİMLƏNƏN KLAPANLARIN OPTİMALLAŞDIRILMASI 350

THE PROCESS OF HYDROTREATING DIESEL FUEL..... 355

PREDICTING THE FLARE TEMPERATURE OF BINARY MIXTURES ACCORDING TO DATA ON ACTIVITY COEFFICIENTS 356

IMPROVING THE RELIABILITY AND ENERGY EFFICIENCY OF GAS AIR COOLING DEVICES BY USING A REPAIR AND RECOVERY COMPOUND 357

GRAFEN DOLDURUCULU METAL MATRİSALI HİBRİDKOMPOZİTLƏRİN XASSƏLƏRİNİN TƏDQİQİ 359

KƏMƏR BAŞLIĞININ HİSSƏLƏRİNİN HESABI 360

PAKERLƏRDƏ BAŞ VERƏN IMTINALARIN TƏHLILI 362

ASSESSMENT OF THE WAVE LOADS ON FLOATING WIND TURBINE PLATFORMS IN THE CASPIAN SEA..... 363

ASSESSMENT OF EARTHQUAKE LOADS ON FLOATING WIND TURBINE PLATFORMS IN THE CASPIAN SEA 365

ASSESSMENT OF THE WIND LOADS ON FLOATING WIND TURBINE PLATFORMS IN THE CASPIAN SEA..... 367

MAYE-DİSPERS HİSSƏCİKLƏR QARIŞIĞININ KÜRƏKLİ NASOSLARIN İŞİNƏ TƏSİRİNİN TƏDQİQİ 369

PLAŞKALI PREVENTORLARIN İSTİSMARINDA MÜRƏKKƏBLƏŞMƏLƏRİN VƏ QƏZALARIN QARŞISININ ALINMASI ÜSULLARININ TƏHLİLİ 370

BUXAR- QAZ QURĞUSUNUN İSTİSMAR REJİMİNİN TƏDQİQİ 373

KOMBİNƏLƏŞDİRİLMİŞ İSTİLİK TƏCHİZATI SİSTEMİNİN TƏDQİQİ 375

BUXAR- QAZ QURĞUSUNUN İSTİLİK SƏMƏRƏLİLİYİNİN TƏDQİQİ 377

GÜNƏŞ FOTOVOLTAİK SİSTEMLƏRİNDƏ GÜNƏŞ İZLƏMƏ TEXNOLOGİYALARI 381

NEFT MƏDƏNLƏRİNİN ELEKTRİK TƏCHİZAT SİSTEMLƏRİNDƏ ENERJI İTKİLƏRİNİN AZALDILMASI 388

TRANSFORMATOR YARIMSTANSİYALARINDA GÜC İTKİLƏRİNİN MİNİMALLAŞDIRILMASI YOLLARININ ANALİZİ 390

GÜNƏŞ PANELİNİN PARAMETRLƏRİNƏ ŞÜALANMANIN VƏ ƏTRAF MÜHİTİN TEMPERATURUNUN TƏSİRİ 392

GÜC TRANSFORMATORUNUN DOLAQ İZOLYASİYASININ İFRAT GƏRGİNLİKLƏRƏ QARŞI DAYANIQLIĞININ YÜKSƏLDİLMƏSİ 399

PROJECT OF SMART WATCH 409

MANCANAQ DƏZGAHININ ELEKTRİK İNTİQALININ SÜRƏTİNİN TƏNZİMLƏNMƏSİ İLƏ SƏMƏRƏLİYİNİN ARTIRILMASI 410

GƏMİTƏMİRİ ZAVODUNUN ELEKTRİK TƏCHİZAT SİSTEMİNİN SƏMƏRƏLİLƏŞDİRİLMƏSİ TƏDBİRLƏRİNİN İŞLƏNİLMƏSİ 412

MÜASİR VAKUUM AÇARLARININ İSTİSMAR XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ 412

AVİONİKANIN TEXNİKİ-İSTİSMAR GÖSTƏRİCİLƏRİNİN XÜLASƏVİ TƏHLİLİ 414

ANALYSIS OF SERIOUS GAMES IN BIOLOGY: INTEGRATING VIRTUAL REALITY TECHNOLOGIES TO BIOLOGY 417

İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ: KRİPTOQRAFİYA, STEQANOQRAFİYA 422

РАЗВИТИЕ И ПРИМЕНЕНИЕ ТЕХНОЛОГИЙ ИНТЕРНЕТА ВЕЩЕЙ (IOT) ДЛЯ УМНЫХ ГОРОДОВ И ИНДУСТРИИ 4.0 428

BRIDGING THE GAP IN MOBILE COMPUTING: ENHANCING FLUTTER PERFORMANCE THROUGH RUST INTEGRATION FOR SUPERIOR COMPUTATIONAL EFFICIENCY IN CROSS-PLATFORM APPLICATION DEVELOPMENT 433

PARALLEL COMPUTATION OF PROCEDURAL GENERATION CPU-BOUND SPEEDUP AND EFFICIENCY OF PERLIN NOISE FUNCTION USING AMDAHL'S LAW 444

DYNAMIC DIFFICULTY ADJUSTMENT IN UNITY: ENHANCING GAMING EXPERIENCE THROUGH REAL-TIME SKILL ADAPTATION 455

VEB PROQRAMLARIN İSTİFADƏSİ ZAMANI TƏHLÜKƏSİZLİYİNQORUNMASI ÜSULLARININ İŞLƏNMƏSİ 468

ÜRƏK FƏALİYYƏTİNİN MƏSAFƏDƏN MONİTORİNQİ SİSTEMLƏRİ 474

PARALLELIZATION IN THE APPLICATION OF REALISTIC PHYSICS . 479

3. Karen L. Slattery.The Moral Meaning of Recent Revisions to the SPJ Code of Ethics.Journal of Media Ethics 31 (1):2-17 2016 486

ANALYSİS OF FIRST AND THIRD PERSON PERSPECTIVES IN VIDEO GAMES. 486

İSTEHLAKÇILARA SU TƏCHİZATI İDARƏETMƏ SİSTEMİNİN MODERNLƏŞDİRİLMƏSİ 496

LEVERAGING C++ FOR CROSS-PLATFORM GAME DEVELOPMENT: PROSPECTS AND TECHNIQUES 501

ORGANIZATION OF AUTOMATION WITH THE ENTERPRISE APPLICATION OF SAP ERP AND PROCESSING OF REPORTS 514

TIME METROLOGY IN AZERBAIJAN. ESTIMATION OF TIE QUANTITY. 521

TKŞ MARŞRUTİZATORUNUN MODELLƏŞDİRİLMƏSİ 526

UÇUŞƏTRAFI FƏZANIN MÜŞAHIDƏSI SISTEMINİN SENSORLARI ... 527

ФАКТОРЫ РИСКА И МЕТОДЫ УПРАВЛЕНИЯ В ВЕНЧУРНЫХ ПРЕДПРИЯТИЯХ ПРОМЫШЛЕННОЙ СФЕРЫ 530

EMAL SƏNAYESİ MÜƏSSİSƏLƏRİNDƏ İNNOVASİYA PROSESİNİN ƏHƏMİYYƏTİ 542

КЛЮЧЕВАЯ РОЛЬ НЕНЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ В ГЛОБАЛЬНОМ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ 548

ГОСУДАРСТВЕННОЕ РЕГУЛИРОВАНИЕ В ПРОМЫШЛЕННОСТИ И БИЗНЕСЕ..... 553

RƏQABƏTLİ İNSAN KAPİTALİ VƏ MÜASİR İNNOVASİYALAR MƏKANININ FORMALAŞDIRILMASI 557

RƏQƏMSALLAŞMANIN MARKETİNQƏ TƏSİRİNİN MODELLƏŞDİRİLMƏSİ..... 562

МЕТОДЫ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ИСПОЛЬЗОВАНИЯ АКТИВОВ ПРЕДПРИЯТИЯ 564

АНАЛИЗ ТЕКУЩЕГО СОСТОЯНИЯ ЭКСПОРТНОЙ ДЕЯТЕЛЬНОСТИ ПРОМЫШЛЕННЫХ КОМПАНИЙ 568

ФАКТОРЫ ФОРМИРОВАНИЯ РАЦИОНАЛЬНОЙ ПРОИЗВОДСТВЕННОЙ ПРОГРАММЫ ПРОМЫШЛЕННОГО ПРЕДПРИЯТИЯ 572

ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ И ЕГО РОЛЬ В РАЗВИТИИ СОВРЕМЕННОЙ ЭКОНОМИКИ..... 575

РИМЕНЕНИЕ ПОВЕДЕНЧЕСКОЙ ЭКОНОМИКИ К ИННОВАЦИЯ..... 578

СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ТЕНДЕНЦИИ РАЗВИТИЯ УПРАВЛЕНЧЕСКОЙ СИСТЕМЫ СТРАТЕГИЧЕСКОГО МАРКЕТИНГА 580

SÜNİ İNTELLEKTİN RƏQƏMSALLAŞMADA ƏHƏMİYYƏTİ..... 582

RƏQƏMSAL MARKETİNQİN ƏN SON TRENDLƏRİ 583

AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL- İQTİSADİ DAYANIQLI İNKİŞAF MODELİNİN ƏSAS PRİNSİPLƏRİ 584

АНАЛИЗ СТРАТЕГИЧЕСКОГО ПЛАНИРОВАНИЯ В УСЛОВИЯХ ДИВЕРСИФИКАЦИИ ПРОИЗВОДСТВА В БИЗНЕС-СРЕДЕ 585

MÜƏSSİSƏLƏRDƏ İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNİN ƏHƏMİYYƏTİ 587

РОЛЬ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В СОВРЕМЕННОЙ ПРОМЫШЛЕННОСТИ И ИХ ВЛИЯНИЕ НА ПРОИЗВОДСТВЕННЫЕ ПРОЦЕССЫ. 588

КЛАССИФИКАЦИЯ РИСКОВ НА РАЗНЫХ СТАДИЯХ ИННОВАЦИОННЫХ ПРОЕКТОВ ПРЕДПРИЯТИЯ 591

ELEKTRON TİCARƏT 592

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ИННОВАЦИОННОГО РАЗВИТИЯ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЙ..... 594

ВЛИЯНИЕ ГЛОБАЛЬНЫХ ТЕНДЕНЦИЙ ВЕНЧУРНОГО ИНВЕСТИРОВАНИЯ НА ПРОМЫШЛЕННОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА: ПЕРСПЕКТИВЫ И ВЫЗОВЫ. 596

ОСНОВНЫЕ ИНСТРУМЕНТЫ ЦИФРОВОГО МАРКЕТИНГА 598

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİ 602

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ..... 604

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN ƏDƏBİYYATININ TARİXİNDƏ 605

AZƏRBAYCAN ORDU QURUCULUĞU- HEYDƏR ƏLIYEV DÖVRÜ ... 607

HEYDƏR ƏLİYEV AZƏRBAYCANÇILIĞIN SİYASİ MƏKTƏBİDİR..... 611

ŞUŞA BƏYANNAMƏSİ AZƏRBAYCAN-TÜRKİYƏ DOSTLUĞUNUN TƏMİNATIDIR!..... 613

HEYDAR ALIYEV'S ROLE IN PROTECTING ISLAMIC VALUES IN AZERBAIJAN..... 614

IDEOLOGICAL CHALLENGES AND NATIOONAL UNITY IN AZERBAIJAN: UNVELLING THE THREATS OF PAN-IRANISM, "GREAT ARMENIA AND SECTARIANISM" 616

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN SƏHİYYƏSİ 619

ALBANİAN TEMPLES..... 621

MULTICULTURALISM AND IMMIGRATION PROCESSES: VIEW FROM AZERBAIJAN..... 623

MÜASİR DÖVRDƏ TƏHSİLİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR .. 625

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DİLİNİN MAHİR BİLİCİSİDİR..... 626

XXI ƏSRDƏ DİLİMİZLƏ BAĞLI TƏDBİRLƏR..... 628

MANAGING FACIAL AGING USING A FEATURE-GUIDED CONDITIONAL GENERATIVE ADVERSIAL NETWORK..... 632

PERFORMANCE ASSESSMENT OF KEY DEEP LEARNING IMAGE DETECTION ALGORITHMS 638

IMAGE DESCRIPTION WITH BETTER NEURAL IMAGE CAPTION GENERATOR WITH EVALUATION METRICS 643

PACKAGINS 649

BIOINFORMATICS: ILLUMINATING THE GENETIC CODE 650

THE INFLUENCE OF OIL AND GAS PRICES ON GLOBAL ECONOMY AND POLITICS 653

PREVENTING THE USE OF EXPIRED FOOD PRODUCTS IN THE CANTEENS OF EDUCATIONAL ESTABLISHMENTS VIA COMPUTER PROGRAM APPLICATION 655

GREAT LEADER HEYDAR ALIYEV AND AZERBAIJANI EDUCATION 657

UNDERSTANDING AND COMBATING CYBERCRIME: AN INTERDISCIPLINARY APPROACH 658

VOICE CLONING USING ARTIFICIAL INTELLIGENCE 660

DEVELOPMENT PROSPECTIVITY OF MINERAL DEPOSITS IN AZERBAIJAN 661

THE SUCCESSFUL OIL STRATEGY OF THE GREAT LEADER HEYDAR ALIYEV 663

THE DEVOLEPMENT OF UI/UX DESIGN IN AZERBAIJAN 665

THE FUTURE OF THE PETROLEUM INDUSTRY 667

EXPLORER WAVE TRANSMITTER AS THE MOST POWERFUL RADIO 669

BRIDGING THE GAP BETWEEN ARTIFICIAL INTELLIGENCE AND HUMAN NEURONAL MEMORY DEVICES 671

GTA 6 AS THE MOST ANTICIPATED GAME IN THE WORLD 673

THE WAYS OF ENVİRONMENT PROTECTİON 674

H. ALIYEV'S GREAT ROLE IN THE DEVELOPMENT OF AZERBAIJAN OIL INDUSTRY 676

DAYS, PEOPLE AND LIFE 677

IOT TECHNOLOGIES 680
FUTURE OF THE ROBOTICS 683
NANOROBOTS: PIONEERING A NEW FRONTIER IN MEDICINE 685
REVEALING THE BLACK MAGIC OF INTEGRATED..... 686
CIRCUIT PRODUCTION..... 686
SAFEGUARDING YOUR DIGITAL LIFE..... 688
PROS AND CONS OF AUTOMATED PROCESSES 689
SECURITY METHODS IN INFORMATION TRANSMISSION 691
GREEN ENERGY 693
THE ROLE OF HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF THE AZERBAIJANI LANGUAGE 694
ARTIFICIAL INTELLIGENCE AND ITS ETHICAL DILEMMAS. 695
AI DANGER, MYTH OR REALITY 697
ARTIFICIAL INTELLIGENCE AND SECURITY: BALANCING PROGRES AND TREATS 699
EFFECT OF INTERNET ON PEOPLE..... 701
ROBOTICS CYBER SECURITY..... 703
DIGITAL MARKETING: NAVIGATING THE MODERN LANDSCAPE ... 705
“THE ROLE OF DRONES IN FUTURE LAST-MILE DELIVERIES”..... 704
GREEN LOGISTICS: EVALUATING THE ENVIRONMENTAL IMPACT OF TRANSPORTATION MODES 706
"ADVANCED VISION SYSTEMS: DEEP LEARNING APPROACHES FOR TRANSPARENT OBJECT RECOGNITION." 707

“GEOLOGİYA VƏ GEOFİZİKA” BÖLMƏSİ

ИЗУЧЕНИЕ ЛИТОФАЦИАЛЬНОЙ ИЗМЕНЧИВОСТИ ОТЛОЖЕНИЙ ПРОДУКТИВНОЙ ТОЛЩИ ПО ДАННЫМ ГИС (НА ПРИМЕРЕ МЕСТОРОЖДЕНИЯ ЛОКБАТАН-ПУТА-ГУШХАНА)

Халилова Л.Н., Рустамов М.И., Рустамов Ф.В.

lala_khalilova@mail.ru, rustamovmurad2503@mail.ru,

faridrustamovv@gmail.com

Аннотация: Рассматриваются результаты применения методики Муромцева с целью восстановления фациальных условий и обстановок осадконакопления отложений продуктивной толщи месторождения Локбатан-Пута-Гушхана по данным ГИС. Установлено, что нефтегазоносные коллектора приурочены преимущественно к фациям устьевых и вдольбереговых баров, разрывных течений, а также речных русел и пойм.

Ключевые слова: условия осадконакопления, продуктивная толща, коллектор, ловушки неантиклинального типа, каротажные кривые, фация.

Введение: Уже многие годы на территории Азербайджана разрабатываются месторождения нефти и газа. В связи с этим сильно уменьшился фонд таких структур как антиклинальные поднятия. На этом фоне возрос интерес к поискам ловушек неантиклинального типа, таких как литологические и стратиграфические. При выявлении и прогнозе литологических ловушек нефти и газа важное значение имеет реконструкция условий седиментации, изучение литофациальной изменчивости отложений [2]. Литофациальный анализ позволяет установить обстановки осадконакопления, которые являются благоприятными для формирования углеводородов.

Основной целью исследовательской работы было изучение литофациальных особенностей отложений $VIII$ (аналог НКП свиты), VII (аналог НКГ свиты), $VIIa$ и $VII1$ (аналог свиты перерыва), $VI-$

$VII3, VI - VII2, VI - VII1, VI$ и V (аналог балаханской свиты) горизонтов продуктивной толщи (ПТ). В процессе исследований были использованы данные ГИС скважины Пута-800 месторождения Локбатан-Пута-Гушхана (ЛПГ).

Месторождение Локбатан-Пута-Гушхана располагается в 15-20 км от Баку на юго-западе Абшеронского полуострова. В результате проведенных на структурах Локбатан, Пута и Гушхана разведочных работ, преимущественно в горизонтах и свитах верхнего и нижнего отдела ПТ были обнаружены и введены в промышленную разработку залежи нефти и газа. Нефтегазоносные горизонты месторождения на сегоднящний день находятся на завершающем этапе разработки.

В геологическое строении месторождения Локбатан-Пута-Гушхана участвуют отложения ПТ и четвертичные отложения. Месторождение Локбатан-Пута-Гушхана является частью Гарахэйбат-Локбатанской складчатой линии и представляет собой вытянутую брахиантиклиналь.

Нефтегазоносность месторождения в нижнем отделе ПТ связана с НКГ, НКП и ПК свитами, а в верхнем отделе с балаханской свитой. Установлена нефтегазоносность свиты перерыва.

Методика и результаты исследования: В данной работе прежде всего вдоль изучаемого разреза скважины Пута-800 были выделены коллектора (рис. 1, рис. 2). Затем был установлен тип их насыщения (водоносные или нефтегазоносные). На следующем этапе с использованием методики каротажных фаций (метод Муромцева) были определены обстановки, в которых происходил процесс накопления осадков в пределах вышеуказанных горизонтов (рис. 1, рис. 2) [1]. Суть методики заключалась в сравнении форм



Рис. 1. Результаты интерпретации в скважине Пута-800 (VIIa-VIb горизонты)



Рис. 2. Результаты интерпретации в скважине Пута-800 (VIII-VII горизонты)

аномалий кривых потенциалов самопроизвольной поляризации (кривые ПС) с реальными электрометрическими моделями фаций с целью установления присущности отложений изучаемых свит и горизонтов той или иной фации. Далее было проанализировано распределение различных типов фаций в разрезе скважины Пута-800 (рис. 3). Был также проведен анализ коллекторских свойств отложений.

Рис. 

3.

Распределение фаций по разрезу скважины Пута-800

Анализ разреза скважины Пута-800 показал, что в изучаемом интервале отложения, расположенные в подошвенной части $VIII$ горизонта, а также отложения $VIIa$ горизонта и $VI-VII3$ горизонтов являются нефтегазоносными. Отложения $VII, VII1, VI-VII2, VI-VII1, VIb, VI, V$ горизонтов и кровельной части $VIII$ горизонта являются водоносными.

В результате проведенных исследований с использованием методики каротажных фаций в интересующих нас горизонтах было обнаружено, что $VIII$ горизонт представлен фациями устьевых баров, забаровых лагун и трансгрессивных вдольбереговых баров (прибрежно-морской комплекс фаций), сформировавшимися в морской обстановке осадконакопления Нефтегазоносные коллектора встречаются в фациях устьевых и вдольбереговых баров. $VII, VIIa$ и $VII1$ горизонты представлены отложениями фаций русел рек и речных пойм (аллювиальный комплекс фаций), пляжей и вдольбереговых баров (прибрежно-морской комплекс фаций), сформировавшимися в континентальной и морской обстановках осадконакопления. Нефтегазоносные коллектора приурочены

преимущественно к фациям речных русел и пойм.

Анализ построенной диаграммы распределения выявленных в изучаемом интервале разреза скважины Пута-800 групп фаций показал, что максимальная мощность (268 м) соответсвует группе фаций вдольбереговых баров, а минимальная (21 м) группе фаций забаровых лагун.

Заключение: Основная доля фаций в разрезе скважины Пута-800 приходится на фации вдольбереговых баров и составляет 38%. 43,75% от всех выделенных (16) нефтегазоносных коллекторов приходится на долю фаций разрывных течений. Нефтегазоносные коллектора приурочены преимущественно к фациям устьевых и вдольбереговых баров, разрывных течений, а также речных русел и пойм.

СПИСОК ЛИТЕРАТУРЫ

1. Муромцев В.С. Электрометрическая геология песчаных тел - литологических ловушек нефти и газа. 260 с. Л.: Недра, 1984.
2. Халилова Л.Н., Керимова К.А. Фациальный анализ отложений продуктивной толщи по данным геофизических исследований скважин на примере месторождения Пираллахи адасы. Нефтяное Хозяйство. №5. Выпуск 04. С. 14-18. 2022.

ÇOVDAR QIZIL MƏDƏNİNDƏ TEXNOLOJİ PROSSESLƏRİN SƏMƏRƏLİ TƏŞKİLİ

Əfəndiyeva Z.C. Davudov Ü.İ.

zarifa.afandiyeva@asoiu.edu.az ; umuddavudov305@gmail.com

Xülasə: Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı üçün faydalı qazıntıların səmərəli şəkildə mənimsənilməsi çox böyük əhəmiyyət kəsb edir. İqtisadiyyatın intensiv inkişafı mineral ehtiyatların mənimsənilməsi sahəsində müasir texnologiyanın tələbinə uyğun yeni tədqiqatların aparılmasına zəmin yaradır.

Əksər sənaye sahələrinin mineral xammalla təminatı ölkənin dağ-mədən sənayesindən asılıdır, çünki bu sahələrin mineral xammal bazası məhz dağ-mədən sənayesidir.

Azərbaycanda kifayət qədər faydalı qazıntı yataqları vardır və hazırda onların bir çoxu iqtisadi səmərə ilə istismar olunur. Hazırda istismar olunan qızıl yataqlarından biri Çovdar qızıl yatağıdır. Çovdar qızıl yatağı 2012-ci ildən açıq mədən üsulu ilə istismar olunur.

Çovdar qızıl yatağının işlənməsi 2012÷2015-ci illər ərzində *Azerbaijan International Mineral Resources Operating Company* tərəfindən, 2015-ci ildən isə AzerGold QSC tərəfindən mərhələli şəkildə həyata keçirilir. Mədəndə texnoloji prosseslər dedikdə, faydalı qazıntının çıxarılması üçün müəyyən texnika, texnologiyanın tətbiqi ilə aparılan prosseslər nəzərdə tutulur. Çovdar qızıl mədənində texnoloji prosseslər mədənçiliyin müasir metodları və yüksək texniki təhlükəsizlik tələblərinə cavab verən texnika və texnologiya ilə həyata keçirilir.

Kiçik Qafqazın səmərəsi adlandırılan Çovdar qızıl yatağı qısa bir müddətdə istismarının başlanğıcından ölkə iqtisadiyyatına öz töhvəsini vermiş və bu prosses davam etməkdədir.

Ölkəmizdə dağ-mədən sahəsinin maddi-texniki və elektron bazasının zənginləşdirilməsi, yüksək keyfiyyətli faydalı qazıntı yataqlarının kəşfi və ixtisaslı kadrların hazırlanması mədən sənayesinin tərəqqisinə yol açacaqdır.

Açar sözlər: Çovdar yatağı, texnoloji prosseslər, qazıma-partlayış, xırdalanma, filizin nəqli, emal sahəsi, topa aşındırma, konsentrat.

Giriş: Dəniz səviyyəsindən 1500 m yüksəklikdə yerləşən Çovdar qızıl yatağı açılış əmsalı, yatağın relyefi, yatağın dağ-geoloji və mədən-texniki xüsusiyyətləri və iqtisadi hesablamaları nəzərə alınaraq ənənəvi hesab olunan açıq mədən üsulu ilə istismar olunur (şəkil 1).

2022- ci ildə yatağın yeraltı üsulla istismarına keçilməsi üçün yenidən tədqiqat işləri və araşdırmalar aparıldı. Tədqiqatlar nəticəsində yatağın açıq üsulla istismarının məqsədəuyğun olduğu müəyyən edildi.

Çovdar qızıl mədənində aşağıdakı texnoloji prosseslər həyata keçirilir:

- süxur kütləsinin qoparılması (xırdalanması);
- təkrar xırdalanma (lazım gələrsə);
- çıxarıb-yüklənmə işləri;
- filizin və ya boş süxurların daşınması;
- filizin anbarlarda yerləşdirilməsi;
- filizin emalı və zənginləşdirilməsi.

Süxur kütləsinin qoparılması texnologiyası. Çovdar yatağının açıq üsulla işlənməsi zamanı ən mühüm texnoloji prosseslərdən biri filizin və ya boş süxurların kütlədən qoparılmasıdır. Çovdar yatağını təşkil edən süxurların bərklik əmsalı f=15÷16 olduğu üçün süxur kütləsinin qoparılması qazıma-partlayış işləri ilə həyata keçirilir.

Çovdar yatağında qazıma işləri filiz bloklarında Epiroc T-35 və Poverroc T-35 dəzgahları ilə tullantı bloklarında isə Atlas Copco L-6, L-8, ilə müfaviq olaraq 2,5x3 və 4x4,5 ölçülü qazılmış quyular şəbəkəsi kifayət qədər müsbət

nəticə vermişdir. Blokun başlanğıcında pillənin uzanma istiqamətində 1 metr ara məsafəsi ilə 89 mm diametrdə kontur kəsmə quyuları (perspektiv) qazılır ki bu da kəsimi təmin edir.



Şəkil 1. Çovdar qızıl yatağının mərkəzi hissəsinin geoloji xəritəsi

1- Müasir çöküntülər; 2-Orta Yura (Üst Boyas), riolitlər, riodasitlər və onların tufları və tufobrekçiyaları; 3-Orta Yura (Alt Boyas), andezitlər, traxiandezitlər, diabaz porfirlər; 4- qızıllı törəmə kvarsitlər; 5- barit damarları; 6-qırılmalar; 7-oksidləşmiş sonanın dabanı; 8-quyular; 9- kəsiliş xətti

Partlayışda quyu atımlarından istifadə olunur. Quyulara sonluq naqilə (Ms Excel) birləşdirilən Orica istehsalı dinamitlər endirildikdən sonra ana maddə olaraq quyu həcminin 2/3 hissəsi dolana qədər ANFO əlavə olunur.

Sulu quyular üçün isə emulsiya partlayıcısı olan suyadavamlı Geonitro istifadə olunur. Quyular inert materialla doldurulduqdan sonra sonluq naqillər sahə naqilləri (Htd) ilə ardıcıl şəkildə birləşdirilir. Şəbəkə magistral naqillə (Zilter) elektrik impuls verici detonatora birləşdirilərək ani ləngidilməylə

partladılır. Bu materiallarla və texnologiya ilə aparılan partlayışın keyfiyyəti hazırki tələblərə uyğundur.

Təkrar xırdalanma. Partlayışdan sonra iri süxur tikələrinin əmələ gəlməsi mədənlərdə qaçınılmazdır ki, bu da çıxarıb-yükləmə və nəqletmə işlərinə mane olur. Bu problemi aradan qaldırmaq üçün iri tikələr müxtəlif metodlarla təkrar xırdalanmaya məruz qalır. Yaraqda yaranmış qeyri-qabarit tikələr mexaniki üsulla, yəni rokson (HMK-300, 370) texnikası köməyi ilə təkrar xırdalanaraq növbəti texnoloji prosses üçün hazır vəziyyətə gətirilir.

Çıxarıb-yükləmə və nəqletm işləri. Massivdən qoparılmış süxur kütləsinin yüklənməsi və müvafiq anbaralara nəql etdirilməsi növbəti əsas texnoloji prosseslərdir. Qoparılan süxur kütləsi dibdən çalovunun tutumu 2,7-3 m^3 olan CAT, VOLVO və HİDROMEK ekskovatorlarla çıxarılıb banlarının tutumu 30-35 ton olan ASTRA, HOWO və S. markalı nəqliyyat avadanlığına yüklənərək daşınır. Filiz kütləsinin keyfiyyət göstəriciləri nəzərə alınaraq filiz anbarlarına, tullantılar isə tullantıxanada yerləşdirilir. Açılış işləri zamanı götürülmüş münbit torpaq qatı ayrıca yerləşdirilir və münbitliyinin itməməsi məqsədiylə vaxtaşırı çevrilir.

Filizin emalı sahəsi (doğrayıcı sahə). Keyfiyyətinə görə anbarlaşdırılan filiz növbəti mərhələnin gedişi üçün emal sahəsinə, yəni doğrayıcı sahəyə nəql olunur. Burada filiz ilk olaraq çənəli doğrayıcıdan keçir və konveyerlər vasitəsilə ilkin ələməyə və növbəti xırdalanmaya gedir.

Doğrayıcı sahədə filiz lazım olan ölçüyə qədər 4 mərhələ xırdalanma və 3 mərhələ ələnmədən keçir. Xırdalanmada GURSAN-950, GURSAN-750, CH-440 markalı doğrayıcılardan istifadə olunur. Burada filizin buraxıla bilən ölçüsü 8 mm və ondan aşağı olur.

Artıq xırdalanmış filiz emalının son mərhələsi olan aqlomerasiya prossesinə gedir. Aqlomeratorda filizə 4 kq sement, 2 kq əhəng (qələvilikdən asılı olaraq) və filizin islanma qabiliyyətindən asılı olaraq təxminən 10 kub sianid

məhlulu verilir və qarışdırılır. Sonra aqlomerasiya olunan, emalı yekunlaşmış filiz çəkili konveyerlərdən keçərək topa aşındırma sahəsinə nəql olunur. Aşındırma sahəsinə filiz magistral konveyerlərlə çatdırılır və sahədə artıq filizin yerləşdirilməsi mobil konveyerlərlə həyata keçirilir.

Filizin aşındırılması və zənginləşdirilməsi prosessi. Aşındırma sahəsi xüsusi texnologiya ilə yaradılır. İlk növbədə sahəyə gil qatı tökülərək preslənir ardından cisel və membran sərilir, membranın üzərinə 10-15 sm qum tökülür, kollektor borular düzüldükdən sonra çınqıl tökülür və üzərinə yarım metr qalınlığında filiz tökülərək əkilir. Bu ardıcıllıqla sahə pilləvari şəkildə qurulur. Bu sahədən süzülən qızıllı sianid məhlulu drenaj olunaraq doymuş hovuza nasoslar vasitəsilə vurulur. Doymuş hovuzdan son emal mərhələsinə məhlul verildikcə digər doymamış hovuzdan da aşındırma sahədinə sianid məhlulu verilir ki prosses zəncirvari olaraq davam edir. Zavoddan qızılı ayrılmış sianid yenidən doymamış hovuza vurulur. Zavodda məhlul adsorbsiya, desorbsiya, regenerasiya, yuma-press filter-qurutma və əritmə prosseslərindən keçirilərək konsentrat alınır. 21-25 kq-lıq konsentrat külçələrinin 65-70 %-ni qızıl, 30-35%-ni isə gümüş və digər elementlər təşkil edir.

Qeyd etmək lazımdır ki, bu prosseslərlə yanaşı düzgün istismarın aparılması, itgilərin azaldılması və hasilatın artırılması məqsədilə quyulardan çıxan qazıma şlamından nümunələr götürülür və laboratoriyada müxtəlif metodlarla analiz olunur.

Çovdar qızıl mədənində artıq mədən işləri xeyli irəliləmiş və sulfid fazasından hasilat işlərinə başlanılmışdır. Çovdar mədənindən çıxarılan oksidli filizlərin zənginləşdirilməsi üçün sianid məhlulu və topa aşındırma üsulları təklif olunmuşdur. Sulfidli filizlərin emalının sianid məhlulu ilə aparılması mümkün deyildir, çünki sianid məhlulu sülfidli filizin tərkibindəki komponentləri tam əridə bilmir və ətraf mühit üçün təhlükə yaradır. Bütün bunları nəzərə alaraq

zənginləşmə üsulu kimi çən aşındırma üsulu təklif edilmişdir. Hazırda bu məqsədlə Çovdar mədənində yeni emal zavodunun inşaasına başlanılmışdır.

Çən aşındırmanın üstün cəhəti süzülmənin 24 saat ərzində baş tutmasıdır ki, bu da zaman baxımdan əlverişlidir, lakin bu üsulda filiz kütləsinin həcmi məhduddur. Buna baxmayaraq, yenə də bu üsul rentabelli hesab olunur, çünki məhsuldarlıq yüksək, itki minimum ətraf mühitə dəyən zərər də minimuma endirilir. Çovdar qızıl yatağının süzülmüş sahələrindəki filiz kütləsində komponentlərin 25-30%-ə yaxını əriməyərək kütlədə qalmaqdadır ki, bu komponentlərin əldə olunması üçün sahələrdəki filizin də yenidən çən aşındırmadan keçirilməsi məqsədə uyğun hesab edilir. Səbəb çən aşındırmada temperatur verməyin mümkünlüyüdür. Topa aşındırmanın isə açıq sahədə həyata keçirilməsindən dolayı orada temperatur tənzimlənməsi mümkün olmur.

NƏTİCƏ

Çovdar qızıl mədənində hasilat yönümlü aparılan texnoloji prosseslərin texniki təhlükəsizlik, mədən-texnoloji və iqtisadi baxımdan əlaqəsi düzgün qurulmuş və bunun nəticəsində yatağın işlənməsinə qoyulan tələblər tam ödənilmişdir.

Mədən mühəndislərinin mütamadi tədqiqatı nəticəsində başlanğıc mərhələdən bəri mədəndə daha səmərəli komplekslər və metodlar təklif edilmişdir. Bunun nəticəsində mədənin məhsuldarlığı artmışdır və ətraf mühitin mühafizəsi məsələsi də ön plana çəkilmişdir.

Hazırda ölkəmizdə mədən sənayesi öz intibah dövrünü yaşayır. Bu sahənin inkişafı üçün ölkə ərazisində kifayət qədər mineral xammal ehtiyyatı mövcuddur. Mədən işlərinin həcminin artırılması məqsədilə davamlı şəkildə geoloji kəşfiyyat işləri və hasilat işləri aparılmaqdadır ki, bu da mədən sənayesinin inkişafına öz tövhəsini verəcəkdir.

ƏDƏBIYYAT

1. Əhmədov Ə.Z və b. Çovdar qızıl filizlərində qızılın çıxarılma texnoloji sxeminin tərtibi. ETİ üzrə yekun hesabat, Bakı, 2005. MXETİ-nin fondu
2. Аренс В.Ж. Физико-химическая геотехнология. МГГУ, М. 2001. 656 с.
3. Анистратов Б Ю., Анистратов К. Ю. Технология открытых горных работ. Учебное пособие. М. 2008. 471с.
4. Бурмистров К.В., Заляднов В.Ю. Процессы открытых горных работ .Учебное пособие. *И*здательство Магнитогорского гос. тех. университета, Магнитогорск. 2014. 222с
5. Башкуев Э.Б., Бейсебаев А.М., Богацкий Б.Ф. Проектирование взрывных работ в промышленности. – 2 изд. перераб. и доп. - М.: Недра, 1983.
6. Велиев Г., Ахмедов А. Структура и золоторудные ассоциации Човдарского месторождения. Матер-лы международ. Научно-практич. Конференции. Баку. 2009г.
7. Ермолаев В.А. Технология добычи полезных ископаемых открытым способом. Учебное пособие. КузГТУ, Кемерово.2012. - 70 с.
8. Кулешов Н. А.Технология открытых горных работ.Учебник Недра, М. 2012. 400 с.
9. Мусаев Ш.Д., Рамазанов В.Г., Гусейнов Ф.Г. Геологичекое строение иструктурные особенности формирование Човдарского рудного поля. НАН, Известия«Науки о земле», №4, 2005.
10. Томаков П.И., Наумов И.К. Технология, механизация и организация открытых горных работ. М.: Недра, 1992.
11. Ткачук К.Н., Ткачук К.К., Тверда О. Я. Управление разрушением горных пород взрывом на карьерах. Моногр. — К.: Основа, 2015.

12. Chovdar deposit – AzerGold CJSC, 2017.
13. Howard L. Hartman, Jan M. Mutmansky Introductory Mining Engineering Technology & Engineering . 2002. 592 p
14. Robert Stevens Mineral Exploration and Mining Essentials. Institute of Technology of British Columbia. 2011. p.322

3D SEYSMİK KƏŞFİYYATLA ZƏRDAB-ŞIXBAĞI GEOLOJİ STRUKTURUNUN DƏQİQLƏŞDİRİLMƏSİ

Tağıyev Ağalar Tahir oğlu

agalar.tagiyev890@gmail.com

Xülasə: Məqalə Orta Kür çökəkliyinin Zərdob, Şıxbağı və Qışlaq ərazilərinin seysmik tədqiqatlarına həsr edilmişdir. Muradxanlı yatağının kəşfindən sonra ona bitişik ərazilərin geoloq və geofiziklərin diqqətini cəlb etdiyi vurğulanır. Aparılan seysmik və qazma işləri müsbət nəticə verməd-iyin-dən bu ərazinin daha ətraflı öyrənilməsi üçün burada 3D seysmik kəşfiyyat işlərinin aparılması qərara alınıb. Tədqiqat sahəsinin bölməsini təşkil edən çöküntülərin tədqiqi tarixi, stratiqrafiyası və litologiyası, tektonikası haqqında qısa məlumat verilir. Qeyd olunur ki, tədqiqat iki istiqamətdə aparılıb: Strukturun dəqiqləşdirilməsi, çöküntünün kənara çəkilmə sərhədlərinin müəyyən edilməsi, yəni. kinematik məsələnin həlli və Zərdab antiklinalının tağ hissəsində aşkar edilmiş eroziya-akkumulyasiya tələsinin təfərrüatlı strukturunun aydınlaşdırılması. Tədqiqatın məqsədi isə Üst Təbaşir, Orta Eosen və Maykop lay çöküntülərinin müfəssəl strukturunun tədqiqi, Zərdob qırışığının strukturunun aydınlaşdırılmasıdır.

Açar sözlər: 2D və 3D seysmik, effektiv sürət, ümumi dərinlik nöqtəsinin sürəti, zaman artımları, seysmik zaman kəsikləri.

Giriş: Azərbaycanda perspektivli neft və qaz strukturları əsasən Aşağı Kür, Cənubi Xəzər və Qobustan-Abşeron çökəkliklərində yerləşir. Bu rayonlarda karbohidrogen tələləri antiklinal qırışıqlarla birləşir və qeyri-antiklinal tələlərin əmələ gəlməsi üçün əlverişli paleogeoloji şərait yox idi. Belə əlverişli paleogeoloji şərait məhz Orta Kür çökəkliyində (Zərdab-Şıxbağı tədqiqat sahəsi bu çökəklikdə yerləşir) mövcud olmuş və son onilliklərdə burada müxtəlif morfogenetik xarakterli çoxsaylı qeyri-antiklinal tələlər və bəzi əlaqəli neft

yataqları aşkar edilmişdir, lakin həlli yolları Azərbaycanda qeyri-antiklinal tələlərin problemlərini qənaətbəxş hesab etmək olmaz.

Zərdab strukturu dağların cənubunda, cənub-şərqində yerləşir. Ucar, Muradxanlı yatağından şimal-qərb (şək. 1). Bu struktur 1960-cı ildə seysmik kəşfiyyat (tək profilləşdirmə) ilə müəyyən edilmiş və 1970-ci ildə Eosen-Yuxarı Təbaşir çöküntülərində dərin kəşfiyyat qazma işlərinə hazırlanmışdır. 1972-ci ildə qazılmış 1 nömrəli quyuda 4608 m dərinliyə çatmış və yuxarı təbaşir dövrünün 146 m qalınlığında vulkanik süxurlar və 106 m qalınlığında karbonat-çökmə çöküntüləri, həmçinin gil-mergel yataqları aşkar edilmişdir. Eosen qalınlığı 304 m, quru olduğu ortaya çıxdı.

Şəkil 1. Zərdab strukturu

Bu strukturda illər ərzində 12, 14, 6, 8, 9, 4, №-li bu strukturda kifayət qədər quyular qazılıb lakin heç bir müsbət nəticə əldə edilməmişdir. Burada, strukturun tağlı hissəsində 1980-ci ildə qazılmış yeganə 3 nömrəli quyuda Eosen çöküntülərin-dən 430 m ^{3} /sutka debiti ilə neft axımları hasil edilmiş , lakin lay modeli haqqında yanlış fikirlər ucbatından hər şey nəticədə nəticələnmişdir. Zərdab qalxmasının perspektivləri çay paleokanalını dolduran eosen klastogen süxurları ilə əlaqələn-dirilir.

Tədqiqat ərazisini əhatə edən bölgənin bölməsini təşkil edən süxurların litoloji və stratiqrafik xüsusiyyətləri üzərində qısaca dayanaq. Dərin və ultra-dərin quyuların məlumatlarına əsasən, Orta Kür çökəkliyinin bölməsinə mezzo-zoy

(yura və təbaşir), kaynozoy (paleogen, neogen) və antroposen çöküntüləri daxildir (şək. 2).

Rayonun litoloji-stratiqrafik kəsimi, o cümlədən Zərdab-Şıxbağı bir çox ərazilərdə qazılmış çoxsaylı dərin quyularla tədqiq edilmişdir. Sürət modeli, eləcə də quyuya yaxın fəzada dalğa sahəsi regionda bir çox quyularda aparılan seysmik karotaj (SS) və şaquli seysmik profilləşdirmə (ŞSP) ilə tədqiq edilmişdir.



Şəkil 2. Xətt boyu litoloji-stratiqrafik kəsiklərin müqayisəsi
Ağcabədi-Zərdab-Sorsor (F.M.Hacıyev, SOCAR-ın Geologiya və Geofizika İdarəsinin Kəşfiyyat Geofizikası İdarəsi)

Zərdab, Şıxbağı və Şərqi Şıxbağı qırışıqları Qaraca-Qızılağac qalxma zonasına aiddir. Orta Kür çökəkliyinin ən böyük geostruktur elementi olan bu basdırılmış hövzələrarası qalxma zonası şimal-qərb-cənub-şərq istiqamətində təxminən 300

km məsafəyə uzanır. Burada Orta Kür çökəkliyi üçün xarakterik olan çoxsaylı yerli qalxmalar aşkar edilmişdir ki, onların özəyi öz karbonat yataqları ilə örtülmüş Üst Təbaşir dövrünün vulkanik süxurlarından ibarətdir. Bu zonanın Qaracalı-Saatlı qurşağına paralel olaraq şimal-qərbdə başqa qurşaqlar da vardır: Qarabat-Çöllü, Diləmərx-Xəlfəli (uzunluğu 115 km), 16 km uzunluğunda qısa qurşaq, 3 yüksəlməni - Karğalı, Bəyimli, Qışlaq və nəhayət, 50 km məsafədə uzanan Zərdab-Qaralı qurşağını birləşdirən. Zərdab-Qaralı qurşağı aşağıdakı yüksəlmələri birləşdirir: Zərdab, Şıxbağı, Şərqi Şıxba-ğı,Muradxanlı, Həsənli və Qaralı (şək. 3).



Şəkil 3. Orta Eosen zirvələri ilə məhdudlaşan seysmik horizontun sxematik struktur xəritəsi (Zərdob sahəsi, Şıxbağı , Şərqi Şıxbağı)

Problemin formalaşdırılması: Son illərdə ABŞ-da qeyri-antiklinal tələlərin bütün karbohidrogen hasilatının təxminən 52%-ni təşkil etməsinə baxmayaraq, bu cür yataqların kəşfi hələ də sistematik xarakter almayıb. Zərdab antiklinalının tağlı hissəsində aşkar edilmiş eroziya-akkumulyasiya tələsinin

müfəssəl strukturunun aydınlaşdırılması böyük praktiki maraq doğurur. Qeyd edək ki, XX əsrin ikinci yarısında Zərdabun Muradxanlı, Cəfərli, Tərsdəllər kimi qonşu ərazilərində neft yataqları aşkar edilib. Bütün bunlar təbii ki, Zərdab strukturunun strukturunun öyrənilməsinə diqqəti artırdı. Göründüyü kimi, tədqiq olunan ərazinin neft-qaz potensialının perspektivləri Üst Təbaşir, Orta Eosen və Maykop lay layları ilə bağlıdır, ona görə də bu yataqların müfəssəl strukturunun aydınlaşdırılmasına əsas diqqət yetirilir. Hədəf yataqlarında (Maykop lay çöküntüləri istisna olmaqla) qıvrımların amplitudaları kifayət qədər kiçikdir və bu strukturların strukturunu çətinləşdirən tektonik pozğunluqların amplitudaları da kiçikdir, buna görə də hədəf yataqlarla əlaqəli seysmik horizontların ehtiyatlı korrelyasiyası və disjunktiv dislokasiyaların kinematik və dinamik əlamətlərinin öyrənilməsi əsas tədqiqat məsələlərindəndir.

Yuxarı Təbaşir, Eosen və Maykop çöküntüləri əsasında Zərdab, Şıxbağı və Qışlaq strukturlarının baş vermə elementləri və geoloji strukturları dəqiqləşdirilmişdir. İlk dəfə olaraq tədqiq olunan ərazinin geoloji quruluşu ilə mürəkkəbləşən müxtəlif istiqamətli, rütbəli və amplitudalı qırılmalar müəyyən edilmiş və izlənmişdir. Təbii ki, bu iğtişaşlar ərazinin kompleks strukturunun və karbohidrogen yataqlarının formalaşmasında böyük rol oynayır.

ƏDƏBİYYAT SİYAHISI

1. Ахмедов Т.Р. О геологической эффективности сейсморазведки при изучении не антиклинальных ловушек Азербайджана разного типа // Известия Уральского государственного горного университета. Екатеринбург. 2016. Вып. 3 (43). С. 41-45.

2. Ахмедов Т.Р. Прогнозирование нефтегазоносности на основе нового подхода к сейсмической инверсии // Известия Уральского государственного горного университета. Екатеринбург. 2017. Вып. 1 (45). С. 27-31.

3. Рудаков А.В, Шумский Б.В. Сейсморазведка 3D в лиманно-плавневых зонах // Геология и геофизика. 2016. Февраль. С. 62-66.

4. Мосякин А.Ю. Особенности сейсморазведки в лиманно-плавневой зоне Краснодарского края // Приборы и системы разведочной геофизики. 2005. Т. 11. № 1. С. 20-22.

5. Мусагалиев М.З. Эффективность сейсморазведки 3D при поисках залежей нефти и газа // Известия НАН РК. Серия геологическая. 2008. № 1. С. 47-53.

6. Ализаде А.А. и др. Продуктивная толща Азербайджана. М.: Недра, 2018. Т. I, Т. II.

7. Муртазин Д.Г., Сиражиев А.А. Кластеринг амплитудно-частотных спектров – новый подход в решении сложных геологогеофизических задач // Геофизика. 2017. № 2. С. 37-45.

8. Урупов А.К. Основы трехмерной сейсморазведки. М.: Изд-во «Нефть и газ» РГУ нефти и газа им. И.М.Губкина, 2004. 565 с.

9. Dragoset W., Barr F. J. Ocean-bottom cable dual-sensor scaling // Soc. Expl. Geophys.: 64th Ann. Internat. Mtg. 1994. Pp. 857-860.

10. Мамедов П.З. О причинах быстрого прогибания земной коры в ЮжноКаспийской впадине // Азербайджанское Нефтяное Хозяйство. 2008. №1. С. 9-15.

QURU-DƏNİZ (TRANZİT) KEÇİD ZONALARDA MÜASİR SEYSMİK PLANALMA ÜSULLARI

Səyyarə Əmənova, Hümbət Vəliyev
seyyareeva@gmail.com, humbat2007@mail.ru

Xülasə

Dünyanın digər regionlarında olduğu kimi Azərbaycan ərazisində quru-dəniz tranzid keçid zonalarının dərinlik geoloji quruluşunun zəif öyrənildiyi, neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı işlərinin az həcmdə aparıldığı qeyd edilmişdir. Dünyanın başqa regionlarında tranzit zonada perspektivli neftli-qazlı strukturların öyrənilməsində tədbiq olunan seysmik kəşfiyyat üsullarının metodları və avadanlıqlar nəzərdən keçirilmişdir. Belə zonalarda neft-qaz toplana biləcək xeyli sayda perspektivli strukturların olması ehtimalı vardır. Azərbaycanda Xəzər dənizinin sahil ərazilərində, dayaz sulu tranzit zonalarda ehtimal olunan, neft-qaz toplana biləcək strukturların aşkar olunması istiqamətində müasir seysmik kəşfiyyat üsulları ilə axtarışı və kəşfiyyat işlərini artırmağın məqsədəuyğun olduğu əsaslandırılmışdır.

Dünyanın digər regionlarında olduğu kimi Azərbaycan ərazisində quru-dəniz (tranzit) keçid zonalarının dərinlik geoloji quruluşu, neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı zəif öyrənilmişdir. Belə zonalarda neft-qaz toplana biləcək xeyli sayda perspektivli strukturların olması ehtimalı vardır. Azərbaycanda Xəzər dənizinin sahil ərazilərində, dayaz sulu tranzit zonalarda ehtimal olunan, neft-qaz toplana biləcək strukturların aşkar olunması istiqamətində müasir seysmik kəşfiyyat üsulları ilə axtarış və kəşfiyyat işlərini artırmaq ən **aktual** problemlərdən biridir.

İşin məqsədi. Dünyanın başqa regionlarında aparılan müasir seysmik planalma üsullarını öyrənməklə Azərbaycan ərazisində dayaz sulu tranzit zonalarda müasir seysmik kəşfiyyat üsulları ilə neft-qaz yataqlarının axtarışı və kəşfiyyat işlərini artırmağın vacib olduğunu elmi əsaslandırmaqdır.

Tədqiqatın mərhələləri: 1-Dünyanın digər regionlarında dayaz sulu tranzit zonalarda çoxkanallı müasir seysmik kəşfiyyat üsullarının metodikası haqqında məlumat bazası yaratmaq. 2-Azərbaycanda Xəzər dənizinin sahil ərazilərində, dayaz sulu tranzit zonalarda müasir seysmik kəşfiyyat üsulları ilə axtarışı və kəşfiyyat işlərini artırmaq üçün ərazinin hidroloji-geoloji əlamətlərinin müəyyənləşdirmək. 3-Müasir seysmik kəşfiyyat üsulları ilə axtarış və kəşfiyyat işlərinin aparılmasının metodik əsaslandırılması. 4-Müasir seysmik kəşfiyyat üsullarının tətbiqində ekoloji risklərin nəzərə alınması.

Dünyanın başqa regionlarında tranzit zonalarda aparılan seysmik kəşfiyyat üsullarının reallığı. Qurudan dənizə keçid yerlər **tranzit zona adlanır** və belə sahələrdə seysmik kəşfiyyat üsulu müəyyən çətinliklər olduğundan xeyli fərqli formada reallaşdırılır. Belə sahələrdə seysmik dalğaların oyadılması və qəbul-qeydiyyat sistemlərinin yaradılması xüsusi yanaşma tələb edir. Dəniz tərəfdən dayaz sulu sahilə qədər hava topları ilə (0-10 metr) dalğa oyadan və qəbul mənbəyi xüsusi hazırlanmış gəmilərin yanaşmasını, quru sahil zonasında bataqlıq, qumlu, yarğanlı relyefin olması titrədici qurğuların hərəkətini məhdudlaşdırır. İstifadə olunan seysmik hörüklər, seysmik qəbuledicilər, hidrofonlar, seysmik avadanlıqlar iş şəraitinə uyğun seçilməli və naviqasiya-geodeziya ötürücü vasitələr peyk rabirə sistemi GPS-lərlə əlaqələndirilməlidir (şəkil 1). Metodik yanaşmada məqsəd yer səthinə yaxın və yer səthində seysmik dalğaları oyatmaq, öyrənilməsi nəzərdə tutulan geoloji dərinlikdən sınan, əks olunan və həcmi (uzununa, eninə və s.) seysmik dalğaların qeydiyyatını aparmaqla tranzit zonanın struktur quruluşunu öyrənmək və neft-qaz toplanması ehtimalı olan yataqları aşkar etməkdir.

Azərbacanda tranzit zonalarda aparılan seysmik kəşfiyyat üsullarının perspektivliyi. Azərbacan ərazisində Xəzər dənizinə keçid zonalarda xeyli sayda neft yatağı, neft-qaz yatağı, qaz yatağı, aşkar olunmuş perspektivli və aşkar olunmamış strukturlar var (şəkil 2) və bu strukturların geoloji quruluşu indiyə

kimi dəqiq öyrənilməmişdir. Azərbaycan ərazisində, əsasəndə Abşeron yarımadası tranzit zonalarda neft-qaz toplana biləcək strukturların öyrənilməsinə, ehtiyatının hesablanmasına və gələcəkdə istismarının aparılmasına ehtiyac vardır. Tranzit zonada perspektivli neftli-qazlı strukturların olma ehtimalını nəzərə alaraq belə sahələrdə çoxkanallı müasir seysmik avadanlıqlarla seysmik tədqiqat planalmalarının aparılması çox zəruridir. Tranzit zonalarda çox az həcmdə (1993-2015-ci illərdə Zığ-Hovsan sahəsində, Neftçalada dəniz-quru keçid zonasında, Hamamdağ-Qaradağ dəniz keçid zonası və s.) seysmik tədqiqat işləri aparılmışdır. Son illərdə Zığ-Hövsan sahəsində, seysmik işlər aparılmış (şəkil 3) , dəyərli nəticələr alınmış və perspektivli horizontun struktur xəritəsi qurulmuşdur (şəkil 4).





Şəkil 1. Dəniz-keçid zonasında seysmik kəşfiyyat işləri zamanı atış və qəbul prosesinin sxemi.



a) b) v) q)

Şəkil 2. Azərbacan ərazisində Xəzər dənizinə keçid zonalarda olan neft yataqları a), neft-qaz yataqları b), qaz yataqları v), aşkar olunmuş perspektivli strukturların xəritəsi.



Şəkil 3. Hövsan-Zığ sahəsində aparılmış 3D seysmik planalmanın sxemi (T.R.Əhmədov, 2017).

Tranzit zonalarda istifadəsi nəzərdə tutulan çoxkanallı seysmik avadanlıqlar və işin metodikası. Hazırda dünyanın dayaz sulu keçid-tranzit zonalarında 2D və 3D seysmik planalmalar aparılır. Tədqiqat zamanı ən optimal variantda dalğa mənbəyi və qəbul məntəqələri arası məsafə 50 metr olur. Dənizdən seysmik dalğalarlar hava topları (BOLT 1500LL və BOLT 1900LLX, işçi təzyiq 2000 funt/kv.dyum, 138 kq/sm²) ilə oyadılır. Seysmik dalğalar rəqəmsal stansiyalarda (Seal Fluid Sercel firmasının və başqasıda ola bilər) 8-12 san yazılarla qeydə alınır və 10 km dərinlik intervalında dalğa mənzərəsi öyrənilir. Toplanan seysmik məlumatlar müasir proqramlar əsasında emal və interpretasiya olunur. Alınmış geoloji nəticələr əsasında öyrənilən ərazinin dərinlik kəsilişləri üzrə struktur modelləri qurulur.



Şəkil 4. Hövsan-Zığ sahəsində perspektivli horizontun struktur xəritəsi (T.R.Əhmədov, 2017).

Nəticə

- Dünyanın başqa regionlarında tranzit zonada perspektivli neftli-qazlı strukturların öyrənilməsində tədbiq olunan seysmik kəşfiyyat üsullarının metodları və avadanlıqlar nəzərdən keçirilmişdir. Azərbaycan ərazisində tranzit zonada tətbiq olunacaq seysmik üsullarların müasir texnologiyaları və planalma işlərinin aparılması metodları təklif olunmuşdur.
- Tranzit zonada perspektivli neftli-qazlı strukturların olma ehtimalını nəzərə alaraq son illərdə Zığ-Hövsan sahəsində aparılmış 3D seysmik planalma işlərinin məlumatları araşdırılmış, alınmış dəyərli nəticələr təhlil edilmiş və perspektivli horizontun struktur xəritəsi qurulmuşdur.
- Azərbaycanda Xəzər dənizinin sahil ərazilərində, dayaz sulu tranzit zonalarda olan strukturların aşkar olunması istiqamətində müasir seysmik kəşfiyyat üsulları ilə axtarışı və kəşfiyyat işlərini aparılmasının vacib olduğu qeyd edilmişdir.

ƏDƏBİYYAT

1. Нефтегазоносность ПТ и миоценовых отложений на площади Говсан Азербайджана по сейсмическим данным 3D. «Геология нефти и газа» научно технический журнал, город Москва №4 2017 год. стр. 103-107.

2. Əhmədov T.R., Qiyasov N.Ş., Xəlilova L.N., Əliyeva G.A. Cənub-şərqi Abşeronda seysmik məlumatların dinamik təhlili barədə. X Azərbaycan Beyn. Geofiz. Konf. "Cənubi Xəzər və oxşar çökəkliklərin karbohidrogen potensialının geofiziki tədqiqatlarla qiymətləndirilməsi." (1-3 noyabr 2017-ci il) www.amgk.az www.amgk.az.

3. Ахмедов Т.Р. Динамический анализ данных сейсморазведки 3D на площади Говсан с целью выделения перспективных участков на нефть и газ. «Геоинформатика» научно технический журнал, город Москва №4 2017 г. стр. 13-19

4. Ahmadov T.R,, Dozorov A.V., Zapevalov V.N. Research of Cross-borehole Section Based on Seismic and Well-logging Data using the "AZERI" Software Package to Determine the Well-placement. JOURNAL GEOLOGICAL SOCIETY OF INDIA Vol.91, March 2018, pp.380-382. İmpact Factor = 0.51.

5. Гуленко В.И., Бадиков Н.В., Шумский Б.В. Аппаратура и методика регистрации акустических сигналов морских сейсмических источников // Приборы и системы разведочной геофизики – Ежеквартальное официальное издание Саратовского отделения ЕАГО. 2006, № 3, с.40 – 42.

AZƏRBAYCAN XƏZƏRYANI ÇÖKƏKLİYİNİN PALEOCOĞRAFİYASI

Ç.M.Xəlifəzadə, R.E.Həsənzadə

azerbaijan964@gmail.com

Xülasə

Açar sözlər: Paleocoğrafiya, litostratiqrafiya, süxur, çöküntü

Xəzəryanı çökəkliyin mövcud tektonik quruluşu iki əsas struktur elementlərindən təşkil olunmuşdur. Çökmə qatı, həmçinin Paleozoy təbəqəsi. Çöküntü qatının qalınlığı təxminən, 3500 m ilə 8000 m arasındadır. Xəzəryanı çökəkliyi şərqə doğru Şimal-Abşeron çökəkliyinə keçir burada isə onun çöküntü örtüyünün mövcud olan qalınlığı təxminən, 7 ilə 8 km-ə çatmaqdadır. Seysmik kəşfiyyat, həmçinin dərin kəşfiyyat quyularının materiallarına əsaslanaraq biz hesab edirik ki, Xəzər çökəkliyi çökntü örtüyü aşağıda qeyd olunan struktur təbəqələrdən təşkil olunmuşdur: Yura - Alt Təbaşir, Üst Təbaşir – Paleogen və Miosen-Pliosen-Antropik quruluş mərtəbələr.

Abstract

The current tectonic structure of the Caspian basin is composed of two main structural elements. Sedimentary layer, as well as the Paleozoic layer. The thickness of the sedimentary layer is approximately between 3500 m and 8000 m. The Caspian Basin passes eastward into the Northern Absheron Basin, and here the existing thickness of its sediment cover reaches approximately 7 to 8 km. Based on the materials of seismic exploration and deep exploration wells, we believe that the sedimentary cover of the Caspian basin is composed of the following structural layers: Jurassic - Lower Cretaceous, Upper Cretaceous - Paleogene and Miocene-Pliocene-Anthropic structural layers.

Key words: Paleogeography, lithostratigraphy, rock, sediment

Giriş

A.H.Hacıyevin (2006) və T.N. Kəngərli (2010) geoloji-geofiziki materiallarından əldə olunmuş məlumatlara əsasən çöküntü təbəqəsinin paleozoy

əsası Yura, Alt Təbaşir Paleogeni ilə sıx bağlı olduğunu və çökmə örtüyü və Miosen konstruktiv mərtəbələrin strukturlarının müəyyənləşdirilməsində müstəsna rol oynamışdır. Məhz burada çöküntü süxurları 3 struktur-fasial zonası vasitəsi ilə xarakterizə edilməkdədir: Yalama-Xaçmaz paleozoyunun qalxması və Talabi-Qızılbur qırışıqlığı zonası və Qusar-Şabran törəmə çökəkliyi.

Qusar-Şabran törəmə hövzəsində mövcud olan təbaşir və paleogen çöküntüləri kəskin şəkildə azalma ilə, yəni reduksiya ilə üzləşmişlər. Buradakı quyu məlumatlarına əsaslanaraq Sarmat çöküntüləri Orta Yura kompleksinin dərindən yuyulmuş səthində yerləşirlər.

Yalama-Xaçmaz Paleozoy yüksəlişi Terek-Xəzər dağqabağı çökəkliyinin qırışıq tərəfini təşkil etməkdədir. Məhz burada çöküntü süxur örtüyünün qalınlığı 5-6 km olur. Bu struktur-fasiya zonasında qismən yuxarı Orta Yura çöküntüləri tamamilə Valanjin və Barrem denudasiyaları ilə yuyulurlar. Təbaşir çöküntülərində onun bir sıra stratiqrafik vahidləri kəskin azalmaya məruz qalmışdır. Tolubi-Qızılburun struktur-fasial zonasında çöküntü örtüyünün qalınlığı təxmini, 7-8 km təşkil edir. Həmçinin burada da Orta və Yuxarı Yura çöküntüləri əsaslı denudasiyaya məruz qalmışdır. Təbaşir və Paleogenin stratiqrafik vahidləri qısaldılmış formada verilir[2].

Orta Yura çöküntüləri. Orta Yura çöküntülərinin aşkar edilmiş qalınlığı Yalama yatağında 1100 m (13 nömrəli quyu), Ağzibirçalada 1190 m (1 nömrəli quyu), Keşçay yatağında 1200 m (7 nömrəli quyu), Nardaranda 1753 m (830 nömrəli quyu), Bəyimdağ-Təkçayda Nardaranda 1670 m (17 nömrəli quyu) təşkil etməkdədir[1].

Xiv lay çöküntüləri, Ağzıbirçala, Yalama, həmçinin cənubda yerləşmiş olan Nardaran, Keşçay və Bəyimdağ-Təkçay bölgələrində tapılmışdır. Xudatda 114-cü quyunun bölməsi Xiv formasiyasının çöküntüləri, kömürləşmiş bitki qalıqları, fukoidlər də vitrinlə zəngin olan polimikt qumdaşlarından ibarət olmaqdadır.

Yalama-Xudat Paleozoy Yüksəlmə bölgəsində Xınalıq formasiyasının 60-70%-i massiv laylı çöküntülərdən ibarətdir və klassik süxurlarla təşkil olunurlar.

Üst Yura çöküntüləri Ə.M.Maqomedov və Ç.M.Xəlifəzadənin məlumatları, həmçinin də apardılam tədqiqatlara əsaslanaraq, müəyyən edilmişdir ki, məhz onlar Xəzəryanı çökəkliyində, yəni Xəzər hövzəsində müşahidə olunmurlar. Məhz onlar Dibrar dağlıq ərazidə, Şahdağ-Sudur və Tfan antiklinoriyası zonalarında geniş şəkildə yayılmışdırlar[2].

Bu yaxınlarda Yalama-dəniz strukturunda qazılmış olan № 1 parametrik quyu 200 m Üst Yura 1800 m Orta Yura və 4500 dərinlikdə olan, Üst və Orta Trias çöküntüləri açılmışdır. Həmçimin cənubda Tələbi-Qızılburun qırışıq xəttinə, Nügədi, Tələbi, Qızılbur, həmçinin Qaynarca qırışıqları daxil olmaqdadır. Bu qırışıqlar əsasən Orta Yura dövrünə aiddir. Məhz onlar Xəzər hövzəsinin orta yura çöküntüləri ilə bağlıdır və burada onlarla yerli strukturlar müşahidə edilməkdədir. Bunlardan Xudat, Yalama, Xaçmaz, Tələbi, Ağzıbirçala, Bəyimdağ-Təkçay, Nardaran və Afurca qırışıqları göstərilə bilər. Paleozoy bünövrəsi blok quruluşdadır və onun strukturunda 2-ci dərəcəli paleozoy strukturları aşkarlanmışdır: Yalama Xudat qravitasiyası maksimumu, Dibrar-Yaşma, Qusar-Xaçmaz Paleozoy qalxıntıları. Azərbaycanda Xəzəryanı çökəklikdə Orta Yura çöküntülərinin paleocoğrafiyasının yaranma şəraiti geoloji ədəbiyyatda əks olunmuşdur[3].

Günümüzdə Qafqazın cənub-şərq hissəsində və Xəzər hövzəsində regional geofiziki tədqiqatlar A.N. Hacıyev (2006) və T.N. kəngərli (2010) Mobilist perspektivdən Orta Yura çöküntülərinin geodinamik tədqiqatları Paleocoğrafi modelin yaradılmasında müsbət rol oynamışdır. Cənub-şərq Orta Yura çöküntülərinin paleocoğrafi modelini formalaşdırmaq üçün Qafqazın və Xəzər hövzəsinin Orta Yura inkişaf tarixini araşdırmalarımıza görə dörd mərhələyə ayırdıq: Son Aalen, erkən Bayos, Son Bayos və Bat inkişaf mərhələləri. Bütün sadaladığımız mərhələlər dar stratiqrafik vahidə və bölgənin dönüş inkişafı

tarixinə uyğundur. Bundan əlavə, paleocoğrafi strukturların etibarlılığı Orta Yurada eroziyanın əhəmiyyətli dərəcədə artması üçün mövcud regional geofiziki materiallar və zonaların strukturu ilə bağlı dərin quyu məlumatları yenidən işlənmiş, ümumiləşdirilmiş və fərdiləşdirilmişdir.

Son paleocoğrafi, geoloju və regional geofiziki tədqiqatların nəticələri təsdiq edir ki, bölgənin Orta Yura dövründə iki əsas və iki daxili eroziya zonası baş vermişdir. Onların arasında əsas eroziya zonaları Orta Xəzər Paleozoyudur, həmçinin massivin və bölgənin cənubunda Cənubi Qafqaz plitəsinin şimal cinahı; daxili eroziya zonalarından Qafqazdaxili geoantiklinal (Xain, 1951, 1958), Dibrar-Yalama Paleozoy yüksəlişi (Haçıyev, 1965). Belə ki, Orta Yura çöküntülərinin və onların fasiyalarının litostratiqrafik petroqrafiyasında həm əsas, həm də daxili eroziya zonaları vardır[1].

Xəzəryanı çökəkliyinin Orta Yura çöküntülərinin paleocoğrafiyası, Xəzər çökəkliyinin Orta Yura çöküntülərinin müasir paleocoğrafiyası, yenidənqurma işləri aparmaq üçün ədəbiyyat mənbələri apardığımız stratiqrafik, sedimentoloji və fasiya-genetikanı sistemləşdirməklə yanaşı, həmçinin xüsusi paleocoğrafi tədqiqatlar əsasında aparılmışdır. Paleocoğrafi olan xəritələr AN. Nalivkin, V.Y. Xain və G.F. Kraşeninnikovun (1964) öz təklif etdikləri metodlar əsasında tərtib olunmuşdur. Paleocoğrafiya xəritələrdə araşdırılan kəsiklər, eyni təbəqənin çöküntü qalınlıqları və yataq dərinliyi, fasiya və paleocoğrafi elementlər, izopaxitlər, nüvə və daxili eroziya zonalarının sərhədləri, petroqrafik strukturlar və s. mövzular ön plana çıxır. Litoloji-paleocoğrafi xəritələrin təsviri üçün işlənmiş şərt işarələrin sayı 30-u keçdiyi üçün onlar ayrıca sadalanır.

Bu xəritələr fasial əsasında tərtib edildiyindən və izopaxitlərlə müşayiət olunduğundan, etibarlı və çox məlumatlı olduqları üçün diqqəti cəlb edirlər.

Cənub-Şərqi Qafqazda və Xəzəryanı çökəklikdə Son Aalean böyük bir transqresiya ilə başlamaqdadır. Tədqiqat sahəsi Son Aalen çöküntülərinə xas olan iki mərtəbəli quruluş Son Aalen pozuntusunun mərhələli inkişafıdır və bu

Samuriya siderit yataqlarının kəsilişlərində daha aydın görünür. (Xəlifəzadə, Abbasova, 1963) Erkən Bayos dövründə Şərqi və Cənub-Şərqi Qafqazda və Xəzər sahillərində çökəklikdə kimmer tektogenezinin Bayos fazasının fəaliyyəti nəticəsində erkən körfəz dənizi dayazlaşmışdır; əsas aşınma sahələrində kontrast azalma müşahidə olunmuşdur. Həmçinin dənizin duzluluğu nisbətən azalmış, iqlim mülayimləşmişdir. Bundan əlavə, Üst Aalen dövrünün illik çöküntü və rütubəti xeyli azaldığı müşahidə olunmuşdur. Erkən Bayosunda əsas eroziya sahələri İskit-Turan plitəsinin qərb kənarı, Xəzər massivi və gömülmüş Sulak massivi idi. Tədqiqat ərazimizin Bayos çöküntüləri üçün əsas eroziya zonalarından biri Cənubi Qafqaz mikroplatinin şimal qanadı hesab olunur. Litoloji, fasiya-genetik və paleocoğrafi tədqiqatlar Son Bayos hövzəsində tektonik gərginliyin xeyli azaldığını göstərdi, həmçinin dəniz səviyyəsinin qalxması və regional pozuntular nəticəsində yaranan eroziya sahələri eniş prosesinə məruz qalaraq suyun altına düşdü. Son Bayosda Şərqi və Cənub-Şərqi Qafqazda və Xəzər hövzəsində geniş və dərin olan dəniz hövzəsi əmələ gəlmişdir.

Böyük Qafqazın kənar dənizinin mərkəzi hissəsində təxminən 50×250 km-də əsas Qafqaz geoantiklineli ilə transqressiya zonası formalaşmışdır. Qusar-Xaçmaz Xəzər çökəkliyində gömülmüş və Siyəzən dərin çatları boyunca, təməlin böyük bloku Yer səthinə qaldırılmış və beləliklə, uzun müddət aşınma sahəsinə çevrilmişdir. Belə ki, mövcud Bat çöküntülərinin Xızı struktur-fasial ərazisində, Malm transqressiyaları nəticəsində tam şəkildə yuyulmasına baxmayaraq, fərz olunur ki, bat tektonik hərəkətlərinin nəticəsi olaraq, Dibrar-Yaşma paleozoy qalxımı, həmçinin onun Şimali-Abşeron çökəkliyinin Cənub regionunda (Babayev, Hacıyev, 2006) davamı Yer səthinə və müstəqil şəkildə denudasiya ərazisi olmuşdur.

ƏDƏBİYYAT

1. Əliyeva İ.T. Azərbaycanın Xəzəryanı çökəkliyinin Orta Yura çöküntülərinin litostratiqrafik sxeminin dəqiqləşdirilməsinə dair yeni məlumatlar. Azərbaycanın Neft Təsərrüfatı, Bakı, 2010, s. 11-16
2. Алиева И.Т. Петрогенез обломочных пород Среднеюрских отложений Прикаспийской впадины Азербайджана и Дагестана. Azərbaycan Milli Elmlər Akademiyası "Xəbərlər" Yer elmləri, 2010, №1, c. 38-47
3. Алиева И.Т. К минералогии и генезису Среднеюрских аргиллитов Прикаспийской впадины Азербайджана. ADNA "Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri" №6 (52), c.77-81

THE GEOLOGICAL STRUCTURE OF THE JUNCTION ZONE OF THE GREATER CAUCASUS' SOUTH SLOPE WITH THE KUR DEPRESSION DUE TO THE OIL AND GAS POTENTIAL

Rafiyev Tural Amiraslan
trafiyev@gmail.com

Introduction: This article delves into the geological intricacies of the Shamakhi-Gobustan Depression and the Kura-Gabırry oil and gas region within the Greater Caucasus. The Shamakhi-Gobustan Depression, located in the western part of the Greater Caucasus, exhibits significant paleotectonic and paleogeographic features from the middle to late Miocene. On the other hand, the Kura-Gabırry region, part of the Kura-Southern Khazar oil and gas sub-province, showcases distinct geomorphological zones. This study aims to unravel the geological history, structural arrangements, and sedimentary characteristics of these regions, contributing to a comprehensive understanding of the Greater Caucasus' geological evolution.

Overview: The junction zone of the Greater Caucasus and the Kura depression includes a strip that includes: the southern ending of the Shamakhi-Gobustan depression, the Ajinohur depression, the northeastern part of the Kura and Gabyrry interfluves and the northern end of the Kura depression.

Shamakhi-Gobustan Depression, which falls within the South-Eastern Caucasus oil and gas sub-province (OISP) and the Shamakhi-Gobustan oil and gas region of the South-Eastern Caucasus oil and gas province (OGP), comprehensively covers the Shamakhi-Gobustan depression located in the western part of the SC section of the Greater Caucasus from a tectonic perspective. The region is bounded by Malkamud-Germian to the north-east, the Western Caspian to the north-west, and Lankaran-Astara to the south-west, with its eastern border conditionally drawn from the Gilezi promontory to the Sangachal promontory. Shamakhi-Gobustan depression encompasses a large depression that

begins from the Girdimanchay and concludes with the Jeyrankechmez depression. This depression is more suitable for tectonic subsidence. In the south-east direction, the depression opens into the South Caspian depression. In the southern-western and central parts of the depression, Mesozoic sediments are covered by thick Paleogene and Lower Miocene sediments. In the southern-eastern part of the depression and around the Aghgol plateau, middle and upper Pliocene sediments are widely spread. In this zone, Tertiary, Paleogene-Miocene, and Lower Pliocene sediments lie deeper[3].

The Shamakhi-Gobustan oil and gas region, within the boundaries of the Shamakhi-Gobustan oil and gas region, has experienced, in many aspects, the paleotectonic and paleogeographic conditions of the middle and late Miocene-aged basins as a continuation of the conditions during the Oligocene to early Miocene period. This geological time interval is characterized for the Azerbaijan part of the Greater Caucasus by dominance of folding and orogenic movements. Accumulation processes continue in the basins that existed during the Maykopian age. However, in these basins, instead of mainly clayey sediments, molasse deposits are formed, consisting of sandy clay and various-grained sandstones, marl, and dolomites. The Maykopian sediments indicate that, during the late Miocene, the Qobustan basin, with a maximum thickness (2900-3100 m), is exposed to maximal subsidence. In the Shamakhi-Gobustan oil and gas region, the Tarchanian horizon is relatively thin and is mainly accumulated in synclinal depressions. In most of the uplift zones, the Çokrakian sediments are deposited in a non-conformable manner on the variably eroded surface of the Maykopian sediments [4].

The Kura-Gabırry oil and gas region, within the Kura-Southern Khazar oil and gas sub-province (OGSP) and entering the Qabırrı-Acınohur oil and gas province (OGP), encompasses the southern-western part of the Qabırrı-Acınohur basin. The area is divided into distinct geomorphological zones surrounding the

Gabırry River: mountainous around the Gabırry River - Çatma and plain around the Kura River - Jeyran Desert zones. The Kura-Gabırry oil and gas region is located north-north-east from the Kura deep fault. The region, over the Upper Cretaceous basin, consists of structurally protruding and gently folded with small-amplitude brachianticlines in the south-west, and it is characterized by a north-eastern-dipping monoclinal [2]



Figure 1. Shamakhi-Gobustan oil and gas region



Figure 2. Paleostructure condition at the end of the Miocene of the Maykopian sediments

1-Isopachs; 2-Parametric, exploration, and discovery wells. 3-Fault boundaries of the depressions

Figure 3. Kür and Qabırrı oil and gas region. Structural arrangement scheme

Kura and Qabırry oil and gas region encompasses the southern-western part of the Gabırry-Acınohur basin. The area is divided into distinct geomorphological

zones surrounding the Gabırry River: mountainous around the Gabırry River - Çatma and plain around the Kura River - Jeyran Desert zones. The collision zone is bounded to the north by the uplift along the northern slopes of the Qabırrı River and to the south by the uplift along the southern slopes of Kichik Palantokan, Boyuk Palantokan, Axtaxtatepe, Chobandag, and Sajdag, reaching Herikdar. The zone consists of parallel-running Eldaroyuğu and Cobandağ-Palantökən ridge lines. The separated Çatma anticlinorium is mainly composed of Miocene sediments and has been softened by sharp tectonic deformations.

Structures within the anticlinorium, made up of molasse deposits, are divided into three groups. The northern group includes Taurtepe, Alachıq, Eldaroyugu, and Eldar; the central group includes Yaylacıq, Dəmirtepe, Goytepe, and Armudlu; and the southern group includes Udabno, Sacdag, Molladag, Çobandag-Axtaxtatepe, Boyuk Palantokan, and Kichik Palantokan elevations. [6]

Abstract: The Shamakhi-Gobustan Depression, located within the South-Eastern Caucasus oil and gas sub-province and the Shamakhi-Gobustan oil and gas region of the South-Eastern Caucasus oil and gas province, is situated in the western part of the Greater Caucasus. This geological area, characterized by paleotectonic and paleogeographic conditions dating back to the middle and late Miocene, has experienced substantial folding and orogenic movements. In the Shamakhi-Gobustan region, Maykopian sediments indicate the maximal subsidence of the Qobustan basin during the late Miocene. The Kura-Gabırry oil and gas region, part of the Kura-Southern Khazar oil and gas sub-province, covers the southern-western portion of the Gabırry-Acınohur basin, featuring distinct geomorphological zones. Additionally, Kür and Qabırrı oil and gas region exhibits geological features marked by tectonic deformations and Miocene sediments, divided into three groups of structures: northern, central, and southern.

REFERENCES

1. Hüseynov B.B., Salmanov Ə.M., Məhərrəmov B.İ. Azərbaycanın quru ərazisində neft-qaz-geoloji rayonlaşdırma. Bakı, 2019.
2. Məhərrəmov B.İ., Ağazadə B.Q. Kür və Qabırrı çaylararası rayonu Kaynozoy kompleksi çöküntülərinin paleostruktur analizi və neft qazlılığı. AzNQSDETLİ. Elmi əsərlər, 2009, №12.
3. Məhərrəmov B.İ. Qərbi Abşeron və Şamaxı-Qobustan NQR-in orta və üst Miosen qalxımlarının paleotektonik inkişafı və onların neft-qazlılıq perspektivliyi. ANT, 2006, № 11.
4. Məhərrəmov B.İ. Qərbi Abşeron və Şamaxı-Qobustan NQR-in Paleogen-Miosen çöküntülərinin neft-qazlılığının geoloji əsasları. AzNQSDETLİ. Elmi əsərlər, 2008, № 10.
5. Salmanov Ə.M., Süleymanov Ə.M., Məhərrəmov B. AZƏRBAYCANIN NEFTLİ-QAZLI RAYONLARININ PALEOGEOLOGİYASI. Bakı, 2015.
6. Süleymanov Ə.M. Kür və Qabırrı çaylararası NQR-də qeyri-antiklinal tipli tələlərin proqnozlaşdırılmasının regional geoloji əsasları və onlarda neft-qaz yataqlarının əmələ gəlməsinin əsas xüsusiyyətləri. AzNQSDETLİ-nin elmi əsərlər toplusu. Bakı, 1997.
7. Süleymanov Ə.M., Zeynalov R.L., Məhərrəmov B.İ. Qərbi Abşeron və Şamaxı-Qobustan NQR-nin orta və üst Miosen qalxımlarının paleotektonik inkişafı və onların neft-qazlılıq perspektivliyi. ANT, 2006, № 11.
8. Süleymanov Ə.M., Hacıyev F.M., Rüstəmov R.İ. və b. Kür və Qabırrı çaylararası NQR-də qeyri-antiklinal tipli yataqların aşkar edilməsi üçün aparılması lazım olan geoloji və geofiziki işlər. Az NQSDETLİ-nin elmi əsərlər toplusu. Bakı, 1997.
9. Məhərrəmov B.İ. Aşağı Kür çökəkliyinin şimal-şərq və Şamaxı Qobustan rayonunun cənub-qərb hissələrində karbohidrogenlərin əmələgəlmə və toplanma zonaları. "Azərbaycanda neft geofizikası son 30 ildə",

H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfransın materialları. Bakı, 2003.

ROBOTOTEXNIKA - MƏDƏNÇILIYIN GƏLƏCƏYI ÜÇÜN ƏVƏZSIZ ALƏTDIR

Əfəndiyeva Z.C. Rəcəbli M.A

zarifa.afandiyeva@asoiu.edu.az; movsumrajabli@gmail.com

Xülasə

Dağ-mədən işlərinin inkişafı XX əsrin II yarısında elmi-texniki inqilab (ETİ) ilə bağlıdır. O, kompüterlərin kütləvi istifadəsi, mədən proseslərinin avtomat-laşdırılması və texniki vasitələrin robotlaşdırılmasına başlanması, dağ-mədən elmləri sisteminin yaradılması ilə xarakterizə olunur.

Elmi-texniki inqilab elmi məhsuldar qüvvəyə çevirmiş, mədən istehsalının kompleks avtomatlaşdırılmasının tətbiqinə, əsas texnoloji proseslərə nəzarət və onların idarə olunmasına, təbii mühitin mədən işlərinin təsirindən qorunmasına səbəb olmuşdur. Kompleks mexanikləşdirilmiş və avtomatlaşdırılmış dağ-mədən maşınları və kompleksləri dövrü başlandı bu günə qədər davam edir.

Mədənçıxarma müəssisələrində özüboşaldan, ekskavator, yükləyici, buldozer, qazma qurğuları ya tamamilə insanın iştirakı olmadan, ya da minimal iştirakla işləyir, çünki bu iş risklər, ağır yüklər və zərərlərlə bağlıdır. Bu cür avtomatlaşdırma, ilk növbədə, qiymətli faydalı qazıntıların olduğu, lakin yaşayış yerinin olmadığı, insanlar üçün əlverişsiz və iqtisadiyyata baha başa gələn növbə metodundan istifadə edilən ucqar Şimal üçün lazımdır. Bu arada, tam robotlaşdırma min kilometrə qədər məsafədə mümkündür, karyerdən və mədəndən tutmuş insanın bütün prosesi uzaqdan idarə etdiyi nöqtəyə qədər.

Dünyada artıq bəzi mədən şirkətləri mədənçiləri təhlükəsiz yerə köçürmək və onları robotlarla əvəz etmək üçün addımlar atır. Rail-Veyor Technologies Global şirkət tərəfindən qatar, konveyer və ekskavator texniki sistemləri birləşdirilərək vahid texniki sistem robot qatarı hazırlanmışdır.

Açar sözlər: mədən sənayesi, sənaye robotları, mədən işlərinin robotlaşdırılması, faydalı qazıntı, robot qatarları, sürücüsüz filiz yük maşınları, pilotsuz uçuş aparatı.

XVI və XVII Ümumdünya Mədən Konqreslərində, Dağ-mədən işlərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması üzrə beynəlxalq simpoziumlarda və digər materiallarda məruzələrdən məlum oldu ki, bütün sənayeləşmiş ölkələr - ABŞ, İngiltərə, Almaniya, İsveç və s. yeraltı mədən işlərinin robotlaşdırılması və avtomatlaşdırılması üzrə genişmiqyaslı tədqiqatlara başlamışlar.

Mədəndə bir yükləyici dəmir yolu vaqonlarına filizi yükləyir və avtomatlaşdırılmış qatar tunellərdən keçərək səthə çıxır. (şəkil 1). Bu sistem səthdə yerləşən operatorlar tərəfindən uzaqdan idarə olunur. Boşaltma nöqtəsində qatar konveyerə çevrilir: vaqonlar növbə ilə aşır, yüklərini yerə boşaldır və qatar yeni filiz yükü üçün mədənə qayıdır. Dəmir yolu vaqonları yarı silindrik formadadır və ekvivalent yük daşıyan yük maşınına nisbətən daha az yer tutur. Nəticədə, filizin səthə daşınması üçün tunellər daha kiçik bir kəsiklə hazırlana bilər ki, bu da onların tikintisini daha ucuz edir.

Şəkil.1. Rio Tinto-nun sürücüsüz qatarları

Dünyanın ikinci ən böyük dəmir filizi tədarükçüsü olan Rio Tinto da Avstraliyada Gələcəyin Mədənini tikib (şəkil 1.) O, GPS naviqasiyasına malik

avtomatlaşdırılmış yük maşınları və qatarlar parkı ilə təchiz olunur ki, bu da filiz və filizlərin daşınması üçün ən səmərəli marşrutları seçməyə imkan verir. Bu sistem mədəndən yüzlərlə kilometr aralıda yerləşən əməliyyat mərkəzindən uzaqdan idarə olunur.

Gudai-Darri-də maşınları idarə etmək və onlara qulluq etmək üçün Rio Tinto

təxminən 600 işçini ərazidə 70-dən çox işçini, təxminən 1000 mil uzaqlıqdakı Perth əyalətinin paytaxtında idarəetmə mərkəzində çalışdırır. Mədənin tikintisi büdcəni aşdı və qismən Rio Tinto lazım olan işçi qüvvəsini ala bilmədiyi üçün aylarla gecikdi.

Şəkil 15-2. Rio Tinto-nun Gudai-Darri mədəni

Son zamanlar yükgötürmə qabiliyyəti 290 ton olan Komatsu 930E-5SE robotik mədən özüboşaltma maşınının çalovunun tutumu 28 m^3 olan PC5500-6 dizel-hidravlik ekskavatorlarından daha çox vaxt istifadə edilir (şəkil .1.a,b).

Şəkil 2. Komatsu 930E-5SE (a), PC5500-6 (b)

Hər bir yükləmə yeri virtual zonalara bölünür. Yük maşını özü yüklənməyə qalxır, sadəcə ekskavatorun çömçəsini qaldırması lazımdır. Pilbaradakı hər 930E-5SE kameralar, radar, lazer məsafəölçənləri, GPS naviqasiyası, simsiz rabitə və maneələrin tanınması ilə təchiz olunub. Dəzgahın idarə edilməsi tamamilə kompüterə həvalə olunur, operator yalnız özüboşaldan maşının işini müşahidə edir. Front Runner süni intellekti ərazini yadda saxlamaq, virtual üçölçülü xəritə formalaşdırmaq qabiliyyətinə malikdir. Robot özüboşaltma maşınları ərazidə 50 km/saatdan çox sürətlə hərəkət edir ki, bu da təcrübəli sürücülərdən demək olar ki, iki dəfə yüksəkdir. Burada toqquşmalar və tıxaclar qeyri-mümkündür: robot özüboşaltma maşınlarının zaman və məkanda oriyentasiyasının dəqiqliyi yüksəkdir və verilmiş koordinatlardan cəmi 1-2 sm kənarlaşma ola bilər.

Ticarət dronları və dron xəritəçəkmə analitik platformaları sayəsində mədən sənayesində tədqiqatlar bir qədər inqilab keçirir.

Texnologiyanın inkişafı pilotsuz uçuş aparatı mədən üçün əlverişli alətə çevirib. Onlar zərif avadanlıq kimi görünsələr də, dronlar GPS vasitəsindən daha qeyri-adi deyil, eyni zamanda həyati əhəmiyyətə malikdir. Ənənəvi ölçmə alətlərindən fərqli olaraq, ondan istifadə etmək üçün çoxlu sayda xüsusi təlim və təhsilə ehtiyacınız yoxdur.

Şəkil3.Mədənlərdə dronlardan istifadə

Gudai-Darri-də 23 CAT 793F avtonom yük maşını və üç CAT MD6310 avtonom qazma maşını var. Yük maşınları qazıntı üzünün canlı irəliləyişini təmin etmək üçün sensorlardan istifadə edərək real vaxt rejimində filizin işlənməsini həyata keçirir, qazmalardan əldə edilən məlumat əsasında modelləşdirmə isə mövcud yer şəraitinin daha dəqiq qiymətləndirilməsinə və təhlükəsizliyin artırılmasına kömək edir. Caterpillar ilə əməkdaşlıqda Rio Tinto sıfır emissiyalı avtonom yük maşınlarını inkişaf etdirir. İnkişaf başa çatdıqdan sonra dünyada ilk dəfə Caterpillar 793 sıfır emissiyalı avtonom yük maşınlarının Qudai-Darridə istismara veriləcəyi gözlənilir.

Şəkil.15.3. Rio Tinto-nun Gudai-Darri mədənində sürücüsüz yük maşınları

NƏTİCƏ

Mədən robotlarından istifadə sahələrdə işçiləri əvəz etməklə yanaşı, həm də mədən sənayesinə bir sıra üstünlüklər verir. Mədən robotları insan həyatını xilas etməklə yanaşı, məhsuldarlığı da artırır. Nəticədə, mədən müəssisələri robotdan istifadə etməklə daha böyük maliyyə qənaət edə bilərlər. Özünü idarə edən filiz yük maşınları, dərin dəniz mədən robotları və avtomatlaşdırılmış qazma qurğuları bu məqsədlərə kömək edə biləcək mədən robotlarına bir neçə nümunədir.

Özünü idarə edən filiz yük maşınları özünü idarə edən adi yük maşınlarla eyni texnologiyadan istifadə etməklə avtomatlaşdırılır. Bu, mədənçilərin təhlükəsizliyinə təhlükə yarada bilən təhlükəli yeraltı sahələrdən filiz çıxarılmasını asanlaşdırır. Radar və lazer texnologiyası özünü idarə edən filiz yük maşınlarının yerin altından asanlıqla işləməsinə imkan verir.

ƏDƏBIYYAT

1. Боровков Ю.А. и др. Основы горного дела. Учебник / Ю.А. Боровков, В.П. Дроба- денко, Д.Н. Ребриков. Издательский центр. «Академия-Медиа», М. 432 с. 2012.

2. Бурмистров К.В., Заляднов В.Ю. Процессы открытых горных работ .Учебное пособие. *И*здательство Магнитогорского гос. тех. университета, Магнито- горск. 222с. 2014.

3. Поезжаева Е.В. Роботизация шахтного дела / Е.В. Поезжаева, М. Н. Мисюров, А. А. Сергеев // Науковедение. - № 3. с 52-57. - 2015.

4. Ракишев Б.Р. Технологические комплексы открытых горных работ. Учебник Алматы, 313 с. 2015.

5. Репин Н.Я., Репин Л.Н. Процессы открытых горных работ. Часть 3. Перемещение и складирование горных пород. Учеб. пособие. Горная книга, М. 221 с. 2013.

6. Трубецкой К.н., Галченко Ю.П. Основы горного дела: Учебник / Под ред. акад. К.Н. Трубецкого. Академический Проект, М. 231 с. 2010.

7. Хазин М.Л. Роботизированная техника для добычи полезных ископаемых //

Вестник магнитогорского государственного технического университета им. Г.И. Носова. -Т. 18, № 1. - С. 4-15. - 2020.

8. Шевкун, Е. Б. История горного дела. Учеб, пособие / Е. Б. Шевкун. Изд-во Тихоокеан. гос. ун-та, Хабаровск. 244 с. 2015.

9. Шемякин С. А., Мамаев Ю. А., Иванченко С. Н.. Новые технологии открытой разработки месторождений. Хабаровск. 130 с. 2003.

10. Шешко Е.Е. Горно-транспортные машины и оборудование для открытых работ. МГГУ, М. 264 с. 2003.

11. Evolutionary and Revolutionary Technologies for Mining. Washington, DC: The National Academies Press. 102 p. 2002.

12. Howard L. Hartman, Jan M. Mutmansky Introductory Mining Engineering

Technology & Engineering . 592 p. 2002.

13. Kim P, Chen J et al SLAM-driven robotic mapping and registration of 3D point clouds (Automation in Construction). p. 38-48. 2018

14. Vladimir konyukh, Mineral Resources Engineering, 2012

15. Pevzner L and Kim M Robotics in mining (MINING №S1) 2014

DİAPİR STRUKTUTLARIN QRAVİTASİYA TƏSİRLƏRİ

İsgəndərov E.H., Məmmədov T.A.

elton_iskender@mail.ru , turalmemmedov01@mail.ru

Xülasə: Geofiziki kəşfiyyat üsullarinin bir hissəsi olan qravikəşfiyyat üsulu uzun illərdi ki müxtəlif geoloji məsələrinin həllində - yerin dərinlik quruluşunun öyrənilməsi, srtuktur məsələ və faydalı qazıntıların bir başa axtarışı geniş istifadə olunur. Təbii ki əqsər hallarda neft və qaz yataqların birbaşa axtarışı bunların yaratdığı qravitasiya təsirinin kiçik olduğundan, çox çətin bir məsələdir. Lakin neft və qaz cəhətdən perspektiv olan ğeoloji strukturların axtarışı dağa əlverişlidir. Bu strukturlara aid olan antiklinal, diapir, cümbəzəoxşar platformalı strukturlardır. Tədqiqat obyekti kimi diapir strukturlardır, onların qravitasiya sahəsində əks olunması və qravikəşfiyyat üsulu ilə dağa əlverişli öyrənilməsidir. Diapir strukturların nüvəsində plastik cil və ya plastk duzlar iştrak edir. Məqalədə duz kümbəsli diapir strukturların geoloji xüsusiyyətləri, əmələ gəlmə şəraiti və mexanizmi, neft və qaz cəhətdən əlverişliyi təhlil olunur və bu tipli strukturların qravitasiya sahəsində əks olunması- modelləçdirilməsi məsələsi müasir qrafiki interfeysdə compyuterdə Geofizika kafedrasında işlənib hazılanan alqoritm və proqramlar vasidəsi ilə həlli nəticələri verilib.

Açar sözlər: diapir struktur, qravitasiya anomaliyası, duz kümbəzləri, alqoritm, qravitasiya sahəsi, minimum anomaliyası.

Giriş. "Diapir" və "diapirizm" yunanca “daxil olmaq” mənasını verən “diapeirein” sözündəndir. “Diapirizm” baş verdiyi temperatura görə maqmatik intruziyaya bölünür. Diapirlər aşağı ekvivalent özlülük və aşağı sıxlıq kimi kritik xüsusiyyətlərə malik gilli çöküntülər, kömür, torf, duz, serpantin və ya digər torpaq materiallarından ibarətdir. Bu materialların yaşı Prekembridən son dövrlərə qədər dəyişir. Diapirlərə qalxan zonaları istisna olmaqla, dünyanın hər yerində rast gəlinir. Onların hamar yuvarlaqlaşdırılmış yastıqlardan tutmuş mürəkkəb inyeksiyalı təbəqələrə qədər bir çox formaları var, ya "ana" yatağı ilə birləşir, ya

da ondan ayrılır və ya fərqli xüsusiyyətlər əmələ gətirən səthdə, ya da xeyli dərinlikdə mövcuddur. Diapirlər yaxşı inkişaf etmiş daxili strukturlara malikdirlər ki, bu da axın mənşəyini göstərir. Diapirin ətrafındakı təbəqələr diapir tərəfindən struktur və yaxud stratiqrafik cəhətdən güclü təsirə məruz qala bilər və ya onlar təsirsiz ola bilər. Sahə və model tədqiqatları göstərir ki, diapirlər üfüqi sıxılma, qravitasiya qeyri-sabitliyi və ya hər ikisi nəticəsində inkişaf etmişdir. Müxtəlif tipli diapirik strukturlar böyük miqdarda neft və qaz, kükürd, duz və kalium ehtiva edir və yeraltı saxlama [1].

Dəniz dibində diapir strukturların üç sahəsi, Vema, Viqrid və Vivian diapir sahələri, ayrı-ayrı strukturların dəniz dibindən 150 m yüksəkliyə qalxdığı Voring Yaylasında mövcuddur. Böyük Vema diapir sahəsi iki əsas qövs strukturunun, Vema və Naqlfar günbəzlərinin üzərində yerləşir, Viqrid diapir sahəsi isə nisbətən üfüqi təbəqəli hövzə ardıcıllıqlarının üstündə yerləşir. Hövzə modelləşdirməsi göstərir ki, litosfer reaksiyasının rejimindən asılı olaraq, indiki 1800–3000 m Vema Günbəz relyefinin 20–35%-i tektonizmlə, qalan hissəsi isə çöküntülərin yüklənməsi və sıxılması ilə əlaqədardır. Vema Gümbəzinin Paleosen-Oliqosendə aşağı relyefli struktur yüksəkliyindən daha dar Miosen-İndiki xüsusiyyətə dəyişdiyini göstərir. Gümbəzin başlanğıcı Maastrixt-Paleosen çatı epizodu zamanı yerli Paleosen nisbi struktur yüksəlişi ilə əlaqələndirilir. Tektonik yüksəlişin sonrakı mərhələsi, çox güman ki, gec Oliqosen və Miosen dövründə, lövhədaxili sıxılma gərginliyi ilə əlaqələndirilir. Seysmik profillərdən və elmi qazma suxurlarından belə nəticəyə gəlirik ki, biosilisli sızma və palçıqların üstünlük təşkil etdiyi Eosen-Miosen çöküntüləri palçıq diapirləri və ehtimal ki, palçıq vulkanları kimi şərh edilən dəniz dibi diapir strukturların mənbəyidir. Sızma mobilizasiyası gec Pliosendə başlamış və daha sıx və daha az məsaməli gec Pliosen-Pleystosen çöküntüləri tərəfindən diferensial yüklənmə nəticəsində yaranmışdır. Zəngin kiçik sürüşmələri gec Oliqosen-Pliosen qırılmaları və zəiflik

zonaları bu günə qədər hərəkətini davam etdirən sızma üçün ən çox ehtimal olunan yollardır [2].

Tədqiqat üsulu və hesablama nəticələri. Duz kümbəzləri qaya duzundan ibarət olan ştoklardıir ki, tektonik hərəkətləri nəticəsində plastik olduğuna görə yuxarıdaki çökmə suxur təbəqələrin təzyiqi nəticəsində yuxarı istiqamətdə sıxışdırılıb onu örtən suxurları qaldıraraq duz kümbəzli antiklinar formalı strukturlar yaradır. Neft və qaz yataqları adətən kümbəzin tağ üzərində və ya tağın kənarlarında toplanmış qumlu-cilli süxurlara uyğunlaşıb [5]. Tağın nüvəsini təşkil edən duz ştokun ölçüləri həm sahəyə həm də şaquli istiqamətə görə böyük ölçülərə malik ola bilər. Onun ölçüləri bir neçə yüz kvadrat kilometr, çaquli qalınlığı isə bir neçə kilometr ola bilər. Duzun sıxlığı praktiki olaraq sabitdir 2,1 q/sm^3 qiymətində olur və adətən duzu yerləşdirən suxurların sıxlıqlarından (2,2-2,4 q/sm^3) kiçik olur. Ona görə duz kümbəzi üzərində intesiv minimum müçahidə olunur (bir neçə vahiddən bir neçə on milligal intensivliklə). Aşağıdakı şəkillərdə E.E. Fotiadi [5] tərəfindən göstərilən duz cümbəzi üzərində müşahidə olunmuş qravitasiya sahəsi anomaliysının qrafiki proqram vasidəsi ilə müasir interfeysdə iki ölçülü və üç ölçülü variantda tərəfimizdən qurulmuş qravitasiya anomaliyası göstərilib (şək.1).

Duz cümbəzi diapir strukturunun qravitasiya təsirini qiymətləndirmək üçün ilk növbədə ikiölçülü duz cümbəzi strukturun kompyüterdə modeli qurulub və sonra Geofizika kafedrasında işlənib-hazırlanmış GTEOR –FORSE proqramı vasidəsi ilə profil boyunca ikiölçülü halda strukturun qravitasiya sahəsi hesablanıb [3-4]. Müvafiq qravitasiya əyrisini qurmaq üçün ilkin məlumatlar hazırlanıb və kompyuterdə hesablanma nəticəsində ağırlıq qüvvəsinin şaquli Vz təşkiledicisinin əyrisi və qurulmuş modelin müqayisəvi təsviri alınmışdır (şək.2). Göründüyü kimi Vz əyrisi mənfi qiymətləri ilə səciyələnir və duz cümbəzi üzərində amplitudu təqribən 12 mQal -la yaxınlaşır. Qed etmək lazımdır ki strukturun izafı sıxlığı -0,2 q/sm^3 qəbul olunmuşdur.



Şək.1. Duz cümbəzi üzərində müşahidə olunmuş qravitasiya sahəsi anomaliysının 2D (a) və 3D (b) xəritələri



Şək.2. Duz cümbəzi üzərində Vz əyrisi

Nəticələr:

1. Net və qaz cəhətdən perspektiv olan diapir strukturların geoloji mənşəyi və qravitasiya sahəsində minimum şəklində əksi olunması və qravikəşfiyyat üsulu üçün axtarışın dağa səmərəliyi göstərilib.

2. Duz cümbəzi diapir strukturu üzərində müçahidə olunmuş qravitasiya sahəsi anomaliysının qrafiki proqram vasidəsi ilə müasir interfeysdə iki ölçülü və üç ölçülü variantda qravitasiya anomaliyaları xəritələri qurulub.

3. Geofizika kafedrasında işlənib-hazırlanmış GTEOR –FORSE proqramı vasidəsi ilə profil boyunca iki ölçülü duz cümbəzi diapir strukturun modelindən hesablanmış müvafiq qravitasiya əyrisi müasir interfeysdə qurulub.

ƏDƏBİYYAT SİYAHISI

1. Hieke, W. , Werner, F. and Schenke, H. W. Geomorphological study of an area with mud diapirs south of Crete (Mediterranean Ridge) , Marine geology, 132 , 1996, pp. 63-93 .

2. Huang B.J. et al. Spatial distribution and geochemistry of the nearshore gas seepages and their implications to natural gas migration in the Yinggehai Basin, offshore South China Sea Marine and Petroleum GeologyVolume 26, Issue 6, June 2009, pp. 928-935.

3. Iskenderov E.G. Digital estimation of the gravitational effect of the crystalline basement of the Yevlakh-Agjabadi Basin (Middle-Kur Depression Azerbaijan National Akademy of sciences. ANAS TRANSACTIONS EARTH SCIENCES Geology and Geophysics institute. ISSN 2218-8754 , 2023 , № 1. (Elservier-Scobus),pp. 17-24.

4. Дмитриева В.И. Вычислительная математика и техника в разведочной геофизике: Справочник геофизика, М. Недра , 1990, 498 с.

5. Миронов В.С. Курс гравиразведки. М. Недра, 1972, 511 с.,

TÜLALAR QIZIL YATAĞININ İŞLƏNMƏSİNDƏ ÇIXARIB YÜKLƏMƏ İŞLƏRİNİN TƏŞKİLİ

t.e.n., dos. Əliyeva M. H., Yaqubov Ş.M.

maral.aliyeva.5252mail.ru; semseddin.yaqubov@gmail.com

Xülasə

Çıxarma və yükləmə işləri faydalı qazıntının açıq üsulla istismarı zamanı mədəndə əsas texniki proseslərdən biri hesab olunur. Azərbaycanda və dünyanın bir çox ölkələrinin də açıq mədənlərində çıxarıb-yükləmə maşını kimi bir çömçəli ekskovatorlardan istifadə etməklə tsiklik texnologiya tətbiq olunur. İşlənmiş yataqların hasilat şəraitinin geniş şəkildə mürrəkəbləşməsinə,yataqların dərinliyinin artmasına və digər əlverişsiz amillərin çox olmasına baxmayaraq,bir çömçəli ekskovatorlardan istifadənin miqyası artır. Mədən-nəqliyyat sistemlərinin səmərəliyinin artırılmasının köklü yollarından biri də avtomobil nəqliyyatı və yükləmə-boşaltma texnikasının hərəkət heyətinin texniki cəhətdən təkmilləşdirilməsi, qabaqcıl texnologiyanın tətbiqi,mədən nəqliyyat işlərinin təşkilinin təkmilləşdirilməsidir. Çıxarma-yükləmə işlərinin təşkili dedikdə, mədəndə partladılmış dağ kütləsinin uyğun olaraq, filizin filiz anbarlarına boş süxurlaın tullantıxanalara nəql olunması nəzərdə tutulur. Faydalı qzıntıların açıq üsulla çıxarılmasının texnoloji prosesinin tələbləri yatağın işlənməsinin müxtəlif geoloji, mədən-texniki və iqlim şəraitlərində yüklənmiş yükləmə və nəqliyyat avadanlığının optimal birləşməsini təmin edir. Son illərdə ekskovator avadanlıqlarının davamlı olaraq yenilənməsinə baxmayaraq, ekskovator avtomobil komplekslərinin və ümumilikdə mədənçıxarma müəssisələrinin məhsuldarlığının artırılmasında əsas amil kimi məhz texnoloji avtomobil parkının yenilənməsidir. Açıq mədən işlərinin texniki-iqtisadi göstəriciləri bütövlükdə yükləmə və daşınma əməliyyatlarının keyfiyyətindən asılıdır,ona görə ki hal hazırda nəqliyyat xərcləri faydalı qazıntıların hasilatı üzrə ümumi xərclərin 50%-dən çoxunu təşkil edir.

Açar sözlər: dağ-mədən, faydalı qazıntı yataqları, tülalar qızıl yatağı, ekskovator, çıxarıb yükləmə işləri, süxurların nəqli.

Ökəmizdə qeyri-neft sektorunun inkişafı məqsədi ilə 11 fevral 2015-ci il tarixində "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti yaradılıb. Onun təsis edilməsi Azərbaycanda dağ-mədən sənayesinin inkişafı üçün yeni perspektiv imkanlar açmışdır. İqtisadiyyatın inkişafı üçün mineral ehtiyatların tədarükünə nəzarət dünyanın əksər ölkələrində həmişə həyati proses hesab edilmişdir. Mədən müəssisələrinin dövlət və ya özəl olmasından asılı olmayaraq, dağ-mədən sənayesi həmişə dövlətin əsas aparıcı sahərələrindən biri olmuşdur. Filizlərin əlvan metalların açıq üsulla çıxarılması ölkəmizin dağ-mədən sənayesinin inkişafının ümumi istiqaməti və böyük innovativ layihələrin tətbiqi üçün ən etibarlı tramplindir. Açıq mədən işlərinin inkişaf prespektivləri mədən əməliyyatlarının və avadanlıqlarının texnologiyalarının optimallaşdırılması, müxtəlif resurslara qənaət edən, az itgili və resurs bərpa edən texnoloji proseslərin rasional birləşməsi prinsiplərinin işlənib hazırlanması ilə bağlıdır. İlk növbədə faydalı qazıntıların çıxarılmasının idarə edilməsi üçün avtomatlaşdırılmış sistemlərin və üsulların, o cümlədən avtomatlaşdırma, mexanikiləşdirmə, naviqasiya və digər sahələrdə yüksək texnoloji innovativ inkişaflar əsasında yaradılmış robot-mədən avadanlığının istifadəsi də daxil olmaqla,geniş tətbiqini təmin edir.

Tülalar qızıl yatağı Göygöl rayonunun eyni adlı kəndində yerləşir. Yatağ SSRİ dövründə kəşf edilib,lakin tədqiqat işləri geniş şəkildə aparılmamışdır. Yataqda ‘‘AzerGold" QSC-i tərəfindən 2017 ci ildə yenidən kəşfiyyat işləri aparılmış və ehtiyyatı (80 ton qızıl, 250 ton gümüş) hesablanmışdır. Yataq 11 fevral 2023-cü il tarixində açıq mədən üsulu ilə işlənməyə başlanmışdır. Tülalar yatağında süxurların yer təkindən çıxarılması partlayış üsulu ilə həyata keçirilir. Yatağda pillələrin hündürlüyü H=2.5 metrdir. Buna səbəb isə tülalalar mədəninin damar tipli olması və yarana bilən kasıblaşmanın qarşısının alınmasıdır. Partlayış

şəbəkəsi $3 \times \mathbf{2.5}$ nisbətində qurulur. Partlayış quyularının dərinliyi əlavə qazma dərinliyin də hesablamaqla 3 metr civarında qazılır. Yatağda Anfo, D-cord, Ac-25P-90 kimi partlayıcı maddələrdən istifadə olunur. Partlayış işlərində oyadıcı kimi elektrikli kapsul detonatorlardan istifadə olunur. Yataq üzrə illik filiz tonajı 470 min ton, tullantının illik miqdarı isə 910 min ton təşkil edir. Mədən açıq üsülla işlənərkən ekskovator-avtomobil komplekslərinin məhsuldarlığının müəyyən edilməsi problemi faydalı qazıntı yataqlarının işlənilməsi zamanı xüsusilə aktualdır. Ekskovator seçilərkən ilk öncə əməliyyat şəraiti, mühərrikin gücü, kovuşun tutumu və mədənin məhsuldarlığı nəzərə alınır. Tülalar yatağında çıxarma yükləmə işləri CAT (CATERPILLAR), HYUNDAİ markalı kovuşunun tutumu 3 m^3 dən az olan yükləyicilər vasitəsilə həyata keçirilir. Mədəndə daşıma avadanlığı kimi kuzasının tutumu 25 ton olan avtoözüboşaldanlardan istifadə olunur. Mədəndə hasil olunan filiz kütləsi Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) çən aşındırma üsulu ilə emal olunur.

CAT 374 birçömçəli yükləyicinin növbəli məhsuldarlığı aşağıdakı düstur vasitəsilə təyin edilir:

$$\boldsymbol{Q = \frac{3600ETnKdKv}{TdKx} = \frac{3600 \cdot 4 \cdot 7 \cdot 1.2 \cdot 0.5}{52 \cdot 1.5} = 776t}$$

Şək.1.1 Cat-374 ekskovatoru

NƏTİCƏ

Amerikanın Caterpillar şirkəti dağ-mədən avadanlıqlarının istehsalında dünya lideridir.Şirkət bazara həm yüksək ixtisaslaşdırılmış, həmçinin də çoxfunksiyalı maşınlar təklif edir. Aparılan hesablamalardan belə nəticəyə gəlmək olar ki, tülalar yatağında, Caterpillar şirkətinin çömçəsinin tutumu 4 m^3 olan CAT-374 ekskovatorundan (şək.1.1) istifadə etməklə çıxarıb yükləmə işlərində məhsuldarlığın yüksəlməsinə nail olmaq olar.

ƏDƏBIYYAT SIYAHISI

1. https://azergold.az/layihe/tulallar-yatagi-tulallar-qizil-yatagi
2. Грязнов М.В., Колобанов С.В. РЕСУРСЫ ПРОИЗВОДИТЕЛЬНОСТИ ЭКСКАВАТОРНО-АВТОМОБИЛЬНОГО КОМПЛЕКСА. *Мир транспорта*. 2013;(3):96-102.
3. Griaznov M.V., Kolobanov S.V. PRODUCTIVITY RESOURCES OF EXCAVATOR AND TRUCK COMPLEX. *World of Transport and Transportation*. 2013;(3):96-102. (In Russ.)
4. https://cyberleninka.ru/article/n/rol-gosudarstva-v-gornoy-promyshlennosti
5. https://www.sfera-khv.ru/stati/vidy-konstrukciya-i-tyuning-ekskavatornyh-kovshej
6. https://www.zeppelin.ru/products/arkhiv/brand-cat/374/

GÜRGAN-DƏNİZ SAHƏSİNDƏ NİSBİ İMPEDANS SEYSMİK ATRİBUTUNUN ANALİZİ İLƏ MƏHSULDAR QATIN ALT LAY DƏSTƏLƏRİNİN PERSPEKTİVLİYİNİN PROQNOZLAŞDIRILMASI

Əsədli Əmikişi
amikishiasadli@gmail.com

Xülasə: Məqalədə Gürgan-dəniz sahəsinin coğrafi mövqeyi, sahənin xarakterik göstəriciləri, bu sahədə görülmüş işlər barəsində məlumatlar verilmişdir.

Gürgan-dəniz strukturunun tektonik cəhətdən quruluşuna baxarkən onun bir qanadının digərinə nisbətən intensiv qalxması, eləcə də horizontal qüvvələrin təsirindən cənub-qərb qanadının şimal-şərq qanadın üstünə gəldiyi və strukturun nüvəsinin eroziyaya məruz qaldığı bildirilir.

Gürgan-dəniz strukturunun şimal-qərb, cənub-şərq istiqamətində uzanan braxiantiklinal qırışıq olduğu məlumdur. Strukturun tektonik baxımdan Cənubi Pirallahı qırışığının cənub-şərq periklinalının davamı olduğu və ondan eninə qırılma ilə ayrıldığı bilinir.

Bu sahənin neft-qazlılığı əsasən QA və QD (alt hissəsi) dəstələri ilə əlaqədar olduğu, qırışığın cənub-qərb qanadında QaLD dəstəsinin isə neftlə daha zəngin olduğu vurğulanır. Burada neftli zolaq dar formada şimal-qərb istiqamətində uzanır.

Gürgan-dəniz sahəsinin seysmogeoloji cəhətdən mürəkkəb səthi və dərinlik seysmogeoloji şəraitə malik olduğu məlumdur. Strukturun tağ hissəsində dalğa sahəsinin mürəkkəbləşməsi qeyd olunur. Bunun da səbəbi dizyunktiv dislokasiyalar hesab olunur. Seysmik dalğaların sinfaz oxları əksər hallarda strukturların qanadlarında, sinklinal hissələrdə və periklinallarda qeydə alınır

Gürgan-dəniz sahəsi üzrə kollektorların yayılma arealının proqnozlaşdırılması məqsədilə 3D seysmik məlumatlar üzrə atribut analiz barədə məlumat verilmişdir. Bu analizlərin nəticələrinə əsasən Məhsuldar qat çöküntü

kompleksinin uyğun yatıma malik olması deyilir. Analizlərin digər nəticələrinə görə buradakı əsas strukturların antiklinal və sinklinal olduğu qeyd olunur. Onların ölçüsü, forması isə dərinlikdən asılı olaraq o qədər də böyük ölçüdə dəyişmir.

Tədqiqat aparılan ərazidə 3D zaman və dərinlik kubunda Maykop çöküntülərinin səthindən aşağıda, təxmini olaraq Mezozoy kompleksi (Təbaşir) çöküntülərinə müvafiq olan 5650 – 7050 m intervalda əksolmalar görülmüşdür. Onlar müntəzəm xarakter daşımadıqları üçün, sahə boyunca onu hissə-hissə izləmək mümkündür və o sahəvi olaraq xəritəyə alınmışdır.

Beləliklə, 2019 – cu illərdə işlənmiş olan 3D seysmik məlumatları və quyu məlumatlarını toplamaqla araşdırılması nəticəsində üst Təbaşir və alt Pliosen çöküntüləri üzrə 10 səviyyədə struktur xəritələr tərtib olunmuşdur. Gürgan dəniz strukturunun tektonik quruluşu geoloji dəyərləndirmə nəticəsində dəqiqləşdirilmişdir.

Açar sözlər: Atribut analiz, litoloji xüsusiyyətlər, üçölçülü (3D) seysmik kəşfiyyat, RMS atribut, nisbi-akustik impedans, kollektorluq xüsusiyyətləri.

Giriş: Gürgan-dəniz sahəsində kollektorların paylanma arealının proqnoz edilməsi məqsədilə 3D seysmik məlumatları üzrə atribut analiz aparılmışdır.

Bu analizin fiziki əsası seysmik dalğaların dinamiki parametrləri (amplituda, faza, tezlik və s.) və süxurların litoloji göstəriciləri ilə əlaqədardır. Süxurların kollektorluq parametrləri ümumilikdə çöküntülərin sonrakı geodinamiki şəraiti ilə və çöküntülərin genetik parametrləri ilə bağlıdır.

Layların akustik sərtlikləri arasında fərq çoxaldıqca, onların arasındakı sərhəddən əksolunan dalğanın amplitud qiyməti artır. Dalğanın tezlik parametri isə layların qalınlığından və onları təşkil edən süxurların litoloji göstəricilərindən asılıdır.

Üçölçülü seysmik məlumatlardan müxtəlif seysmik atributlar (seysmik yazının amplitudası və tezliyinə görə) hesablanmış, quyu və kern məlumatları ilə

müqayisə olunmuş və ümumi sahə üçün mühitin uyğun göstəriciləri qiymətləndirilmişdir.

Burada 3D kubu üzrə hesablanmış seysmik atributların (RMS Amplitude, Variance, Chaos, Real Acoustic impedance), quyularda aparılmış sınaq işlərinin, quyu geofiziki tədqiqatlarının nəticələri birlikdə kompleks formada təhlil olunmuş və yaxşı kollektorluq xüsusiyyətlərinə malik olan areal aşkar olunmuşdur.

Bu məlumatlardan danışarkən, onu da qeyd etmək lazımdır ki, bu göstəricilərin
hesablanması üçün 0-4400 msan zaman aralığında yerləşən seysmik məlumatlardan istifadə olunmuş və hesablanmış seysmik atributlar təsvir edilmişdir.

Amplitudaların sahə boyunca dəyişməsi 3D seysmik məlumatları üzrə təqdim olunmuşdur və bu məqsədlə hesablanmış RMS atribut analizindən istifadə olunmuşdur. Bu analizin nəticələrinə görə hesablanmış amplitudaların yüksək qiymətləri qumla zəngin fassiyalara, aşağı qiymətləri isə gillə zəngin fassiyalara uyğun hesab olunmuşdur. Bu da öz növbəsində atributun kəsilişdə qum/gil nisbətinin dəyişməsinə nə dərəcədə həssas olduğunun nümunəsidir.

Gürgan-dəniz sahəsində bir eninə xətt üzrə 3D zaman kubu üzrə hesablanmış RMS atributuna (şəkil 1) əsasən amplitudaların yüksək qiymətləri $QaLD_{ü.g.ü}$-nin daxili çöküntülərinə görə, Gürgan-dəniz quyular zonasında və $QaLD_{ü.g.a}$ daxili çöküntüləri üzrə isə sahənin ŞmŞq zonasında qeydə alınır.[1]



Şəkil 1. 3D zaman kubu üzrə hesablanmış *RMS* atributu

Əldə olunan bu görüntü digər eninə xətt üzrə də təkrarlanır. Belə ki, quyular ətrafında Qala horizontu üzrə orta qiymətli lokal obyektlər qeydə alınır. Strukturun şimal-şərq qanadında, üstəgəlmənin aşağı hissəsində RMS atributunun yüksək qiymətləri Qırmakialtı və Qala lay dəstələrinin çöküntüləri ilə izlənilir.

Tədqiqat aparılan strukturun cənub-qərb şimal-şərq tərəfindən keçən eninə xətt boyu bir neçə lokal obyektlər qeydə alınır. RMS atributuna əsasən hesablanmış amplitudaların orta qiymətləri Qırmakialtı, Qala və Miosen horizontlarına görə bir neçə ədəd quyuların rayonunda, üstəgəlmənin aşağısındakı qanadda isə Qırmaki və Qala horizontlarının yüksək qiymətləri izlənilir.

3D zaman kubu üzrə RMS atributuna görə hesablanmış uzununa və eninə xətt amplitudaların yüksək qiymətləri quyular rayonunda Qırmaki və Qırmakialtı çöküntüləri daxilində lokal obyekt şəklində müşahidə olunurlar.

Başqa bir uzununa xəttin zaman kəsilişinin şimal-qərb hissəsində quyular rayonunda qırılmalarla məhdudlaşmış hissəsində amplitudaların orta qiymətləri

Qala horizontuna əsasən, yüksək qiymətləri ilə isə Miosen horizontunda izlənilir. Onu da deyə bilərik ki, bu quyular Qala çöküntülərindən məhsul vermişdir.

Nisbi akustik impedans – Relative Acoustic İmpedance (RAİ). Göstərilən bu atributdan istifadə etməklə, layların sərhədlərində fərz olunmuş akustik təzadlığı, layların yatma ardıcıllığını, uyğunsuzluq səthlərini, qırılmaları görmək mümkündür. Eyni zamanda, süxurların məsaməliyini və ya laylarda flüidlərin saxlanılmasını da göstərmiş olur. Eninə xəttə baxan zaman görürük ki, Qırmakialtı və Qala horizontuna əsasən məhsul vermiş quyuların arasında, Qala lay dəstəsi daxilində linzavari tələ qeydə alınır.

Burada *Chaos* atributu kəsilişi qırılmaların və dizyunktiv dislokasiyaların indikatoru kimi çıxış edir. Onu adi zaman kəsilişi ilə müqayisə edək. Adi zaman kəsilişi ilə baxılan zaman izlənilməsi çox çətin olan və ya mümkün olmayan kiçik amplitudalı qırılmalar, həmin bu Chaos atribut kəsilişində aydın formada seçilir və rahat izlənilir.

Chaos atribut kəsilişini istifadə etməklə, horizontların fasiləli izlənilməsi aparılır və bunun da nəticəsində kiçik amplitudaya malik olan qırılmaların aşkar olunub korrelyasiya edilməsinə şərait yaranır. Burada Chaos atributlarından başqa, *Ant tracking* və *Variance* atributları 3D kubunda dalğa mənzərəsindəki dəyişikliklər, anomaliyaların mövcud olması, çatlılıq və ümumilikdə dizyunktiv dislokasiyaların mövcud olması haqqında dəqiq məlumatlar alınır.

Digər atribut analizlər nəticəsində alınmış olan zaman kəsilişlərində müşahidə olunan əksər kiçik amplitudaya malik qırılmalar və çatlar Ant tracking və Variance atribut kəsilişlərində də özünü göstərmişdir.

Nəticə: Aparılan hesablamalar nəticəsində görürük ki, 3D zaman kubu üzrə hesablanmış RMS atributunun yüksək qiymətləri adətən kəsilişin aşağı hissəsində Qala və Qırmaki horizontlarında müşahidə olunur. Həmin atributların orta qiymətləri isə Qırmakialtı horizontuna əsasən qeyd olunur. Ərazinin şimal-şərq

hissəsində, yəni quyu ərazisində isə Miosen çöküntüləri üzrə atributların yüksək qiymətlərinə lokal formada rast gəlmək mümkündür. [2]

Beləliklə, RMS atributunun yüksək qiymətləri əsasən həmin strukturun şimal tağyanı hissəsində (üst qanad) Qala lay dəstəsinin daxili quruluşunu əks elətdirən çöküntülər üzrə Qırmaki, orta qiymətləri isə Qırmakialtı horizontları boyunca qeydə alınır. Həmçinin Gürgan-dəniz sahəsinin şərq tərəfində üstəgəlmənin altındakı qanadda Qırmakialtı və Qala çöküntülərinə əsasən izlənilir. Məhsuldar qatın alt şöbəsinin horizontlarından başqa, eləcə də sahənin şimal-qərb hissəsində Miosen çöküntüləri üzrə də atributların yüksək qiymətlərinə lokal formada rast gəlmək mümkündür. Bu da Məhsuldar qatın altında yatan çöküntülərin də perspektivli olmasına bir işarədir.

ƏDƏBİYYAT SİYAHISI

etməlidirlər. Bir çox lift quyularında süni qaldırma prosesini "başlamaq" üçün yaxınlıqdakı quyulardan və ya boru kəmərlərindən əlavə qaz çəkilir.Quyu qazlift sisteminin həcm tələblərini ödəmək üçün kifayət qədər qaz hasil etmirsə, əlavə qaz satış xəttindən və ya ona bitişik quyudan gətirilə bilər.



Şəkil 1 Qazlift prosesinin sxematik təsviri

Kompressor Aşağı təzyiqli təbii qaz sıxılır və quyu dibində təzyiq və həcm tələbləri yerinə yetirilərsə, enjeksiyon xəttinə daxil olacaq və ya digər klapan vasitəsilə yenidən istiqamətləndiriləcəkdir.



Şəkil 2 Qaz injeksiya kompressoru

Qazın injeksiya klapanı(nəzarət klapanı) Qaz vurma klapan təbii qazın quyuya axmasına nəzarət etməyə kömək edir. Yüksək təzyiq tənzimləyici



klapanları bu tətbiqdə istifadə olunur və pnevmatik və ya elektriklə idarə oluna bilər.

Şəkil 3. Qaz injeksiya klapanı (nəzarət klapanı)

Qazlift klapanı Qaz boruya daxil olur və qaz qaldırıcı klapanlara enir və NKB-nın içərisinə daxil olur. Qazlift klapanlarının əksəriyyəti müəyyən edilmiş qaz təzyiqinə reaksiya olaraq açılır. Quyudakı təzyiq (P) klapan daxilində yivləri sıxır və klapanı açaraq quyudakı mayeni qaldırır.



Şəkil 4. Qazlift klapanı

Sıxılmış qaz, qaz qaldırıcı klapan vasitəsilə boruya daxil olduqda, genişlənən qazın enerjisi nefti quyuağzına qaldırır. Qaz həmçinin maye sütununu havalandırır, onun sıxlığını azaldır və daha az təzyiqlə daha asan axmasına imkan verir. Quyuağzından aşağıda fasilələrlə quraşdırılmış əlavə qaz qaldırıcı klapanlar var. İstehsalın başlanğıcında, bu "boşaltma" klapanları ilkin qaz qaldırıcı klapandan yuxarı qalxmış maye sütununun sıxlığını azaltmaq üçün istifadə olunur.Bu “işləyən klapan” qazı quyunun ən dərin nöqtəsinə vurur. Bu proses quyunun başlanğıcı və ya quyudakı maye sütununun azaldılmasında böyük rol oynayır.

Daimi klapan - Daimi klapan mayenin lay qatına çıxmasına imkan vermir , bütün mayenin borularda qalmasını təmin edir. Bununla belə, daimi klapan qaz və mayelərin rezervuardan boruya daxil olmasına imkan verir.

Paker Qablaşdırıcı quyunun iki kamerası - boru kəməri və korpus arasında əlaqə yaradan bir cihazdır. Bu vurulan qazın laya və ya istismar borusunun sonuna keçməsinə mane olur. Eyni zamanda təzyiqi tənzimləyir.



Şəkil 5. Daimi klapan

Nəticə- Nəticə olaraq,neft və qaz hasilatında qazlift sistemlərinin tətbiqi sərfəli süni üsullar təklif edir. Minimal xərclər, minimal quyu avadanlığının yığcam olması ona edilən texniki qulluq və dəyişdirmə dinamikası ilə qazlift sistemləri istehsal dərəcələrini səmərəli şəkildə artırır. Müxtəlif quyular şərtləri üçün davamlı və fasiləli qaz çıxarılma üsullarının tətbiqi nəticəsində bu üsulların müsbət və mənfi cəhətləri müəyyən olunur.Bunun nəticəsində də qazlift sistemləri müəyyənləşdirilir. Ümumiyyətlə, qazlift sistemlərinin neft və qaz hasilatı proseslərinin optimallaşdırılmasında mühüm rolu bu üsulun tətbiqi ilə daha aydın görünür.

ƏDƏBİYYAT SİYAHISI

1. Blann, J.R. and Williams, J.D. 1984. Determining the Most Profitable Gas Injection Pressure for a Gas Lift Installation (includes associated papers 13539 and 13546). J Pet Technol 36 (8): 1305-1311. SPE-12202-PA. http://dx.doi.org/10.2118/12202-PA.

2. Gas Lift, Book 6 of Vocational Training Series, third edition. 1994. Dallas, Texas: API, E&P Dept.

3. Vogel, J.V. 1968. Inflow Performance Relationships for Solution-Gas Drive Wells. J Pet Technol 20 (1): 83–92. SPE 1476-PA. http://dx.doi.org/10.2118/1476-PA.

4. Poettmann, F.H. and Carpenter, P.G. 1952. The Multiphase Flow of Gas, Oil and Water Through Vertical Flow Strings. Drilling & Prod. Prac., 257.

MPD - MANAGED PRESSURE DRİLLİNG

Hilal Məmmədov Fərrux

hilal.mammadov@outlook.com

ABSTRACT

Managed Pressure Drilling – general term for controlling the mud circulation to optimize the bottom-hole pressure. The annular pressure profile across the wellbore is accurately controlled using the drilling technique known as managed pressure drilling (MPD). To be able to modify and regulate the annual pressure profiles downhole, additional equipment and technology systems are included into standard drilling systems. Fewer pressure fluctuations and better well control are the results of MPD's ability to manage bottom hole pressure more precisely. There are various MPD approaches as well as three basic MPD categories. The capacity to regulate and modify the annular pressure profile is a feature of all MPD techniques.

Key words: mpd, mud weight, bottom-hole pressure, rotating control device, choke.

1. MPD operational principles.

Managed Pressure Drilling relies heavily on the use of a Rotating Control Device (RCD), which is a major component in providing a closed, pressurized system. This enables greater control v over fluids entering and leaving the well as well as the ability to apply a steady bottom-hole pressure. Along with maintaining the bottom-hole pressure constant (equal to, or slightly greater than formation pressure), volume management is a crucial aspect of well control.

All rig types—including land rigs, jack-up rigs, tender rigs, semi-submersibles (DP / Moored), and dynamically positioned drill ships—are compatible with MPD. For the drilling industry, both onshore and offshore, to meet the rising needs and problems, MPD is becoming more prevalent and, in some cases, a requirement. If the well has very small margins between allowing

an inflow (kick) or destabilizing the formation, if there is a significant danger of flowing because of the well's characteristics, or if we anticipate issues like differential sticking, it can be very helpful.



The rotating control device and choke manifold make up the MPD system's basic setup. The RCD directs flow into the MPD choke manifold while maintaining system closure. To provide back pressure and enable pressure adjustments as needed, the choke is utilized. The automated opening and shutting of the choke helps to maintain the pressure profile inside the pressure window.

2. MPD applications.

The technique of managed pressure drilling depends on the application. The success of the projects for planned controlled pressure drilling depends on having the bare minimum of necessary tools, know-how, and resources. The drilling business is expanding into more difficult reservoirs and locations and encountering several difficulties during operations. Such projects as depleted reservoirs, high pressure, high temperature wells, and extended reach wells can be handled with the aid of MPD.

Depleted reservoir drilling

Due to preserving the overbalance at the high pressure formation, drilling through a depleted zone that is above or below a high pressure formation may

result in differential sticking or loss of returns. employing the control bottom hole pressure concept, drilling operations may be carried out more successfully by employing the MPD technique.

HPHT Drilling

Due to the significant demand for sophisticated planning and equipment, HPHT wells are among the most difficult wells to drill. The low level or restricted kick tolerance is one of the characteristics of HPHT wells. The high pressure blow preventer, which may be enabled or engaged as necessary, is retained beneath the MPD control stack in the MPD for HPHT application.

Extended Reach Drilling

One of the several kinds of directional wells is the extended reach well. The short depth of the kick-off point and the significant horizontal departure, which can surpass at least twice the well's entire vertical depth, are its defining features.

Numerous operational difficulties, including torque and drag, casing design, and hole cleaning, have been brought on by the characteristics of the extended reach well.



One of the major factors in the success of the ERD project is controlling the annular frictional pressure.

3. Types of MPD Techniques

Constant Bottom Hole Pressure (CBHP):

To keep the bottom hole pressure constant in CBHP MPD, the drilling fluid density is adjusted in real-time in response to changes in formation pressure. This technique is appropriate for unstable rocks and allows for efficient drilling without wellbore collapses.

Pressurized Mud Cap Drilling (PMCD)

PMCD is employed while navigating rough terrain with a high chance of kicks. While drilling, influxes can be prevented by keeping a pressured mud cover above the formation.

Dual Gradient Drilling (DGD)

When adopting DGD, a lower-density drilling fluid is utilized in the riser and a higher-density mud is used in the wellbore. When drilling through narrow pressure windows or overcoming severe wellbore instability, this technique performs very well.

4. Advantages of MPD

MPD increases efficiency and reduces costs.

Compared to conventional drilling techniques, MPD turned out to be a generally superior solution. One provider provided services for the operational design of the system, remote technical assistance, and on-site well delivery.

Density requirements for drilling fluid were lowered to 9 to 9.5 lbm/gal. It made it possible to streamline processes, which improved hole cleaning and sped up ROP. Due to the significantly lower weight needed for the activities, less mud additives were used.

MPD can be used to reduce well construction times.

Any exploration, appraisal, or field development team would find it tempting to deploy MPD to speed up well building given the high cost of rigs in today's market. The MPD technology may, to some extent, lessen the damage of

drilling fluid-related formations, and by the decrease of mud weight, it can lessen the expense of mud losses as well as the associated lost productivity time.

Minimized Environmental Impact

The regulated pressure environment at MPD helps to avoid wellbore influxes and losses, lowering the potential for environmental contamination. By eliminating fluid and gas losses, MPD drilling keeps drilling operations safer and cleaner.

Improved Wellbore Stability

The ability of MPD to maintain the wellbore pressure within a restricted range significantly reduces the possibility of formation damage and wellbore instability. Due to fewer lost circulation difficulties, downtime and associated expenses are decreased.

5. Limitations of MPD

Managed pressure, however, is a difficult technique, and regrettably, in comparison to other drilling methods, it is still sometimes seen as a "niche" operation. Because of this, it occasionally requests assistance from independent contractors. Fortunately, more and more teams are becoming proficient in controlled pressure drilling techniques as technology advances and use rises.

Conclusion

Managed pressure drilling (MPD) has become a game-changing approach in the oil and gas industry, enabling companies like Vertechs to successfully solve the constraints of modern drilling operations. As MPD offers improved wellbore stability, enhanced drilling efficiency, and low environmental effect, it is without a doubt a game-changer. Adopting and perfecting MPD drilling will be essential as the industry grows if well-drilling operations are to remain lucrative and durable in the future.

REFERENCES

1. https://www.enhanced-drilling.com/managed-pressure-drilling

2. https://www.maersktraining.com/what-is-mpdw/
3. https://www.stena-drilling.com/we-innovate/mpd-managed-pressure-drilling/
4. https://www.drillingcourse.com/2021/10/managed-pressure-drilling-basics-and.html
5. https://www.katchkan.com/rsrc/managed-pressure-drilling-and-drilling-fluid-containment/

MULTILATERAL WELL APPLICATION IN AZERBAIJAN

Mammad Karimov; Aytan Nabiyeva

E-mails: karimovmammad00@gmail.com; aytan.nbyva@gmail.com

Abstract

The purpose of this study is to provide broad information on multilateral drilling and its primary techniques. Topic materials for the study project were acquired from many sources and articles specified in the reference section. The introductory section provided complete knowledge regarding multilateral drilling, while the following sections examined multilateral application and its merits and demerits.

Keywords: multilateral, drilling, completion, TAML, recovery, reservoir, production

Introduction

Companies in the oil business are increasingly emphasizing multilateral completions, such as different drainage holes or branches drilled from a single main borehole, in their pursuit of optimum production, cost reduction, and maximum resource recovery. Since the late 1980s, there has been a significant expansion in the usage of multilaterals, similar to what happened around ten years ago with horizontal wells. This rise has been driven by a substantial number of applications, and the wells have ranged in sophistication from basic open hole sidetrack to wells where the branches may be selectively re-entered or separated. These types of completions are suitable for more than 10% of the 74,000 new wells drilled each year. [1] When compared to a single bore well, having numerous laterals increases production by making contact with a wider reservoir drainage area. In certain cases, multilateral technology outperforms other completion methods, like standard vertical and horizontal wells or fracture simulation treatments. This method is typically the most cost-effective approach to extracting

resources from remote satellite fields, segregated reservoir compartments, and tiny reservoirs with low reserve volumes.

In the 1990s multilateral technology began to gain popularity and a group of experienced experts founded an organization called Technology Advancement Multilaterals (TAML). Eric Diggins hosted the first official meeting of the institution in Aberdeen, Scotland, in 1997. One of the most important outcomes of this conference was the classification of TAML codes (see Fig.1) and the establishment of a "commutual terminology" for workers in this sector and service providers to use while discussing multilateral completions.



Figure 1. TAML classification [1]

Historical overview of Multilateral wells

The perception of multilateral drilling has a long history. In 1929, the first patent for the whipstock for directional drilling technology was obtained in the

United States. The development of directional drilling with turbodrills in the FSU[1] began in the late 1930s. The first directed cluster drilling experience was achieved in the Perm area in the 1940s. As a result, horizontal drilling and multilateral well drilling technologies were developed. M. Alexander, a Soviet drilling engineer, invented and successfully utilized multilateral techniques, as well as other recent innovations in the oil business, for the first time at the FSU in Bashkiria in 1953. The world's first completely multilateral well with nine branches increased pay zone exposure fivefold and produced seventeen times more.

Another significant improvement occurred in 1997-1998 when Multilaterals Technical Progress, an industry consortium, developed a nomenclature method for the multilateral well that became the industry standard, and more detailed information will be presented below.

Advantages and disadvantages of multilateral wells

Numerous separate reservoirs could be accessed only from single mother wellbore via using multilateral technology. This technology offers the advantage of horizontal wellbores being less expensive than individual horizontal wells. The primary benefit of multilateral wellbores is the greater exposure area to the reservoir that can be obtained with a single wellbore. The primary goal of the multilateral drilling project is to boost the total production rate.

The following are the primary advantages of ML wells:

- Avoiding geological hazards include fractures, salt domes, and shale layers.
- Cost and time savings: instead of digging a new well, drilling many laterals will provide us with a benefit over vertical wells.
- Extending the depletion area increases reserves and recovery factor.
- Water/gas breakthrough time is delayed because the laterals are located inside the producing formation, which isolates them from both the

[1] Former Soviet Union

water/gas zone. As a result, gas/water breakthroughs can be prevented or limited. Furthermore, attaining consistent depletion will result in reduced pressure drawdown.

Aside from these benefits, there may be some drawbacks to multilateral drilling:

- Installation and retrieval of numerous key devices during or after drilling pose additional risks: It is exceedingly risky to install and remove multiple needed equipment during the drilling process or after the completion of multilateral wells. Whipstocks, packers, and other similar tools may be used.
- Controlling sand production in open-hole completions is extremely difficult. Sand control is difficult on all legs. Multilateral wells' mother borehole can be cased to limit sand production, but the legs that branch off the mother bore are open holes. As a result, it is difficult to manage the sand with the legs.
- The sophisticated multilateral wells technology makes modelling and prediction harder.
- Construction difficulty in maintenance and workovers

Multilateral application in Azerbaijan

Inspired from comprehensive use of multilateral wells in worldwide, this technology applied in Azerbaijan fields recently. SOCAR-AQS successfully completed the drilling and commissioning of the No 19 multilateral well in partnership with Baker Hughes and Halliburton services, which employed directional drilling. It was considered a pilot project for multilateral drilling in the South Caspian basin. The depth of the production casing is 668 meters. In the designation of completion in well No. 19, the third level of TAML is used, despite the fact that various scenarios were foreseen during the positioning of the cutting window interval in the production casing. Main objective of drilling multilaterals is to produce oil from QA and QD horizontals. Based on geological factors, the well is completed with an open hole with screens. Expandable packers are utilized

in well completion for more efficient production. As a packer fluid, brine is employed.

Concerning well No. 19, the well has been producing in natural flow since its inception, which explains the considerable decline in daily production thus far. Furthermore, sand generation has not yet been seen, but it is not unavoidable; so, screens in open holes can be employed for both the mother wellbore and lateral (TAML 3). Sand production is a significant problem for a well's productivity. It will result in an early water breakthrough. As a result, sand control equipment should be used. According to SOCAR engineers and supervisors, it is intended to begin well-maintenance measures in the near future to maintain reservoir pressure. Using the current completion procedure, the well will produce 114,000 tons of oil by 2040. The income from the drilled well is expected to be 1.5-3 times greater, and the CAPEX of the well does not differ considerably from other options, showing that drilling a variety of wells in the coming years will have a beneficial influence on economic efficiency.

Conclusion

As a result of this research paper, in the near future, it is assumed to be drilled another well near Well No 19 using multilateral drilling technology. In order to obtain better production efficiency and increase well drainage area, instead of using TAML-3 level, TAML-4 level can be utilized for improved well stability. As another suggestion, implementing advanced sand control techniques will lead to late water breakthroughs and therefore, increment in income will boost approximately 2-3 times.

References

[1] Fraija, J., Ohmer, H., Pulick, T., Jardon, M., Kaja, M., Paez, R., Sotomayor, G.P. and Umudjoro, K., 2002. New aspects of multilateral well construction. Oilfield Review, 14(3), pp.52-69.

[2] Pan, Y., Kamal, M.M. and Kikani, J., 2010. Field applications of a semi-analytical model of multilateral wells in multilayer reservoirs. SPE Reservoir Evaluation & Engineering, 13(06), pp.861-872.

[3] Lyu, Z., Song, X., Geng, L. and Li, G., 2019. Optimization of ML well configuration in fractured reservoirs. Journal of Petroleum Science and Engineering, 172, pp.1153-1164.

[4] Brister, R., 2000, November. Screening variables for ML technology. In International Oil and Gas Conference and Exhibition in China. OnePetro.

[5] Cavender, T., 2004, March. Summary of ML completion strategies used in heavy oil field development. In SPE International Thermal Operations and Heavy Oil Symposium and Western Regional Meeting. OnePetro.

[6] Ober Kircher, J.P., 2000, February. The Economic Viability of ML Wells. In IADC/SPE Drilling Conference. OnePetro.

[7] Durst, D.G., Hart, S.P. and Brown, W.H., 2002, September. Advanced Open Hole Multilaterals. In IADC/SPE Asia Pacific Drilling Technology. OnePetro.

[8] Bosworth, S., El-Sayed, H.S., Ismail, G., Ohmer, H., Stracké, M., West, C. and Retnanto, A., 1998. Key issues in ML technology. Oilfield review, 10(4), pp.14-28.

[9] Ahmadov, E. and Hajiyev, E., 2022. Assessment of Drilling Operation, and Efficiency of Multilateral Wells (Based on the West Absheron Field).

[10] Yanping, Z., Rongquan, R., Hui, W. and Jun, W., 2009. Multilateral drilling & completion technology based on Solid Expandable Tubular fixing system. Petroleum Exploration and Development, 36(6), pp.768-775

HASİLAT QUYUSUNDA DÖYÜNTÜLƏRİN QUYUDİBİ ZONASINDA SÜZÜLMƏ PROSESİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Kənan Fikrət oğlu Alıyev., Əlheydər Elçin oğlu Ağasıyev

kananaliyev.kn@gmail.com., agasiyeveliheyder@gmail.com

Xülasə. Məqalədə, müxtəlif səbəblərdən qeyri-stabil rejimdə işləyən neft və qaz quyularının quyudibi zonasında süzülmə prosesinin müntəzəm şəkildə dəyişməsi məsələsinə baxılmışdır. İstismar quyularında döyüntülərə səbəb olan quyuağzı və quyudibi parametrlərinin periodik dəyişməsi səbəbləri araşdırılmış və bu məsələ real quyular üzərində nəzərdən keçirilmişdir. Quyunun belə təbii iş rejimində istismarı zamanı quyudibi zonada süzülmə prosesinin müntəzəm şəkildə pozulması da nəzəri və praktiki məlumatlara görə əsaslandırılmışdır. Beləliklə, retroqrad kondensasiya nəticəsində dövrü olaraq maye ilə yüklənməyə məruz qalan qaz-kondensat quyusunun timsalında, yaranan döyüntülərin törədə biləcəyi fəsadlar qiymətləndirilmişdir.

Açar sözlər. Süzülmə qanunları, məsaməli mühit, quyudibi zona, hidrodinamik modellər, neft və qazın süzülməsi, quyu parametrləri.

Araşdırılan məsələnin mahiyyəti və onun əsaslandırılması.

Məlumdur ki, neft və qaz quyularında laydan yer üzərinə axın mürəkkəb hidrodinamikaya malik olur. Burada borunun yatma dərəcəsindən, qravitasiya və sürtünmə qüvvələrindən, əlavə lay flüidinin tərkibi və ayrı-ayrı fazalar və komponentlər arasında fiziki-kimyəvi münasibətlər də mühüm rola malik olur [1-3]. Axan çoxkomponentli və çoxfazalı qarışıqlarda boru divari ilə axan təbəqələr arasında sürtünmə qüvvələri və ümumiyyətlə faza çevrilməsi və səth kinetikasından irəli gələn digər fiziki münasibətlər qaldırıcıda kütlə axınının (Q_m) saxlanmasını ($Q_m=f(H, t)$) pozur. Belə ki, zamandan (t) və dərinlikdən (H) asılı olaraq kütlə sərfinin qiyməti müxtəlif ola bilir [5, 6]. Məlumdur ki, belə qərarlaşmamış axın quyu lüləsi boyu təzyiq (P) və temperaturun (T) paylanma qanunauyğunluğuna da ($P=f(H)$ *və* $T=f(T)$) təsir göstərir.

Klassik və son illərdə dərc edilmiş tədqiqat işlərinin xülasəsinə əsasən karbohidrogen hasilatı quyusunda axının mürəkkəbləşməsinin əsas səbəbləri kimi: 1) quyunun iş rejiminin düzgün seçilməməsi; 2) quyu lüləsinin profilinin vertikaldan yayınma dərəcəsi ilə əlaqəli amillər; 3) laydan axan qarışığın doyma və ya retroqrad kondensasiya prosesləri ilə əlaqəli faza keçidləri; 4) laydan quyuya qum və digər bərk hissəciklərin axını; 5) quyudibində su və ya qaz konuslarının yaranması; 6) quyu gövdəsində mümkün nasazlıqlar və ya hermetikliyin pozulması; 7) açılmış layın qeyri-bircinslik dərəcəsi; 8) müxtəlif xarakterə malik kənar laylarla əlaqənin yaranması və s. səbəbləri göstərmək olar [1-4]. Aparılmış təhlillər göstərir ki, hasilat quyusunda mövcud döyüntülərin əsasən quyu gövdəsi, quyu üstü və separasiya sistemlərinə, onların təhlükəsiz işinə təsiri araşdırılır və təzyiq dalğalarının qarşısını almaq üçün tədbirlər bu istiqamətdə aparılır [4-7]. Məsələn, [7] işində qərbi Çin yatağında qaz-neft hasilatı quyusu araşdırılmışdır. Burada quyunun hasilatı prosesinində təzyiq dinamikasının modeli (quyunun açılması, hasilatı və bağlanması daxil olmaqla) yaradılmışdır ki, bu da quyunun çoxfazalı axınına uyğunlaşdırılmışdır. Modeldən istifadə etməklə quyunun dibi ilə quyuağzı arasında təzyiqlərdəki həyacanlamanın dərinlik boyu ötürülməsi arasında histeresiz fenomeninin mövcudluğu müəyyən edilmişdir. Modellə aparılan simulyasiyalarda təzyiqin dəyişmə dalğasının yayılmasına təsir edən amillər və onun quyu kəmərlərinin təhlükəli iş rejiminə keçmə ehtimalı qiymətləndirilmişdir. Təzyiq dalğasının amplitudası, tezliyi və hasilat arasında optimal qiymətlərin seçilməsi proseduru işlənilmişdir, lakin quyudibi lay zonasına təsirə baxılmamışdır.

Ümumiyyətlə, mövcud tədqiqatların xülasəsi göstərir ki, quyunun neft, qaz, su, qum hasilatı və ya qaz quyusuna kondensatın daxil olması (quyu lüləsində retroqrad kondensasiya) ilə əlaqəli qeyri-müntəzəm axını öyrənərkən tədqiqatçılar əsasən quyu avadanlığını və yer üstü sistemlərdə yaranan çətinlikləri araşdırır. Halbuki, lay və quyunun birgə işinin pozulması quyudibi zonanın möhkəmliyinə

də təsir edə bilər və bu amil nəzərdə saxlanılmalıdır. Bu məqsədlə, təqdim edilən işdə təbii şəraitdə, hasilat quyusunda baş verən döyüntülərin quyudibi zonaya təsiri Azərbaycanın Xəzər dənizində istismar edilən qaz-kondensat quyuları timsalında təhlil edilmişdir.

Quyunun maye ilə yüklənməsi zamanı quyudibi zonada başverən proseslərin nəzəri əsaslandırılması.

Məlumdur ki, qaz-kondensat quyusunda baş verən qeyri-stabil axının əsas səbəblərindən biri layda (yaxud yuxarı vertikal axın zamanı) yaranan retroqrad kondensasiyadır ki, bu da quyunun maye ilə yüklənməsinə səbəb olur. Bu hal qaz-kondensat yataqlarında mövcud olan karbohidrogen maye kütləsinin quyuya daxil olması nəticəsində də yarana bilər. Deməli belə axın mürəkkəbləşmələr yaradaraq həyacanlanmanı bir başa qidalanma konturuna ötürə bilər. Buna görə də axının profilinin dəyişməsini süzülmə prosesində araşdıraq.

Məsamələrdə süzülmə prosesini borularda olduğu kimi enerjinin saxlanma qanunu, yəni enerjinin axının müxtəlif iki nöqtəsində bərabərlik şərti əsasında müəyyən etmək olar, lakin axının istiqamətlərinin geometrik olaraq kəskin müxtəlifliyi və məsamələr şəbəkəsinin paylanmasının xaotikliyi bu qanun əsasında analizlər aparmağı qeyri-mümkün edir. Digər tərəfdən süzülmə zamanı toxunma səthlərində baş verən proseslər təkcə özlü qüvvələrin deyil, həm də səthi gərilmə və kapilyar təzyiqin yaranması və qeyri-stabilliyi ilə müşahidə edilir. Bu səbəbdən süzülmənin əsas tənliyini xarakterizə edən Darsi qanunu da qərarlaşmamış rejimdə tətbiq olunma çətinlikləri hesabına ciddi xətalara səbəb olur. Bu halda süxurun vahid en kəsiyindən keçən qarışığın kütləsi zamandan asılı olaraq dəyişdiyindən prosesin məsamələrdə baş verən diffuziya kimi analiz edilməsi məqsədə uyğun hesab edilə bilər [3, 4]. Yəni quyudibi təzyiq müəyyən tezliklə rəqsi olaraq dalğalar yaradır və bu laya doğru yayılır və qərarlaşmamış axın yaranır. Əlbəttə ki, axını psevdo-qərarlaşmış hesab etmək olar, lakin bu

zaman təzyiq qradientinin məsafədən asılı olaraq dəyişməsinin sabit olması tələb edilir. Burada quyudibinə axın profilini də nəzərə almaq lazımdır ki, bu, adətən sadələşdirmək məqsədilə: xətti qalareyaya axın, radiala mərkəzə axın, sferik və yarım-sferik süzülmə kimi qəbul edilir [4]. Ümumi şəkildə fəzada süzülmə sürətinin vektoru aşağıdakı tənliklə göstərilə bilər:

$$\begin{cases} v_x = -\frac{k_x}{\mu}\frac{\partial P}{\partial x} \\ v_y = -\frac{k_y}{\mu}\frac{\partial P}{\partial x} \\ v_z = -\frac{k_z}{\mu}\frac{\partial P}{\partial x} \end{cases}, \rho g h \to 0, kiçik\ lay\ elementi\ üçün \qquad (1)$$

Burada: v_x, v_y, v_z və k_x, k_y, k_z uyğun olaraq X, Y və Z oxları üzrə süzülmə sürətləri və keçiriciliklərdir; P - təzyiq; μ, ρ - süzülən qarışığın uyğun olaraq özlülüyü, sıxlığıdır; h- hidravlik maillilik; g - isə sərbəst düşmə təcilidir.



Şəkil 1. Qaz-kondensat sisteminin X oxu üzrə süzülmə modeli

Hesab edək ki, laydan quyudibinə süzülən qarışıq Q_d sərfi ilə şəkil 1-də göstərilən lay elementinə x=0 nöqtəsindən daxil olur və hər hansı x=l nöqtəsində həmin elementdən xaric olur – Q_x. Verilmiş elementin [x, x+dx] hissəsini tədqiq edək. Burada, elementar həcmi paralelepiped kimi qəbul etsək, onun həcmi v=sdx (s- elementin en kəsiyi sahəsi) və oradakı flüidin həcmi isə v_f=msdx (m- məsaməlik əmsalı) olar. Məlumdur ki, axın qərarlaşmış olarsa onun elementə daxil olan və xaric olan sərfi bərabər olar ($Q_d(t) = Q_x(t)$) və bu zaman Darsi qanunu X oxu üzrə ödənilmiş olur. Lakin axın qərarlaşmamış olduqda bu bərabərlik pozulur və $Q_d(t) \# Q_x(t)$ olur. Bu zaman götürülmüş elementdə flüidin yığılması və ya boşalması hadisəsi baş verir. Buradan demək olar ki, götürülmüş həcmdə olan flüidin sıxlığı zamandan asılı olaraq artır, xaric edilən sərf azalır və bir

müddət sonra sıxlıq azalmağa və burada yığılmış qarışıq xaric olmağa başlayır. Beləliklə, axın zamanı kütlənin saxlanması prinsipinə əsaslansaq, onda x-ın müxtəlif nöqtələrində kütlə sərfini-M aşağıdakı bərabərliklər

$$(M)_{x+dx} = (M)_x + \frac{\partial M}{\partial x}dx \text{ və ya } (Q\rho)_{x+dx} = (Q\rho)_x + \frac{\partial (Q\rho)}{\partial x}dx \quad (2)$$

kimi göstərmək olar. Burada, flüidin həcmi sərfini (Q) flüidin elementar məsaməli (m-məsaməlik) mühitdə yerləşən həcminin ($vm=smdx$) hər hansı t anında dəyişməsini (2) formulasında nəzərə alsaq, onda:

$$(Q\rho)_{x+dx} = (Q\rho)_x + sm\frac{\partial \rho}{\partial t}dx \quad (3)$$

(2) və (3) tənliklərin müqayisə edib, $v = Q/s$ (süzülmə sürəti) bərabərliyini nəzərə alsaq onda yaza bilərik:

$$-\frac{\partial (v\rho)}{\partial x} = m\frac{\partial \rho}{\partial t} \quad (4)$$

Və nəhayət X oxu üzrə (1)-dən süzülmə surətinin ifadəsini (4) düsturunda nəzərə almaqla, prosesi

$$\frac{\partial}{\partial x}\frac{k\rho}{\mu}\frac{\partial P}{\partial x} = -m\frac{\partial \rho}{\partial t} \quad (5)$$

diferensial tənliyi ilə ifadə etmək olar.

Sonuncu ifadədən - (5) göründüyü kimi quyudibi zonada təzyiqin sahə üzrə dəyişməsini süzülən fluidin sıxlığının zamana görə dəyişməsi ilə əlaqələndirmək olar. Yəni quyudibində təzyiqin dəyişməsi yaranan dalğanın laya ötürülməsi ilə yanaşı mühitin sıxlığının dəyişmə dalğasıda yaratması təsdiq edilmiş olur.

Quyunun maye ilə yüklənməsi prosesinin real qaz-kondensat quyusunda sınanılması.

Real vəziyyət üçün lay sistemini və süzülmə prosesini xarakterizə edən çoxsaylı amillər arasında təzyiq, temperatur və zamanı müəyyən etmək daha əlverişli hesab edilə bilər. Digər tərəfdən (5) ifadəsi çoxdəyişənli mürəkkəb

diferensial tənlikdir. Onun həlli müxtəlif çətinliklərlə bağlıdır və bu səbəbdən hasilat quyusunun quyuağzı təzyiqinin döyüntülərini praktiki quyular üzərində müşahidə etmək daha münasib olar.



Şəkil 2. Qaz-kondensat quyusunun maye ilə yüklənməsi zamanı quyuağzı təzyiqin, quyudibi təzyiq və temperaturun dəyişməsi

Şəkil 2-də Xəzər dənizində qaz-kondensat yatağına məxsus A quyusunun göstəriciləri göstərilmişdir. Quyunun seçilməsində əsas məqsəd onun daimi olaraq döyüntülərlə işləməsidir. Burada quyuağzı təzyiqin, quyudibi təzyiq və temperaturun 32 saat müddətində dinamikası verilmişdir. Göründüyü kimi təzyiqin normal qiymətdən çıxması və yenidən qayıtması 17 saatdan çox vaxt aparır. Bu zaman maye hasilatı artır və əlavə 125 m^3 kondensat hasil edildikdən sonra 2-3 günlük stabilləşmə yaranır. Qeyd edilən quyuda seçilən zaman intervalı üçün quyudibi təzyiqin və temperaturun zamandan asılılığı üzrə bəzi dəyişmələr maraq doğurur. Şəkil 2-dən göründüyü kimi, dib təzyiqi quyuağzı təzyiqin azalmağa başladığı andan (quyuda mayenin yığılması və hidrostatik təzyiqin artması ilə) artmağa başlayır və eyni zamanda quyudibi temperaturun yüksəlməsi müşahidə edilir. Əvvəlki işlərimizin nəticələrinə əsasən [5] bunu quyudibinə daha çox mayenin axması ilə əlaqələndirmək olar. Yəni istilik tutumu yüksək olan mühitin quyuya daxil olması quyudibi temperaturu artırır. Bu mülahizə sonradan təzyiq və temperaturun quyu lüləsinin maye ilə yüklənməsi sübut edildikdən sonra bir daha təsdiq edilmişdir.

Beləliklə, məlum olur ki, qaz-kondensat quyusunun maye ilə yüklənməsi nəticəsində yaranan təzyiq döyüntüləri quyu gövdəsində olduğu kimi quyudibi zonada da təzyiq dalğası yaradır. Quyudibi təzyiqin və temperaturun belə dövrü dəyişməsi quyudibi zonanın dövrü olaraq, həcmi sıxılması və genişlənməsinə səbəb olur. Aydındır ki, belə müntəzəm zərbələr quyudibi avadanlıqlarda nasazlıqlara və məsaməli mühitin dağılmasına səbəb ola bilər. Bu səbəbdən bu təzahürün quyuların istismarı zamanı nəzərə alınması vacib hesab edilməlidər.

Əsas nəticələr.

Qaz-kondensat quyuları üzərində aparılmış müşahidələr və nəzəri-praktiki təhlillər nəticəsində alınan nəticələri aşağıdakı kimi yekunlaşdırmaq olar:

1. Mövcud tədqiqatların təhlilindən məlum olmuşdur ki, neft və qaz quyusunda müxtəlif səbəblərdən baş verən təzyiq döyüntüləri belə quyular üçün xarakterik bir axın dinamikasıdır və quyuda baş verə biləcək fəsadların qarşısını almaq üçün bu amilin daha dəqiqliklə öyrənilməsi vacib məsələlərdəndir.
2. Qaz-kondensat quyusu üzərində aparılan nəzəri və praktiki tədqiqatlardan məlum olur ki, quyunun maye ilə yüklənməsi zamanı quyudibi təzyiqin və temperaturun dəyişməsi nəticəsində lay zonasında süzülmənin xarakteri fasiləsiz olaraq dəyişir və bu kollektor süxurları üzərinə düşən gərginliyin dövrü dəyişməsinə səbəb olur.

Ədəbiyyat siyahısı

1. Мирзаджанзаде А.Х., Кузнецов О.Л., Басниев К.С., Алиев З.С. Основы технологии добычи газа. Москва: ОАО Недра, , 880 с. 2003.
2. Мирзаджанзаде А.Х., Аметов И.М., Ковалев А.Г. Физика нефтяного и газового пласта. Москва–Ижевск: ИКИ, 2005, 280 с.
3. Коленкина Е. И., Никитин В. Ф., Логвинов О. А., Смирнов Н. Н. Фильтрационные течения в пористых средах. Москва:Изд-во ФГУ ФНЦ НИИСИ РАН, 73 с 2020.

4. Мусин Р.Х., Храмченков М.Г. Введение в численное моделирование геофильтрации: учебно-методическое пособие, Казань, 41 с. 2019.

5. Fataliyev V.M., Hamidov, N.N., Aliyev K.F. Methods for optimizing the operation of a gas condensate well under retrograde condensation condition // An international scientific conference dedicated to the 100th anniversary of the birth of National Leader Heydar Aliyev, ASOIU, Baku, Azerbaijan, 8p. 2023,

6. Gafar G. Ismayilov, Vugar M. Fataliyev, Elman Kh. Iskenderov. A pipe configuration for smoothening pressure pulsation in a pipeline exporting multiphase hydrocarbon fluid // Sylwan Journal, 167(5). 18 p. May 2023,

7. Gudmundsson J.S., Durgut I. Pressure pulse analysis of flow in tubing and casing of gas lift wells. Spring 2002 ASME/API Gas Lift Workshop, Houston, Texas. 17 p., February 5-6, 2002.

YÜKSƏK HASİLATLI NEFT-QAZ QUYULARININ MƏHSULUNUN SEPARASİYASININ STABİLLİYİNİN TƏMİN EDİLMƏSİ ÇƏTİNLİKLƏRİ

Məmmədov Tural Nizami, tural_710@hotmail.com
Əzizli Elvin Eldəniz, elvinazizli01@gmail.com

Abstrakt: Maili və horizontal qazma texnologiyasının sürətlə inkişafı nəticəsində hasilat quyularının məhsuldarlığının kəskin artması və yataqların istismar müddətinin azaldılmasına nail olunmuşdur. Lakin müasir texnologiyanın yaratdığı digər çətinliklərdən biri də hasil edilən məhsulun yüksək sürətlə emal edilməsi və lazım olan məntəqəyə çatdırılmasından ibarətdir. Belə böyük həcmdə neft və qazın separasiyası və ilkin emalı xüsusilə dəniz platformalarında ərazinin məhdud və avadanlıqların sıxlığı ucbatından yaranır. Göstərilən amilin daha dərindən öyrənilməsi və mümkün həlli yolların araşdırılması məqsədilə təqdim edilən işdə bir sıra müasir dəniz istismar platformalarında separatorların işi təhlil edilmiş və küt quyular sisteminində yaranan dəyişikliklərin, qərarlaşmamış axının separatorun işinə təsiri öyrənilmişdir. Burada eyni zamanda stabilliyin təmin edilməsi yolları müzakirə edilmişdir.

Açar sözlər: Neft və qazın separasiyası, Horizontal separatorlar, Separasiyaya təsir edən amillər, Faza çevrilmələri, Optimal separasiya rejimi.

Giriş.

Məlumdur ki neft və qaz hasilatı quyusunun məhsulu mürəkkəb tərkibə malikdir [1-3], Burada karbohidrogen qarışığı komponentlərin sayından əlavə həm də, müxtəlif fazalar şəkilində mövcud olur. Qeyd edilən faza və komponentlərin sıxlığı, buxar parametrləri və digər, separasiya üçün vacib olan amillərinin müxtəlif olması separatorların düzgün quraşdırılmasını və seçilməsini tələb edir [4-7]. Ümumiyyətlə separatorlar təyinatına görə çox müxtəlif olsada

formasına görə əsasən dörd qrupa bölünürlər: vertikal, horizontal (bir və iki hissəli olmaqla iki növ olur) və sferik [4, 5]. Vertikal separatorlar əsasən aşağı və orta qaz amilinə malik axınlarda istifadə edilir. Bu tip separator nisbətən böyük qaz-maye sisteminin araqatı şəkilində axmasının səlistləşdirir və mayenin qaz fazasında qalmasının qarşısını ala bilir. Bu separatorda qazın yuxarı axması zamanı maye damcılarının çökməsinə kifayət qədər zamanın olması və ya axan sistemin separatorda qalma müdddətinin çox olması hesabına əldə edilir. Lakin maye və qaz axını yüksək olduqda belə separatorların diametrlərinin böyük olması lazım gəlir. Daşınması və quraşdırılmasının çətinliyinə baxmayaraq, kiçik ərazi tutması onun dəniz platformasında istifadəsini əlverişli edir. Digər tərəfdən belə separatorların ölçmə traplarında, damcı tutanlarda və nisbətən az saylı quyular üçün istifadəsi daha səmərəlidir. Vertikal separatorlardan fərqli olaraq horizontal separatorlar qaz amili və həm də maye hasilatı yüksək olan platformalarda quraşdırılması səmərəli hesab edilir. Ucuz başa gəlməsindən əlavə qaz fazası ilə maye arasında geniş görüşmə səthi yüksək qaz hasilatının da keyfiyyətli separasiyasına imkan yaradır. Bu növ separatorların qurluşu da sadə olduğundan quraşdırlması asan olur, lakin nisbətən daha geniş ərəzini zəbt edir və mayenin səviyyəsinin idarə edilməsi hündürlüyün kiçik olması ilə əlaqədar olaraq çox həssas olur. Qeyd edilən üstün cəhətlər horizontal separatorların texnologiyasını geniş inkişaf etdirmişdir [6-8].

Separatorun daxili hissələri ilkin (maye kütləsinin ayrılması) və son (maye damcılarının qazdan ayrılması) mərhələlərlə keyfiyyətli separasiya üçün imkan yaradır [6-8] . Bütün bunlara baxmayaraq, hasilat quyularında məhsulun dəyişməsi, laydan yer səthinə istilik daşınmaları və təzyiq döyüntüləri bir sıra aşkar və gizli çətinliklər yaradır. Təqdim edilən məqalədə bir başa dəniz platformasında yüksək hasilat üçün nəzərdə tutlan separatorların işinə təsir edən amillər araşdırlmış və qiymətləndirilmişdir. Eyni zamanda problemlərin həlli yolları müzakirə edilmişdir.

Optimal separasiya şəraitinin təyin edilməsi

Qeyd edildiyi kimi separatorlar müxtəlif formada olması ilə yanaşı separasiya məqsədindən asılı olaraq iki (neft və qaz) və üç fazalı (neft, qaz və su) ola bilər (separatorlar mexaniki qarışıqların, əsasən qumun ayrılmasına imkan yaratdığından bəzən belə qarışıqlar da əlavə faza kimi nəzərə alına bilər). Buna baxmayraq, ümumilikdə: 1) qravitasiya qüvvələrinin təsirindən yaranan ayrılma və ya müxtəlif sürətli çökmə prosesi; 2) mərkəzdən qaçma qüvvələrinin təsiri ilə müxtəlif komponentlərin seqreqasiyası prinsiplərinə əsaslanır. Bu məqsədlə separatorun daxili avadanlıqları bu proseslərin təsirini daha da gücləndirməyə xidmət edir [4-6].

Ümumi olaraq, separasiya prosesinin keyfiyyətinə aşağıdakı amillər təsir etdiyini göstərmək olar: mövcud maye və qaz sərfinə əsasən separatorun düzgün seçilməsi; separasiya edilən qarışığın tərkibi; quyuların və ya manifoldun təzyiq və temperaturunun sabitliyinin təmin edilməsi dərəcəsi; su, qum, parafin və duz çöküntüsü kimi mənfi təsirin nəzərə alınması; nəhayət separasiya təzyiq və temperaturun düzgün hesablanması və təmin edilməsi.



Şəkil 1. Neft və qaz qarışığının optimal separasiya təzyiq və temperaturu

Güman edilə bilər ki, separator təzyqinin yüksək olması və ya temperaturunun kiçik olması separatorun işinə müsbət təsir edər və separasiya nəticəsində daha çox maye - neft hasilatı əldə etmək olar. Lakin bu belə deyildir və qeyd edilən parametrlər yalnız optimal qiymətdə daha səmərəli olur. Azərbaycanın "Günəşli" yatağının timsalında (Neftin sıxlığı-852 kq/m^3, təbii qazın sıxlığı- 0.798 kq/m^3 və tərkibi 94,74% metan və 5,7 q/m^3 maye komponentlər) [7] əsasında aparılmış qrafiki təhlillər nəticəsində (şəkil 1) optimal separasiya təzyiq (5.1MPa) və temperaturu (47^0C) təyin edilmişdir.

Şəkil 1-dən göründüyü kimi separasiya təzyiq və temperaturunun optimal qiymətləri ətrafında çox həssas faza çevrilmələri baş verir və təzyiq və ya temperaturun bir neçə vahid dəyişməsi qazda daha çox mayenin və ya mayedə daha çox qazın qalmasına səbəb ola bilər. Bunun təsdiqi olaraq real şəraitdə seçilmiş separasiya parametrlərinə riayət etməyin çox çətin olması müşahidə edilmişdir ki, bu da növbəti bölmələrdə araşdırılmışdır.

Real dəniz platforması timsalında neft və qazın separasiyasına axın strukturunun təsirinin araşdırılması

Nümunə kimi Azərbaycanın neft yataqlarından birini istismar edən dəniz platformasından separasiya sexemi şəkil 2-də verilmişdir.



Şəkil 2. Neftin və suyun qazdan ayrılmasını təmin edən iki pilləli separasiyanın texxnoloji sxemi.

Manifolddan axan neft, qaz və digər quyu məhsulu yüksək təzyiqli separatora daxil olur, qaz üst hissədən və separatorun digər sonluğundan xaric edilərək damcı tutdana ötürülür daha sonra isə qazın ilkin emalı və ya qaz qurudulması qurğusuna yönəldilir. Verilmiş axın diaqramından göründüyü kimi maye və qaz ayrılmasının pozulması, yəni qazın tərkibində mayenin qalması qaz çıxışında kompressora və qazın ilkin emalına mənfi təsir edə bilər. Eyni zamanda mayenin tərkibində qazın miqdarının artması neftin və lay suyunun emalı və nəqlində ciddi problemlər yarada bilər.

Gündəlik olaraq verilmiş təzyiq və temperaturda (faktiki təzyiq-3,8Mpa, temperatur- 32 ^{0}C) parametrlərdə kəskin dəyişmələr və qeyri-stabillik müşahid edilir. Burada real şəraiti nəzərə almaqla həm aşağı və həm də, yüksək təzyiqli separatorda prosesə təsir edən amillər araşdırılmışdır.

Nümumə kimi birinci pillə separatorun təzyiq, temperatur, səviyyə və maye sərfi kimi parametrlərin gün ərzində dəyişməsi şəkil 3-də verilmişdir. Buradan göründüyü kimi separasiyanın birinci pilləsindən sonra qaz amilinin 10 dəfədən çox azaldılması şərti ilə ikinci pillə separatora 1000-2500 m^3/saat sərfi ilə neft və su daxil olur (separatorun işçi tutumu 5000 m^3/hr). Bu o deməkdir ki quyularda qərarlaşmamış axın birbaşa separasiyanın keyfiyyətinə təsir edərək kifayət qədər böyük intervalda dalğalanmanın yaranmasına səbəb olur. Digər tərəfdən həm birinci və həm də, ikinci pillədəki səviyyə tənzimləyiciləri separatorun səlist işini təmin edə bilmir. Maraqlı məqamlardan biri damcı tutanda səviyyənin böyük həddə və kifayət qədər yüksək intensivliklə dəyişməsidir. Bu neftin qaz fazası ilə separatordan ötürülməsi deməkdir. Qaz kompressoru üçün qəbul edilməz olan bu effektin əlbəttə nəzarətdə saxlanılması çox vacibdir.



Şəkil 3. İkinci pillə separatorun təzyiq, temperatur, səviyyə və neft sərfinin və qaz xəttindəki damcı tutanın səviyyəsinin 6 saat ərzində dəyişmə intervalları

Şəkil 3-ə əsasən söyləmək olar ki belə böyük hasilata malik quyularda separasiyanın sabit saxlanılması böyük çətinliklərlə əlaqəli olur və separatorun təzyiq, temperatur və digər parametrlərinin çox yüksək dəqiqliklə idarə edilməsinə ehtiyac duyulur. Digər tərəfdən separasiya və digər texnoloji blokların düzgün seçilməməsi, hasilatla bağlı yuxarı və aşağı sərhədlərin nəzər alınmaması quyuların optimallaşdırılmasına və layın rasional istismarına ciddi təsir edə bilər.

Nəticələr

1) Aparılmış araşdırlmalar əsasında neft-qaz separatorunun parametrlərinin seçilməsi və səlist işinə təsir edə biləcək amillər yüksək hasilata malik quyular nəzərə alınmaqla araşdırılmış və nəzəri düşüncələr real neft-qaz istismar platformasındakı separatorların real parametrlərinin statistik təhlili əsasında genişləndirilmişdir.

2) Gündəlik müşahidələr əsasında məlum olmuşdur ki, separatorların mövcud hasilata (sabit), təzyiq və temperatura tam uyğun seçilməsinə

baxmayaraq, parametrlərdə mövcud döyüntülər səlist separasiya prosesinə ciddi təsir edir və götürülmüş halda qazla maye daşınması təzahürü təsdiq edilmişdir.

3) Yüksək hasilata malik real separatorlar üzərində aparılan müşahidələr əsasında təklif edilmişdir ki, hasilat quyularında müxtəlif səbəblərdən qərərlaşmamış axının olması neft və qaz quyularının istismarı üçün xarakterik qəbul edilməli, separatorlar və separasiya mərhəlləri seçilərkən axının aşağı, orta və yuxarı hədləri nəzərə alınmalıdır.

İstifadə edilən ədəbiyyatlar

1. Abasov M.T., Abbasov Z.Y., Fətəliyev V.M. və b. Qaz-kondensat qarışığının kondensasiyasının başlanma təzyiqi və onun təyini üsulu. Azərbaycan Neft Təsərrüfatı. № 5, 30-34 s., 2012.

2. İsmayılov Ş.Z., Süleymanova A.Ə., Novruzova S.H. və b. Neft və qazın quyu ilə çıxarılması texnologiyası. Bakı, "Elm", 540 s. 2022.

3. Мирзаджанзаде А.Х., Аметов И.М., Ковалев А.Г. Физика нефтяного и газового пласта. Москва–Ижевск: ИКИ, 280 с., 2005,

4. Abdel-Aal H.K., Mohamed Aggour. Petroleum and Gas Field Processing. King Fahid University of petroleum and Minerals Dhahram, Saudi Arabia. Marcel Dekker. New York. 358p. 2003.

5. Boyun Guo, Ali Ghalambor. Natural gas Engineering Handbook. University of Louisiana at Lafayette. Gulf Publishing Company, Texas, Houston. 493p., 2005.

6. Inga Ampuero J.F., Carranza Castro A.J. Design of Oil-Gas Separators-from Hydrocarbon Stream. LIMA. PERU. 49p., 2017.

7. Pedersen K.S., Christensen P.L, Shaikh J.A. Phase behavior of Petroleum Reservoir Fluids. Taylor and Francis Group, 463p., 2005.

8. Younger A.H., Eng P. Natrual Gas Processing Principles and Technolody, Thimm & Jason Sullivan Thimn Engineering. University of Calgary. 364p., 2004.

DƏNİZ HİDROTEXNİKİ QURĞULARIN STATİK VƏ DİNAMİK HESABLANMASI XÜSUSİYYƏTLƏRİ.

Dos. V. T. Mustafayev N. Dəmirov
mustafayev.vaqit@mail.ru
nusraddindamirov01@gmail.com

Xülasə: Tədqiqatımız, dəniz hidrotexniki qurğularının layihələndirilməsi və qiymətləndirilməsində statik və dinamik hesablamaların kritik aspektlərinə toxunur. Dəniz mühitinin yaratdığı unikal problemləri dərk edərək, tədqiqat statik və dinamik amilləri effektiv şəkildə birləşdirən möhkəmliyin hesablama metodologiyalarının işlənib hazırlanmasına yönəlib. Yanaşma, nəzəri modelləşdirməni empirik məlumatlarla birləşdirir, maye dinamikasının, material xüsusiyyətlərinin və ətraf mühit dəyişənlərinin təsirini vurğulayır. Geniş simulyasiyalar və sahə sınaqları təklif olunan modelləri təsdiqləyir, müxtəlif şəraitlərdə bu cihazların performansını və struktur bütövlüyünü proqnozlaşdırmaqda onların dəqiqliyini və etibarlılığını nümayiş etdirir. Nəticələr dəniz mühəndisliyi layihələrində daha yaxşı risklərin idarə olunmasına töhfə verən dizaynın səmərəliliyi və təhlükəsizliyində əhəmiyyətli irəliləyişləri göstərir. Görülən iş yalnız dəniz hidrotexniki cihazları haqqında anlayışı inkişaf etdirməklə yanaşı, bu sahədə mühəndislər və dizaynerlər üçün praktiki alətlər təqdim edir.

Bundan əlavə, tədqiqat mürəkkəb dəniz mühitlərində statik və dinamik qüvvələr arasında qarşılıqlı əlaqəni araşdıraraq, dəyişən okeanoqrafik şəraiti nəzərə almaq üçün dəqiq modelləşdirmə ehtiyacını vurğulayır. Ekstremal hava şəraiti və gözlənilməz dəniz vəziyyətləri də daxil olmaqla, əməliyyat ssenariləri altında bu cihazların stress paylanmasını və dinamik reaksiyasını təhlil etmək üçün qabaqcıl hesablama üsullarından istifadə olunur. Nəticələr ətraf mühitə təsirin qiymətləndirilməsinin dizayn mərhələsində inteqrasiyasının vacibliyini vurğulayır, dəniz hidrotexniki qurğularının hazırlanmasında ekoloji cəhətdən

təmiz və davamlı təcrübələri müdafiə edir. Araşdırma həmçinin bu cihazların davamlılığını və uzunömürlülüyünü artırmaq üçün xüsusilə materialşünaslıq və davamlılıq mühəndisliyi sahəsində gələcək tədqiqatlar üçün potensial sahələri müəyyən edir.

Açar sözlər: Dəniz Hidrotexniki Cihazları, Statik Dinamik Hesablama, Maye Dinamiği, Struktur Bütövlük, Simulyasiya, Dəniz Mühəndisliyi, Risklərin İdarə Edilməsi.

Giriş: Dəniz neft-qaz mühəndisliyinin inkişaf edən mənzərəsində dəniz hidrotexniki qurğularının dizaynı və təhlili mühüm rol oynayır. Dalğalar, doklar və dəniz platformaları kimi strukturları əhatə edən bu qurğular sahil mühafizəsindən tutmuş enerji istehsalına qədər çoxsaylı tətbiqlər üçün əsasdır. Onların kritik əhəmiyyətini nəzərə alaraq, bu strukturlara təsir edən statik və dinamik qüvvələrin dəqiq hesablanması onların istismar təhlükəsizliyini və uzunömürlülüyünü təmin etmək üçün vacibdir. Dəniz mühiti dinamik təbiətinə görə unikal problemlər toplusunu təqdim edir. Dalğa dinamikası, gelgit dəyişiklikləri və maye-struktur qarşılıqlı əlaqəsi kimi amillər dəniz hidrotexniki qurğularının işinə və sabitliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. Ənənəvi dizayn yanaşmaları çox vaxt bu cihazların struktur bütövlüyünə və funksionallığına ciddi təsir göstərə bilən dinamik qüvvələrin mürəkkəb qarşılıqlı təsirini potensial olaraq nəzərdən qaçıraraq, əsasən statik hesablamalara diqqət yetirir.

Hesablama mayeləri dinamikası və materialşünaslıqdakı son irəliləyişlər həm statik, həm də dinamik aspektlərin hərtərəfli təhlili üçün yeni imkanlar açmışdır. İnkişaflar bu strukturların qarşılaşacağı ekoloji və əməliyyat şəraitinin tam spektrini nəzərə alan inteqrasiya olunmuş yanaşmanın zəruriliyini vurğuladı. Məqalə dəniz hidrotexniki qurğularının statik və dinamik hesablanması üçün yeni metodologiya təqdim etməklə bu boşluğu aradan qaldırmağa çalışır. Bizim yanaşmamız nəzəri modelləri empirik məlumatlarla sinerjiləşdirir, hesablama

The presented article talks about obtaining 2(1-methylcyclohexyl)-4-chlorphenols and their nitrogen-containing derivatives as a result of aminomethylation reactions and determining the areas of application.

Experimental part

At the initial stage of scientific research, cycloalkylation reaction of para-chlorphenol (PCP) with 1-methylcyclohexene in the presence of KU-1 catalyst was carried out in an intermittent installation, the reactions follow the following equation:



To find the optimal conditions for catalytic cycloalkylation reactions of Para-chlorphenol with 1-methylcyclohexene, the effect of the reaction temperature, duration, mole ratios of the initial components and the amount of catalyst on the yield and selectivity of the target product was investigated.

The temperature of the reaction is 80-140℃, the duration is 2-8 hours, The ratio of PCP to cyclene was studied from 1-2 to 2-1, and the amount of catalyst was 5-15% (according to the PCP taken).

Analysis of the results of the conducted experiments shows that for cycloalkylation reactions of PCP with 1-methycyclohexene, it is not enough to take the reaction temperature 80, 100℃. At these temperatures, the yield of the target product is 48.6-53.2%, and the selectivity increase is 84.6-86.3% (according to the target product).

At a temperature of 120℃, the yield of the target product is 64.3%, and the selectivity is 90.8%. With a subsequent increase in temperature to 140℃, the yield and selectivity of the target product decrease to 71.7% and 90.3%, respectively. When 2 and 4 hours of contact time of the initial components with the catalyst are taken, the yields of the target products are 37.6 and 56.4%, respectively, and their selectivities are 92.8-93.6%.

At 6 hours of reaction time, the yield and selectivity of the target product are 64.3 and 90.8%, which can be considered acceptable. Increasing the reaction time up to 8 hours does not have a positive effect on the yield and selectivity of the target product. The yield of 2(1-methylcyclohexyl)-4-chlorophenol is 60.2%, and the selectivity is 87.4%.

In order to obtain the effective yield and selectivity of the target product, it is appropriate to take the molar ratio of the primary components 1:1 mol.

When the amount of the catalyst for the reaction is 5%, the yield of the target product is 58.3%; when the amount of catalyst is doubled, i.e. when 10% is taken, the yield and selectivity of the target product can be considered satisfactory.

Thus, optimal conditions were found for the catalytic cycloalkylation reaction of para-chlorophenol with 1-methylcyclohexene in the presence of KU-2 catalyst. It has been established that, in the cycloalkylation reaction at a temperature of 120℃ for 6 hours, using a 1:1 mol/mol ratio of the primary

components and 10% of the catalyst, the yield of the target product, 2-(1-methylcyclohexyl)-4-chlorophenol, is 64.3% based on the para-chlorophenol (PCP) used, and the selectivity for the target product is 90.8%.

The aminomethylation reaction of the synthesized 2-(1-Methylcyclohexyl)-4-chlorophenol with formaldehyde and isopropylamine was carried out:



5.9 grams of isopropylamine, 50 ml of benzene are added to 22.4 grams of 2-(1-Methylcyclohexyl)-4-chlorophenol and heated, 10.0 grams of 30% formaldehyde solution is added drop by drop at 30 ºC. The experiment is continued by the method above. Targeted product at low pressure (5 mm c.m.) is separated by rectification. At this time, 20.0 g of 2-iso-propylaminomethyl-4-chloro-6-(1-methylcyclohexyl)-phenol is obtained that , this indicates that the deduction according to the 2-(1-MTSH) –PCP taken is 64.7%.

The chemical structure of the synthesized 2-isopropylaminomethyl-4-chlorine-6-(1-methylcyclohexyl)- phenol was confirmed by drawing IR spectrum.

The following absorption bands are observed in the IR spectrum of the substance: Mathematical vibration of C-H communication of group 70.5 cm^{-1} CH_2; 1370,1445,2855,2920 cm^{-1} CH_2 and CH_3 groups deformation and valence vibrations of the C-H bond, respectively; 825,1510,1595 cm^{-1} 1,2,4,6 substituted benzene nucleus; 1012, 1105 cm^{-1} C-O-C band; absorption band characteristic of triplet nitrogen atom at 1180, 1200 cm^{-1}, 1238, 3226 cm^{-1} are deformation and valence vibrations of O-H bond of OH group.

Thus, the analysis of the IR spectrum of 2-isopropylaminomethyl-4-chlorine-6(1-methylcyclohexyl) - phenol shows that the chemical structure of the synthesized substance is confirmed.

The effect of 2(1-methylcyclohexyl)-4-chlorophenol obtained as a result of the cycloalkylation reaction of para-chlorophenol with 1-methylcyclohexene was studied as an antioxidant stabilizer on atactic polypropylene.

Conclusions:

1. As a result of the conducted research, the catalytic cycloalkylation reaction of para-chlorophenol with 1-methylcyclohexene was carried out in the presence of the KU-2 catalyst, and the optimal conditions for the process were found. It was determined that under optimal conditions, the yield of the target product - 2(1-methylcyclohexyl)-4-chlorophenol is 64.3% according to the PCP taken, and the selectivity is 90.8% according to the target product.

2. Aminomethylation reaction of synthesized 2-(1-methylcyclohexyl)-4-chlorophenol with formaldehyde and isopropylamine was carried out.

3. 2(1-Methylcyclohexyl)-4-chlorophenol was tested as a stabilizer in polypropylene. The tests gave positive results.

References

1. Postnova M.V., Koshel S.G., Lebedeva N.V., Kuznetsova E.A., Koshel G.N. Synthesis of cyclohexyl phenols // Russian journal of Organic Chemistry, 2003, Vol.39, №10, pp.1415-1417.

2. Praveen K. Khatri, Manvi Manchanda və Suman L.Jain. Polymer impregnated sulfonated carbon composite solid acid catalyst for alkylation of phenol with methyl-tret-butyl ether // Royal Socety of Chemistry Adv., 2015, No. 5, pp.3285-3289.

3. Farook Adama, Kasim Mohammed Hello, Tammar Hussein Ali. Solvent free liquid-phase alkylation of phenol over solid sulfanilic acid catalyst // Applied Catalysis A: General, 2011, Vol. 399, pp. 42–49.

4. V.H.Mirzayev, E.A.Majidov, M.R.Manafov Some Peculiarities of interaction reaction of phenol with the dimerizatation products of C_4 fraction of gasoil pyrolisis // Global journal of chemistry, 2017, vol.3, No 1, pp 136-142.

5. Nesterova T.N., Chernyshov D.A., Shalkin V.A. Sulfonic Acid Cation Exchange Resins in the synthesis of Straight chain alkylphenols // Catalysis in Industry, 2016,vol.8, No1, pp.16-22.

SİNTETİK NEFT TURŞULARININ AMİDOAMİNLƏRİNİN NEFTYIĞICI XASSƏLƏRİNİN TƏDQİQİ

Məhəmməd Şükürzadə

E-mail: mmshukurzade@gmail.com

Giriş. Neft və neft məhsullarının emalı zamanı alınan karbohidrogenlərin katalitik oksidləşməsi nəticəsində əmələ gələn sintetik neft turşuları (SNT) sənayedə geniş tətbiqi vardır [9,10]. Sintetik neft turşularının (SNT) efirləri, duzları və kompleksləri ilə sintez prosesləri aparılmış və bir sıra xassələri öyrənilmişdir [6]. SNT müxtəlif sahələrdə tədqiq oluna bilir.

SNT-nin mürəkkəb efirləri katalizator aktivliyində tədqiq oluna bilir.Belə ki, fərqli modifikasiyaya və dispersliyə malik olan nano katalizatorlar SNT əsasında alınan etilenqlikol monoefir reaksiyasında hansı katalizator istifadəsinin məqsədəuyğun olduğu göstərilmişdir [5].

Tərkibində azot atomu saxlayan üzvi birləşmələrlə bağlı müxtəlif tədqiqat işləri aparılmış və SNT ilə sintezi öyrənilmişdir [7].Nəticədə sintetik neft turşularının amidoaminləri müxtəlif sahələrdə tətbiq edilir.

Hidrogen-sulfid korroziyasına qarşı SNT amidoamin törəmələri araşdırılaraq müəyyən edilmişdir ki, poladı korroziyadan qorumaq bu kompleks birləşmədən istifadə edərək yüksək keyfiyyətdə inhibitor xassəsi vardır [2].

Korroziya kinetikasina müsbət təsir edən daha effektiv üsul isə, sintetik neft turşuları və oksiturşuları əsasında alınan amidoaminləridir.Belə ki, SNT+ONT qarışığı və PEPA əsasında sintez olunan birləşmələrin sirkə və qarışqa turşusu ilə kompleksləri metalları 95-98 % korroziyadan mühafizə edir.Burada metalda inhibitorla xemosorbsiya qoruyucu təbəqə yaradır [1]. Neft turşularının amidoaminləri həmçinin konservasiya mayesi kimi tətbiq olunub korroziyadan qoruyucu vasitədir.[3]

SNT amidoamin birləşmələri bakterisid-inhibitor xassəsi araşdırılmışdır.Nəticədə məlum olmuşdur ki, sintetik oksi-, və neft turşuları əsasında alınmış amidoamin ətraf mühitin qorunması ilə bağlı preventiv üsul sayılır [4].

Sintetik neft turşuları amidoaminlərin tətbiq istiqamətlərindən biri də onun neftyığıcı xassəsi sayılır.Belə ki, SNT-nin duzları, amidoaminləri və kompleksləri neftyığıcı və neftdispersləyici xassələri araşdırılmışdır [8].

Neftyığıcı xassələri daha da yaxşılaşdırmaq məqsədi ilə bizim tərəfimizdən hazırlanan SNT amidoaminlərinin fərqli nisbəti neftyığıcı xassələrin daha yüksək olduğunu meydana çıxarmışdır.

TƏCRÜBİ HİSSƏ

SNT-nin PEPA ilə fərqli mol nisbətlərində amidoaminlər sintez edilmişdir.Reaksiya nəticəsində molekulda 1,2,3,4,5 və 6 amid qruplu amidoaminlər yaranmışdır. Təcrübəni aparmaq üçün Azərbaycanın Suraxanı nefti hazırlanmışdır.Daha sonra isə Petri çaşkasına su süzüb və üzərinə 3 q neft əlavə edirik.Petri çaşkasına alınan qarışığa SNT:PEPA-nın etil spirti (5%-li məhlulunu) əlavə edirik.

NƏTİCƏLƏR və MÜZAKİRƏLƏR

№	Məhlullar SNT:PEPA (etil spirti 5 %) 3 q neft (Nisbətlər)	Verilən an	3 saat sonra	15 saat sonra	40 saat sonra
1	SNT:PEPA (1:3)	Qıraға yığılıb	Kənara yığılıb	Kənara yığılıb	Kənara yığılıb
2	SNT:PEPA (2:3)	Qıraға yığılıb	Kənara yığılıb	Kənara yığılıb	Kənara yığılıb
3	SNT:PEPA (3:3)	Qıraға yığılıb	Kənara yığılıb	Kənara yığılıb	Kənara yığılıb
4	SNT:PEPA (4:3)	Qıraға yığılıb	Kənara yığılıb	Kənara yığılıb	Kənara yığılıb
5	SNT:PEPA (5:3)	Qıraға yığılıb	Kənara yığılıb	Kənara yığılıb	Kənara yığılıb

6	SNT:PEPA (6:3)	Qırağa yığılıb	Kənara yığılıb	Kənara yığılıb	Kənara yığılıb

ƏDƏBİYYAT

1. Əfəndiyeva.L.M. *Sintetik neft turşuları və oksiturşular əsasında alınmış amidoaminlərin üzvi komplekslərinin korroziya inhibitoru kimi tədqiqi. // Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri. Cild 18, № 2 (2016), 39-45*

2. Abbasov V.M., Məmmədbəyli E.H., Ağamalıyeva D.B., Əfəndiyeva L.M., Məmmədova N.M., Əzizbəyli A.R. *Sintetik neft turşuları əsasında amidoamin törəmələrinin qeyri-üzvi komplekslərinin sintezi və hidrogen-sulfid korroziyasına qarşı təsiri. // Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri. Cild 19, № 3 (2017), 47-51*

3. Həsənov E.K. *Texniki neft turşularının müxtəlif metal duzları və Berolamin-20 əsasında sintez olunmuş amidoaminlərin konservasiya mayeləri kimi tədqiqi. // Azərbaycan Neft Təsərrüfatı jurnalı, 2018, № 6, s. 40-42.*

4. Əfəndiyeva L.M., Mahmudova L.A., Əzizbəyli A.R., Babanlı N.N., Musalı V.X. *Sintetik oksi-, neft turşuları əsasında alınmış amidoamin, imidazolinlər və onların komplekslərinin bakterisid-inhibitor xassələrinin tədqiqi. // Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri. Cild 20, № 2 (2018), 33-38*

5. İsgəndərova S.Ə., Sədiyeva N.F., Zeynalov E.B., Nuriyev L.H., Ağayev B.K., Salmanova Ç.Q., Quliyeva E.M., Əliyeva S.Q. *Neft turşularının monoetilenqlikol efirlərinin alınmasında müxtəlif modifikasiyalı nano-TiO_2 katalizatorlarının aktivliyinin tədqiqi. // Azərbaycan Neft Təsərrüfatı jurnalı, 2015, № 4, s.34-37*

6. Abbasov V.M., Nəsirov F.Ə., Əfəndiyeva L.M., Rzayeva N.Ş. *OKSİGENLİ ÜZVİ BİRLƏŞMƏLƏR KİMYASI (monoqrafiya). Bakı: "Müəllim" nəşriyyatı, 2020, -412 s.*

7. Abbasov V.M., Əliyeva L.İ., Əfəndiyeva L.M., Ağazadə Y.C., Tağıyeva A.M., Rzayeva N.Ş., Mürsəlov N.İ., *Azotlu üzvi birləşmələr kimyası (monoqrafiya). Bakı: Beynəlxalqkitab, 2021, -204 s.*

8. Məmmədxanova S.Ə. *Sintetik neft turşuları əsasında alınmış sənaye əhəmiyyətli reagentlərin tədqiqi. Bakı: ADNSU nəşriyyatı, 2021, -385 səh.*

9. Məhərrəmov A.M., Bayramov M.R., *Neft kimyası və neft kimyəvi sintez. Ali məktəblər üçün dərslik. Bakı Universiteti Nəşriyyatı, 2006, 604 s.*

10. Nametkin N.S., Egorova G.M., Xamaev V.X., *Naften turşuları və onların kimyəvi emal məhsulları*, Moskva, 1982, 422 s.

QARADAĞ KƏRPİC ZAVODUNUN TULLANTILARI ƏSASINDA MODİFİKASİYA OLUNMUŞ SORBENT İLƏ AĞIR METAL İONLARININ SORBSİYA QABİLİYYƏTİNİN TƏDQİQİ

Hüseynova İ.V., Abdullayeva K.S.

Email: ilahehuseyn138@gmail.com abdullayeva-1974@inbox.ru

Xülasə

Ağır metal ionlarının (AMİ) tullantı sularından təmizlənməsi aktual bir məsələdir. Bunun üçün müxtəlif sorbetnlərlə sorbsiya proseslrini apararaq təmizlənməyə nail olunur. Bizim tədqiqatımız Qaradağ Kərpic zavodunun tullantıları əsasında alınmış sorbentin tədqiqinə əsaslanmışdır. Müəyyən olunmuşdur ki, AMİ-nın ekstraksiyasının səmərəliliyi və QKZT əsasında sorbentlərin sorbsiya qabiliyyəti, məhlulun temperaturu və pH səviyyəsinin artması ilə artır, bu da AMİ-nın ekstraksiyası üçün xemosorbsiya mexanizminin üstünlük təşkil etdiyini göstərir. Sübut edilmişdir ki, AMİ-nın təmizlənmə effektivliyi (E = 96-97%) və sorbsiya qabiliyyətindən (A = 6,0 - 7,5 mq/q) tullantı sularının təmizlənməsinin maksimal səmərəliliyinə, sorbent kütləsinin tullantı suyunun həcminə 20 q/l nisbəti ilə və sorbsiya müddəti 30 dəqiqə olmaqla nail olmaq olar.

Açar sözlər: Ağır metal ionları, sorbsiya izotermi, xemosorbsiya, pH, kationlar

Giriş

Kimya sənayesinin çirkab sularında çoxlu miqdarda ağır metal ionları (AMİ) var. AMİ-dan çirkab suların təmizlənməsi üçün müxtəlif üsullardan, o cümlədən sorbsiya üsullarından istifadə olunur. Aktivləşdirilmiş karbon, seolitlər, təbii materiallar və s. əsaslı sorbentlərdən istifadə edilir [1-4]. Bu materiallar çox vaxt bahalı olur. Sorbsiya materiallarının modifikasiyası üçün optimal metodu seçmək üçün ilkin tullantıların dərin tədqiqatlarını aparmaq lazımdır. Tullantı sularının təmizlənməsi (TS) üçün tullantılardan modifikasiya olunmuş sorbentlərin

alınması, istifadəsi aktualdır və böyük praktiki, iqtisadi əhəmiyyət kəsb edir [5-8].

Bu işin məqsədi kərpic tullantılarının bir sıra ağır metalların ionlarına münasibətdə sorbsiya xüsusiyyətlərinə müxtəlif modifikasiya üsullarının təsirini aşkar etməkdir .

Bunun üçün biz "Qaradağ" Kərpic Zavodunun (QKZ) tullantılarının sorbsiya xüsusiyyətlərini öyrənək.

Eksperimental hissə

Sorbsiyanın əsas xarakteristikalarını sorbsiya izoterm əyrilərinin formalarını təhlil etməklə əldə etmək olar. Sorbsiya izotermlərini qurmaq üçün sorbsiya tarazlığının əldə olunduğu vaxtı təyin etdik [8-11]. Model məhlullardan Pb^{2+} adsorbsiya prosesi QKZ tullantıları əsasında toz halında olan adsorbentlə statik şəraitdə termostatlaşdırılmaqla (T=295+2K) və model məhlulun qarışdırılması ilə aparılmışdır. Kinetik adsorbsiya əyrilərini əldə etmək üçün ilkin qatılığı $C_{baş.}$=2,5 x 10^{-3} q/l olan Pb^{2+} kationları olan 10 ml sulu məhlul və QKZ tullantısı əsasında m= 0,2 q sorbent nümunələri sınaq şüşəsinə əlavə edildikdən sonra 10-60 dəqiqə müddətində saxlanılır. Məhlul filtrasiya yolu ilə sorbentdən ayrılır. Qarışıqda ağır metal ionlarının (Pb^{2+}, Cd^{2+}, Zn^{2+}) konsentrasiyasının təyini voltametrik analiz üsulu əsasında AKV-07 MK analizatorunda aparılmışdır. Nəticələrə əsasən, adsorbsiya kinetik əyriləri çəkilmişdir. Tədqiqat zamanı maksimum sorbsiyaya nail olmaqla 30 dəqiqə olan adsorbsiya tarazlığı vaxtı quruldu və sonra ağır metal ionlarının (AMİ) çıxarılmasının səmərəliliyi bir saat ərzində əhəmiyyətli dərəcədə dəyişmədi (Şəkil 1). Nəticədə, bütün sonrakı təcrübələrdə sorbsiya müddəti 30 dəqiqə olmuşdur.



Şəkil 1. "Qaradağ" Kərpic Zavodunun tullantıları əsasında alınan sorbentlərlə Pb^{2+}-un sorbsiyasının kinetik əyrisi

Sorbent ilə model məhlulun ideal nisbətini müəyyən etmək üçün məhlul qarışdırılır, termostatda saxlanılır və statik şəraitdə tozşəkilli QKZT əsasında sorbent ilə Pb^{+} adsorbsiyası həyata keçirilir. Adsorbsiya sorbent kütləsinin və model məhlulun həcminin (10-dan 50 q/l-ə qədər) müxtəlif nisbətlərində 30 dəqiqə ərzində aparılmışdır (Şəkil 2). Tədqiqat nəticəsinə əsasən, 1 litr məhlulun təmizlənməsi üçün 20 qr sorbent kifayət etmişdir



Şəkil 2. Təmizləmə effektivliyinin sorbentin kütləsindən aslılığı

Optimal nisbət təyin edildikdən sonra məhlulda metal ionlarının $C_{potensial}$ tarazlıq konsentrasiyası təyin olunmuş və adsorbsiya qabiliyyəti klassik həcm metodu ilə sorbsiya izotermləri göstərilmişdir. Bunun üçün sınaq aparmaq üçün kolbaya 0,2 q QKZT əsaslı adsorbentlər qoyulmuş və onlara başlanğıc qatılığı C_0-0,75-250 mq/l olan AMİ (Zn^{2+}, Cd^{2+}, Pb^{2+}) olan 50 ml model məhlul əlavə edilmiş və tarazlıq əldə olunana qədər saxlanılmışdır. Son konsentrasiya isə voltametrik üsulla müəyyən edilmişdir (Şəkil 3).



Şəkil 2. Pb(II), Cd(II), Zn(II) ionlarının QKZ tullantısı əsaslı adsorbentlərlə sorbsiya izotermləri

QKZT əsasında alınmış sorbentin sorbsiya qabiliyyətinə temperatur göstəricilərinin təsiri.

Cədvəl 2.

Pb^{2+} kationlarının QKZ tullantısı əsasında alınan sorbent tərəfindən sorbsiyasına temperaturun təsiri

T, C^0	$C_{başlanğıc}$	C_{son}	E, %	A, mq/q
20	5	0,44	92,3	0,23

30	5	0,34	93,3	0,24
40	5	0,30	94,1	0,24
50	5	0,28	94,5	0,25
60	5	0,25	95,1	0,25
70	5	0,22	95,7	0,25
80	5	0,21	96,1	0,25

Model məhlulunun temperaturunun AMİ ekstraksiyasının təmizlənmə səmərəsinə təsirini öyrənərkən göstərilmişdir ki, məhlulun temperaturu artdıqca təmizlənmə səmərəliliyi və sorbsiya qabiliyyəti artır. Ədəbiyyatdan [8] məlumdur ki, xemosorbsiya kimyəvi prosesdir və onun baş verməsi üçün əhəmiyyətli enerji tələb olunur. Buna görə də temperaturun artması ilə xemosorbsiya sürəti kəskin şəkildə artır. Nəticə etiba rı ilə, artan temperaturla tullantı sularının təmizlənməsinin adsorbsiya dəyərinin və səmərəliliyinin kəskin artdığını müşahidə etdiyimiz üçün, qurğuşun kationlarının QKZT-ı əsasında sorbent tərəfindən sorbsiyası xemosorbsiya mexanizmi vasitəsilə baş verir.



Şəkil 3. Pb^{2+} kationlarının QKZ tullantısı əsasında alınan sorbent tərəfindən sorbsiyasına temperaturun təsirinin qrafik aslılığı

Alınan nəticə

Aparılan tədqiqatlar nəticəsində onu deyə bilərik ki, AMİ-dan (Zn, Cd, Pb) çirkab suların təmizlənməsinin səmərəliliyinə müxtəlif amillər (t°C, pH $C_{qat.}$ və s.) təsir edir.

Müəyyən olunmuşdur ki, AMİ-nın ekstraksiyasının səmərəliliyi və QKZT əsasında sorbentlərin sorbsiya qabiliyyəti, məhlulun temperaturu və pH səviyyəsinin artması ilə artır, bu da AMİ-nın ekstraksiyası üçün xemosorbsiya mexanizminin üstünlük təşkil etdiyini göstərir.

Sübut edilmişdir ki, AMİ-nın təmizlənmə effektivliyi (E = 96-97%) və sorbsiya qabiliyyətindən (A = 6,0 - 7,5 mq/q) tullantı sularının təmizlənməsinin maksimal səmərəliliyinə, sorbent kütləsinin tullantı suyunun həcminə 20 q/l nisbəti ilə və sorbsiya müddəti 30 dəqiqə olmaqla nail olmaq olar.

ƏDƏBİYYAT

1. Алиева Р.А., Абдуллаева К.С., Бахманова Ф.Н., Гамидов С.З., Мирзаи Дж.И.,Чырагов Ф.М. Концентрирование и определение молибдена(VI) в морской воде // Экология и промышленность, с. 61-63, том 19, №11, 2015.

2. Абдуллаева К.С. Концентрирование и определение микроколичеств молибдена (VI) комплексообразующим полимерным сорбентом // Журн. Химические проблемы, с. 158-163, № 2, 2016

3. Renu Singh, Shiv Pratap Raghuvanshi And C.P. Kaushik. Defluoridation of Drinking Water using Brick Powder as an Adsorbent // Asian Journal of Chemistry, pp. 5818-5826, Vol.20, № 8, 2008.

4. Teba H. Mhawesh, Ziad T. Abd Ali. Granules of brick waste (GBW) as low-cost sorbent for removal of Pb^{+2} ions from aqueous solutions. Association

of Arab Universities Journal of Engineering Sciences, pp. 1-8, Vol.21, № 3, 2020.

5. В.С Циркова Н.А Сообрайда Ф.А Рзазаде. Сорбенты на основе отходов агропромышленного комплекса для очистки сточных вод. Вестник технологического университета, с. 263-266, Т.28, № 20, 2015.

6. Во Владимире (ВлГУ) запатентовали сорбент из отходов кирпичей для очистки воды от ионов железа, Новости. URL: https://nauka.tass.ru/nauka/150355355 (дата просмотра 26.07.2022)

7. Эффективные адсорбенты и сорбенты для очистки сточных вод от тяжелых металлов. Стать. URL: http://kvantmineral.com/stati/effektivnye-adsorbenty-i-sorbenty-dlya-ochistki-stochnyx-vod-ot-tyazhelyx-metallov.html (дата просмотра 18.07.2020)

8. Энергия — активация — хемосорбция.

URL:http://www.ngpedia.ru/id618042pl.html (дата просмотра 01.09.2014)

9. M.F. El-Shahat and A.M.A. Shehata. Adsorption of lead, Cadmium and Zinc ions from industrial wastewater by using raw clay and broken clay-brick waste // Asian Journal of Chemistry, pp. 4284-4288, Vol.25, № 8, 2013.

10. R.P.T.N. Rajapaksha; W.D.C.C. Wijerathne; I.A. Rambukwella. A novel brick made from clay brick waste/rice husk ash/cement to adsorb heavy metals and organic dyes in wastewater. Moratuwa Engineering Research Conference (MERCon), pp. 1-5, 2022.

SORBENTS FOR WATER PURIFICATION

Sultanova Fəxrənisə Emil qızı, Məmmədzadə Səyyarə Rüfət qızı
Email: fexrenise2006sultanova@gmail.com

A method and new magnetic sorbents based on crown ethers and magnetic nanoparticles was proposed. Synthesis conditions were selected to obtain Fe_3O_4 nanoparticles, evaluate the structural and magnetic properties of the synthesized nanoparticles. A methodology for the synthesis and synthesis of magnetic sorbents based on crown ethers was developed and the structural and magnetic properties of the synthesized sorbents were assessed. In investigation process, the sorption behavior of oxytetracycline and sulfamethoxazole was compared on nanoparticles and synthesized magnetic composites and selected the most promising sorbent for group concentration of sulfonamides. During investigation the features of sorption of sulfonamides on a magnetic composite were studied depending on the extraction conditions and the nature of the sorbates. On the other hand, factors influencing the value of distribution coefficients have been identified additionally the possibility of using a magnetic composite for the concentration of antibiotics was assessed.

Literature:

1. Safarik I., Horska K., Safarikova M. Magnetic techniques for the detection and determination of xenobiotics and cells in water. // Anal. Bional. Chem. 2012. V. 404. P. 1257-1273.

2. Xie L., Jiang R., Zhu F., Liu H., Ouyang G. Application of functionalized magnetic nanoparticles in sample preparation. // Anal. Bional. Chem. 2013. V. 406. P. 377-399.

3. Zhang D., Nju H., Zhang X., Meng Z., Cai Y. Strong adsorption of chloroteracycline on magnetite nanoparticles. // J. Hazard. Mater. 2011. V. 192. P. 1088-1093.

4. Reddy L.H., Arias J.L., Nicolas J., Couvreur P. Magnetic nanoparticles: design and characterization, toxicity and biocompatibility, pharmaceutical and biomedical applications. // Chem. Rev. 2012. V. 112. P. 5818-5878

ECO-FRIENDLY GREENHOUSE

Babarabov Vüsal Mürsəl oğlu
Email: vbabarabov@gmail.com

In recent years, there has been an increase in the number of greenhouses, as the number of greenhouses increases, the CO2 gas released into the air also increases, and the number of respiratory diseases also increases.

The goal is to eliminate this problem, for which changes in the heating and cooling systems of greenhouses have been proposed. In this way, we will prevent the damage caused by greenhouses to nature, and at the same time we will reduce the energy used in greenhouses.

So, it is proposed to use agro-waste from crops cultivated in nearby fields as a heating system.

As a cooling system, it is suggested to use semiconductor solar panels that follow the direction of the sun in the air. We made it through aurdino.

Based on the change we made in the heating system, we checked the time of color change of BTB solution based on CO2 gas both for agro-waste and with traditional (natural gas) fuel.

In our change in the cooling system, we graphed the power received by the panels through the aurdino and powered the humidity and TMP36 sensor as a result of the energy provided by the solar panels.

Literature

1. Soteris Kalogirou. Renewable energy, an international jurnal

2. National Geographic`s Strange Days on Planet Earth, sources of carbon dioxide, 2005
https://www.pbs.org/strangedays/educators/season1/ag_odf_sources.html

3. Antonio Bonomi, Borino Colling Klein, Task-39-CTBE-biofunels LCA comparison Final Report Phase 2 Part 1
https://www.ieabioenergy.com/wp-content/uploads/2019/07/Task-39-CTBE-biofuels-LCA-comparison-Final-Report-Phase-2-Part-1-February-11-2019.pdf

4. Kassegne, ME495-BombCalorimeter
http://www.digitaladdis.com/sk/ME495_BombCalorimeter.pdf

FENOLUN PROPİLENİN TRİMERİ İLƏ ALKİLLƏŞMƏ REAKSİYALARININ TƏDQİQİ

Ş.N. Xədici Abbasova, Ə.A.Həsənov , Ç.Q.Rəsulov, S.T. Rüstəmov
Email: shebnem.xedici@mail.ru

XÜLASƏ

Məqalədə fenolun kationit КУ-2 katalizatorundan istifadə etməklə propilenin trimeri ilə alkilləşmə reaksiyasının tədqiqindən bəhs edilir. Alkilləşmə prosesi fasiləli qurğuda aparılmışdır. Məqsədli məhsulun səmərəli çıxımını və seçiciliyini tapmaq üçün reaksiyanın kinetik parametrlərinin (temperaturun, reaksiyanın müddəti, ilkin komponentlərin mol nisbətlərinin, katalizatorun miqdarı) prosesin istiqamətinə və alınmış məhsulların tərkibinə təsiri araşdırılmışdır. Alkilləşmə reaksiyasının temperaturu 80-140°C, müddəti 2-8 saat hədlərində, fenolun propilenin trimerinə mol nisbəti 2:1-dən 1:3-dək , katalizatorun miqdarı 4-15% (götürülmüş fenola görə) qiymətlərində tədqiq olunmuşdur.Nəticədə müəyyən edilmişdir ki, reaksiyanın temperaturu 120°C, müddəti 6 saat, fenolun propilenin trimerinə mol nisbəti 1:2 mol/mol, katalizatorun miqdarı 10% (götürülən fenola görə) olduqda məqsədli məhsulun-*para*-(nonil)fenolun çıxımı götürülən fenola görə 74.8%, seçiciliyi isə məqsədli məhsula görə 91.9% təşkil edir. *para*-(nonil)fenolun kimyəvi quruluşu İQ, NMR spektroskopik üsullar ilə təsdiq edilmiş və fiziki-kimyəvi xassələri təyin olunmuşdur: qaynama temperaturu 140-220°C/10 mm c.st.; $n_D^{20} - 1.5055$ $n_D^{20} - 1.5055$; $\rho_4^{40} - 0.9455$ $\rho_4^{40} - 0.9455$; kinematik özlülük 100°C-də 5.1 c.st.

Açar sözlər: fenol, propilenin trimeri, katalizator, alkilləşmə, p-nonilfenol.

GİRİŞ

Fenolun alkilləşmə reaksiyaları 130 ildən artıqdır ki, məlumdur. Lakin buna baxmayaraq bu gün də, alkilfenolların alınması aktual problem olaraq

qalmaqdadır. Hazırda dünyada alkilfenollara olan tələbat 400000 ton/ili keçmişdir. Bu tələbatın 80-90% ödənilməsinə baxmayaraq hər il bu tələbat 1-2% artır. Buna səbəb alkilfenolların istifadə sahələrinin daha da geniş spektrdə inkişaf etməsidir [1-4].

Alkilfenolların alınmasında əsas problemlərdən biri də alkilləşdirici agent məsələsidir. Son vaxtlaradək fenolun alkilləşmə reaksiyalarında alkilləşdirici agent kimi polimer-distillatdan istifadə edilirdi. Lakin polimerdistillatın başqa vacib istifadə sahəsi tapıldığından (o, destruksiyaya uğradılaraq benzinlərə əlavə olunur) bu sahədə alkilləşdirici agent qıtlığı yaranmışdır. Ədəbiyyat mənbələrində müxtəlif alkilləşdirici agentlərlə fenolların alkilləşmə reaksiyalarına rast gəlinir[5-7].

Təqdim olunan məqalə fenolun kationit H-formalı КУ-2 katalizatorunun iştirakında propilenin trimeri ilə alkilləşmə reaksiyasının tədqiqinə həsr olunmuşdur.

TƏCRÜBƏLƏRİN NƏTİCƏLƏRİ

Fenolun propilenin trimeri ilə alkilləşmə reaksiyasının aparılması üçün xammal kimi fenoldan və propilenin trimerindən (PT) istifadə olunmuşdur. Katalizator kimi H-formalı КУ-2 katalizatoru götürülmüşdür.

Fenol qovulub təmizləndikdən sonra aşağıdakı fiziki-kimyəvi xassələrə malikdir: qaynama temperaturu -192ºC, ərimə temperaturu -41ºC, m.k. -94.

Propilenin trimeri propilenin oliqomerləşmə prosesindən alınmışdır və aşağıdakı fiziki-kimyəvi xassələrə malikdir: qaynama temperaturu 130-150ºC, $\rho_4^{20} - 0.741 \rho_4^{20} - 0.741$; PT-nin miqdarı 97.2%, C_8- olefinlərin miqdarı -1.74%, brom ədədi, qBr/100q məhsulda – 154.4.

Fenolun propilenin trimeri ilə alkilləşmə reaksiyaları təchiz edilmiş termometr, qarışdırıcı, damcı qıfı ilə üçboğazlı kolbada həyata keçirilmişdir. Kolbaya hesablanmış miqdarda fenol, katalizator tökülüb qızdırılır. Temperatur 45ºC-ə çatdıqda onun üzərinə damla-damla propilenin trimeri əlavə edilir. PT-i

əlavə olunub qurtardıqdan sonra reaksiyanın temperaturu 80-140ºC-ə qaldırılaraq 2-8 saat qarışdırılır. Reaksiya qurtardıqdan sonra reaksiya qarışığı süzülərək katalizatordan ayrılır və alınmış alkilat rektifikasiya olunur. Rektifikasiya zamanı ilk öncə atmosfer təzyiqində PT və fenol, sonra isə aşağı təzyiqdə (10 mm c.st.) reaksiya məhsulları qovulub ayrılır, kimyəvi quruluşları və fiziki-kimyəvi xassələri təyin edilir.

NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

para-(nonil)fenolun alınma prosesi üçün optimal şərait tapmaq üçün fenolun propilenin trimeri ilə alkilləşmə reaksiyasının istiqamətinə, seçiciliyinə, məqsədli məhsulun çıxımına kinetik parametrlərin (temperatur, vaxt, ilkin komponentlərin mol nisbətləri, katalizatorun miqdarı) təsiri araşdırılmışdır. Alkilləşmə reaksiyasının temperaturu 80-100ºC, vaxtı 2-8 saat hədlərində, fenolun PT-ə 1:0.5÷3 mol/mol nisbətlərində, katalizatorun miqdarı 4-15% qiymətlərində tədqiq edilmişdir.

Alkilləşmə reaksiyalarının nəticələri cədvəldə verilir.

Cədvəldən görünür ki, alkilləşmə reaksiyasının temperaturunun 80,100ºC qiymətlərində məqsədli məhsulun çıxımı 51.3 və 66.3%, seçiciliyi isə 88.0-92.9% olur. Çıxımın az, seçiciliyin nisbətən çox olması alkilləşmə reaksiyasının tam getmədiyini göstərir. Reaksiyanın temperaturunu 120ºC-dək artırdıqda məqsədli məhsulun çıxımı götürülən fenola görə 74.8%, seçiciliyi isə məqsədli məhsula görə 91.9% təşkil edir. Akilləşmə reaksiyasının temperaturunu 130-140ºC-dək artırdıqda məqsədli məhsulun çıxımı 67.8-71.6%-dək aşağı düşmüş olur. Bu, yüksək temperaturlarda arzuolunmaz məhsulların alınması ilə izah olunur.

Alkilləşmə reaksiyasının aparılması üçün vacib kinetik parametrlərdən biri də prosesin aparılma müddətidir. Cədvəldən görünür ki, reaksiya müddətini 2-4 saat götürülməsi məqsədli məhsulun yüksək çıxımla alınması üçün kifayət etmir. Bu şəraitdə məqsədli məhsulun çıxımı 54.7-61.3%, seçiciliyi 93.0-94.0% olur. Prosesin getmə müddətini 6 saat götürməklə məqsədli məhsulun çıxımı 74.8%-

dək artmış olur. Reaksiya vaxtının sonrakı artımında məqsədli məhsulun çıxımı 75.7%-dək artmış olur, lakin bu zaman prosesin seçiciliyi aşağı düşür-87.6% (məqsədli məhsula görə). Deməli, reaksiya müddətinin 6 saat qəbul edilməsi daha məsləhətlidir, çünki bu zaman məqsədli məhsulun çıxımı götürülən fenola görə 74.8%, seçicilik isə məqsədli məhsula görə 91.9% təşkil edir.

Cədvəl

Fenolun КУ-2 katalizatoru iştirakında propilenin trimeri ilə fasiləli işləyən qurğuda alkilləşmə reaksiyalarının nəticələri

Təcrü-bənin №-si	Götürülmüşdür,q		Reaksiyanın şəraiti			Alınmışdır,q							MM-un çıxımı, %	Seçicilik, %
	Fenol	PT	Temp., °C	Vaxt, saat	Kat-un miqdarı, %	Qayıdan PT	Qayıdan fenol	MM	YM	Qalıq	Cəmi	İtki		
1.	47	120	80	6	10	88.5	14.6	55.1	5.0	2.5	165.7	1.3	51.5	88.0
2.	47	120	100	6	10	79.1	9.8	70.9	3.4	2.0	165.2	1.8	66.3	92.9
3.	47	120	120	6	10	69.4	8.6	80.0	3.8	3.2	165.0	2.0	74.8	91.9
4.	47	120	130	6	10	70.0	7.8	76.6	5.8	4.6	164.8	2.2	71.6	88.0
5.	47	120	140	6	10	70.0	7.0	72.5	8.4	6.4	164.7	2.3	67.8	83.0
6.	47	120	120	2	10	87.6	15.6	58.5	2.0	1.7	165.4	1.6	54.7	94.0
7.	47	120	120	4	10	84.5	10.5	65.6	2.5	2.4	165.5	1.5	61.3	93.0
8.	47	120	120	6	10	69.4	8.6	80.0	3.8	3.2	164.1	2.0	74.8	91.9
9.	47	120	120	8	10	65.2	6.4	81.0	6.8	4.7	76.0	2.9	75.7	87.6
10.	47	30	120	6	10	12.3	21.4	46.6	14.7	11.6	105.3	1.0	87.1	63.9
11.	47	60	120	6	10	16.2	17.6	61.5	6.4	3.6	165.0	1.7	57.5	86.0
12.	47	120	120	6	10	69.4	8.6	80.0	3.8	3.2	163.8	2.0	74.8	91.9
13.	47	180	120	6	10	128.6	7.5	81.4	3.0	2.2	222.7	4.3	76.1	94.0
14.	47	120	120	6	4	89.7	18.3	55.3	1.3	1.0	165.6	1.4	51.7	96.0
15.	47	120	120	6	7	84.0	13.2	64.5	2.3	1.1	165.1	1.9	60.3	95.0
16.	47	120	120	6	10	69.4	8.6	80.0	3.8	3.2	165.0	2.0	74.8	91.9
17.	47	120	120	6	15	70.8	7.0	80.5	2.8	3.2	164.3	2.7	75.2	93.1

Qeyd: PT- propilenin trimeri, MM- məqsədli məhsul,YM- yan məhsul

Cədvəldən görünür ki, ilkin komponentlər qarışığında fenolun qatılığını artıq götürdükdə, məqsədli məhsulun çıxımı yüksək olsa da, prosesin seçiciliyi aşağı olur. Reaksiya qarışığında fenolun PT-ə mol nisbətini1:2 götürdükdə səmərəli nəticəyə nail olmaq olur.

Fenolun PT ilə alkilləşmə reaksiyasını aparmaq üçün prosesdə istifadə olunan katalizatorun miqdarı da vacib kinetik amillərdən biridir. Cədvəldən görünür ki, katalizatorun miqdarını 5% götürdükdə məqsədli məhsulun çıxımı 51.7%, seçicilik isə 96.0% olur. Katalizatorun miqdarını 10% (götürülən fenola

görə) götürdükdə məqsədli məhsulun çıxımı 74.8, seçiciliyi isə 91.9% təşkil edir. Katalizatorun miqdarını 15%-dək artırdıqda məqsədli məhsulun çıxımı 75.2%-dək artır, lakin çıxımın 1-2% artırılması naminə katalizatorun artıq götürülməsi sərfəli deyil.

Beləliklə, H-formalı КУ-2 katalizatoru iştirakında propilenin trimeri ilə alkilləşmə prosesi üçün optimal şərait tapılmışdır: reaksiyanın temperaturu-120ºC, müddəti -6 saat, fenolun PT-ə mol nisbəti – 1:2, katalizatorun miqdarı götürülən fenola görə-10%. Tapılmış, bu şəraitdə məqsədli məhsulun –*para*-(nonil)fenolun çıxımı götürülən fenola görə 74.8%, seçicilik isə məqsədli məhsula görə 91.9% təşkil edir.

para-(nonil)fenolun kimyəvi quruluşu İQ, NMR spektroskopik üsullar ilə təsdiq edilmiş və fiziki-kimyəvi xassələri təyin edilmişdir: qaynama temperaturu temperaturu 140-220°C/10 mm c.st.; $n_D^{20} - 1.5055 n_D^{20} - 1.5055$; $\rho_4^{40} - 0.9455 \rho_4^{40} - 0.9455$; kinematik özlülük 100ºC-də 5.1 s.st.

NƏTİCƏ

Fenolun H-formalı КУ-2 katalizatoru iştirakında propilenin trimeri ilə alkilləşmə prosesi üçün optimal şərait tapılmışdır. Müəyyən edilmişdir ki, reaksiyanın temperaturu-120ºC, müddəti -6 saat, fenolun PT-ə mol nisbəti – 1:2, katalizatorun miqdarı götürülən fenola görə-10% olduqda, *para*-(nonil)fenolun çıxımı götürülən fenola görə 74.8%, seçicilik isə məqsədli məhsula görə 91.9% olur.

ƏDƏBİYYAT

1. Mirzayev V.H. Some peculiarities of alkylation reaction of phenol with C_4 fraction dimerization products of pyrolysis process// Elixir International Journal, 109, pp-47926-47928, 2017.

2. Mirzayev V.H., Majidov E.A., Manafov M.R., Rasulov Ch.K. Some peculiarities of interaction reaction of phenol with the Dimerization products of C_4 fraction of gasoil pyrolysis// Global journal of chemistry 3(1): 136-142, 2017.

3. Котов С.В., Тыщенко В.А., Зерзева И.М., Тарасов А.В., Тимофеева Г.В., Котова Н.С. Влияние параметров алкилирования, состава сырья и вида катализатора на соотношение получаемых орто- и пара-алкилфенолов //Нефтехимия ,57(2): с.199–203, 2017.

4. Байгузина А.Р., Махиянова Р.А., Хазипова А.Н., Хуснутдинов Р.И.Алкилирование фенолов трет-бутанолом под действием цеолитов у в Н-форме с иерархической пористой структурой // Журнал общей химии 89(8), с.1157–1163, 2019.

5. Котов С.В., Тимофеева Г.В., Котова Н.С., Тарасов А.В., Зерзева И.М. Сравнение каталитической активности сульфокатионитов в синтезе алкил (C_{16}-C_{18})- фенолов–полупродуктов производства присадок// Нефтепереработка и нефтехимия. 4, с.40-43, 2013.

6. Покровская С.В., Факеев А.В., Садовская К.А., Антух К.П. Совершенствование процесса алкилирования фенола тетрамерами пропилена на макропористых сульфокатионитах в СООО «ЛЛК-Нафтан». // Вестн. Полоцк. гос. ун-та. Сер. В: Пром-ть. Приклад. науки. 11. с.101-107, 2016.

7. Rasulov Ch.K., Shahmuradov S.T. Study of catalytic cycloalkylation reactions of para-chlorophenol with 1-methyl- and 4-vinilcyclohexenes News of Azerbaijan Higher Technical Schools; 24(1). p.101-105, 2022.

BORU KƏMƏRLƏRİNİN YERALTI VƏ ATMOSFER KORROZİYASINDAN QORUNMASI

Bakalavr:
IV kurs, qr. 341.20

Elmi rəhbər:
Dosent Naibova T.M.

Dursunov Urfan İlqar n.tamilla51@gmail.com
urfandursunov2@gmail.com

Korroziya prosesi həm ekoloji, həm də iqtisadi cəhətdən arzuolunmaz prosesdir və dünya miqyasında bu kimi arzuolunmaz prosesin tam həlli istiqamətində aparılan elmi-tədqiqat işləri aktullığı ilə öndə gedən tədqiqatlar sırasındadır. Hər bir növ korroziya prosesi çox mərhələlidir. Hansı ki, bu mərhələlərə həm daxili, həm də xarici amillər təsir edir. Məsələn, korroziyaya uğrayan avadanlıq və qurğuların hazırlandığı metalın təbiəti, onun quruluşu, səthin vəziyyəti, temperatur, mühit, mühitin hərəkət sürəti və pH-ı və.s. Korroziyanın geniş yayılmış növlərindən olan yeraltı (torpaqda) və atmosfer korroziyasına neft və qaz çıxarma sənayesində istismar olunan boru kəmərlərinin mühazfizəsində aktual problemlərdəndir. Yer altında yerləşən, metaldan hazırlanan boru kəmərlərinin korroziyadan qorumaq məqsədi ilə müxtəlif izoləedici örtüklərdən və elektrokimyəvi üsullardan istifadə olunur. Neft və qazçıxarmada istismar olunan boru kəmərləri həm daxili, həm də xarici səthdən müxtəlif aqressiv birləşmələrin təsirindən korroziyaya uğrayaraq, dağılma və yeyilmələr baş verir. Nəticədə nəql olunan məhsulların itkisinə, təmir üçün çoxlu material sərfinə və digər arzuolunmaz halların baş verməsinə səbəb olur. Boru kəmərləri yerin altındadırsa, torpağın nəmliyindən, onda olan mineral duzların miqdarından və növündən asılı olaraq müxtəlif xüsusiyyətli korroziyaya uğrayır. Əgər torpağın nəmliyi 25-30% olarsa, onda metaldan hazırlanan avadanlıq və qurğularda maksimum korroziya müşahidə olunur. Torpaqda olan aqressiv ionlar Cl^- və SO_4^- -dür. Eyni zamanda torpaqda həll olmuş CO_2 və O_2 qazları da var. Torpaqda CO_2 qazının çox olmasına səbəb fotosintez prosesidir. Açıq havada neft və qazçıxarma sənayesində istifadə olunan boru kəmərlərinin korroziyasına havanın temperaturu ciddi təsir göstərir, yəni atmosfer havasının temperaturu nə qədər çox olarsa, bir o qədər çox rütubət metalın səthində tez quruyur və onun metalla əlaqəsi tez kəsilir. Atmosferdə havanın rütubətliyi 60%-dən çox olduqda

korroziyanın sürəti intensivləşir və havanın tərkibində olan aqressiv qazların təsirindən daha da dərinləşir. Metalla kontakda olan havanın rütubətini azaltmaqla (qurutma ilə), səthin izolyasiyası və passivləşdirilməsini təmin etməklə atmosfer korroziyasının sürətini azaltmaq olar. Sənaye və dəniz kənarı rayonlarda metalların korroziyaya uğrama sürəti havanın tərkibindəki SO_2 qazından asılıdır. Beləki, atmosferdə SO_2 qazı varsa, onda metaldan hazırlanan boru kəmərlərinin korroziyaya uğrama sürəti artır. Korroziyadan mühafizə üçün bir çox üsullar – qoruyan qeyri-metal örtüklər (boya, lak, emal və.s), metal (sink, qalay, qurğuşun, nikel, xrom və.s) örtüklərlə, elektrokimyəvi (anod və ktaod), yəni qoruyan metal sabit cərəyan mənbəyinin katoduna, mənbəyin anodu isə hər hansı bir dəmir parçasına birləşdirilir. Bu zaman sabit cərəyan mənbəyi elektronları anoddan alıb katoda verir və oksidləşdirici katodda reduksiya olunur [1-3].

ADNSU-nin “Üzvi maddələr və Yüksəkmolekullu birləşmələrin texnologiyası” kafedrasında ilk dəfə sintez olunan funkisonallaşdırılmış sooliqomerlərdən əlaqələndirici kimi istifadə etməklə korroziyaya qarşı örtük kompozisiyaları hazırlanmış, həmçinin tərkibində azot olan üzvi birləşmələrlə funksionallaşdırılmış sooliqomerlərdən metalların korroziyadan qorunmasında inhibitor kimi istifadə olnmuşdur. Hal-hazırda bu istiqamətdə elmi-tədqiqat işləri davam etdirilir [4-6].

ƏDƏBİYYAT SİYAHISI

1. Яролавцева О.В., Коррозия и защита металлов. Москва, Изд. Юрайм, 2022, 189 с.
2. Федосова Н.Л., Антикоррозионная защита металлов. Иваново, 2009, 187с.
3. Авденко А.П. Коррозия и защита металлов. Справорное пособие. Краматорск ДГМА 2004, 112 с.
4. Ризаев Р.Г., Билалов Я.М., Наибова Т.М. Исследование защитных свойств

модифицированных фенолоформальдегидных олигомеров. Ж. Нефть и газ. Ваку, 1991, №11-12, с.91-24

5. Караев С.Ф., Наибова Т.М., Билалов Я.М., Талыбов Г.М. Полимерные защитные покрытия на основе фенолоформальдегидных олигомеров, модифицированных пропаргиловыми бром эфирами. Ж.Физико-химия поверхности и защита материалов. Москва, 2010, Том 46, №4, с.393-397
6. Наибова Т.М., Агаев И.Ф. Азотсодержащие олигомеры как ингибиторы

коррозии стального нефтепромыслового обарудования. Ж. Молодежный научный вестник. УГНТИ, г. Стерлитамак, 2018, с.144-148.

NEFT VƏ QAZ ÇIXARMADA İSTİSMAR OLUNAN AVADANLIQLARIN KORROZİYASINA TƏSİR EDƏN AMİLLƏR

Bakalavr:
IV kurs 341.20
Hacıbabazadə Nihad Kənan
n.tamilla51@gmail.com
2503nihad@gmail.com

Elmi rəhbər:
Dosent Naibova T.M.

Müasir cəmiyyətdə korroziya prosesi sənayenin ən mühüm problemlərindən biridir. Əksər sənaye dizaynları heç vaxt korroziyanın avadanlığın xidmət müddətinə təsirini nəzərə almadan hazırlana bilməz. Son sənaye fəlakətləri göstərir ki, bir çox sənaye korroziya nəticəsində bir neçə milyard dollar itirib. Dünyadakı hesabatlar bəzi neft şirkətlərinin korroziya səbəbindən boru kəmərinin partladığını və ətraf mühitin çirklənməsinə səbəb olan neft sızıntılarının yaşandığını təsdiqləyir; əlavə olaraq, bu ekoloji qarışıqlığın təmizlənməsində resurslar itirilir və nəhayət, korroziya təsirləri nəticəsində geniş miqyaslı ekoloji ziyan dəymişdir. Sənaye müəssisələrində korroziyanın baş vermə ehtimalı kimya,neft-kimya və mexanika sahəsində çalışan mühəndisləri daim

düşündürür. Məlumdur ki, korroziya seçilmiş prosesin kimyasına və reaksiya məhsullarının təmizliyinə mənfi təsir göstərir. Neft və qaz sənayesində korroziyanın ən çox yayılmış forması poladın nəm mühitlə təmasda olduqda və paslandıqda baş verir. Metal korroziyalı mühitə (elektrolit) məruz qaldıqda, anod yerindəki metal atomları elektronlarını itirir və bu elektronlar daha sonra katod yerindəki digər metal atomları tərəfindən udulur. Elektrolit vasitəsilə anodla təmasda olan katod onların müsbət və mənfi yüklərini tarazlaşdırır. Müsbət yüklü ionlar mənfi yüklü atomların digər qrupları ilə əlaqə qura bilən elektrolitə daxil olur.Neft və qaz sənayesində korroziya növlərini vahid şəkildə təsnif etmək böyük problemdir. Korroziyanı korroziya zədələnməsinin görünüşünə, hücum mexanizminə, sənaye sahəsinə və profilaktik üsullara görə bölmək olar. Korroziyanın bir çox növləri və səbəbləri var. Müəyyən bir boru sistemində mövcud mexanizm mayenin tərkibinə, xidmət yerinə, konstruksiyasına, temperatura və s. görə dəyişir. Bütün korroziya hallarında reaksiyanın baş verməsi üçün elektrolit mövcud olmalıdır. Neft və qaz hasilatı sənayesində korroziyanın əsas formalarına şirin korroziya, turş korroziya, oksigen korroziyası, qalvanik korroziya, yarıq korroziyası, eroziya korroziyası, mikrobioloji səbəbli korroziya aiddir [1-2].

Bəzi yüksək temperaturlu korroziya növləri istisna olmaqla, korroziyanın bütün formaları elektrokimyəvi elementin təsiri ilə baş verir. Bütün korroziya hüceyrələri üçün ümumi olan elementlər bunlardır:

- oksidləşmə və metal itkisinin baş verdiyi anod;
- azalma və qoruyucu təsirlərin meydana gəldiyi katod;
- elektron və ion cərəyanının keçdiyi anod və katod arasında metal və elektrolitik yollar;
- hüceyrəni hərəkətə gətirən potensial fərq.

Hərəkət potensialı fərqli metalların xüsusiyyətləri, səth şəraiti və ətraf mühit, o cümlədən kimyəvi konsentrasiyalar arasındakı fərqlərin nəticəsi ola bilər. Hər bir

təsir növünə səbəb olan xüsusi mexanizmlər, onların ölçülməsi və proqnozlaşdırılmasının müxtəlif yolları və onun hər bir formasında korroziyaya nəzarət etmək üçün istifadə edilə bilən müxtəlif üsullar mövcuddur.

Elektrokimyəvi korroziya dörd komponentdən ibarətdir:

- anod (korroziyaya uğrayan metal);
- katod (metal, qrafit və ya yarımkeçirici elektron keçirici);
- reduksiya olunan növ olan elektrolit;
- elektrodlar arasında elektron keçirici əlaqə.

Anod reaksiyası sadədir və anod metalı korroziyaya uğradır və müsbət metal ionları kimi məhlula daxil olur :

$$M \rightarrow M^{n+} + ne^{-}$$

İstehsal olunan elektronlar korroziyaya uğrayan metalın üzərində qalır, buradan onları çıxarmaq üçün heç bir katod reaksiyası olmadıqda korroziya prosesi baş vermir. Elektrokimyəvi korroziyada anodda əmələ gələn elektronlar elektrolitin katod səthində reaksiyası nəticəsində əmələ gəlir.Müxtəlif növ korroziyalar metallara təsir edə bildiyi üçün bir neçə katod reaksiyası ola bilər. Təbiətdə neytral və qələvi məhlullarda ən çox rast gəlinən hadisə həll olunan oksigenin azalmasıdır:

$$O_2 + 2H_2O + 4e^{-} \rightarrow 4OH^{-}$$

Turşularda katod reaksiyası hidrogen ionlarının azalmasıdır :

$$2H^{+} + 2e^{-} \rightarrow H_2\uparrow$$

Bəzi kimyəvi proseslərdə məhlullarda valentliyi azaldıla bilən oksidləşdirici maddələr var, məsələn mis ionları metal misə qədər azaldıla bilər:

$$Cu^{2+} + 2^{e-} \rightarrow Cu$$

Ədəbiyyat siyahısı

1. Яролавцева О.В., Коррозия и защита металлов. Москва, Изд. Юрайм, 2022, 189 с.

2. Федосова Н.Л., Антикоррозионная защита металлов. Иваново, 2009, 187 с.

KERAMİK TULLANTILAR ƏSASINDA GEOPOLİMERLİ MATERİALLARIN ALINMASI VƏ TƏDQİQİ

Bakalavr:
Zeynallı Gülşən Mayis qızı
III kurs, 353.21 qrup tələbəsi

Elmi rəhbərlər:
professor Y.N.Qəhrəmanlı
laborant K.İ.Qoryunova

Geopolimerlər üçölçülü alümosilikat quruluşuna malik qeyri-üzvi polimerlərdir [1]. Bu materiallar unikal xassələrə malikdir. Onlar yaxşı istilik və səs izolyasiyası, yüksək temperaturlara müqaviməti, yüksək mexaniki möhkəmliyi və yüksək sorbsiya qabiliyyəti ilə səciyyələnirlər [2]. Unikal xassələrinə görə geopolimerlər həm elmdə, həm də sənayedə geniş tətbiq tapmışdır [3].

Tədqiqat obyekti kimi keramik tullantılar əsasında alınmış geopolimerli materiallar götürülmüşdür. Geopolimerlərin alınması, prekursor kimi natrium silikatdan istifadə etməklə, həyata keçirilirdi. Bu zaman keramik tullantıların prekursora olan nisbəti 90:10, 80:20, 70:30 və 60:40 təşkil edirdi.

Apardığımız tədqiqatlar nəticəsində monolit geopolimerli materiallar əldə edilmişdir. Alınmış nümunələrin fiziki-mexaniki xassələri, o cümlədən sıxılmada möhkəmlik həddi öyrənilmişdir.

ƏDƏBİYYAT

1. J. Davidovits, Geopolymer Chemistry and Applications, Saint-Quentin, France, Institut G´eopolym`ere, 2008.

2. R. E. Lyon, P. N. Balaguru, A. Foden, U. Sorathia, J. Davidovits and M. Davidovics, Fire Mater., 1997, 21, 67–73.

3. Y. N. Gahramanli, R. Sh. Hajiyeva, M. B. Hasanova, B. A. Samedzadeh. An Obtaining of Foaming Composites on Basis of Ceramic Wastes and Research Their Volume Weight. AJCN, Vol. 1., 2020, pp. 4 – 13.

ФУНКЦИОНАЛИЗАЦИЯ ХИТОЗАНА ДИАЛЬДЕГИДАМИ И ИССЛЕДОВАНИЕ ИХ МОРФОЛОГИИ, СТРОЕНИЯ И СОСТАВА.

Бакалавр: Сибель Гасанова 4 курс,340.20

Научный руководитель: Севиндж Маммедханова

В данной работе представлены данные по функционализации хитозана диальдегидами для получения новых адсорбентов для очистки воды от нефтезагрязняющих органических примесей и тяжелых металлов. Известно, что хитозан сам по себе является отличным адсорбентом, кроме того, он характеризуется такими оригинальными свойствами как биоразлагаемость и биосовместимость. Однако, наряду с этим хитозан как адсорбент имеет такие недостатки как недостаточная площадь поверхности, слабые механические свойства и низкая пористость. В свете вышеизложенного, функционализация хитозана органическими молекулами и наночастицами для улучшения его адсорбционных свойств является актуальной задачей. С этой целью проводился синтез геля на основе хитозана и диальдегидов реакцией нуклеофильного присоединения аминогруппы хитозана и карбонильной группы диальдегида. Следующий этап включал в себя получение нано ансамбля на основе синтезированного геля и наномагнетита. Строение и состав полученных гелей и наноансамбля гель@Fe_3O_4 были проанализированы FTIR, SEM, XRD, TEM методами анализа.

СПИСОК ЛИТЕРАТУРЫ

1)Mina Keshvardoostchokami a,* , Mahyar Majidi a , Abbasali Zamani b , Bo Liu a. A review on the use of chitosan and chitosan derivatives as the bio-adsorbents for the water treatment: Removal of nitrogen-containing pollutants.Carbohydrate Polymers,273,Elsevier.https://doi.org/10.1016/j.carbpol.2021.118625

2) Waldo M. Argüelles-Monal 1,* ID , Jaime Lizardi-Mendoza 1,* ID , Daniel Fernández-Quiroz 2 ID , Maricarmen T. Recillas-Mota 1 ID and Marcelino Montiel-Herrera. Chitosan Derivatives: Introducing New Functionalities with a Controlled Molecular Architecture for Innovative Materials.Polymers,10-342. Basel, Switzerland,2018

BORU KƏMƏRLƏRİNİN KORROZİYASINA QARŞI İSTİFADƏ OLUNAN ÖRTÜKLƏR

Bakalavr:
IV kurs 341.20
Quluzadə İbrahim Tahir
aytenmammedova975@gmail.com
ibrahamguluzada@gmail.com

Elmi rəhbər:
Müəllim Məmmədova A.Ə

Korroziya, ümumiyyətlə, arzuolunmaz bir hadisədir, çünki metalın arzu olunan xüsusiyyətlərinə mənfi təsir göstərir. Məsələn, dəmirin yaxşı dartılma gücünə və sərtliyinə (xüsusilə bir neçə başqa elementlə ərintilərə) malik olduğu məlumdur. Digər tərəfdən, korroziya diffuziya ilə idarə olunan bir prosesdir və əsasən açıq səthlərdə baş verir. Buna görə də, bəzi hallarda məruz qalan səthin fəaliyyətini azaltmağa və materialın korroziyaya davamlılığını artırmağa cəhdlər edilir. Tez-tez metal məmulatlardan, müxtəlif poladdan və hətta beton konstruksiyalardan ibarət olan boru kəmərləri ən əlverişli olmayan ekoloji şəraitdə yüksək dərəcədə deformasiyaya malikdir və müvafiq olaraq bu məhsulların xidmət müddətinə və göstərilən xidmətlərin keyfiyyətinə

əhəmiyyətli dərəcədə təsir göstərir. Korroziya əlverişsiz xarici mühitin dağıdıcı hadisələrinin temperatur, qravitasiya və ya digər təsirlər vasitəsilə müxtəlif növ maddələrdən ibarət məhsulların bütövlüyünə nəzərəçarpacaq güc tətbiq edə bilən bir prosesdir. Prosesin özü çox vaxt bir sıra oksidlərin və duzların əmələ gəlməsi ilə müşayiət olunur.Sonrakı kimyəvi reaksiyalar materialı dönməz şəkildə məhv edir, bu səbəbdən istifadə olunan metalların səthindən korroziyanı aradan qaldırmaq üçün çox səy göstərməkdənsə,

Metaldan hazırlanan boru kəmərlərində korroziya sürəti bəzən çox dəyişir, çünki bu metalların mövcud olduğu şərtlər məhvetmə sürətində mühüm rol oynayır.

Boruların səthinə tətbiq etmək üçün istifadə olunan ən çox yayılmış antikorroziya materiallar aşağıdakılardır:

- bitum və bitum-polimer mastikaları;
- rulonlu mastikalar;
- polietilen;
- istilik təsirindən büzüşən polietilen materiallar;
- poliuretanlar.

Korroziyadan qorunmanın geniş yayılan üsullarından biri passivləşdirmə üsuldur.Bu üsuldan yeraltı magistral yollar üçün istifadə olunur.

Bu tip qorunmanın aşağıdakı növləri var:

- Xüsusi quraşdırma üsulu. Korroziyadan qorunmanın quraşdırılması boru kəmərinin quraşdırılması mərhələsində həyata keçirilir. Boru kəmərinin yeri ilə borunun metal səthi arasında hava boşluğu qalır ki, bu da yeraltı suların, duzların və yerdə yerləşən qələvilərin təsirini mükəmməl şəkildə aradan qaldırır. Əlavə qorunma üsulları tez-tez istifadə olunur:

- Korroziyaya qarşı örtüklərin tətbiqi. Boru kəmərinin xarici tərəfi duzlara və qələvilərə məruz qalmayan birləşmələrlə boyanmışdır. Bu hərəkətlərin bariz nümunəsi boruların astarlanması və sonra oliqomer əsaslı örtüklərin tətbiqidir.

Boru kəmərlərini korroziyadan qorumaq üçün hal-hazırda qeyri metal örtüklər geniş istifadə olunur. Eyni zamanda aktiv boru kəmərlərinin keçdiyi sahələrdə ətraf mühitin aqressivliyinədə diqqət yetirilməlidir.Hər bir üsulboru kəmərinin növünə,onun quraşdırılması üsuluna, xarici və daxili mühitlə qarşılıqlı əlaqəsinə əsasən istifadə olunur [1-3].

ƏDƏBIYYAT SIYAHISI

1.Naibova T.M., İsmailov T.M., Mammadova A.A. Filled polymer composition as corrosion preventive coatings. Prossedings of the sixth Baku international congress “Energy, ecology, economy, Baku, 30 may-3 June 2002, 9-10,Vol. II

2.Naibova T.M., Mammadova A.A, Abbasoca K.Q., Aliyeva Z.N. Ecologically sutainable corrosion preventive coating. "Science, Technology and Higher Education".Material of the III İnternational research and practice conference. Vol. II Kanada, Westmaunt,16.10.2013, p.122-123

3.Naibova T.M., Həsənov Q.S., Əmirov F.Ə., Məmmədova A.Ə., Rahimova A.Ə., Ömərova N.A. Örtük kompozisiyası AP patenti,No 2020. 0021, 29.07.2021.

“NEFT-MEXANİKA” BÖLMƏSİ

NEFT VƏ QAZ HASİLATİNİN ƏTRAF MÜHİTƏ VƏ İNSAN SAĞLAMLIĞINA TƏSİRLƏRİ

Xeyrəbadi Qəzalə, Həsənov Murad
hsnovmurad06@gmail.com

Açar sözlər: Neft, ekologiya, dəniz, okean, ətraf mühitin çirklənməsi.

Neftin çıxarılması, istismarı, saxlanılması, emalı zamanı və ümumiyyətlə neft biznesinin bütün mərhələlərində ətraf mühitin çirklənməsi prosesi gedir. Neft üzvi və qeyri-üzvi kimyəvi maddələrdən ibarət olan mürəkkəb quruluşlu özlü mayedir. O spesifik iyə malikdir, rəngi isə açıq-kəhraba rəngindən tünd qara rəngə qədər dəyişir. Neftin elementar tərkibi nisbətən sabit olub, onu təşkil edən hər bir komponent quruluşda 3-4% təşkil edir. Maye neftin əsas tərkib hissəsini isə karbon (83-87%) və hidrogen (12-14%) təşkil edir. Kükürd isə neftin tərkibində 6%-ə qədər ola bilir. Azot və oksigenin özlü mayedə miqdarı 0,1%-i təşkil edir, bəzən isə bu miqdar 2,0%-ə qədər ola bilir. Neftin tərkibinin 0,1%-dən 0,01%-ə qədərini mikroelementlər – metalların duzları və üzvi turşular təşkil edir. Tərkibindəki 60 mikroelementlərin yarıdan çoxunu metallar təşkil edir. Bu metallardan vanadium və nikel – 10-3-10-2 %; dəmir - 10-4-10-3 %; sink 10-5-10-3 %; civə 10-5 %; natrium, kalium, kalsium, manqan - 10-4-10-3 % təşkil edir[1].

Metal tərkibli birləşmələrin əsas kütləsi neftin qətran və alfaten hissəsində toplanmış, karbohidrogen fraksiyasında isə onların miqdarı çox cüzidir.Element tərkibindən fərqli olaraq, xam neftin karbohidrogen tərkibi böyük intervalda dəyişir. Karbohidrogen tərkibdə sadə metandan (CH_4) çox mürəkkəb quruluş olan porfinlərə ($C_{90}H_{23}N_4$) qədər 1000-ə yaxın individual üzvi maddələr vardır. Neftin əsas tərkibi karbohidrogen (CH) birləşmələridir. Müxtəlif növ neftlərin tərkibində onun miqdarı 90%-dən 95%-ə qədərdir. Neftin tərkibi metan, paften və aromatik karbohidrogenlərdən, həmçinin onların oksigenli, kükürdlü və azotlu törəmələrindən ibarətdir.Neftin aromatik karbohidrogenləri müxtəlif neftlərdə

15%-dən 50%-ə qədər dəyişir. Onların orta miqdarı müxtəlif parafinli neftlərdə aşağıdakı kimi dəyişir: az parafinlərdə - 37,4%; orta parafinlərdə - 30,6%; yüksək parafinlərdə - 20,8%. Neftin tərkibində olan parafin karbohidrogenlərinin ümumi miqdarı əsasən 25-30% təşkil edir. Bu faiz neftin tərkibində həll olunmuş qazların miqdarı nəzərə alınmayan haldakı miqdarını göstərir.

Neftdə həll olan qazların miqdarı nəzərə alındıqda isə parafinlərin miqdarı 40-50%-ə, bəzi neftlərdə isə 50-70%-ə çatır. Bununla yanaşı, tərkibində cəmi 10-15% parafin olan neftlər də vardır.Neftin tərkibində çox az miqdarda etil qrupundan daha böyük alkil qrupu saxlayan şaxəli quruluşlu parafinlərin olması da müəyyən edilmişdir.Qaz karbohidrogenlər xalis qaz, qaz kondensat və neftlə birlikdə neft yataqlarından çıxarılır.Qaz paraffin karbohidrogenlərin müxtəlif qaz kondensantı yataqlarından çıxarılan stabil miqdarı 5-10 sm3/m3-dan 300-500 sm3/m3-a qədər dəyişir. Qaz kondensat yataqlarındakı qazların tərkibində metanın, eləcə də benzin, kerosin və dizel fraksiyalarının tərkibini təşkil edən yüksək molekullu kaobohidrogenlərin miqdarı çox olur [3-2]:

Cədvəl 1-də neftlə birlikdə müxtəlif yataqlardan çıxarılan qazların kimyəvi tərkibi göstərilmişdir.

Cədvəl 1.

Neftlə birlikdə çıxan qazların kimyəvi tərkibi (% həcmlə)

Mədən	CH_4	C_2H_6	C_3H_8	C_4H_8	C_5H_{12}	CO_2	N_2-nadir qazlar
Abşeron yarımadası Qərbi	90,94	0,1-3	0,1-0,8	1,6	0,3-2,0	1-8	-
Quş-Dağ Anastasiyev	86,8	4,5	3,0	2,0	3,2	0,4	0,1
Troitski	85,1	5,0	1,0	1,0	2,8	5,0	0,1
Sokolovo-Qorski	53,0	9,0	11,2	10,0	5,8	1,0	10,0
Şpakov	41,2	15,0	15,8	6,9	4,0	0,1	17,0

Romaşkin	46,5	21,4	14,4	4,5	2,2	-	11,0
Bavlin	38,5	21,0	20,0	8,0	3,5	0	9

Hazırda müxtəlif mədənlərdən çıxarılan neftlərin tərkibində 30-dan çox metal, 20-yə yaxın qeyri metal elementlərinin olması aşkar edilmişdir. Neftin tərkibində

olan elementləri belə qruplaşdırmaq olar [2]:

Qələvi və qələvi torpaq metalları – Li, Na, K, Ba,Ca, Sr, Mg;

Mis yarımqrupu metalları – Cu, Ag, Au;

Sink yarımqrupu metalları – Zn, Cd, Hg;

Bor yarımqrupu metalları – B, Al, Ga, İn, Ti;

Vanadium yarımqrupu metalları – V, Nb, Ta;

Dəyişkən valentli metallar – Ni, Fe, Mn, Co, W, Cr, Sn və.s.

Göründüyü kimi neft çox mürəkkəb quruluşa malik təbii məhsuldur. Onun emal çox şaxəlidir. Neftin fiziki və kimyəvi xassələrini dəqiq müəyyənləşdirmədən onu emala hazırlamaq mümkün deyil. Eyni zamanda emal zamanı ətraf mühitə atılan tullantıların xassələrini öyrənmədən göstərdikləri neqativ təsirləri qiymətləndirmək mümkün olmur.

Neft məhsullarının istehsalı zamanı ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün çəkilən xərclər üç qrupa bölünür [8]:

Ətraf mühitin çirklənməsinin lazım olunan səviyyəyə qədər aşağı qalınması üçün lazım olan xərclər;

Ətraf mühitə daxil olan tullantılar nəticəsində yaranan neqativ social çatışmazlıqların konsepsiyası üçün tələb olunan xərclər;

Çıxan qazlara və çirklənmiş sularla birlikdə itən məhsul və xammalların ödənməsi üçün tələb olunan xərclər.

Ətraf mühitin mühafizə fəaliyyətinin əsas problemlərindən biri isə müxtəlif neft emalı müəssisələrindən olan çirkləndirmənin azaldılması üsullarının müəyyən edilməsidir.

Digər yanaşma çirklənmənin azaldılması üsulunun ayrı-ayrı maddələrin atılmasının azaldılması kombinasiyasına əsaslanır ki, bu havanın keyfiyyətinin normallaşdırılmasını minimum xərclərlə təmin edir. Belə yanaşma onunla izah olunur ki, çirkləndirici mənbə tullantılarının azaldılması vahidinə çəkilən xərclər bütün mənbələr üçün eyni olmur. Burada hər bir çirkləndirici mənbə tullantıların ölçülərini və hər hansı mənbənin çirkləndirmə parametrləri ilə onların havada yayılması modelini bilmək lazımdır. Bu modelin tərtib olunması üçün verilənlər bazası müxtəlif tullantıların azaldılmasına çəkilən xərclər haqqında qiymətlər şəklində məlumatlıdır. Belə ki, kükürd qazı, karbohidrogen, dəm qazı, azot oksigenləri və.s. güclü çirkləndirici maddələrdir.

Neft emalı zamanı ətraf mühitin çirklənməsindən dəyən zərərin hesablanmasının bir neçə üsulu vardır [4]:

Birbaşa hesablama üsulu.

Analitik üsul.

Empiric üsul.

Birbaşa hesablama: İqtisadiyyata dəyən zərər iqtisadiyyatın sahələrinə vurulmuş zərərin cəminə bərabərdir:

$Z = Z_s + Z_{k/t} + Z_{m/k} + Z_{səh}$

burada; Z_s – sənayeyə dəyən zərər;

$Z_{k/t}$ – kənd təsərrüfatına dəyən zərər;

$Z_{m/k}$ – mənzil kommunal təsərrüfatına dəyən zərər;

$Z_{səh}$ – səhiyyəyə dəyən zərər.

Atmosferin çirklənməsindən kənd təsərrüfatına və meşə təsərrüfatına dəyən zərər ayrı-ayrılıqda onların zərərləri cəminə bərabərdir.

$Z = Z_{k/t} + Z_m$

Kənd təsərrüfatına dəyən zərər belə hesablanır

$Z_{k/t} = Z_t + Z_b + Z_h$

burada; Z_t – çirklənmə nəticəsində torpaga dövriyyədən çıxmasına görə dəyən;

Z_b – kənd təsərrüfatına bitkiçiliyə dəyən zərər (məhsuldarlığın düşməsi nəticəsində);

Z_h – heyvandarlığa dəyən zərər;

Torpağın dövriyyədən çıxmasına görə dəyən zərəri aşağıdakı kimi hesablamaq

olar:

$Z_t = S \cdot G$

burada: S – çirklənməyə görə dövriyyədən çıxan torpağın sahəsi (ha);

G – hər hektardan alınan illik gəkir (man / ha)

Zərərin xüsusi çəkisinin hesablanması texnikası aşağıda verilmişdir.

Məsələn, konsentrantların yaratdığı iqtisadi zərər aşağıdakı düstur ilə müəyyən

olunur [7]:

$$Z = \sum Z_{səh.i} R_i + \sum Z_{ti} R_i + \sum Z_{əmi} S_i + \sum Z_{sən.i} F_i$$

burada:

$Z_{səh.i}$ – I zonada səhiyyəyə vurulan zərərin xüsusi çəkisi;

R_i – i zonada yaşayan əhalinin sayı;

Z_{ti} – i zonada kənd təsərrüfatı və meşə təsərrüfatına vurulan zərərin xüsusi çəkisi;

$Z_{əmi}$ – i zonada ətraf mühitə vurulan zərərin xüsusi çəkisi;

$Z_{sən.i}$ – i zonada sənayeyə vurulan zərərin xüsusi çəkisi;

F_i – i zonada sənayenin əsas fondlarının dəyəri;

n – zərəri müəyyənləşdirilmiş zonaların sayı.

Göründüyü kimi bu metod iqtisadi zərərin hesablanmasında zonaların çirklənmə səviyyəsini differensiallaşdırmaq külli miqdarda ilkin məlumatların toplanmasını tələb edir.

Ətraf mühiti çirkləndirən müəssisələr içərisində neft sənayesi müəssisələri əsas yerlərdən birini tutur. Praktiki olaraq neft sənayesinin əsas obyektləri – neftin çıxarılması, nəqli, onun emalı, emaldan alınmış məhsulların istifadəçiyə çatdırılması prosesləri ətraf mühiti çirkləndirən potensial mənbələrdir. Bir ildə çıxarılan neftin ümumi miqdarının 2-3%-i itkiyə gedir, bu itkinin 0,23%-i isə Dünya okeanına daxil olaraq okean sularını çirkləndirir. Böyük ekoloji problemlər dəniz və okeanların çirklənməsi nəticəsində baş verir.

Mövcud məlumatlara görə hər il dünya okeanına 10 milyon ton neft axır. Sputnik və aeroçəkilişlərdən nəzarət nəticəsində alınan məlumatlardan bilirik ki, dəniz və okeanların 1/3 hissəsinin səthi nazik əlvan örtük ilə örtülüb. Bu örtük nəticəsində suyun buxarlanması 60% aşağı enir. Bununla əlaqədar suyun səthi daha çox qızır və atmosfer ilə su səthi arasında qaz nisbəti artır ki, bu da dəniz və okeanlarda yaşayan balıq və digər canlılar üçün lazım olan su qatına daxil olan oksigenin azalmasına gətirib çıxarır. Su səthinə dağılmış 1 litr neft məhsulu 40 litr suyu oksigendən məhrum edir, 1 ton neft isə 12 km2 okean səthini çirkləndirərək oradakı bütün canlıları məhv edə bilər. Su səthinin çirklənməsinin səbəbləri çoxdur. Çox vaxt neft su səthinə sahilyanı selflərdən , üzən və stasionar qazımada neft çıxarılması zamanı axır. Digər səbəb dəniz tankerlərində baş verən qəza və fəlakətlərdir. Əgər əsrin əvvəlində tankerlərin tutumu 5-10 min ton olduğu halda, hal-hazırda yarım milyonlu tutumlular dəniz və okeanlarda hərəkət edirlər. Ötən əsrdə hər il 2 milyarddan az olmayaraq yanacaq əldə edilir və yandırılırdı ki, buna sərf olunan oksigen dünyada yaşayan bütün insanlara sərf olunan oksigendən minlərlə dəfə çoxdur. Axır minilliklərdə atmosferdəki karbonun 9% artdığı, oksigenin isə bir neçə faiz azaldığı müşahidə olunur.

Neft sənayesinin belə uzun inkişaf tarixinə baxmayaraq, cəmiyyətin inkişafı (sivilizasiyası) ayrı-ayrılıqda götürülmüş məhsuldan daha çox neftdən asılı olaraq davam etməkdədir. Yeri təzədən dolmayan neft-qaz ehtiyatlarının üzünmüddətli işlənilməsi və əhalinin daim artması qlobal ciddi konfliktin yaranmasına gətirib çıxarır. Bu konfliktin səbəbi gözlənilən resurs (ehtiyat) çatışmamazlılığıdır.

Dünya, XIX əsrin axırlarında ehtiyatların hamıya çatmaması haqqında verilən məlumatın həyata keçməsi ərəfəsindədir. Hal-hazırki şəraitdə ölkə tamamilə neftdən təcrid olunmuş şəraitdə inkişaf edə bilməz.Dayanılmaz prosesin qeyri-ənənəvi mənbələrdən alınan yanacaq ilə neft və qazı əvəz edəcəyini gözləyənlərin ümidləri hələlik doğrulmayıb. Neft sənayesinin uzun inkişaf tarixinə nəzər salsaq görərik ki, dünya ictimaiyyətinin hələ də ayrı-ayrılıqda götürülmüş daha şox məhsullardan neftdən asılıdır. Beləliklə, bu günə olan reallıq göstərir ki, resurs "aclığı" daha da artacaq. Bu problemin bir çətinliyi də ondan ibarərdir ki, neft-qaz ehtiyatları dünyada qeyri bərabər paylanılıb. Onlara hamıdan çox ehtiyacı olanlara bu xammal çatmır. Başqa sözlə desək iqtisadi cəhətdən inkişaf etmiş ölkələr və ehtiyyatların qıtlığı müşahidə olunur ki, buna görə də onların nəzərləri digər ölkələrin ehtiyatlarına dikilib. Bu vəziyyət keçmişdəki müharibələrin əsas stimulyatoru olub və gələcəkdə də istisna olunmur. Neftin bir çox dünya ölkələrinin siyasətinə təsiri, misal olaraq Kuveytdəki hadisələri, İraqda aparılan müharibəni göstərmək olar. Məşhur "Kim neftə sahibdir o, dünyaya sahibdir" aforizmi özünü təsdiq edir. Beləliklə, dünya dövlətlərinin siyasi quruluşlarına görə bölünmədiyi daha çox aydın olur, müasir dünya əsasən 2 bloka bölünüb: birinci neft və qaz ehtiyatlı ölkələr, ikinci bu ehtiyatlardan əsas istifadə edən ölkələr. Cənubi xəzərin dərin hissələrindəki yataqların işlənməsi üçün lazımi texnologiyaların olmaması bu vəziyyəti daha da çətinləşdirirdi. Bütün bunların nəticəsində Azərbaycan xarici investisiya və texnologiyaların cəlb edilməsinin labüdlüyünün qarşısında qalaraq qərbi kompaniyalar ilə bizə məxsus olan ehtiyatları bölüşmək məcburiyyətində oldu ki, bu da öz növbəsində 100 ildən

qabaqkı tarixin təkrarlanmasına gətirib çıxarır. Ötən əsrin əvvəlində olduğu kimi Xəzər regionu, o cümlədən də Azərbaycan kəskin siyasi oyunların ortasına çevrilir. Burada iyirmidən artıq ölkələrin maraqlarını bir-birinə əks fikirlər ilə möhkəm düyün əmələ gətirmişdir. Ekspertlərin çoxunun rəyinə görə yeni yüzillikdə Xəzər regionu karbohidrogenlərin hasilatına görə dünya üzrə ön sıralara çıxa bilər. Lakin bütün bunlar uzaq gələcəyə aiddir. Hal-hazırda isə Xəzər nefti bütün iqtisadi əhəmiyyəti ilə- qlobal siyasi məsələlərin həlli üçün bir alətdir.

Hal-hazırda 30-dan artıq neft komponiyaları və bir sıra daha xırda kompaniyalar və Xəzər dənizində Azərbaycanın neft sərvətlərinin istismarında iştirak edirlər. Xarici geoloqların sənədlərinə əsasən Xəzər regionunun dərinliklərində 40-200 milyard barel neft var. Müqayisə üçün, dünyanın ən iri hesablanmış neft ehtiyatı 260 milyard barel neft Səudiyyə Ərəbistanındadır. Beləliklə müasir geosiyasətdə enerji ehtiyatlarının tendensiyası inkişafı dünyada yaxın perspektivdədir. Bu tendensiyalar aşağıdakılardan ibarətdir:

Asanlıqla çıxardılan neft əsrləri qurtarır, neftin sonrakı tapıntısı və çıxarılması daha çətin geoloji şəraitdə gözlənilir. Dünya okeanlarının dərin suları zonasında, Arktika və Antraktidada. Neft ehtiyatlarından fərqli olaraq onun çıxarılmasına çəkilən xərclər artacaq ki, bu da neftin qiymətinin durmadan artmasına gətirib çıxardacaq. Dünya enerji balansında qazın rolunun artması müşahidə olunacaq, neft əsrini qaz əsri əvəz edəcək. BP, Exxon-Mobil, Shell kimi aparıcı neft komponiyalarında çıxarılan qazın həcmi, ümumi çıxarılan karbohidrogenin həcmindən artıq 40% çoxdur. Əvvəl-axır elmi-texniki proqres qeyri-ənənəvi enerji mənbələrindən istifadəyə gətirib çıxardacaq və neft korporasiyaları enerji korporasiyalarına çevriləcək.

Neft və qaz hasilatinin ətraf mühitə və insan sağlamlığına təsirləri

Müqayisəli qiymətləndirmə

Məkan: Salyan, Neftçala, Ağcabədi, Şirvan, Ucar

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən karbohidrogen hasilatı prosesində ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin və bu sahədə qəbul olunmuş normativ hüquqi aktların tələblərinin pozulması, formalaşan tullantıların ətraf mühitə atılması, yerləşdirilməsi və axıdılması ilə əlaqədar uyğun olaraq 2015-ci ildə "Salyan OIL Limited" Şirkəti 3970 manat, Garasu Operating Compani şirkəti 7200 manat, Neftchala Operating Company şirkəti 5270 manat, Shirvan Operating Compani LTD şirkəti 12060 manat, 2016-cı ildə Garasu Operating Compani şirkəti 7150 manat, Neftchala Operating Company şirkəti 5230 manat, Shirvan Operating Compani LTD şirkəti 12115 manat, 2017-ci ildə Garasu Operating Compani şirkəti 7240 manat, Neftchala Operating Company şirkəti 5180 manat, Shirvan Operating Compani LTD şirkəti 12 211 manat məbləğində cərimə olunublar.

Neft layihələrinin ətraf sosial mühitə təsiri ilə əlaqədar risqə məruz qalan ərazilərdə müxtəlif qurumlar, ekspertlər tərəfindən aparılan monitorinq və qiymətləndirmələr, təsdiq edir ki, hasilat zamanı ətraf mühit aşağıdakı təsirlərə məruz qalır

Atmosferə atılan emissiyalar (səmt qazları-metan, uçucu üzvi birləşmələr, qazın yandırılması və s);

Quyu avadanlıqlarında və kompressor stansiyalarında sudan istifadə, yuma nəticəsində çirkləndirici maddələrin yerüstü və qrunt sulara, o cümlədən Xəzər dənizinə atılması;

Neftlə bərabər yüksək minerallaşmış lay sularının səthə çıxarılması;

Torpaqların neft və neft məhsulları ilə çirklənməsi;

Qazma şlamları və onların basdırılması;

Qəza hadisələri nəticəsində neft dağılmaları;

İstismardan çıxarılmış texniki avadanlıqlar, üzən vasitələrin qalıqları və təmir-tikinti işləri nəticəsində formalaşan bərk tullantılar.

Neft məhsullarının emalı zamanı ətraf mühitdə baş verən neqativ təsirlərin azaldılması üsulları

İldə 12-18 milyon ton yüksək keyfiyyətli neft məhsulları emal edən müxtəlif neft emalı müəsisələrində istehsal müddətində külli miqdarda tullantılar yaranır. Bu tullantılarla atmosfer və su mənbələrini çirkləndirməsinin qarşısını nisbətən almaq üçün bir sıra məqsədli kompleks tədbirlər görülür. Qeyd etmək lazımdır ki, həyata keçirilən hər bir tədbir ilk növbədə emal olunacaq neftin tərkibindən asılıdır. Azərbaycan neftinin tərkibi kükürdlü olduğu üçün emal müəsisələri kükürdlü neft emalı üçün hesablanmışdır. Destruktiv proseslər də daxil olmaqla neftin dərin emalı zamanı 8-10%-ə qədər karbohidrogen qazları alınır. Hidrotəmizləmə və hidrokrekinq qurğularında alınan tullantı qazların tərkibi isə hidrogen sulfitlə zəngin olur. Hidrogen-sulfiddən kükürd almaq üçün istifadə edilir. lakin hidrogen sulfidi klans qurğusunda yandırdıqda müəyyən miqdarda kükürd SO2 şəklində atmosferə atılır. Bundan əlavə neft qalıqlarının tərkibində də kükürdlü birləşmələr toplanır. Ona görə də bu qalıqlardan qazan yanacağı kimi istifadə edildikdə tüstü qazlarının tərkibində SO2-nin miqdarı çox olur ki, bu da ətraf mühitin ekologiyasını pozaraq neqativ təsirlər yaradır [22-29]. Termiki və katalitik krekinq qurğularında xammal kimi tərkibində 40-70% kükürd olan ağır destillatlardan istifadə edildiyindən alınan məhsulların tərkibində kükürdün miqdarı çox olur. Katalitik krekinq qurğularında işlədilən alümosilikat katalizatorları regenerə edildikdə alınan tüstü qazlarının tərkibində də kükürd qazı (SO2) olur. Tüstü qazların tərkibində SO2-nin azaldılmasına iki üsulla həll etmək olar: 1. Qaz yanacaqlarını tullantılardan təmizləmək; 2. Tüstü qazlarını təmizləmək. 49 Biz isə tüstü qazlarının təmizlənməsi üsulunu araşdırmışıq. Tüstü qazlarını təmizləmək üçün bir sıra üsullar işlənib hazırlanmışdır. Neft məhsullarının emalı zamanı yaranan tüstü qazlarının tərkibindəki SO2- nin təmizlənməsi üçün istifadə olunan əhəng üsulu. İşlənmiş qazların kükürd dioksidindən əhəng üsulu ilə təmizlənməsi iki ardıcıl quraşdırılmış adsorberlərdə

(əhəng südü ilə sonralar skrubberlərdə) həyata keçirilir. Bu üsulun istismar xərcləri, etibarlı və ucuz sorbentlə işlənməsi, qazların əvvəlcədən soyudulma və tozsuzlaşdırılmadan təmizlənməsinin mümkünlüyü əhəng üsulu qazların SO2-dən praktiki olaraq tam təmizlənməsinə (η (SO2) = 80%) imkan yaradır. Əhəng karbonatlı süxurların 1000....1300ºC temperaturda yandırılması ilə alınır

XÜLASƏ:

Ətraf mühiti çirkləndirən müəssisələr içərisində neft sənayesi müəssisələri əsas yerlərdən birini tutur. Praktiki olaraq neft sənayesinin əsas obyektləri – neftin çıxarılması, nəqli, onun emalı, emaldan alınmış məhsulların istifadəçiyə çatdırılması prosesləri ətraf mühiti çirkləndirən potensial mənbələrdir. Bir ildə çıxarılan neftin ümumi miqdarının 2-3%-i itkiyə gedir, bu itkinin 0,23%-i isə Dünya okeanına daxil olaraq okean sularını çirkləndirir.

Neft və neft-qaz məhsullarının emalı prosesində yaranan karbohidrogenlərin və tullantiların ətraf mühitə vurduğu iqtisadi zərər hesablanmışdır.

SUMMARY:

The oil industry is one of the main environmental pollution enterprises. The potential sources of environmental pollution - the processes of oil extraction, transportation, its processing, and the delivery of refined products to the consumer. 2-3% of the total oil produced in the year is lost, and 0.23% of the total pollution is contaminated by the oceans entering the world.

Hydrocarbons arising from the processing of oil and oil and gas products economic damage caused by waste to the environment.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYATLAR:

1. A.M.Məhərrəmov, M.R.Bayramov “Neft kimyası və neft kimyəvi sintez” 587 səh. 2006-cı il.

2. A.M.Məhərrəmov, M.R.Bayramov, İ.Q.Məmmədov “Ümumi kimya texnologiyası ” 308 səh, 2011-ci il.

3. S.Ə.Novruzov “Ümumi kimya texnologiyası və sənaye ekologiyası” 384 səh. 1991-ci il.

4. A.S.Sadıqov, İ.B.Xəlilov “Ekologiya və ətraf mühitin mühafizəsi”, 2004-cü il.

5. Q.T.Mustafayev, E.Ə. Əlizadə “Ekologiya” 2001-ci il.

6. Q.İ.Səfərov, A.S.Məmmədov “Neft və qaz emalının texnologiyası” 464 səh. 2000-ci il.

7. Б. Азизов, Х.Б.Кулиева “ К методике проведения под спутниковых на земных эколого-географических исследований” Ekologiya, səh. 122, 2012.

8. А.С.Ахметов, М.Х. Ишмияров, А.П.Веревкин, Е.С.Докугаев, Ю..М.Малышев “Технология экономика и автоматизация процессов переработки нефти и газа” 735 с, Москва, Химия 2005 год.

9. Ə.M.Əzimova, X.B.Quliyeva “ Qlobal istehlakın müasir durumu və onların mahiyyəti”, “Qloballaşma ilə əlaqədar FH qarşı mübarizənin müasir problemlərinin həlli” mövzusunda Beynəlxalq eimi-praktiki konfrans. Bakı, səh.184, 2012-ci il.

10. https://nhmt-az.org/frontend/pages/human-rights-inner.php?id=145

11. O.Elnur.S, NOVRUZOVA F. MEHDİYEVA V.Z, “Neft məhsullarinin emali zamani yaranan ekoloji problemlər və dəyən zərərin hesablanmasi” mövzusunda praktiki konfrans.

KONSTRUKSİYA MATERİALLARININ ENERGETİK DÖZÜMLÜLÜK NƏZƏRİYYƏSİ

Orucov Yusif, Məmmədova Fidan
fidanmemmedova694@gmail.com

Energetik möhkəmlik nəzəriyyəsini tətbiq etməklə yeni energetik dözümlülülük nəzəriyyəsi işlənmişdir. Bunun əsasında konstruksiya elementinin simmetrik və qeyri-simmetrik yükləmədə uzunmüddətli istifadəsini müəyyən edən düsturlar alınmışdır.

Giriş.

Məlumdur ki, maşın və avadanlıq hissələri istismar müddətində dövrü (tsiklli) yükləmələrə məruz qalır. Misal üçün vaqonun təkərinin oxu tsiklli dartılma və sıxılmaya məruz qalır. Təcrübələrdən aydın olur ki, tsiklli yükləmədə olan konstuksiya elementi statik yüklımədəki gərginlikdən aşağı qiymətində dağılır. Bu onunla əlaqədar ki,dartılma-sıxılma diaqramında elastiki zonada gırginliklə deformasiya arasındakı asılılıq Huk qanununa tabedir, yəni xəttidir. Əslində elastiki zonada bu asılılıq gərginliyin müəyyən qiymətinə qədər xətti olur. Bu gərginlik gərginliyin dözümlülük həddi adlanır. Gərginliyin dözümlülük həddindən kiçik qiymətlərində konstruksiya elementi daha çox sayda tsiklli yüklənə bilər, başqa sözlə uzunmüddıtli istismarı təmin olunur.Gərginliyin dzümlülük həddindən böyük qiymətlərində deformasiyanın elastiki olmasına baxmayaraq dartılma diaqramının uyğun hissəsi müəyyən əyriliyə malikdir. Gərginliyin bu giymətlərində tsikllərin müəyyən sayında materialın dağılması baş verir. Onu da qeyd edək ki,gərginlik böyük olduqca materialın dağılması üçün tsiklların sayı azalır.

Məsələnin qoyuluşu.

Materialın yükləmə diaqramı ilə yükdən boşalma diaqramı üst-üstə düşmür və Qisteresin düyünü adlanır(Şəkil 1).Şəkil 1-də göstərilmiş qapalı ABCD əyrisi

ilə məhdudlaşan sahə bir tsiklda iirilmiş enerjini ifadə edir.Materialın dağılması üçün tsiklların sayını müəyyən etməli. Bu təkrar yükləmədəitirilmiş enerjilərin cəmi ilə bir tsiklda dağıdıcı enerjinin bərabərliyi şərtindən təyin olunur.



İşin məzmunu

AB, BC,CD və DA əyriləri düz xətdən az fərqləndiyinə görə onları düz xətt kimi qəbul edək (Şəkil2). Onda hər tsiklda udulan enerji ABCD parallelqramının sahəsi ilə müəyyən olunur(Şəkil 2). Şəkil 2-də göstərilən δ – normal gərginlik, δ_0 – qalıq gərginlikdir.Şəkildən göründüyü kimi ABCD parallelqramının sahəsi, başqa sözlə udulmuş (itirilmiş)enerji aşağıdakı kimi təyin olunur:

$$S=2\delta_0 \cdot \frac{\delta}{E} \qquad (1)$$

[2] işində ixtiyari gərginlik vəziyyətində elastiklik həddindən yuxarı halında gərginlik komponentləri ilə qalıq gərginlik arasında aşağıdakı asılılıqlar alınmışdı:

$$\sigma_{ij}^0 = \frac{1-k_0}{2}\sigma_{ij} \quad (2)$$

Burada, σ_{ij} –gərginlik tenzorunun komponentləri, σ_{ij}^0 –qalıq gərginlik tenzorunun komponentləridir.

$$k_0 = \sqrt{\frac{2\sigma_T^2}{J_1^2+2\cdot(1+\nu)J_2} - 1}$$

burada- ν-Puasson əmsalı, σ_T- axma həddi, J_1, J_2- gərginlik tenzorunun uyğun olaraq birinci və ikinci invariantlarıdır. Biroxlu gərginlik vəziyyətində, yəni dartılma və sıxılmada $J_1 = \sigma,\ J_2 = 0$

olur. Onda (3) aşağıdakı kimi olar;

$$k_0 = \sqrt{\frac{2\sigma_T^2}{\sigma^2} - 1}$$



Normal gərginlik dözümlülük həddindən böyük,elastiklik həddindən kiçik olarsa, onda axma həddi rolunu dözümlülük həddi oynayır. Onda (4) aşağıdakı kimi olar;

$$k_0 = \sqrt{\frac{2\sigma_d^2}{\sigma^2} - 1} \quad (5)$$

(5)-i (2)-də, (2-ni isə (1)-də nəzərə alsaq, bir sadə çevirmədən sonra alarıq:

$$A = S \cdot N = \frac{\sigma}{E}\left(\sigma - \sqrt{2\sigma_d^2 - \sigma^2}\right) \cdot N = \frac{\sigma^2}{E}(1 - k_0) \cdot N \quad (6)$$

Məlumdur ki, dağılma prosesi başlarkən materialın iki əks istiamətdə elastiki deformasiyalarının maksimum xüsusi enerjilərinin cəmi. Deməli, dağılmanın başlandığı halda material üçün aşağıdakı şərt ödənilir;

$$\frac{\sigma}{E}\left(\sigma - \sqrt{2\sigma_d^2 - \sigma^2}\right) \cdot N = \frac{\sigma_T^2}{E}$$

Bu tənlikdən materialın yorulmadan dağılma prosesinin tsiklinin (təkrar yükləmənin) sayını təyin edə bilərik;

$$N = \frac{\sigma_T^2}{\sigma\left(\sigma - \sqrt{2\sigma_d^2 - \sigma^2}\right)}$$

Tsiklərin sayının N müsbət olması üçün $\begin{cases} \sigma - \sqrt{2\sigma_d^2 - \sigma^2} > 0 \\ 2\sigma_d^2 - \sigma^2 \geq 0 \end{cases}$ şərti ödənməlidir.

Buradan

$$\sigma_d \leq \sigma \leq \sqrt{2}\sigma_d \qquad (8)$$

Digər tərəfdən

$$\sigma_d \leq \sigma \leq \sigma_T \qquad (9)$$

(8) və (9)-dan aşağıdakı nəzəri nəicəni alırıq;

$$\sigma_d \leq \sigma_T/\sqrt{2} \qquad (10)$$

$\sigma = \sqrt{2}\sigma_d$ olduqda (7)-dən N=1 alınır,

$\sigma = \sigma_d$ olduqda $N = \infty$ olur.

Deməli, $\sigma \to \sigma_T$ olduqda konstruksiya elementi birinci tsiklda dağılır, $\sigma \to \sigma_d$ olduqda konstruksiya uzun müddət istismar oluna bilər. Şəkil 3-də yorğunluq gərginliyinin dağılma tsiklərin sayı arasındakı asılılığın qrafiki göstərilmişdir. Məlumdur ki, bəzi qeyri-xətti materialların Yunq modulunu təyin etmək qeyri-mümkündür. Buna misal olaraq misi, alminiumu göstırmık olar.Yung modulunu təyin etmək üçün əvvəlcə nümunə plastik deformasiyaya uğrayana qədər dartılır və sonra yükdən boşalır. Yenidən yükləmədə Qisterezin petləsi yaranmır və onda Yung modulunu təyin etmək olur[3].Buna səbəb Bauşenqer effektidir.Çünki dartılmada plastik deformasiyaya uğrayan materialın elastiklik həddi, axma həddi və möhkəmlik həddi sıxılmada aşağı düşür.Bu xüsusiyyət həm də dzümlülük həddinə aiddir.Buna görə qeyri-simmetrik təkrar yükləməyə məruz qalan (gərginliyin işarəsi dəyişməyən) konstruksiya elementinin uzun müddətli

istismarını təmin edilməsi üçün onu əvvəlcə plastik deformasiyaya qədər yükləyirlər. Bu qayda ilə dözümlülük həddi artır və eyni zamanda yorğunluqdan dağılma tsiklərinin sayı da artır.

(7)-dən aydın olur ki, dözümlülük həddini 1.4 dəfə artırmaq olar.

İxtiyari gərginlik vəziyyətində əks istiqamətlərdə görülmüş xüsusi işlərin cəmi aşağıdakı kimi təyin olunur;

$$A = \frac{[J_1^2 = 2(1+\nu)J_2]}{E} \qquad (11)$$

Onda ixtiyari gərginlik vəziyyətində tsikllərin sayı aşağıdakı kimi təyin olunur:

$$N = \frac{\sigma_T^2}{[J_1^2 = 2(1+\nu)J_2](1-k_0)} \qquad (12)$$

$$k_0 = \sqrt{\frac{2\sigma_d^2}{J_1^2 + 2\cdot(1+\nu)J_2} - 1}$$

(12)-dən görünür ki, $k_0 \to 1$ olduqda

$N \to \infty$. Onda (13)-dən $k_0 = 1$ olduqda

$$J_1^2 + 2\cdot(1+\nu)J_2 = \sigma_d^2 \qquad (14)$$

(14)-dən aydın olur ki,əgər yükləmə gərginliklər fəzasında dözümlülük həddini aşmayıbsa onda konstruksiya elementi sonsuz uzun müddət işləmə qabiliyyətinə malik olur.

Əgər $k_0 = 0$ olarsa (13)-dən $J_1^2 + 2\cdot(1+\nu)J_2 = 2\sigma_d^2 = \sigma_T^2$ (15)

Əgər (15)-i (12)-də nəzərə alsaq N=1 alarıq.

(15)-dən aydın olur ki,yükləmə gərginliklər fəzasında axma səthi üzərində olduqda. cisim plastik deformasiyaya uğrayır.

Əsas nəticələr.

1. Biroxlu dartılma-sıxılmada maksimum normal gərginliyin təsirindən dağılmaya səbəb olan simmetrik tsikllərin saını müəyyən etmək üçün ifadə alınmışdır.

2. Gərginliyin dözümlülük həddi ilə axma həddi arasında asılılıq alınmışdır : $\sigma_d = \sigma_T/\sqrt{2}$

3. Maerialın möhkəmlənməsi hesabına dözümlülük həddinin 1,4 dəfə artımı isbat olunmuşdu.

4. Normal gərginliyin maksimum qiyməti $\sigma = \sqrt{2}\sigma_d = \sigma_T$ olduqda cisim birinci tsikldə dağılır.

5.Əgər $\sigma < \sigma_d$ olarsa tsiklların sayı $N = \infty$

ƏDƏBİYYAT

1. Иванова В.С. Устойчивое разрушение металлов .Государственный научно-техническое издательство по черной и цветной металлургии. М.2001,№2, 265-272с.

2. Гулгазли А.С. Новое энергетическое условие прочности для упруго-пластических тел. Механика. Машиностроение.2003, №1, Б-С, 8-10

3. Феодосьев В.И. Сопротивление материалов. М, Наука, 1990, 544с

DƏYİŞƏN YÜKLƏRİN TƏSİRİ ALTINDA QAZMA QURĞULARININ RİYAZİ TƏDQİQİ

Ə. Q. Mustafayev, M. K. Əhmədova
mustafaev-1959@mail.ru, ehmedovamesume123@gmail.com

Xülasə. Baxılan məqalədə müxtəlif növ yüklərin təsiri altında işləyən qazma qurğusu modelinin riyazi tədqiqi aparılmışdır. Aparılan çoxsaylı tədqiqatlar göstərdi ki, sistem tarazlıq nöqtəsinə malikdir, yuxarı və aşağı disklər sabit bucaq sürəti ilə fırlanmaqla xarakterizə olunur.Qurğunun bu vəziyyəti onun arzuolunan şəraitdə işləməsini təmin edir. Buna baxmayaraq,yerin dərin qatlarında mühitdən və süxurun keçiriciliyinin dəyişməsindən asılı olaraq qrunt suları və süxurun qeyri-bircinsliliyi sistemdə arzuolunmaz gizli rəqsi hərəkətlərin (titrəmələrin) yaranmasına səbəb olur. Rəqsi hərəkətlər periodik dəyişməklə sistemdə tarazlıq vəziyyəti yarada bilmir.

Məqalədə qazma qurğusunun idarəetmə sistemində, sistemin dayanıqlı asimptotik funksiyasının təmin edilməsi üçün aşağı diskə təsir edən sürtünmə momentinin zərərli təsirlərini nəzərə almadan sistemin sabit işləməsini təmin edən qazma qurğusunun idarəetmə sistemlərinin layihələndirilməsi üçün ilkin şərtlər verilmişdir.

Bu məqalədə həm də özüqaldıran qazma qurğularının zəif qrunt sularında möhkəmliyinin təmin edilməsi məsələlərinə baxılır.Bu qurğuların həm özləri, həm də ətraf mühitə təsir riski öyrənilmişdir. Bunları nəzərə alaraq qurğularda və ətraf mühitdə riskləri azaltmaq üçün tədbirlər təklif olunmuşdur. Hal-hazırda enerji resurslarının təmin edilməsi dünya ölkələrinin qarşısında duran çox saylı problemlərdən biridir. Bu problemlər yalnız karbohidrogen ehtiyatları ilə zəngin olan dövlətlərin deyil, həm də öz yataqlarını işlədən ölkələrə aiddir. Son onilliklərdə dəniz şelfində karbohidrogen ehtiyatlarının mənimsənilməsinə baxmayaraq, belə hasilat quruya nisbətən 5-8 dəfə baha başa gəlir. Hal-hazırda dənizdən neft və qaz hasilatı dünya karbohidrogen ehtiyatlarının 35-40%-ni təşkil

edir. Dənizdə neft və qaz hasilatı materikdə çıxarılan yataqlardan xeyli dərəcədə fərqlənir. O, çətin aradan qaldırıla bilən çoxsaylı xüsusiyyətlərə və problemlərə malikdir. Karbohidrogen ehtiyatlarının axtarışı və çıxarılması dəniz yataqlarında xüsusi qurğulardan, dəniz platformalarından istifadə etməklə yerinə yetirilir.

Açar sözlər. qazma qurğusu, riyazi model,asimptotik dayanıqlıq, fırlanma, disk, süxur,rəqsi hərəkətlər.

Abstract.The article discusses the mathematical research of a drilling rig model operating under the influence of various types of loads. Numerous studies have shown that the system is stable at the equilibrium point and is characterized by the constant angular velocity of the upper and lower disks. Despite this, undesirable hidden vibrations (oscillations) occur in the system due to changes in the environment and permeability of the seabed at deep layers, depending on the desired conditions, disrupting the stable operation of the rig. These vibrations, with periodic variations, prevent the establishment of an equilibrium state in the system. The article provides initial conditions for the design of control systems for drilling rigs to ensure the stable operation of the system without considering the detrimental effects of the friction moment on the lower disk for the provision of the system's durable asymptotic function. The article also examines the issue of ensuring the stability of self-aligning drilling rigs in weak seabed conditions, studying both their own and environmental impact risks. Based on these considerations, measures are proposed to reduce risks for both the rigs and the surrounding environment. Currently, ensuring the supply of energy resources is a significant challenge faced by countries worldwide. This challenge pertains not only to states rich in hydrocarbon reserves but also to countries exploiting their own deposits. Despite the recent acquisition of hydrocarbon reserves on the continental shelf, such production is comparatively 5-8 times more expensive than on land. Currently, oil and gas production from the sea accounts for 35-40% of the world's hydrocarbon reserves. Extraction of oil and gas from the sea differs

significantly from that on land and poses numerous challenges and problems. The search for and extraction of hydrocarbon reserves in the sea is carried out using special equipment such as offshore drilling rigs and platforms.

Giriş.Qazma qurğularından neft və qaz hasilatı sənayesində geniş istifadə olunur. Neft və qaz sənayesində neftin və qazın istehsalında texnoloji proseslərin dayanmasının əsas səbəblərindən biri də qazma avadanlığının sıradan çıxmasıdır. Aparılan tədqiqat işləri göstərir ki,qazma qurğusunun təmiri külli miqdarda xərc tələb edir. Aparılan elmi araşdırmalar göstərir ki,qəzaların və xərclənən məsrəflərin sayının azaldılması, neft-qaz sənayesinin səmərəliliyinin artırılması, qəzaları yaradan səbəblərin zəruri tədqiq olunmasını tələb edir. Tədqiq olunan qazma qurğusu (şək. 1): qaldırıcı sistemdən (1), qazma rotoru stolundan (2), mühərrikdən (3), qazma kəmərindən (4), uzadıcıdan (5) və kəmər başlığından (6) ibarətdir.

Qazma kəmərinə aşağıdakı elementlər daxildir: qazma borusu, uzadıcı və kəmər başlığı. Qazma qurğusu quyunun sərbəst ucunda qazma başlığı olan kəsici elementləri yaradır. Qazma kəmərinin fırlanma hərəkəti momenti transmissiya yolu ilə qazma rotoru masasına bağlanan mühərrik tərəfindən ötürülür. Qazma zamanı qazma kəməri borusu rəqsi hərəkətlərin baş vermə xüsusiyyətindən asılı olaraq rəqsi hərəkətlərə(vibrasiyalara), burulmadan yaranan titrəyişlərə, oxboyu titrəyişlərə və eninə istiqamətdə yaranan titrəyişlərə məruz qalır.



Şəkil 1. Qazma qurğusu: 1 – qaldırıcı sistem, 2 – qazma rotorunun masası, 3 –mühərrik, 4 - qazma kəməri, 5 - uzadıcı, 6 – qazma başlığı

Baxılan məqalə qazma borusunun burulma zamanı məruz qaldığı titrəyişlərdən bəhs edir. Bu növ titrəmələr qazma qurğusu üçün ən təhlükəli və dağıdıcı hesab olunur. Burulmadan yaranan titrəmələr təkcə qazma borusunun deyil, həm də bütün qazma qurğusunun dağılmasına səbəb olur. Bu cür hallar öz növbəsində qazma qurğusunun bərpasında xeyli dərəcədə xərclərin yaranmasına və texnoloji prosesin kifayət qədər uzun müddət dayanmasına səbəb olur. MDB ölkəlində bu məsələləri araşdıran tədqiqatçı alimlər [1,2,3,4] və xarici [5] alimlər qazma qurğularında titrəyişlərlə bağlı problemləri öyrənmiş və bu sahədə öz fikirlərini bildirmişdir. Qazma qurğusu ilə bağlı tərtib olunan modellər haqqında da kifayət qədər məlumat verilmişdir [5,6]. Qazma qurğusunun qısa şəkildə riyazi modeli haqqında məlumatlar daha çox [6]-da verilmişdir. Bu modelin tərkibinə sabit cərəyanla işləyən mühərrik və qurğunu hərəkətə gətirən mürəkkəb konstruksiyalı elementlər daxildir. Bu elementlər baxılan mühərriklərdə əlavə xərclərin yaranmasına və ona göstərilən xidmətdə müəyyən çətinliklər yaradır.Faza rotorlu asinxron mühərriklərdə yuxarıda qeyd olunan neqativ hallara rast gəlinmədiyindən,qazma qurğularında bu mühərriklərdən daha çox istifadə olunur[1]. Dəyişən yük altında işləyən fazalı rotorlu asinxron mühərrikli qazma

qurğusunun modelinə baxmaq tələbi yaranır.Asinxron mühərrikin əsas hissəsi - stator və fırlanan rotordur. Üç fazalı asinxron mühərrikin statoru tökmə üsulu ilə hazırlanmış,çərçivəyə preslənmiş maqnit tellərdən ibarətdir. Statorun üç fazalı zolağı üçün maqnit tellərinin daxili səthində keçiriciləri yerləşdirməkdən ötrü pazlar açılır. Üç fazalı asinxron mühərrikin rotoru silindrə oturdulmuş valdan ibarət olub,ucları üç kontaktlı halqaya birləşdirilmiş üç fazalı bir ulduzla birləşdirilir və silindrin valına oturdulur və halqalar öz aralarında və valdan elektriklə izolyasiya olunur(şək.2). Rotorlu asinxron mühərrik fazalı dolabdan(1),valdan(2),kontakt halqalardan(3), fırçalardan(4),tənzimləyici reostatlardan(5),qazma başlığından(6) ibarətdir. Fazalı rotorlu asinxron mühərrik daha yaxşı işədüşmə(sıçrayış) və tənzimlənmə xüsusiyyətlərinə malik olsalarda,lakin rotorlu fazalı asinxron mühərrikin çəkisi,ölçüləri və qiyməti qısa qapanmalı asinxron mühərriklərə nisbətən daha yaxşı olur [3].



Şəkil2. Fazalı rotorlu asinxron mühərrikin sxemi (1 – faza dolabı, 2 – val, 3 –kontak halqaları, 4 – fırçalar, 5 – tənzimləyici reostatlar, 6 – qazma başlığı)

Məsələnin həlli üsulları.Fazalı rotorlu asinxron mühərrikin iş dinamikası aşağıdakı diferensial tənliklər sistemi vasitəsilə müəyyən edilir[6,7]:

$$J\square=nMS\sum_{k=1}^{3} i_k \cos(\frac{\pi}{2} - \square\square\square\frac{2(k-\pi)}{3}) - M_f ; \quad (1)$$

$$Li_1+Ri_1= -nMS\square\cos(\frac{\pi}{2} - \square) ; \quad (2)$$

$$Li_2+Ri_2= - nMS\square\cos(\frac{\pi}{2} - \square\square\square\square\frac{2\pi}{3}) ; \quad (3)$$

$$Li_3+Ri_3=-nMS\square\cos(\frac{\pi}{2} - \square\square\square\square\frac{4\pi}{3}) ; \quad (4)$$

burada n- sarğıların sayıdır, MS- rotordan keçən maqnit selidır,$\square$ – rotorun fırlanma bucağıdır, i_k – k-cı sarğıdakı cərəyandır, R – rotor sarğısındakı ümumi müqavimətdir, L –rotor sarğısının induktvliyidir, J – rotorun ətalət momentidir, M_f – müqavimət qüvvə momentidir.

Faza rotoru (1) ilə asinxron mühərrikin iş prinsipini müəyyən edən riyazi modelin tərtibatında istifadə olunan fərziyyələr [1]:

1. Poladdan hazırlanmış stator və rotorun maqnit keçiriciliyi sonsuzluğa bərabərdir.

2. Burulğanlı cərəyan, histerizə və itkilər nəzərə alınmaya bilər.

3. Maqnit sahəsinin rotorun çevrəsi boyunca bərabər paylandığı güman edilir.

4. Statorun sarğısı güclü sinusoidal gərginlik mənbəyinə qoşulur.

Asinxron mühərrikli qəza qurğusunun modelini quraq. Qazma qurğusunun modeli polad çubuqla birləşdirilən iki disk kimi təqdim edilmişdir.Hər iki disk öz oxlarına nisbətən fırlana bilir.Yuxarı disk rotor fazalı asinxron mühərriklə hərəkətə gətirilir,aşağı disk isə müxtəlif tərkibli süxurların qazılmasında yaranan sürtünmə qüvvələrinin modelini yaratmaqdan ötrü əyləc mexanizmi ilə birləşdirilmişdir.



Şəkil4. Qazma qurğusunun sadə modeli

Məsələnin qoyuluşu.Qazma qurğusunun yuxarı və aşağı disklərinin fırlanma rejimini təyin edən diferensial tənliklərin çıxarılışı [1]:

$J_y \square_y = -k_\square(\square_y - \square_a) - b(\square_y - \square_a) - T_{fy}(\square_y) + k_m u;$ (5)

$J_a \square_a = k_\square(\square_y - \square_a) + b(\square_y - \square_a) - T_{fa}(\square_a);$ (6)

burada $\square_y$ və $\square_a$– yuxarı və aşağı disklərin bucaq yerdəyişmələridir, J_y və J_a – yuxarı və aşağı disklərin ətalət momentləridir; b – sürtünmə əmsalıdır, $k_\square$, k_m – müsbət əmsallardır.

$T_{fy}(\square)$,$T_{fa}(\square)$–yuxarı və aşağı çarxlara təsir edən sürtünmə vaxtlarıdır.

Mühərrikin dinamikasını nəzərə almaqdan ötrü qazma qurğusu üçün yazılan modelə (2) asinxron mühərriklərin işini müəyyən edən dinamika tənliklərini(1) əlavə etmək tələb olunur:

$$J_y \square_y = -k_\square(\square_y - \square_a) - b(\square_y - \square_a) + nMS \sum_{k=1}^{3} i_k \cos\left(\frac{\pi}{2} - \square_y - \frac{2(k-1)\pi}{3}\right); \quad (7)$$

$Li_1 = -Ri_1 - nMS\square_y \cos\square_y\left(\frac{\pi}{2} - \square_y\right);$ (8)

$Li_2 = -Ri_2 - nMS\square_y \cos\square_y\left(\frac{\pi}{2} - \square_y - \frac{2\pi}{3}\right);$ (9)

$Li_3 = -Ri_3 - nMS\square_y \cos\square_y\left(\frac{\pi}{2} - \square_y - \frac{4\pi}{3}\right);$ (10)

$J_a\square_a = k_\square(\square_y - \square_a) + b(\square_y - \square_a) - T_{fa}(\square_a);$ (11)

[5] düsturuna əsasən qazma qurğusunun aşağı diskinə təsir edən sürtünmə momentinin modeli aşağıdakı kimi ifadə oluna bilər[6,7]:

burada, $\square\square\square_a \neq 0, T_{fa}(\square\square\square_a) \epsilon \{T_{ca}(\square\square\square_a)\text{sign}(\square\square\square_a),$ (12)

burada, $\square\square\square_a = 0, [-T_0, T_0]$

$$T_{ca}(\square\square\square_a) = \frac{To}{Tsa}\left(\square_{pa} + (T_{sa} - T_{pa})e^{\left|\frac{\omega+\varphi_a}{\omega_{sa}}\right|^{\delta sa}} + b_a|\omega + \varphi_a|\right),$$ (13)

burada, $T_\square \square T_{sa}, T_{pa}, \square_{sa}, \square_{sa}$ və b_a- müsbət əmsallardır.

Dəyişənləri daxil edək:

$\square_y = -\square_y, \square_a = -\square_a, \square\square\square_y - \square_a,$ (14)

$$x = -\frac{2}{3}\frac{L}{nsB}\sum_{k=1}^{3} i_k \sin\left(\frac{\pi}{2} - \varphi_y - \frac{2(k-1)\pi}{3}\right),$$ (15)

$$y = -\frac{2}{3}\frac{L}{nsB}\sum_{k=1}^{3} i_k \cos\left(\frac{\pi}{2} - \varphi_y - \frac{2(k-1)\pi}{3}\right)$$ (16)

$z = i_1 - i_2 + i_3$ (17)

(4)-modelində [1]-i aşağıdakı kimi ifadə edək:

$x = -cx + y\square_y,$ (18)

$y = -cy - \square_y - x\square_y,$ (19)

$z = -cz,$ (20)

$\square\square\square_a - \square_y,$ (21)

$$\square_y = \frac{k_\varphi}{J_y}\square + \frac{b}{J_y}(\square_a - \square_y) + \frac{a}{J_y}y,$$ (22)

$$\square_y = -\frac{k_\varphi}{J_a}\varphi - \frac{b}{J_a}(\square_a - \square_y) + \frac{1}{J_a}T_{fa}(\square\square\square\square\square_a),$$ (23)

burada, $a=\frac{3(nsB)^2}{2L}$, $c=\frac{R}{L}$. (24)

Qazma qurğusu modelinin dayanıqlığını təhlil edərkən analitik hesabat üsullardan (5) istifadə etmək məqsədəuyğun hesab olunmur. Buna səbəb aşağı diskə təsir edən sürtünmə momentinin qeyri-xətti funksiyası hesabına modelin böyük ölçüdə alınması əlavə mürəkkəbləşmələrə səbəb olur.Ona görə də aşağı diskə düşən dəyişən yükün təsirindən yaranan titrəmələri təyin etməkdən ötrü (5) sistemi üçün kompüter tədqiqatlarını aparmaq kifayət edir. Qazma texnikasının metodikası aşağıdakı kimidir: qazma borularını fırlanma hərəkətinə gətirməkdən ötrü qazma rotorunun masasına bərkidilmiş mühərrik işə salınır. Elastiki qazma boruları quyuda bərk süxurlarla qarşılaşana qədər bükülür. Bu zaman sistem boş rejimdə olur.Aşağı diskə təsir edən sürtünmə momentinin(T_{fa}) minimal təsiri boş rejimlə xarakterizə olunur[8,9].

(5) sistemi üçün kompüter tədqiqatını aşağı diskə təsir edən sürtünmə momentinin çox kiçik qiymətləri üçün (□□=0,002) qazma qurğusunun dayanıqlı vəziyyətinə baxaq: Sistemin parametrlərini aşağıdakı kimi qəbul edək: □□□ 8, J_y=0,4765, J_a = 0,035, k = 0,075, a = 2,1, b = 0,01, T_{sa} = 0,26, T_{pa}=0,05, □$_{sa}$ =2,2, □$_{sa}$=1,5 , b_a=0,009



Şəkil5. T□= 0,2 yük altında qazma sisteminin dayanıqlı vəziyyətini təmin edən faza görünüşü



Şəkil 6. $T_{□}$ = 0,2 yükünün təsiri altında ω_y və ω_a bucaq sürətlərinin keçid mərhələlərinin qrafiki



Şəkil7. $T_{□}$ = 0,2 yükün təsiri altında bucaq yerdəyişməsinin (φ) keçid qrafiki



Şəkil8. Qazma qurğusunun aşağı diskinə təsir edən sürtünmə momentini təyin edən qrafik

Kompüterlə aparılan tədqiqatların nəticələri göstərdi ki, sistemdə tarazlıq nöqtəsi mövcuddur.Bu nöqtədə sabit bucaq yerdəyişməsinin qiyməti(□□□const) çarxın yuxarı və aşağı disklərinin hər ikisinin eyni vaxtda fırlanması ilə xarakterizə olunur (şək. 5,6,7, 8). Belə hallar bütövlükdə götürülmüş qazma qurğusunun normal işləməsi üçün arzuolunandır.Lakin çox vaxt süxurun qeyri-bircinsliyi, xüsusilə də quyunun daha bərk süxurlardan ibarət olan təbəqələrində qazma zamanı keçid və mühitdə baş verən dəyişikliklər sistemdə arzuolunmaz gizli titrəyişlərin baş verməsinə səbəb olur. Bu zaman titrəyişlərin baş vermə oblastı özündə tarazlıq vəziyyətini saxlamır. [1,10,11,12].

Aşağı diskə (4) xeyli dərəcədə gizli titrəmələrin təsirini (T□□= 0,7) nəzərə alaraq (5) sistem tənliyi üçün kompüter tədqiqatını aparaq.



Şəkil9. Gizli titrəmələrin təsiri altında qazma sisteminin faza görünüşü



Şəkil 10. Gizli titrəmələrin təsiri altında bucaq sürətlərinin (□y və □a) keçicilik prosesləri



Şəkil11. Gizli titrəyişlərin təsiri altında bucaq yerdəyişməsinin(φ) bir fazadan digər fazaya keçid prosesi

Neft və qaz sənayesində fasilələrin yaranmasının başlıca səbəbləri qazma borusunun gizli titrəyişlərin təsirindən qırılmasıdır(Şəkil9).Bu istiqamətdə çoxlu sayda tədqiqatların aparılmasına baxmayaraq,qazma borularının qırılmasının qarşısını almaq hələ də aktual bir problem kimi açıq qalmaqdadır[1-6]. Hal-hazırda aparılan tədqiqatlarda gizli titrəyişlərin təsiri nəticəsində qazma qurğusunun sıradan çıxmasının qarşısını almaqdan ötrü sistemə xarici müqaviməti və ya reostatı daxil etməklə, rotorlu fazalı asinxron elektrik mühərrikinin dayanıqlığını təmin etməkdən ötrü müəyyən təkliflər irəli sürülür[1,3] (şək.5).

Lakin, sintez zamanı baş verən pozğunluqların xarakterini və qazma qurğusunun(4) aşağı diskinə təsir edən sürtünmə momentinin funksiyası nəzərə alındığından bu yanaşmaları nəticə etibarilə idarəetmə alqoritminin məhdud tətbiq dairəsinə aid etmək olar.

Nəticə

Aparılan tədqiqatların əsas məqsədi qazma qurğusunun mühərrikdə baş verən qüsurları tənzimləmək,aşağı diskə(4) təsir edən istənilən rəqsi hərəkətlərin təsirləri nəzərə almadan idarəetmə alqoritmini yerinə yetirə bilən asimptotik dayanıqlı funksional sistemin işinin təmin edilməsi üçün qazma qurğusunun mühərrikində baş verən nasazlıqları tənzimləməkdir.

İSTIFADƏ OLUNAN ƏDƏBIYYAT

1. N.V. Kondratyeva,N.V. Kuznetsov, M.A. Kiseleva ,G.A. Leonov, E.P. Solovyeva, Hidden periodic oscillations in drilling system driven by induction motor// Preprints of the 19th World Congress The International Federation of Automatic Control Cape Town, South Africa. August 24-29, 2014, Pp. 5872 – 5877.

2. Леонов Г.А., Киселева М.А. Устойчивость электромеханических моделей буровых установок при резкопеременных нагрузках // Доклады Академии наук, 2012, Том 444, Вып. 2, с. 160–164.

3. Киселева М.А., Локальная устойчивость буровых установок, приводимых в движение асинхронным двигателем //Вестник С.-Петерб. ун-та, 2012, сер. 1, Вып. 3, с. 39–41.

4. Киселева М.А., Леонов Г.А. Задача устойчивости буровой установки при резкопеременных нагрузках // Международная научная конференция по механике “Шестые поляховские чтения”, Тезисы докладов, 2012, Санкт-Петербург, Россия, с. 45.

5. Медведева Е.С. Влияние некоторых факторов на силу проявления газлийских землетрясений [Текст] / Е.С. Медведева. - Строительство в особых условиях. Сейсмостойкое строительство. Серия 14. Вып.8. 1985. – с.27-33

6. Ə.Q.Mustafayev “Texniki mexanika”, 2013-cü il 420səh.

7. Ə.Q.Mustafayev “Texniki mexanika” 2015 530səh.

8. Jessberger H.I., Jordan P. Bodenmechanische Aspekte fur Standsicherneits betrachtung von Offshore [Текст] – Bauwerken “Bautechn”, 1980. – 181-184.

9. Senpere D., Auvergne G.A. Suction anchor piles – a proving alternative to driving or drilling [Текст] / 14th Ann. Offshore Technol. Conf. – Housten, Tex., 1982. V.1. Dallas, Tex. 1982.– pp.483-493.

10. Самоподъемные плавучие буровые установки [Текст] /В.Н. Ясюк, Б.Р. Лившиц, В.Г. Витрик, Ясюк, В.Н.,Р.С.Яремийчук. – Львов, 2011. – 436 с.

11. Senpere D., Auvergne G.A. Suction anchor piles – a proving alternative to driving or drilling [Текст] / 14th Ann. Offshore Technol. Conf. – Housten, Tex., 1982. V.1. Dallas, Tex. 1982.– pp.483-493.

12. Rosenblauth E. The Mexican earthquake: a first-hand report [Текст] // Civil Engineering. 1986. Vol.56, №1. – pp.38-40.

DİSKLİ SİYİRTMƏLƏRİN KİPLƏNDİRMƏ EFFEKTLİYİNİN YÜKSƏLDİLMƏSİ

Gülnar Həmidova Əbdülhəmid qızı, Gülnur Əsədli Seymur qızı

gulnar.hemidova0@gmail.com, asadnur064@gmail.com

Xülasə: Məqalə sənayenin müxtəlif sahələrində istifadə olunan əsasən qazların qarşısının alınması prosesində işlədilən diskli siyirtmələrin kipləndirmə effektliyinin yüksəldilməsinə həsr olunmuşdur. Müəyyən edilmişdir ki, diskli siyirtmələrdə maksimum kipliyin təmin olunması üçün qeyd edilən şərtlərə riayət edilməsi əsas amildir. Diskin işçi səthi ilə gövdənin kipləndirmə boğazı arasında olan oturma sahəsində təzyiqin bərabər paylanmasının təmin olunması, oturma yuvasında yerləşdirilmiş rezin manjetin daxili strukturunda olan gərginliyin bərabər paylanması təmin olunması və disk həmçinin kipləndiricinin materialları aqressiv mühitə, temperatura və təzyiqə uyğun seçilməsidir. Bu avadanlıqlar yüksək təzyiq, aqressiv mühit və temperatur şəraitlərində müxtəlif yeyilmələrə məruz qalaraq sıradan çıxırlar. Onların kipləndirici düyünləri daha çox yeyilmələrə və gərilmələrə uğrayaraq sızmalara yol açmış olurlar. Bu sızmalar isə tədricən onların tam imtinasına səbəb olmuş olur. Sadalanan bağlayıcı quruluşlardan olan diskli siyirtmələr qəzaların qarşısının alınmasında sürətli açılıb bağlanma resurslarına malik olduğundan geniş tətbiq olunmaqdadır. Həmçinin bu siyirtmələr sistem blokların önləyici xəttlərində yerləşdirməklə aktuatorlarla avtomatik olaraq və ya uzaqdan idarə etməklə sistemə girişi tam bağlamaqla baş verəcək qəza şəraitinin qarşısını alır. Diskli siyirtmələrin əsas diqqət yetiriləcək düyünü onun tıxac düyünüdür. Bu düyünün tam şəkildə yüksək hermetikliyi təmin etməsi ən mühüm məsələlərdən biridir.

Açar sözlər: bağlayıcı quruluş, diskli siyirtmə, tıxayıcı düyün, hermetik, aqresiv mühit, işçi səth.

Giriş: Sənayenin müxtəlif sahələrində istifadə olunan bağlayıcı quruluşların ən çox yayılmışı və diqqət mərkəzində olan 70MPa təzyiqdən yuxarı təzyiqdə,

müxtəlif temperaturlarda və həmçinin aqresiv mühitdə işlədilən növləri düzaxınlı siyirtmələr, kürəvi kranlar, qlobusvari siyirtmələr, diskli və kəpənəkvari siyirtmələrdir. Bu növ bağlayıcı quruluşlar neft-emalı kimya sənayesində, kimya zavodlarında, atom elektrik stansiyalarında, mədənlərdə və su elektrik stansiyalarında geniş miqyasda tətbiq olunmaqdadır[1,2].

Əsasən neft-qaz sənayesində yüksək təzyiqdə fontan avadanlıqlarında işlədilən bağlayıcı quruluşlarla yanaşı sənaye yönümlü müəssisələrdə və stansiyalarda işlədilən kəpənəkvari, diskli və qlobusvari siyirtmələr seriya ilə kütləvi istehsal olunan avadanlıqlar siyahısına daxildir. Hətta bir sənaye qurğusunda bu quruluşlardan 350-500 ədədə qədər istifadə olunmaqdadır[3, 4].

Şəkil 1. Diskli siyirtmənin ümumi görünüşü

Məsələnin qoyuluşu: Düyünün etibarlılığının yüksək olması və aqresiv mühit, təzyiq və temperatur şəratində uzun müddət kipliyi qoruyub saxlaması onu vəzifəsinin başlıca şərtidir. Kiçik bir yeyilmə hadisəsi və ya hermetikliyin pozulması qəzanın baş verməsinə səbəb ola bilər. Ona görədə diskli siyirtmələrdə hermetikliyin uzunmüddətli şəkildə tam təmin olunması və həmin düyünün yeyilməyə davamlılığının artırılması aktual məsələ olaraq qalmaqdadır.

Məqalədə məqsəd diskli siyirtmələrin tıxac düyünündə hermetikliyin uzunmüddətli tam təmin olunmasının üsullarının araşdırılmasıdır

Həll üsulu: Araşdrmalar göstərir ki, bu düyündə yüksək hermetikliyin alınması üçün aşağıdakı şərtlərə riayyət edilməsi məcburidir.

1. Diskin işçi səthi ilə gövdənin kipləndrmə boğazı arasında oturma sahəsində təzyiqin bərabər paylanması təmin olunmalıdır.
2. Oturma yuvasında yerləşdirilmiş rezin manjetin daxili strukturunda gərginliyin bərabər paylanması təmin edilməlidir.

Yuxarıda qeyd edilən şərtlərin təmin olunması diskli siyirtmələrin tıxayıcı düyünündə uzunmüddətli maksimum hermetikliyin yaranmasını təmin etmiş olacaqdır.

Nəticə olaraq isə diskli siyirtmələrin tıxac düyünündə maksimum kipliyin təmin olunması üçün struktur elmi ardıcıllıq işlənmişdir. Tıxayıcı düyündə hermetikliyin maksimum təmin edilməsi üçün diskin işçi səthi ilə gövdənin kipləndirmə boğazı arasında oturma sahəsində təzyiqin bərabər paylanması təmin olunması, oturma yuvasında yerləşdirilmiş rezin manjetin daxili strukturunda gərginliyin bərabər payalanması təmin edilməsi və diskin və kipləndiricinin materialları aqressiv mühitə, temperatura və təzyiqə uyğun seçilməsi əsas şərtdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Aslanov C.N.,Eyavazova Z.E., Hüseyinli Z.S., Bayramov F.H. Maşın qurğu və avadanlıqların layihələndirilməsi, dərs vəsaiti . ADNSU-nun 100 illiyinə həsr edilmiş Bakı -2020.
2. J.N. Aslanov, A.S. Ahmadov, Z.E. Eyvazova, G.A. Hamidova, L.R. Ibayeva, HARMONIC ANALYSIS OF LOADING CHARACTERISTICS RESEARCH OF PUMP JACK, International Journal on “Technical and Physical Problems of Engineering”. March 2023 Issue 54 Volume 15 Number 1 Pages 110-115.

3. Hüseynli Zenfira, Qurbanov Nurlan.Kipləndiricilərin uzunömürlülüyünün təyini. avadanliqlar, texnologiyalar, materiallar cild V.12(4), 2022. pp 39. https://onedrive.live.com/?authkey=%21AFza1LSOEjLs1kU&id=E938CF42F41D4A1%21442&cid=0E938CF42F41D4A1&parId=root&parQt=sharedby&o=OneUp

4. Асланов Дж.Н., Султанова А.Б., Гусейнли З.С..Исследование равномерного распределения относительного давления в уплотнительном узле задвижки. JARİTS. 2021. Issue 27 11 https://doi.org/10.26160/2474-5901-2021-27-11-15 http://srcms.ru/jarits/27/text/02.pdf

PLAZMA TEXNOLOGİYASI İLƏ REDUKTORUN DİŞLİ ÇARXININ MÖHKƏMLİYİNİN ARTIRILMASININ TƏDQİQİ

Nazim İbrahimov, Elçin Əliyev

nazim.ibragimov.2015@mail.ru, aelcin238@gmail.com

Xülasə

Maşınqayırma məhsullarının möhkəmliyini, yeyilməyə , temperatura və korroziyaya davamlılığını artırmaq müxtəlif səthi möhkəmləndirmə üsullarından istfadə edilir. Ən müasir üsullar içində plazma ilə nitridləşmə texnologiyası vardır. Bu üsulu aşağıdakı hissələr üçün tətbiq etmək olar: dirsək valları, dişli çarxlar, piston hissələri və s. Səthi sərtləşməyə məruz qalan iş parçalarının ümumi, xarakterik xüsusiyyəti yüksək sərtliyə və mürəkkəb həndəsi formaya görə sərtləşdikdən sonra onların mexaniki emalının çətin və ya qeyri-mümkün olmasıdır. Plazma nitridlənməsi yüksək yüklənmiş dişli çarxlar üçün aşağı temperaturda ümumi səthinin möhkəmləndirilməsi prosesidir. Nitridləşdirmə zamanı dişli çarxın səthində qalınlığı bir neçə mikron olan çox sərt mürəkkəb nitrid yağıntıları olan diffuziya təbəqəsi əmələ gəlir, bu da hissənin texniki göstəricilərini dəfələrlə artırır. [1]

Bu məqalə plazma ilə nitridləşmə texnologiyasının qurğuları və səthi azotlanmış dişli çarxlar haqqında biliklərin vəziyyətini ümumiləşdirir. nitridlənmiş dişli çarxlar sahəsində aparılan tədqiqatların cari vəziyyəti haqqında ümumi məlumat verir.

Açar sözlər: Möhkəmliyin artırılması**,** plazma ilə nitridləmə, azotlama, dişli çarxlar, mexaniki emal, reduktor.

Giriş

Neft sənayesi və kənd təsərrüfatı istehsalının bütün sahələrində reduktorlar geniş istifadə edilir. Buna görə də onların istehsalı ildən-ilə artır, yeni modifikasiyalar meydana çıxır və mövcud modellər təkmilləşdirilir. Reduktorlar mühərrikin sürətini azaltmaqla burucu momenti artırır. Ötürmənin növündən asılı

olaraq müxtəlif dişli çarxlardan istifadə olunur, bunlar silindrik düz dişli, konusvari, hiperboloid, sonsuz dişli çarxlardir. Növündən asılı olmayaraq dişli çarxların səthləri müxtəlif üsullarla möhkəmləndirilir. Müasir səthi möhkəmləndirilmə üsulları içində plazma texnologiyasi ilə, nitridleşdirmə (azotlaşdırma) prosesi vardır. Bu sərtləşdirmə prosesi səth təbəqələrinin azotla doyurulması yolu ilə həyata keçirilir ki, bu da onların yeyilmə müqavimətini və uzunömürlüyünü, həmçinin korroziyaya davamlılığı artırır. Plazma nitridləşməsi azot, hidrogen və karbonu (istəyə görə) buraxan qazların qarışığında müasir termokimyəvi prosesdir. Plazma nitridləşdirilməsi vakuumda həyata keçirilir.. Qızdırma və soyutma prosesləri ləng getdiyindən, plazmanın nitridlənməsi materialın deformasiyalarının və gərginliklərinin əmələ gəlməsini əhəmiyyətli dərəcədə azaldır. O həmçinin sonrakı səthi daşlama və ya digər mexaniki emal tələb etmir və həmçinin sərtləşən polad dərəcəli üçün istifadə edilə bilər.

Nitriləmə üsulunun 3 üsulu məlumdur, bu üsullar cədvəl 1 də göstərilmişdir

Cədvəl 1: Azotlama üsulları

Nitridləşmə (Azotlama) üsulları	**Nitridləşdirici mühit**	**Emal temperaturu, C**	**Emal Müddəti, Saat**	**Nəticə**
Ərinmiş duzlarda karbonatlaşma (siyanlaşdırma)	Siyanat/Siyanit	(480) 560 – 580	0.2 – 3	Karbonitrid
Qazın azotlanması	NH_3 $NH_3 + CO_2$	510 – 540 550 – 620	20 – 120 1.5 – 6	Nitrid Karbonitrid
Plazma ilə nitridləşmə	N_2+H2 N_2+H_2+CH_4	300 – 590 500 – 590	5 – 60 0.2 – 6	Nitrid Karbonitrid

Plazma nitridləşməsi azot və hidrogen qazlarının qarışığında parıldayan boşalma prosesidir Bu proses hissəni qızdırır, səthi təmizləyir və azot hissəyə sorulur. Əlavə edilmiş azot metalın tərkibindəki dəmir və digər alaşımlı



elementlərlə birləşərək sərt metal nitridləri əmələ gətirir. Nitridləmə poladın austenitləşmə temperaturundan aşağı temperaturda aparılır. Austenit əmələ gəlməsi adi karbon poladı üçün 727 °C (1340 °F) temperaturda başlayır, lakin alaşımlı poladlar

üçün tərkibinə görə dəyişir. Beləliklə, nitridləmə adətən 500 və 550 °C (930 – 1022 °F) dərəcə tempuraturda, maksimum isə 620 °C (1150 °F) temperaturunda həyata keçirilir. Möhkəmləndirmə prosesi hissənin növündən , təbəqənin qalınlığından və texnoloji tələblərdən aslı olaraq bir neçə saatdan 20 saata qədər davam edir. Hissələr 500 və 550 ºC dərəcədə nitridləmə prosesinə məruz qalır, lazım olan texniki göstəricilər alındıqdan sonra soyutma prosesi rejimlərlə aparılır. Nitridlənmiş hissələrin arzuolunmaz oksidləşməsinin qarşısını almaq üçün kameraya azot və ya arqonla doldurula bilər. Şəkil 1-dən dişli çarxların və ümumilikdə hissələrin 20 saata qədər nitridləşməsi və soyutma prosesi göstərilmişdir.

Şəkil 1: Plazma ilə nitridlənmədə temperaturun zamandan asıllığı [2]

Reduktorların dişli çarxları müxtəlif markalı polad ərintilərdən hazırlanır. cədvəl 2-də müxtəlif markalı poladların nitridləşmə zamanı möhkəmliklərinin dəyşilməsi göstərilmişdir.

Cədvəl 2: Poladın markasından aslı olaraq nitridləşmə rejimləri [3]

Time (hour)

Poladın Markası	Nitridləşmənin rejimləri		Hissənin Sərtliyi HV	Qatın qalınlığı mm
	Temperatur (°C)	Müddəti (saat)		
1X18H9 (1X18H9T)	560	48 – 60	800 – 1200	0,15 – 0,25
4X14H14B2M	575	48 – 60	900 – 1000	0,10 – 0,20
1X13	520	48 – 60	900 - 1000	0,25 - 0,35
5XHM (5XГM)	520	24	700 – 1000	0,3
3XB8 (3X2B8)	520	40 – 50	1000	0,25
4X8B2	520	40 – 50	900 – 1000	0,4 – 0,5
4XB2C (X12Ф)	520	35 – 50	900 – 1100	0,25 – 0,35
7X3 (40X)	520	20 – 50	700 – 750	0,45 – 0,55

Plazma nitridləşmə prosesi avadanlığı vakuum qabından (retort), sobanın təzyiqini idarə etmək üçün nasos sistemindən, plazma generatorundan və soyutma sistemindən ibarətdir. Soyuq divarlı sobalar yalnız hissələr tərəfindən udulmuş plazma enerjisini isitmə üçün istifadə edir, isti divarlı sobalarda isə müntəzəm aktiv istilik sistemi var.

Şəkil 2: Plazma ilə nitridləmə qurğusunun prinsial sxemi və görnüşü [4]



Şəkil 2 dəki sxemdə (1,2) nümunə, (3) dayaq stolu, (4) qızdırıcı, (5) katod, (6) izolyator, (7) Termocüt, (8) N_2 qazın giirişi, (9) H_2 qazın girişi, (10) nasos sistemi, (11) ampermetr, (12) voltmetr, (13) DC enerji təchizatı

Plazma ilə nitriləşmədə vakuum kameraları paslanmayan poladdan hazırlanır. Ölçüsündən asılı olaraq onların 2 və ya 3 ayrı istilik və soyutma zonası var. Parçalar metal plitələrə yüklənir. Bu plitələr dayaq izolyatorlarının üzərində yerləşir və plazma generatorunun katoduna qoşulur. Komponentin ətrafında yüksək ionlaşmalı parıltı boşalması (plazma) əmələ gəlir. Onların birbaşa yükləndiyi səthlərdə azotla zəngin nitridlər əmələ gəlir və parçalanır, reaktiv azotu səthə buraxır. Plazma nitridləşmə prosesini müşahidə şüşəsi vasitəsilə görmək olar. Nitridləşmə prosesi tam avtomatlaşdırılmış idarə etmə sistemi ilə həyata keçrilir. Bu sistemdə anlıq tempraturu,təzyiqi, zamanı, hissənin sərtliyini izləmək olar. Əlavə olaraq parametrlərin zamandan asıllığ qrafiki də mövcutdur.



Şəkil 3: Plazma nitridləşmə qurğusunun idarə etmə ekranı

Plazma nitridləmənin üstünlükləri: [3]

Məlumdur ki, plazma nitridləşməsi azot, hidrogen və (istəyə görə) karbonu buraxan qazların qarışığında müasir termokimyəvi prosesdir.

- Müasir olması ilə bərabər nitridləşmə prosesi polad , çuqun və Titan markalı materialların səthin möhkəmliyini və yeyilməyə davamlılığını artırmaq üçün istifadə olunur;
- Proses 350 ºC-dərəcədən başlayaraq 550 ºC-dərəcəya qədər aşağı temperaturda aparılır.
- Ölçüsündən və çəkisindən aslı olmayaraq böyük ölçülü dişl çarxları və eyni anda çox hissənin səthi möhkəmləndirilə bilər;
- Digər azotlama proseslərinə nisbətən sərtliyin vahid paylanması.
- Yorğunluğa qarşı müqaviməti artır.
- Tələb olunan nitridləmə qabının dərinliyindən asılı olaraq, nitridləmə prosesi bir neçə dəqiqədən başlayaraq 50 – 60 saata qədər davam edə bilər .
- İnsan sağlamlığına və ətraf mühitə zərəri yoxdur.

İstinasdlar

1. Thermochemical Surface Engineering of Steels, Improving Materials Performance2015, Pages 413-457

2. Nitride alloy layer formation of duplex stainless steel using nitriding process - Scientific Figure on ResearchGate. Available from: https://www.researchgate.net/figure/Nitriding-thermal-cycle-for-DSS_fig1_322784016

3. Материаловедение, Азотирование стали, Технология процесса азотирования https://sterbrust.tech/spravochnik/materialovedenie/azotirovanie-stali.hhml

4. Plasma Nitriding as an Environmentally Benign Surface Structuring Process - Scientific Figure on ResearchGate. Available from: https://www.researchgate.net/figure/llustration-of-the-plasma-nitriding-device_fig3_250154180

5. Design of Deep Nitriding Treatments for Gears, HTM — Journal of Heat Treatment and Materials, 6/2015, Vol. 70, pp. 276-285.

6. Increasing the load carrying capacity of highly loaded gears by nitriding MATEC Web of Conferences 287, 02001, 2019

7. Improving the hardness of a wind turbine gear surface by nitriding process, P Sakthivel, GP Rajamani, Applied Mechanics and Materials 591, 19-22, 2014

8. Plasma-Nitriding Properties of CoCrFeMnNi High-Entropy Alloys Produced by Spark Plasma Sintering, 2020

9. Dudzi´nski, W.; Medy´nski,D.; Sacher, P. Effect of MachinePin-Manufacturing ProcessParameters by Plasma Nitriding on Microstructure and Hardness of Working Surfaces. Crystals 2023,13,1091

10. Menthe, E.; Bulak, A.; Olfe, J.; Zimmermann, A.; Rie, KT Improvement of mechanical properties of austenitic stainless steel after plasma nitriding. Surf. Coat. Technology. 2000, 133, 259–263.

PLAZMA TEXNOLOGİYASI İLƏ REDUKTORUN DİŞLİ ÇARXININ MÖHKƏMLİYİNİN ARTIRILMASININ TƏDQİQİ

Nazim İbrahimov, Elçin Əliyev

nazim.ibragimov.2015@mail.ru, aelcin238@gmail.com

Xülasə

Maşınqayırma məhsullarının möhkəmliyini, yeyilməyə , temperatura və korroziyaya davamlılığını artırmaq müxtəlif səthi mohkəmləndirmə usullarından istfadə edilir. Ən müasir üsullar içində plazma ilə nitridləşmə texnologiyası vardır. Bu üsulu aşağıdakı hissələr üçün tətbiq etmək olar: dirsək valları, dişli çarxlar, piston hissələri və s. Səthi sərtləşməyə məruz qalan iş parçalarının ümumi, xarakterik xüsusiyyəti yüksək sərtliyə və mürəkkəb həndəsi formaya görə sərtləşdikdən sonra onların mexaniki emalının çətin və ya qeyri-mümkün olmasıdır. Plazma nitridlənməsi yüksək yüklənmiş dişli çarxlar üçün aşağı temperaturda ümumi səthinin möhkəmləndirilməsi prosesidir. Nitridləşdirmə zamanı dişli çarxın səthində qalınlığı bir neçə mikron olan çox sərt mürəkkəb nitrid yağıntıları olan diffuziya təbəqəsi əmələ gəlir, bu da hissənin texniki göstəricilərini dəfələrlə artırır. [1]

Bu məqalə plazma ilə nitridleşdirmə texnologiyasının qurğuları və səthi azotlanmış dişli çarxlar haqqında biliklərin vəziyyətini ümumiləşdirir. nitridlənmiş dişli çarxlar sahəsində aparılan tədqiqatların cari vəziyyəti haqqında ümumi məlumat verir.

Açar sözlər: Möhkəmliyin artırılması**,** plazma ilə nitridləmə, azotlama, dişli çarxlar, mexaniki emal, reduktor

Резюме

Для повышения прочности, устойчивости к износу, температуре и коррозии машиностроительных изделий применяются различные методы поверхностного упрочнения. К наиболее современным методам относится технология плазменного азотирования. Этот метод можно применить к

следующим деталям: коленвалы, зубчатого колеса , детали поршней и т. д. Общей, характерной особенностью рабочих деталей , подвергаемых поверхностному упрочнению, является то, что после этого они трудно или не поддаются механической обработке из-за высокой твердости и сложной геометрической формы. Плазменное азотирование — это низкотемпературный процесс общего поверхностного упрачнения высоконагруженных зубчатых колес. При азотировании на поверхности зубчатого колеса образуется диффузионный слой с очень твердыми выделениями сложного нитрида толщиной в несколько микрон, что многократно повышает технические характеристики детали. [1]

В этой статье обобщено современное состояние оборудования для технологии плазменного азотирования и поверхностного азотирования зубчатых колес, также представлен обзор текущего состояния исследований в области азотированных зубчатых колес.

Ключевые слова: повышение прочности, плазменное азотирование, азотирование, зубчатые колеса , механическая обработка, редуктор.

Abstract

Different case hardening methods are used to increase the hardening of machine-building products and their resistance to abrasion, temperature and corrosion. The most modern methods include plasma nitriding technology. This method can be applied for the following parts: crankshaft, gears, piston parts, etc. A common characteristic feature of workpiece that undergo case hardening is that their mechanical processing after hardening is difficult or impossible due to high hardness and complex geometric shape. Plasma nitriding is the process of low-temperature common case hardening for highly loaded gears. When nitriding, a diffusion layer with very hard complex nitride precipitation with a thickness of several microns is formed on the surface of the gear wheel, which greatly increases the technical performance of the part. [1]

This article summarizes the state of knowledge in the field of plasma nitriding technology equipments and surface nitriding of gears, provides a overeview of the current state of research in the field of nitrided gears.

Keywords: hardening, plasma nitriding, nitriding, gears, mechanical processing, reducer.

BALL VALVES: TYPES, PRINCIPLE OF OPERATION AND APPLICATIONS.

Author: Murad Aliyev
Email: blessedjedik27@mail.ru

Annotation

This article is looking for the questions of different types of the ball valves and their applications. The industry needs of the ball valves are different and in this article the questions of basic application and the construction features of the ball valves are looking deeply.

Keywords: ball valves, design of ball valves, application of the ball valves, features of ball valves, construction of ball valves

Abstract

The construction of the ball valve depends are differs with the industries needs and so it is important to make the detailed overview of these type of devices to highlight the important factors that affect to the choosing process of the ball valve. So in the article “Ball valves: types, principle of operation and applications” all these questions are being investigated through construction types, materials, varieties, connection types and applications.

A ball valve is a simple, highly demanded device; no pipeline can operate successfully without it. The ball valve replaces the valve with a screw mechanism in the pipelines. At the same time, the device is replaceable — the valve also reliably blocks the flow of liquid.

Construction

The components of the structure can be divided into constants and variables.

Constants are a ball with a reduced rod installed between polymer rings. All cranes have an oil seal sleeve and a stem seal. All other parts may differ in types and designs.

A ball with a hole equal to or smaller than the diameter of the pipeline is tightly clamped between polymer saddle rings. When turning the rod brought to the ball, the ball turns and combines the hole with the passage of the pipeline.

A typical set of parts of a revision (collapsible) ball valve:

• nut,

• handle or lever,

• stuffing box,

• oil seal,

• stock,

• ball valve,

• half—hulls - large and small.

Also, flanges, couplings, studs, welded pipes may appear in the design.

Manufacturers complete their products with additional elements to improve operational and consumer qualities. For example, an antistatic brass insert, polymer compensation inserts.

Varieties

Ball valves differ in several parameters. At the same time, their locking elements remain unchanged. In all types and varieties of the device, there is a ball with a hole clamped between polymer rings.

By purpose, ball valves are divided into:

• Water pipes — for installation in water pipes and mains with non-aggressive environment. The most numerous categories by types of execution and materials.

• For fuel and lubricants, for petrol stations - differs in oil and gasoline—resistant saddle and oil seal gaskets.

• Gas — for gas pipelines. They differ in the requirements for the tightness of the valves — not lower than class B according to GOST R 54808-2011.

By case material

• Plastic. Inexpensive options for polymer pipelines.

• Steel. The most common body material is St20 steel. Specialized ball valves are made of acid-resistant, cold-resistant, heat-resistant and other types of steel. The case made of tool carbon steel must necessarily have a protective anti—corrosion coating - spraying of chromium, nickel, paint. Alloy steel products do not require a protective coating.

• Cast iron. They are rare, have a large diameter of the conditional passage.

• Brass, bronze. A relatively rare type of housing with antistatic properties.

• Titanium. The most expensive option is high strength with minimal weight of the product. It is used in aircraft construction, space development.

By connection method

• Flanged. The most common type of ball valve connection to the pipeline. Provides fast and accurate installation thanks to the holes arranged according to the ISO9000.

• Flanged. The holes in the housing, made according to ISO9000, allow the crane to be installed between the pipe flanges without loss of time and tightness. The most compact option for gas and fuel lines.

• Coupling. They have an internal thread for connection to the system.

• Welded. The connection is carried out by welding, which ensures maximum reliability and reduces the weight of the structure. Suitable for permanent locations.

More than 90% of all ball valves have the following types of execution climatic versions "moderate", "cold" and "moderately cold" with an operating temperature from +50 to -49 ° C.

Features

Initially, the ball valve was designed as an emergency one — to quickly shut off or reset the flow manually. To completely open or block the passage hole, a "light movement of the hand" is enough.

Indeed, in this regard, the ball design is more efficient than the valve design. In order to completely block the flow with a valve valve, it is necessary, depending on the diameter of the trunk section, to make from 2 to 10 full revolutions of the stem around the axis. On the other hand, the screw mechanism allows you to accurately and smoothly adjust the passage hole, which means the volume and pressure of the passing medium.

The smoothness and accuracy of the ball valve is much lower, but the transition between the "open" / "closed" positions is 1 second or less. It is enough to turn the lever 90 °, 1/4 turn. At the same time, it is lighter than a valve, has a more compact design and smaller construction dimensions.

The only place where the ball valve loses to the valve is large diameter pipelines. Table 1 of GOST 21345-2005 "Ball valves" indicates a maximum diameter of 500 mm. In real life, it is possible to meet a CR with a diameter of more than 150-200 mm only at large industrial enterprises. Almost all main pipes with a diameter of 200 mm are blocked with valve valves.

Aplications.

The ball valve is used in all types of pipelines, highways as shut-off valves. The main task of the device is to block the flow with minimal adjustment accuracy. Performs the function of a manual emergency valve.

KSH is installed in front of equipment that requires revision, repair, and prevention. For example, the KSH installed at the pump inlet and outlet allows the pump to be dismantled without dumping the working medium from the entire system.

Scope of application

Ball valves are used as widely as possible — literally everywhere where there are pipes with a working medium. A huge range of conditional passage diameters, housing materials, connection methods allows them to be used in all industries and national economy.

• Domestic use. Plumbing taps for water supply.

• Public utilities. For water pipelines, boiler houses, pumping stations.

• Gas mains. From intercity branches to gas stations and kitchen stoves.

• Technological pipelines. With a working medium in the form of acid, fuel, fuel, technical liquids at refineries, gas stations, process industrial enterprises.

The use of the ball valves is mainly tied not to the industry, but to the specific needs of the application.

Literature:

1. J.N. Aslanov, K.S. Mammadov, Design and performance analysis of improved valve construction being used in oil and gas industry, International Journal on Technical and Physical Problems of Engineering, 14(2), pp. 98-103, 2022

2. T.A. Huseynova, The basics of ball valves design, Science of Europe,2023

3. T.A Huseynova, Modern questions to the construction of ball valves, Science of Europe, 2023

THE OVERVIEW OF THE ADVANTAGES OF THE BALL VALVE

Author: Thougrul Alakbarli

Email: blessedjedik27@mail.ru

Annotation

In the article the questions of advantages of using the ball valves is widely discussed. The industry needs dictate the using of the device according its applications and investigate the questions of the tribology effects its construction to the applications.

Keywords: ball valves, coefficient of friction of the sealing materials, design of ball valves, construction of ball valves, torque, wear-resistant coating.

Abstract

A ball valve is a pipeline valve, the locking or regulating element of which has a spherical shape. A type of ball valve is a segmented ball valve with a locking or regulating element in the shape of a ball segment. The ball rotates around its own axis, located arbitrarily relative to the direction of flow of the working medium. Ball valves began to be used at the beginning of the XX century. They are the result of the logical development of traditional structures (cone and cylindrical cranes), have turned into a promising and promising direction for the development of pipeline fittings.

Advantages of ball valves

The design features of ball valves allow even more to manifest a number of advantages inherent in the crane as a type of pipe fittings. These are, first of all, minimal hydraulic resistance (even less than that of taper and cylindrical cranes), low torque, compactness and a very important quality for any pipe fittings, high tightness.

The tightness specified in the technical description of models from leading manufacturers according to class A according to GOST 9544-2005. Shut-off pipe fittings. Valve tightness classes and standards" means that for cranes with a nominal diameter from DN 3 to DN 200 at a nominal pressure of PN up to 420, and for cranes with a nominal diameter from DN 250 to DN 2000 at a pressure of PN up to 200, there are no visible leaks during the entire holding time.

Another advantage of ball valves is their compactness, which makes it possible to save space by reducing the dimensions, making it possible to install them in a limited space, for example, in a parallel pipeline system.

Ball valves are distinguished by insensitivity to pressure drops and, therefore, hydraulic safety.

In case of full opening of a full-flow ball valve, its flow section is comparable to the diameter of the pipeline, which means there are no changes in the hydraulic parameters of the controlled working environment. In addition, due to the peculiarities of its design, solid particles falling out of the liquids containing them do not stagnate in a full-bore ball valve, which means that sediment does not form.

Ball valve control

Ball valves can be controlled by means of a manual (handle, flywheel, through a gearbox) or non-full-turn mechanized drive - pneumatic (one-way or two-way action), electric (in general industrial or explosion-proof design), hydraulic. Cranes with mechanized drive are used in pipelines with high pressure and large diameter. Additionally, they can be equipped with a manual understudy. Ball valves with pneumatic drive are equipped with an electro pneumatic distributor and a block of limit switches.

When calculating the ball valve drive, the following factors are taken into account: the speed and viscosity of the working medium, the coefficient of friction of the sealing materials, and the effect of temperature.

Considering that it is very important for ball valves to rotate exactly 90° per cycle, adjustable way switches can be mounted on them to ensure the accuracy of the "open" and "closed" positions, and in order to prevent the risk of accidental interference of the ball valve in the operation of the pipeline system, mechanical latches of the crane controls in the extreme positions.

Application of a wear-resistant coating on the balls of pipe fittings

Application of a wear-resistant coating on the balls of pipe fittings the main working element of the crane is a ball, which, as a rule, is made of structural steels and alloys, brass or cast iron. In most cases, the working surfaces of the ball are chrome-plated. The polished chrome-plated surface of the ball fits perfectly to the seat O-rings with the lowest possible coefficient of friction at the ball-ring boundary. The main defects in the operation of ball valves are sticking (jamming)

its locking body during prolonged operation in the same position, erosive and corrosive wear. In order to increase the hardness of the surface of the ball, reduce the coefficient of friction between the ball and the sealing ring; it is proposed to apply coatings of abrasive-resistant and corrosion-resistant materials with a thickness of 0.5-0.8 mm to the surface of the ball by methods of gas-thermal spraying, followed by its processing. In some cases, the application of a thin-film (up to 2 microns) diamond-like coating without subsequent processing can be used to obtain a highly hard, chemically inert coating that counteracts the formation of scuffing and sticking.

Literature:

1. J.N. Aslanov, K.S. Mammadov, Design and performance analysis of improved valve construction being used in oil and gas industry, International Journal on Technical and Physical Problems of Engineering, 14(2), pp. 98-103, 2022

2. T.A. Huseynova, The basics of ball valves design, Science of Europe,2023

3. T.A Huseynova, Modern questions to the construction of ball valves, Science of Europe, 2023

PLASTİK MATERİALLARDAN OLAN HİSSƏLƏRİN YIĞIŞMA DEFORMASİYANIN ÖYRƏNİLMƏSİ.

Həsənova N.A. Məmmədov İ.N.

haciyevanaila64@gmail.com, mizzet61@gmail.com

Xülasə: Plastik kütlədən (dəstək, qapaq, turbobuun rotoru, çarx, qasnaq və s.) müxtəlif konstruksiyada bir çox detallar və hissələr istehsal edilir. Bu detallar dairə konstruksiyası, dişli konstruksiyası, düz üzlü konstruksiyası üzrə hazırlanır. Lakin plastik kütlədən olan hissələrin texnoloji prosesi tamamilə ayrıdır. Ona görə ki, belə halda bazalaşma prinsipi, dəzgah-tərtibat-alət-detal sistemi,

mürəkkəb alətlər, ölçmə üçün qurğular və cihazlar, pəstahın konstruksiyasını və ölçmə ardıcılığını düzgün seçmək üçün texnoloji prosesdə müxtəlif ideal və iniversal tətribatlar lazım deyil. Verilən tələblərə uyğun olaraq plastik kütlədən hazırlanan hissələrin dəqiq layihələndirilmiş qəliblərdə texnoloji rejimləri tənzimlənir. Plastik kütlədən və metaldan hazırlanmış hissələr xarici görünüşü üzrə çox oxşardır, amma texnologiya üzrə onlar bir sinfə aid deyil.

Açar sözlər: plastik kütlə, yığışma deformasiyana, texnoloji rejimlər, mexaniki xassələrin, materialın fiziki-kimyəvi vəziyyəti.

Neft qaz sənayesində metallara qənaət olunmasının yollarından biri maşın və avadanlıqların hissələrinin plastik kütlə ilə əvəz olunmasıdır. Bu məsələnin həll edilməsi üçün maşınqayırma sənayesinin müxtəlif sahələri üzrə texnologiya institutları və layihə-konstruktor bölmələri araşdırmalar aparırlar. İndiki zamanı maşın və avadanlıqları plastik materiallardan hazırlanan hissələri olmadan təsəvvür etmək mümkün deyil.Metallarla müqayisədə plastik kütlədən hazırlanan hissələr daha çox üstülüyə malikdir. Plastik materiallardan hazırlanan hissələr bir çox maşınqayırma sənayelerində geniş istifadə olunur [1].

Tədqiqatların nəzərdə keçirilməsi ilə hal-hazırda plastik materiallardan hazırlanan hissələrin xassələrinin yaxşılaşdırılması, əsas olaraq plastik kütlədən olan hissələrin möhkəmliyinin artırılması ilə bağlı, həmçinin dəqiqlik səviyyəsinin öyrənilməsi üçün tədqiqat işləri aparılır. Bütün bu tədqiqatların aparılmasında məqsəd plastik materiallardan hazırlanan hissələrin hazırlanmasında onların texnoloji və mexaniki xassələrin yaxşılaşdırılması üçün aparılır. Plastik kütlələrdən hazırlanmış hissələrin dəqiqliyini təyin edərkən yığışma deformasiyanın köməyi ilə təyini mümkündür. Hissələrin əvəzolunmazlığı və plastik hissələrin düzgünlüyünə bağlı olaraq bütün uyğunsuzluqlar kompleksi olan yığışma və dalğalanma dəyişiklikləri təxminən 80%-ə qədərdir [2].

Yığışma deformasiyana əsas olaraq 3 faktor təsir göstərir:

1. İstifadə olunan materialın fiziki-kimyəvi vəziyyəti;

2. Plastik materiallardan istifadə edərək hazırlanan hissələrin texnoloji parametləri;

3. Plastik materiallardan istifadə edərək hazırlanan hissələrin konstruktiv xüsusiyyətləri.

Plastik materiallardan hissələrin alınmasında doldurucu miqdarının artırılması yığışmanı nisbətən azaldır. Dolduruculardа fərqli olduğunu nəzərə alsaq, orqanik doldurucu maddələrə müqayisədə mineral doldurucu materiallarda yığışma daha az baş verir.

Detalın qeyri-bərabər yığışması, presləmə zamanı qızdırılması və soyudulmasının eyni zaman nisbətində olmaması, daxili gərginliklər qəlib materialları ilə alınan məhsulun divarlarının ölçülərinin fərqli olmasına gətirib çıxarır.

Qəlibdəki ərintilərin təzyiqi tökmə məmulatlaının keyfiyyətinin asılı olduğu əsas göstəricisi sayıla bilər, yəni ən önəmli göstəricidir. Bu faktor formada olan təzyiq qəlibində müxtəlif nöqtələrində tökmə plunjerinin təzyiqinin təsirinə görə müxtəlif olur. Fərqli olmasının səbəbi formanın divarı ilə polimerin silindirinin arasında sürtünmənin baş verməsidir. Plastik materialların təxmini olaraq 1% minimum yığışmanın yaranması üçün formanın temperaturunun aşağı olması, tökmə təzyiqinin yüksəldilməsi, ərtintinin temperaturunun yüksək olmasını aparılan təcrübələrə nəzərən demək olar. Nəticə olaraq bunlara əməl olunmalıdır ki, minimum yığışma yaransın [3].

Təzyiq aşağı olarsa yığışma 3% -ə qədər yüksələcək. Tökmə təzyiqi 200 kq q / sm^2 qədər azalarsa, 0,1% yığışma artacaqdır. Aparılan tətqiqat tökmə materialının konstruktiv göstəricilərinin poliamid materialların yığışmasına təsirli olduğu görünür. Bunu isə nəzərə çarpacaq dəyişiklik hesab etməyə bilərik.

Ümumiyyətlə, yığışma deformasiyasının üzərində aparılmış sınaqlar nəzəriyyələr əsasında işlənmişdir. Təzyiq altında alınmış qəlibdə materialın həcmi

termik genişlənmə əmsalına uyğun olaraq dəyişdiyi üçün həm uzununa, həm eninə istiqamətlərdə yığışmanın dəyişməsi təzyiqdən asılı olaraq dəyişir.

Tökmə əməliyyatından sonra soyumanı 3 mərhələyə bölür. İlkin mərhələdə yığışma qəlibin təzyiqinə görə müəyyən edilir, sonraki sıxılma prosesində əvəz edilə bilinir. Son bərkimə prosesinə qədər fasiləsiz olaraq sıxılma və məmulatın kütləsinin artması gedir. Bunu belə izah edə bilərik ki, qəlibdəki təzyiq verilmə vaxtından asılı olaraq dəyişilir. Beləliklə, qəlibə verilmə müddəti nəzərə alınaraq, yəni verilmə müddətindən asılı olaraq, qəlibdə yarmış yığışma təzyiqi qiyməti dəyişir və müəyyən bir müddət bir səviyyəyə gəldikdən sonra sabit vəziyyətdə qalır [4].

İlkin faktorda plastik materialların standartlara tam olaraq uyğun olmaması yığışmanın qeyri-bərabər olması deməkdir ki, bunun nəticəsində məmulatın ölçülərində xəta yaranmağına səbəb olur.

Sonda əldə edilən nəticələrə diqqət yetirək:

1. Temperatur yüksələrkən həm press-qəlibin həm də silindirin ölçülərin pozulması kəskinləşir, bununlada materialda yığışma deformasiyası yaranır;

2. Təzyiqin yüksəlməsi ilə tökmə prosesində ölçülərin alınmasında pozulmalar yaranır;

3. Yığışma deformasiyanın artırılması nəticəsində soyuma zamanı sərbəst yığılma xassəsi artır;

4. Yığışmanın tərkibini termiki genişlənməyə görə tərkibin azalması baş verir.

ƏDƏBİYYAT

1. Керимов Д.А. Исследование точности изготовления деталей машин из термореактивных пластмасс при прессовании в вакууме. Диссертация канд. техн. наук, Баку, АзИНЕФТЕХИМ им.М.Азизбекова, 1971

2. Керимов Д.А., Курбанова С.К. Основы конструирования пластмассовых деталей и пресс-форм. Баку: Изд-во «Елм», 1997, 504 с.

3. Kərimov C.Ə. Maşınqayırma. Bakı, Çaşıoğlu, 2007, 507 s.

4. Gasanova, N.A., Quliyev A.A., Aynur V. Sharifova A.V., Khankishiyeva T.U., Shahmarova R.S.: Research of the manufacturing quality of plastic details with complex forms of connection. 15th International Conference on Applications of Fuzzy Systems, Soft Computing and artifical intelligence tools — ICAFS-2022, Budva-Montenegro, Lecture Notes in Networks and Systems, vol 610. Springer, Cham., pp.297-304, https://doi.org/10.1007/978-3-031-25252-5_41

DƏRİNLİK NASOSUNUN İŞÇİ SƏTHLƏRİNİN MÖHKƏMLİYƏ VƏ YEYİLMƏYƏ DAVAMLILIĞININ ARTIRILMASININ TƏDQİQİ

Həsənova N.A. İdrisov H.M.

haciyevanaila64@gmail.com, hafiz.idrisov.99@mail.ru

Xülasə: Ştanqlı quyu nasoslarının müasir vəziyyəti qənaətbəxş sayılsada istismar şəraitinin getdikcə ağırlaşması ilə əlaqədar olaraq onların istismarında bir sıra problemlər mövcuddur. Bu problemlərdən silindr və plunjer cütünün sürtünmədən yeyilməyə qarşı müqavimətinin az olmasını, plunjerin silindr daxilində pərçimlənməsini nasosun ayrı-ayrı elementlərinin tez-tez işdən imtina etmələrini, çıxarılan neftin fizika-mexaniki tərkibinin təsirinə həssas və praktiki məhsuldarlıqlarının aşağı olmasını və s. göstərmək olar. Nasosların mövcudluğu dövründə bu problemlər həmişə olmuş və bu gün də qalmaqda davam edir.Qeyd olunan problemlərin həlli neftçıxarmada xüsusi əhəmiyyətə malikdir.Məqalədə bu problemlərin həll yolları araşdirilmışdir.

Açar sözlər: Ştanqlı quyu nasosları, istismar şəraiti, imtina, fizika-mexaniki tərkib,

Neft sənayesinin inkişaf perspektivi neft hasilatının getdikcə daha da artırılmasını nəzərdə tutur. Bu vəzifənin icrasında neft quyularının istismarı texnikası, o cümlədən ştanqlı quyu nasosları müstəsna rol oynayır. Artıq yüz ilə yaxındır ki, respublikamızda neft quyularının istismarında, xüsusilə az hasilatlı (5 m^3/gün-ə qədər), orta hasilatlı (100 m^3/gün-ə qədər) və nasosun imkanı daxilində yüksək hasilatlı (500 m^3/gün-ə qədər) quyularda ştanqlı quyu nasosları geniş miqyasda tətbiq olunmaqdadır. Bu dövr ərzində ştanqlı quyu nasosları çox böyük inkişaf mərhələsi keçmiş və istismar şəraitinin tələblərinə uyğun olaraq onların konstruksiyaları təkmilləşdirilmişdir [1].

Dərinlik nasoslarında əsas işçi səthlərin, məsələn, plunjerlə silindrin yeyilmə səbəblərindən biri, plunjerlə silindrin arasındakı mayenin geriyə sızarkən yaranan hidroeroziya yeyilməsidir. Buna görə də dərinlik nasoslarının istismarı zamanı plunjerlə silindrin arasındakı mayenin geriyə sızaraq yeyilməsinin qarşısını almaq vacib məsələdir [2].

Dərinlik nasoslarının istismarı zamanı əsas vacib hissələrdən biri yəhər-kürəcik cütlüyüdür. Ştanqlı quyu nasoslarının istismarı zamanı yəhər-kürəcik cütlüyündə kürəcik əvvəlcə yəhərə zərblə toxunur, sonra isə yəhərciyin faskasının üzərində çevrəvi hərəkət edərək, kip oturur. Bunun nəticəsində yəhərciyin faskası yeyilib tez bir zamanda imtinaya səbəb olur.

Hal-hazırki dövrdə dərinlik nasoslarında tətbiq olunan klapanların iki forması mövcuddur:

1. Paslanmaz bərk xəlitədən hazırlanan K növlü silindrik yəhərlə hazırlanan;
2. KJ növlü bərk xəlitələrdən hazırlanan silindrik yəhərdən və kürədən hazırlanan;

K növlü silindrik yəhərin “yəhər-kürəcik” cütlüyünün termiki emalla bərkliyini 40-45 HRC-yə qədər artırmaq olur.KJ növlü formada isə yəhər BK-6-B və BK-15 markalı bərk xəlitədən hazırlanır.Kürələr isə əsas bərkliyi HRC 58-62 olan bərk ərintidən ibarət olan paslanmayan poladlardan hazırlanır [3].

Silindrlə plunjerin yeyilməyə davamlılığının artırılması üçün, hər birinin işçi səthləri yeyilməyə davamlı olan xüsusi örüklərlə emal edilir. Ştanqlı quyu nasoslarının silindri əgər 38XMЮA markalı poladdan hazırlanarsa, onun daxili təbəqəsi 0,3-0,5 mm dərinlikdə xüsusi azot təbəqəsi ilər örtülür. Bu zaman onun bərkliyi HRA>80 həddində olur. Əgər 20 markalı poladlardan hazırlanarsa, bu zaman onun daxili səthi dərinliyi 0,25 mm olmaqla,nitrosementitləmə üsulu ilə emal olunur. Bu zaman alınan bərkliyin miqdarı 58-63 HRC həddində olur. Əgər 45X və 45 markalı poladlardan hazırlanarsa, bu zaman 0,08 mm dərinliyində xrom örtüyünün köməyilə səth emal edilməklə, bərkliyi HRC>62 həddində olur.

Əgər 20X2MΦA markalı poladlardan hazırlanarsa, bu zaman işçi səthin dərinliyi 0,048 mm olmaqla, nikelləmə üsulu ilə səthin bərkliyi 750-900 HV-yə çatır.

Dərinlik nasoslarının əsas hissələrindən olan plunjer və silindrlərin yeyilməyə qarşı olan davamlılığını artırmaqdan ötrü plunjer-silindr cütlüyü arasındakı yaranmış təzyiqi və onların arasında yaranan sürtünmə qüvvəsini müəyyən etmək lazımdır. Quyu ştanqlı nasoslarda silindr-plunjer cütlüyündə yaranan yeyilmə bir istiqamətdə səthdə yaranır. Buna səbəb, nasosların istismarı zamanı plunjerlərin silindrın daxilinə bir tərəfli sıxılmasıyla bağlıdır .

Plunjerlər 20X2MΦA və 45 markalı poladlardan hazırlanırlar. Plunjerlərin səthi 0,080 mm qalınlıqlı yeyilməyə davamlı olan xüsusi xromlu təbəqə ilə örtülür. Eyni zamanda, ПР-НХ17СР4 ərinti tozu ilə 0,25 mm qalınlıqlı örtük ilə örtülür və bu zaman plunjerin bərkliyi HRA>79-a qədər olur [4].

Ştanqlı quyu nasoslarında “plunjer-silindr” cütlüyünün yeyilməsinin qarşısını almaq, nisbətən azaltmaqdan ötrü, plunjerin üzərindəki yuvacıqların silindrin daxili hissəsində açılması tövsiyə olunur. Ştanqlı dərinlik nasoslarının ən vacib problemlərindən istismar zamanı nasosun plunjerinin silindrin daxilində hərəkət edə bilməməsi,yəni,pərçimlənməsidir. Quyu ştanqlı nasos qurğusu ilə istismar olunan quyuların bir hissəsində sulaşmanın 70-80 % miqdarında olması, plunjer-silindr cütlüyünün arasında quru sürtünmə prosesinin yaranmasına səbəb olur. Bu prosesin qarşısının alınması üçün nasosun qəbul hissəsinə 200 mq/l miqdarında CHX-1004P reagent maddəsi tökülür. Bu reagent maddənin əsas üstünlüyü onun yağlama qabiliyyətinin yüksək olmasıdır. Ştanqlı nasoslarda plunjerin silindrdə oturmasından asılı olaraq, onlar arasında olan araboşluğu 0...0,170mkm həddi daxilində olur. İstismar prosesi zamanı bu araboşluğuna kiçik abraziv hissələr daxil olur. Əksər hallarda, bu araboşluğuna daxil olan abraziv hissəciklər böyük ölçüdə olduğu üçün, səthdə kələ-kötürlüyün yaranmasına və bunun nəticəsində sürtünərək, yeyilməsinə gətirib çıxarır [5].

Torna dəzgahında n=15÷60 döv/dəq fırlanan valın səthinə pistolet adlanan cihaz vasitəsilə püskürmədən ibarətdir. Bunun üçün torna dəzgahına xüsusi tapança oturdulur. Valın metallaşdırılacaq boyun hissəsi metallik fırça ilə oksidlərdən təmizlənir.

Püskürüləcək metalın daha da yaxşı birləşməsi üçün valın səthində addımı 0,8-1,4 mm, dərinliyi 0,5÷0,8 mm olan girintili qeyri-naqil yiv açılır. Pistolet dəzgahın supportuna bağlanır.

Dərinlik nasoslarının plunjeri və silindri arasında olan ara boşluğunun diametrə görə ölçüləri 3 qrupa bölünür:

I qrup oturtma üçün 0 -0,070 mm-dək;

II qrup oturtma üçün 0,070-0,120 mm-dək;

III qrup oturtma üçün 0,120-0,170 mm-dək nəzərə alınır. Bu zaman dərinlik nasosunun plunjeri və silindri arasında olan ara boşluğundakı mayenin geri istiqamətə sızması baş verir.Burada olan mayenin geriyə doğru sızılmasının qarşısını almaqdan ötrü hasil olunmuş mayenin hər bir xüsusiyyətini və eləcə də bu nasosun quyuya buraxılarkən dərinliyini nəzərə alaraq,uyğun olan oturtma qrupu olan nasoslar seçirlər.

Silindr və plunjerin arasındakı boşluqdan mayenin geriyə sızmasının ən vacib səbəblərindən biri də quyuda iş prosesi zamanı silindr və plunjer arasındakı ara boşluğunun ölçülərinin yavaş-yavaş yeyilərək sıradan çıxmasıdır.Buna görə də istismar zamanı araboşluğunun ölçüsünü sabit vəziyyətdə saxlamaq lazımdır.

Dərinlik nasosunun əsas işçi hissələri-plunjer, silindr, ştok və klapandir. Bu hissələrin uzunömürlülüyünü və etibarlılığını təmin etməklə, nasosun məhsuldarlığını artırmaq mümkündür. Maşın hissələrinin uzunömürlülük və etibarlılığı, onlara göstərilən texniki xidmətdən və eyni zamanda xidmətin müddətindən asılıdır Hissələrinin hazırlanma texnologiyası üçün düzgün mütəxəssis işi və düzgün texnoloji rejim seçilməlidir. Bəzi hallarda dərinlik

nasosunun əsas hissə və detalları texnoloji rejimin tələblərinə cavab versə də, yenə bir müddət sonra sıradan çıxma halları baş verir.

ƏDƏBİYYAT

1. Vahidov M.A., Kərimov Ö.M., Eyvazova Z.E. Neft-qaz istehsal texnikası. Dərslik Bakı, ADNA, 2008, 440 s.

2. Mustafayev S.D. Quyuların ştanqlı dərinlik nasos üsulu ilə istismarı. Bakı, Elm, 2010, 677 s.

3. Ağayev A.C. Neft-mədən maşınlarının və hidro-texniki qurğuların təmiri və istismarı, ADNA, 2001, 180 s.

4. Аливердизаде К.С. и др. Расчет и конструирование оборудования для эксплуатации нефтяных скважин. Москва, 1959, 562 с.

5. X.H.Həsənov, Həsənova N.A. Dərinlik nasos quyularının istismar şəraitinin öyrənilməsi. Maqnityumşaq ərintilərin informasiya texnologiyala-rında və hərbi sənayedə tətbiqi perspektivləri mövzusunda Beynəlxalq Elmi-Praktik Konfrans, Bakı, 2019, s. 238-240

TƏNZİMLƏYİCİ QURULUŞLARIN LAZER ÜSULUNUN TƏTBİQİ İLƏ HİDROABRAZİV YEYİLMƏYƏ QARŞI DAVAMLILIĞININ ARTIRILMASI

Bakalavr:
Şəfizadə Nuray Nəriman qızı
441.20 IV kurs

Elmi rəhbər:
Doktorant Ağazadə Neman Ramin

Yüksək təzyiqli neft axınının tərkibində olan hidroabraziv hissəciklər drosselərin əsas işçi mexanizmi olan ucluğu zədələyir. Zədələnmələr müxtəlif formalarda özünü büruzə verir. Ucluğun uzunömürlülüyünün artırılması məqsədilə lazer texnologiyasının tətbiqi nəzərdə tutulmuşdur. Müvafiq texnologiya əsasında ucluğun səth təbəqəsinin möhkəmliyi artırılır ki, bunun da əsasında onun uzunömürlülüyü artırılmış olur.

İstismar edilən neftin sürətini, təzyiqini eləcə də hərəkət istiqamətini tənzimləmək üçün tənzimləyici quruluşlar tətbiq olunur. Lazer texnologiyasının tətbiqi əsasında yüksək temperaturlu və ağır yüklərlə müşaiət olunan şəraitlərdə işləyən qurğu və avadanlıqların kiçik amplitudlu rəqslər zamanı yorğunluğa qarşı müqaviməti, o cümlədən onların ümumi möhkəmliyi, fərqli xüsusiyyətlərə malik yeyilmə və sürtünmə proseslərinə qarşı davamlılığını yüksəldir.

1. Lazer üsulunun tətbiqi əsasında yeni səth təbəqəsi ucluq üzərində yaradılmış və nəticədə ucluğun konik hissəsinin möhkəmliyi və hidroabraziv yeyilməyə qarşı davamlılığı artırılmışdır.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT.

1. J.N. Aslanov, K. S. Mammadov. Frictional wear of improved valve hermetic elements caused by heat transfer. Journal Tribologi, 2022, pp. 134-149.

2. J.N. Aslanov, K. S. Mammadov. Design and performance analysis of improved valve construction being used in oil and gas industry. International Journal on Technical and Physical Problems of Engineering, 2022, 14(2), pp. 98–103.

YÜKSƏKXROMLU TEZKƏSƏN POLADLARIN PÜSKÜRDÜLMÜŞ OVUNTULARINDAN ALINMIŞ BİŞİRİLMİŞ ƏRİNTİLƏRİN STRUKTURUNA VƏ XASSƏLƏRİNƏ MEXANİKİ AKTİVLƏŞDİRMƏ REJİMİNİN TƏSİRİNİN TƏDQİQİ

Magistr:
Hüseynov Orxan
II kurs, qrup A4212

Elmi rəhbər:
dos. Cabbarov Tahir

Məlumdur ki, (1,2), tərkibində yüksək miqdarda karbidlər , nitridlər, boridlər və başqa kövrək struktur tərkibləri olan legirlənmiş poladların püskürdülmüş ovuntuları aşağı formalaşma və preslənmə qabiliyyətli olur. Buna görə onların ərintiləri aşağı möhkəmlikli olurlar. Onların texnoloji xassələrini artırmaq üçün müxtəlif üsullardan istifadə edilir. Bir çox hallarda, şixtəyə plastiki metalların ovuntularını əlavə edirlər, mexaniki aktivləşdirmə aparırlar, şixtəyə müxtəlif plastifikatorlar əlavə edirlər.

Şixtənin mexaniki aktivləşdirilməsi püskürdülmüş ovuntuların zərrəciklərinin səth qatında, onların döyənəkliyi hesabına, aktivləşmiş vəziyyət yaratmağa imkan verir. Belə şərait şixtə komponentlərinin zərrəcikləri arasında kimyəvi reaksiyaların baş verməsi və sürətlənməsi üçün müəyyən imkanlar yaradır. Legirlənmiş poladların və karbid tərkibli ərintilərin zərrəciklərinin strukturu mexaniki aktivləşdirmədən sonra aşağı temperatorlu bişirmədə kifayət qədər dayanıqlı olurlar. Tədqiqatlar göstərmişdir ki, PX-HCX23 markalı tezkəsən poladların ovuntularının zərrəciklərinin səthi mexaniki aktivləşdirmədən sonra sıx və hamar olurlar.

ƏDƏBİYYAT SİYAHISI

1. Гуляев А.П. Металловедение. – М.: Металлургия, 2006. – 544 с.
2. Пломодьяло РЛ. Горячая штамповка конструкционных износостойких порошковых деталей. Технические науки. № 2. 2008. С. 68-71.

D16-Ni ŞİXTƏSİNİN DƏNƏVƏRLİK TƏRKİBİNİN TƏDQİQİ

Magistr:
Əsədova Əfsanə

Elmi rəhbər:
dos. Cabbarov Tahir

II kurs qrup A4212

Ovuntu şixtələrinin mexanikikimyəvi aktivləşdirilməsi dispersləşdirmənin çoxmərhələli prosesidir. Bu aktivləşdirmə məsaməli pəstahların formalaşdırma və bişirmə proseslərində sıxlaşmanın keyfiyyətinin yüksəlməsilə xarakterizə olunur.(1,2). Şixtənin dispersləşdirilməsinin səmərəliyi və onun aktivliyi xırdalama vaxtından, şixtə materiallarının tərkibindən, xırdalama mühitindən, xırdalayıcı əlavələrdən və başqa amillərdən asılı olur.

Birinci mərhələdə şixtənin dənəvərlik tərkibinə nikelin miqdarının (0-dan b küt. %-qədər) və xırdalama müddətinin (0,5-dən 4 saata qədər) təsirinin təcrübəsi aparılmışdır. Bu zaman rotorun fırlanma tezliyi dəqiqədə 290 olmuş və maye mühitin miqdarı şixtə kütləsinin 20%-ni təşkil etmişdir.

Tərkibində nikel olmayan şixtədə xırdalama vaxtının 0,5-3 saat müddətində xırdalanmış ovuntunun miqdarı təqribən eyni qalmış və 57-63 küt.% təşkil etmişdir. Xırdalama müddəti 4 saat olduqda xırdalanmış ovuntunun miqdarı aqlomeratların əmələ gəlməsi səbəbindən azalmışdır.

Xırdalamanın 0,5 saat müddətində alınmış ovuntunun zərrəciklərinin ölçüsü 200 mkm-dən çox olmuşdur. Ümumilikdə bütün ovuntu kütləsi ələklər üzrə aşağıdakı kimi paylanmışdır:

+630 mkm – 39 küt.%;

+400 – 630 mkm- 9 küt.%;

+315 – 400 mkm – 43 küt.%;

+200 – 315 mkm – 8 küt.%.

ƏDƏBİYYAT SİYAHISI

1. Дорофеев, Ю.Г, Сергеенко, С.Н./Особенности формирования компактированного материала из механически активированной стружки алюминивого сплава Д16//Металловедение и термическая обработка металлов. с. 31-33, N:2.2003.

2. Аввакумов, Е. Г. Механические методы активации химических процессов. – Новосибирск: Наука, 300с. 2006.

KARBONLU QIZMAR PRESLƏNMİŞ OVUNTU POLADLARININ MEXANİKİ XASSƏLƏRİNƏ ALÜMİNUM MİKROƏLAVƏLƏRİNİN TƏSİRİ

Magistr:
Mirzəzadə Seymur
II kurs, qrup A4212

Elmi rəhbər:
dos.Hacıyev.Ramil

Tədqiqat işində karbonlu qızmar preslənmiş ovuntu poladlarının mexaniki xassələrinə alüminum mikroəlavələrinin təsiri öyrənilmişdir.Alınmış tədqiqat nəticələri dəmir əsaslı karbonsuz ovuntu materiallarının qızmar preslənməsində alınmış məsaməli pəsdahlarda zərrəciklər arası əlaqənin keyfiyyətinin artırılmasında alüminumla mikrolegirlənmənin tətbiqi səmərəli olmasını sübut etmişdir.[1]

Bu tədqiqatların davamı kimi karbonlu qızmar preslənmiş ovuntu poladlarının zərrəciklərarası əlaqələrinin keyfiyyətinə alüminumla mikrolegirlənmənin təsiri öyrənilmişdir.Mexaniki sınaqların aparılması üçün prizma şəkilli 10×10×55mm ölçü lü nümunələr ПЖВ2.100.26 markalı reduksiya olunmuş dəmir ovuntusu əsasında hazırlanmışdır.Alüminum şixtəyə ØA-50 ТУУ 27.3 13533123-001-20 markalı ferroaluminumun xırdalanmış ovuntusu şəkilində verilmişdir.Bu zaman ovuntunun fraksiyası 0.063mm(63mkm) olmuş və bu fraksiyalı əlavə edilən alüminumun kütlə faizi $C_{Al} = 0.027; 0.135; 0.27$ olmuşdur.Nümunələrdə karbonun miqdarı $ГК - 1$ markalı karandaş qrafikindən isdifadə ilə tənzimlənmiş və karbonun miqadarı $C_{cm} = 0 - 0.8$ kütlə faizi olmuşdur.

ƏDƏBİYYAT SİYAHISI

1. Дорофеев, В.Ю. Валяние микродобавок алюмин- ния на смрукмурни и механические свойсмва углеро горячедеформированных порошковых еталей.Минск,Беларус, 2010 449с.

ALÜMINIUM MATRISLI HIBRID KOMPOZIT MATERIALLAR VƏ ONLARIN MEXANIKI XASSƏLƏRI

Magistr:
Kəmalə Həsənova.
İkinci kurs, qrup A4212.

Elmi rəhbər:
t.ü.f.d dos, Zəka Səlimov .

Alüminium hibrid kompozitlər qabaqcıl mühəndislik tətbiqlərinin ən son tələblərinə cavab vermək potensialına malik olan yeni nəsil metal matris kompozitləridir. Bu tələblərə təkmilləşdirilmiş mexaniki xassələr, ənənəvi emal texnikası ilə uyğunluq və bu, alüminium hibrid kompozitlərin istehsal maya dəyərini azaltmaq imkanı ilə bağlıdır. Bəzi proses parametrləri gücləndirici hissəciklərlə əlaqəli olduğundan, materialların performansı çox vaxt möhkəmləndirici maddələrin düzgün birləşməsinin seçilməsindən asılıdır. Alüminium hibrid kompozitlərin dizaynında möhkəmləndirici hissəciklərin bir neçə kombinasiyası konseptuallaşdırılmışdır.Mövcud mühəndislik təcrübələri daha güclü, daha yüngül və daha ucuz materiallar tələb edir. Bir çox müasir mühəndislik sistemləri üçün xidmət zamanı performans tələbləri ənənəvi olaraq geniş xassələrə malik materiallar tələb edir

Maddi sistemlərdən istifadə etməklə görüşmək çox çətindir. Metal matris kompozitləri (MMK) müxtəlif mühəndislik tətbiqlərində lazım olan xüsusiyyətlərin uyğunlaşdırılmış birləşmələrini təklif etmək üçün diqqət çəkir. Bu xassələrin birləşmələrindən bəziləri bunlardır: yüksək xüsusi güc, aşağı istilik genişlənmə əmsalı və yüksək istilik müqaviməti, yaxşı sönümləmə qabiliyyəti, üstün aşınma müqaviməti, yüksək xüsusi sərtlik və qənaətbəxş səviyyədə korroziya müqaviməti.

MMK-ların istifadəsi aerokosmik və avtomobil sahələrindən müdafiə, dəniz, idman və istirahət sənayelərinə qədər geniş olduğundan, onlar tez bir zamanda bir çox tətbiqlərdə adi metal ərintilərini əvəz etdilər. MMK-lar əsasən keramika materialları ilə möhkəmləndirilmiş metal-keramika ərintiləridir.

ƏDƏBIYYAT SIYAHISI

1. Islak, S. (2015). Effect of sintering temperature on transverse rupture strength of hot pressed Cu-TiC composites. Materials Testing, 57(7-8), 663-665.

2. Makisima, A. (2004). Possibility of Hybrids Materials, Ceramic Japan, 39, 90- 91.

FƏRQLİ MATERİALLARDAN HAZIRLANAN KƏSİLMƏDƏ MÖHKƏMLİK HƏDDİNƏ İLKİN PARAMTERLƏRİN VƏ FAKTORLARIN TƏSİRİ XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

Bakalavr:
Nihat Ələsgərov,
IV kurs, 421.20

Elmi rəhbər:
T.e.n, dos Quliyev Ağəli Əhməd oğlu

Hal hazırda metallik armaturların plastik kütlədən hazırlanan detallara tətbiqi geniş yayılmışdır. Plastik kütlələrin ən çatışmayan cəhətlərindən biri aşağı kontakt gərginliyə malik olması və kəsilməyə müqavimətin aşağı olmasıdır. Bu isə plastik kütlədən hazırlanan detallardan alınan birləşmələrin əndazə ölçülərinin artmasıdır.

Plastik kütlənin və metalların fərqli fiziki-mexaniki xassələri optimal konstruktiv kombinəedilmiş birləşmələrin həllini tələb edir. Bundan ötəri xarakterik hesabat və kəsilmə möhkəmliyinə təsir edən ilkin parametrlər təyin edilməlidir. Tədqiqat işi bu mövzuya həsr olunduğu üçün çox aktualdır.

Aşkarlanmışdır ki, tikişin qalınlığı nə qədər çox olarsa bir o qədərdə gəgrinlik konsentrasiyasına effektiv mübarizə aparılmış olur. Çoxsaylı sınaqlarda təsdiqlənmişdir ki, plastik kütlənin kəsilmədə möhkəmlik həddinin buraxılabilən qiyməti onunla eyni olan metalı çox dəfə üstələyir.

Tədqiqatın nəticəsi olaraq armaturların kəsilmədə möhkəmlik həddinin yivin uzunluğundan, metallik armaturun diametrindən asılılıq qrafiki qurulmuşdur. Müqayisə üçün plastik kütlə və metalın kəsilmədə möhkəmlik həddidə öyrənilmişdir. Yivin uzunluğunun kəsilmə möhkəmliyinin buraxılabilən möhkəmlik həddindən asılılıq düsturu təyin edilmişdir.

Tədqiqat obyekti hidrosilindrin ayrı-ayrı qovşaqları üçün tətbiqi nəzərdə tutulmuşdur.

ƏDƏBİYYAT

1. Şixəliyev K.S, Bilalov Y.M, Əmirov F.Ə Polimerlərin çevrilmə prosesləri. Dərslik2008, ADNSU, 243 səh.

2. Şıxəliyev K.Ə, Ə.Y. Musayeva Plastik kütlələr əsasında kompozisiya materiallarının hesablanması və layihləndirilməsi Dərslik,20058, ADNA-nın mətbəəsi, Bakı.

SƏNAYE QURĞULARINDA İŞLƏDİLƏN BAĞLAYICI QURULUŞLARIN İŞLƏNMƏSİ

Bakalavr:
Gülnur Əsədli Seymur
441.20

Elmi rəhbər:
Müəllim Gülnar
Həmidova Əbdülhəmid

Müəyyən edilmişdir ki, diskli siyirtmələrdə maksimum kipliyin təmin edilməsi üçün qeyd edilən şərtlərə riayət edilməsi əsas şərtdir. Diskin işçi səthi ilə gövdənin kipləndirmə boğazı arasında oturma sahəsində təzyiqin bərabər paylanmasının təmin olunması, oturma yuvasında yerləşdirilmiş rezin manjetin daxili strukturunda gərginliyin bərabər paylanmasının təmin edilməsi və diskin eləcə də kipləndiricinin materiallarının aqressiv mühitə, temperatura və təzyiqə uyğun seçilməsidir.

Sənayenin müxtəlif sahələrində işlədilən bağlayıcı quruluşların ən çox yayılmış və diqqət mərkəzində olan 7MPa təzyiqdən yuxarı təzyiqdə, müxtəlif temperaturlarda və aqressiv mühitdə işlədilən növləri düzaxınlı siyirtmələr, kürəvi kranlar, qlobusvari, diskli və kəpənəkvari siyirtmələrdir. Diskli siyirtmələrin əsas diqqət yetiriləcək düyünü onun tıxac düyünüdür. Bu düyünün tam şəkildə yüksək hermetikliyi təmin etməsi ən mühüm məsələdir.

1. Tıxayıcı düyündə hermetikliyin maksimum təmin edilməsi üçün diskin işçi səthi ilə gövdənin kipləndirmə boğazı arasında oturma sahəsində təzyiqin bərabər paylanmasının təmin olunması, oturma yuvasında yerləşdirilmiş rezin

manjetin daxili strukturunda gərginliyin bərabər paylanmasının təmin edilməsi və diskin eləcə də kipləndiricinin materiallarının aqressiv mühitə, temperatura və təzyiqə uyğun seçilməsi əsas şərtdir.

2. Yüksək hermetikliyə malik diskli siyirtmə konstruksiyası işlənmişdir.

ƏDƏBİYYAT

1. J.N. Aslanov, A.S. Ahmadov, Z.E. Eyvazova, G.A. Hamidova, L.R. Ibayeva, HARMONIC ANALYSIS OF LOADING CHARACTERISTICS RESEARCH OF PUMP JACK, International Journal on "Technical and Physical Problems of Engineering". March 2023 Issue 54 Volume 15 Number 1 Pages 110-115.

MƏRKƏZDƏNQAÇMA ELEKTRİK DALMA NASOS QURĞUSUNUN YEYİLMƏYƏ QARŞI DAVAMLILIĞIN ARTIRILMASI

Tələbənin adı soyadı:
Bəylərova Gülnaz
441.20

Elmi rəhbər:
İbayeva Leyla

Xülasə: Tədqiqat işi mərkəzdənqaçma dalma nasos qurğusunun işçi pərlərində yaranan abraziv yeyilməyə qarşı davamlılığın artırılması üsuluna həsr edilmişdir. Aparılan araşdırmalar nasosun işçi pərlərinin səthlərinin lazer texnologiyası əsasında möhkəmləndirilməsi üsulunun müasir tələblərə cavab verəcəyini təsdiqləmişdir. Bu nöqteyi nəzərdən tədqiqat işində MQDNQ-nın istehsalı zamanı onların pərlərinin işçi səthlərini yeyilməyə davamlı metal paroşoklarla emal edilməsi təklif edilmiş və emalın aparılma texnologiyası işlənmişdir.Çoxsaylı aparılan müqayisə və araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, Titan əsaslı metal paroşokların yüksək temperatura davamlılığı Nikel əsaslı ərinitlərdən daha yüksəkdir. Bu səbəbdən lazer texnologiyası vasitəsilə Titan əsaslı paroşoklardan istifadə olunaraq nasosun işçi pərlərinin

möhkəmləndirilməsi prosesi həyata keçirilmişdir. Tədqiqat zamanı lazer texnologiyası üçün şüanın təsir dərinliyinin ifadəsi də müəyyən olunmuşdur.

ƏDƏBIYYAT SIYAHISI

1. Rezo Əliyev, Bertram Hentşel, Sürətli hazırlama texnologiyasının mütərəqqi üsulları, Elm nəşriyyatı, 2005.
2. http://az.jzhaixin.com/titanium-carbide-powder-tic-product/
3. ВТ Мамедов, ДН Асланов, ДР Дамирова Расчет нагрузки на штанговую подвеску при неустановившемся колебательном движении штанг скважинной насосной установки Известия высших учебных заведений. Машиностроение, 2021
4. Aslanov Jamaladdin, Исмаилов Махмуд Азер оглы Молекулярное взаимное прикосновение поверхностей с высшим классом чистоты Молодий вчении. № 10 (98) (2021)

PİSTONLU KOMPRESSORUN ÖZÜTƏNZİMLƏNƏN KLAPANLARIN OPTİMALLAŞDIRILMASI

İmanova İntizar Şahin

imanovaintizar@gmail.com

Annotasiya

Tədqiqat işi bir sıra həcmli maşınların qaz paylama mexanizmi olan klapanlar iş prosesinin təşkilini və buna uyğun olaraq kompressorun əsas xüsusiyyətlərini müəyyənləşdirilməsinin yüksəldilməsinə həsr edilmişdir. Müəyyən edilmişdir ki, öz-özünə işləyən klapanlar mərhələnin giriş və çıxışında bütün təzyiq rejimlərində qazın demək olar ki, tam daxili sıxılmasını və genişlənməsini təmin etməklə xarakterizə olunur. Bu da kompressorun yaxşı işləməsini təmin edir. Bu tip klapan adətən halqa, disk və ya qamışlı sorma və vurma lövhələrinin birləşməsidir. Sadalanan dizayn variantları az və ya çox dərəcədə məhdud axın sahəsi, boşluğun

olması, sürtünmə itkiləri, sızdırmazlıq kəmərlərinin qeyri-bərabər aşınması və nəticədə sıxlığın itirilməsi ilə xarakterizə olunur.

Giriş

Öz-özünə işləyən klapanlar vəziyyətində, iş proseslərinin axınının spesifikliyi işçi mayenin dəyişən kütləsidir. Proseslərin təsviri qaz xassələrinin reallığı nəzərə alınmaqla riyazi modelləşdirmə və eksperimental nəticələr əsasında aparılır ki, bu da son nəticədə maşınların modernləşdirilməsi üçün tövsiyələr verməyə imkan verir.

Model ilkin tənliklər sisteminin əldə edilməsində aşağıdakı fərziyyələr irəli sürməklə həyata keçirilir:

iş kamerasında qaz parametrləri davamlı və bircinslidir;

mərhələnin giriş və çıxışında qaz parametrləri sabitdir.

Klapan axını əmsallarının və axın təzyiq əmsallarının əldə edilmiş qiymətlərinin təkcə cari tədqiqat üçün deyil, həm də R134a və R22 soyuducularında işləyən öz-özünə işləyən klapanlı soyuducu kompressorların riyazi modelləşdirilməsi üçün tövsiyə oluna bilər.

Plitələrin gücü qaz paylanması məsələlərində vacibdir, çünki onlar artan dinamik yüklərlə, həmçinin qaz təzyiqindəki fərq səbəbindən qapalı vəziyyətdə deformasiyalarla olduqca çətin şərtlərə məruz qalırlar. Müəyyən edilmişdir ki, üzük klapan plitələrinin tipik bir nasazlığı əsasən radial istiqamətə yönəldilmiş çatlardır ki, bu da radiallarla müqayisədə artan tangensial gərginlikləri göstərir. Kənarlar boyunca qeyri-bərabər aşınma, qapalı klapandakı təzyiq fərqinin təsiri altında plitənin deformasiya vəziyyətinə görə plitələrdə əlavə gərginliyə səbəb olur. Konsolda quraşdırılmış plitə olan, ucu oturacaqda bir və ya bir neçə deşiyi əhatə edən yarpaq tipli klapanlarda bu çatışmazlıq yoxdur. Ləçəkləri xarici və ya daxili diametr boyunca birləşən lövhələrdəki birləşmə klapanları da məlumdur. Bu vəziyyətdə, axın sahəsini inkişaf etdirmək üçün bir neçə fərqli standart ölçüdə plitələrdən istifadə olunur və boşalmaların yerləşdirilməsi oturacaq kanallarında

əhəmiyyətli miqdarda ölü həcm buraxır, buradan enjeksiyondan sonra işçi maye genişlənir, kompressorun performansı azalır. Beləliklə, kilidləmə lövhələrinin ləçək növlərinin üstünlüklərinə görə, onların tədqiq olunan birləşmiş klapan dizaynının bir hissəsi kimi istifadəsi perspektivlidir və sadalanan çatışmazlıqlara görə onların qaz-dinamik xüsusiyyətləri və dinamikası əlavə tədqiqat tələb edir.

Məsələnin qoyuluşu

Axının sərfiyyat əmsalının ləçəkli klapanın nisbi gedişinin təzyiqindən və agentlər üzrə axının təzyiq əmsalı; çoxləçəkli klapanın müxtəlif işçi rejimləri üçün ləçəklərin gediş sxemi təqdim olunmuşdur.

Tədqiqat nəticələri göstərir ki:

Sərfin əmsalı qazın növündən praktiki olaraq asılı deyil və klapan axını yolunun həndəsəsi ilə müəyyən edilir.

Axının təzyiq əmsalı qazın növündən və onun təyin olunduğu təzyiqdən asılıdır. Yüksək təzyiqlərdə bu əmsalı klapanın gedişi boyunca sabit olduğunu qəbul etmək olar.

Həll üsulu

Müxtəlif növ klapanların müqayisəli təhlili, həmçinin axın hissəsinin və klapanların hərəkət edən elementlərinin dinamikasının tədqiqatlarının nəticələri, itkilərin səviyyəsini nəzərə alaraq təklif olunan klapanın parametrlərini optimallaşdırmaq üçün əsas təşkil etmişdir və dinamik yüklər, iş kameralarının yağlanması və artan sürət olmadan mərhələlərlə işləməyə qadirdir. Xüsusilə, piston pilləsi üçün birləşmiş öz-özünə işləyən klapan təklif olunur, burada silindr və oturacaq arasında həlqəvi bir sorma lövhəsi quraşdırılır və boşalma lövhəsi oturacaq və diskin dairəvi kəmərləri boyunca oturacaqların bir hissəsi kimi oturur. Boşqab vuruşu məhdudlaşdırıcısı olan boşaltma qurğusu, analoqlardan fərqlənir ki, əmzikli klapan boşqab 1 (bax. Şəkil 2) halqaya birləşmiş elastik deformasiya olunan ləçəkləri ehtiva edir. Üstəlik, bitişik ləçəklər, iş boşluğunu agentlə doldurma prosesində “Δp” təzyiq fərqinə cavab verən və oturacağın “B”

kanallarını açan yay hissələrini meydana gətirir. Ləçəklərin hərəkəti silindr güzgüsünün "B" konturu boyunca boşluqlarla məhdudlaşdırılır və sonra axın sahəsi bitişik ləçəklərin yuvalarının yay hissələrinə görə artır, ləçəklərin demək olar ki, paralel mövqeyini oturacağın təyyarəsi təmin edir. (Şəkil 2 bölmə Г-Г). 1 nömrəli lövhənin ləçəkləri öz elastikliklərinin təsiri ilə ilkin vəziyyətinə qayıdırlar.



Şəkil 2 - Uzatılmış deşikli klapanın emiş ləçək plitəsinin dizaynı

Nəticə

Boşaltma lövhəsinin möhürləyici kəmərlər arasında çıxıntı ilə dairəvi olması, daxili kəmər boyunca boşqab və boşaltma qurğusu arasında boşluq yaradılması planlaşdırılır. Bundan əlavə, boşalma plitəsinin vuruş məhdudlaşdırıcısında qapalı bir məkanın içərisində hərəkət edən bir piston yerləşdirmək mümkündür. Bu da su çəkici halında onun nəticələrini əhəmiyyətli dərəcədə azaldacaqdır.

Qazın xassələrinin reallığı nəzərə alınmaqla iş proseslərinin hesablama modelləşdirilməsi üsulu verilmiş və nəzərdən keçirilən klapanın parametrlərinin optimallaşdırılması yerinə yetirilmişdir.

Ədəbiyyat

1. Котлов А. А. Математический анализ работы двухступенчатого дожимающего компрессора, предназначенного для сжатия метана // Научно-

технические ведомости СПбПУ. Естественные и инженерные науки. 2018. Т. 24, № 4. С. 51–60. DOI: 10.18721/JEST.24405.

2. Френкель М. И. Поршневые компрессоры. Л.: Машиностроение, 1969. 740 с

3. Пластинин П. И. Поршневые компрессоры. В 2 т. Т. 1. Теория и расчет. 3-е изд., доп. М.: КолосС, 2006. 456 с. ISBN 5-9532-0428-0

4. Ignatiev K. M., Khrustalev B. S., Perevozchikov M. M., Zdazinsky V. B. Simulation and parametric analysis of the suction valve and muffler off small reciprocating compressor // International Compressor Engineering Conference. 1996. Vol. 1. P. 205–210.

5. Mistry H., Bhakta A., Dhar S. [et al.]. Capturing valve dynamics in reciprocating compressors through computational fluid dynamics // 21st International Compressor Engineering Conference at Purdue, West Lafayette-IN, EUA. 2012. 1210.

6. https://az.ever-power.net/product/special-industrial-gas-compressor/

THE PROCESS OF HYDROTREATING DIESEL FUEL

Bakalavr: Məsimov Araz, A4122
Elmi rəhbər: Abbasov Natiq Mayis oğlu

Elmi adı, Ad Soyadı Various technological processes are applied in the field of modern oil refining. Each of the processes in turn is implemented by many technological schemes and methods. These technological processes form the basis of many simple processes in oil refining and chemical production. In this way, learning processes are facilitated.

They process oil and its products using various processes. This article describes the process of refining of the diesel fraction in a circulating medium comprising hydrogen gas at high pressure and temperature, in order to remove organosulfur compounds.

At the moment, the oil refining industry has many unresolved problems associated with the introduction of more stringent requirements in order to obtain environmentally friendly high-class motor fuels. Requirements for gasoline, kerosene and diesel fuel are changing relatively quickly in other countries, thereby forcing them to invest in the construction of new plants and in the modernization of existing ones.

The use of the refining process can significantly improve the quality of petroleum products. The sulfur content in the fuel is reduced, which has a beneficial effect on the ecology of the environment. The amount of nitrogenous compounds, organometallic compounds, which negatively affect the operation of the engine as a whole, is reduced. With the use of a more active catalyst, positive quality and environmental ratings are achieved. It is necessary to develop more efficient catalysts, modernize reactors and increase their number. All these positive results allow diesel fuel to be in demand on the market.

REFERENCES

1. Aspel N.B., Demkina G.G. Gidro Ochistka motornykh topliv [Hydro-Ochistka motornykh topliv]. - Leningrad, Khimiya Publ., 2015. - 160 p.

2. Akhmetov S.A. Tekhnologiya glubokoye pererabotki nefti i gaza [Technology of deep processing of oil and gas]. - Ufa: Gilem, 2014. - 672 p

3. Chernozhukov N.I. Oil and gas processing technology. Part 3: Purification and separation of petroleum raw materials, production of commercial petroleum products / A. A. Gureeva and B. I. Bondarenko - M.: Chemistry, 2013, 424 p.

PREDICTING THE FLARE TEMPERATURE OF BINARY MIXTURES ACCORDING TO DATA ON ACTIVITY COEFFICIENTS

Bakalavr: Cəfərli Fatimə, A4122
Elmi rəhbər: Abbasov Natiq Mayis oğlu

A method for calculating the flash point from the results of simulating liquid–solid equilibrium at constant pressure using the Gibbs equation is discussed. A model is used to predict the flash point of the mixture based on the modified Le Chatelier equation, the Antoine equation and a model for estimating the activity coefficient.

The flammability hazard of liquids is primarily characterized by their flash point. The flash point is defined as the temperature at which a liquid evaporates and forms a flammable mixture with air. To measure the flash point, closed and open type devices are used. In closed-type devices, the state of equilibrium between the liquid and vapor components of the mixture is studied. Open type devices take into account the interaction of a mixture of flammable liquids with the atmosphere. The flash point of a mixture is a critical property, but experimental data for many mixtures are lacking and obtaining such data is expensive and time-consuming. Therefore, the development of mathematical models for analyzing the state of the environment under conditions of increasing risk of emergency situations is an important scientific and practical task. This paper examines the

possibility of predicting the flash point in closed-type devices, i.e. the influence of atmospheric conditions is not taken into account in this approximation. Several models for predicting the flash point for mixtures of various types have been proposed previously.

A method for predicting the dependence of the flash point of binary flammable liquid mixtures on the composition of the solution is presented. The method is based on the use of mixture pressure data obtained using mathematical modeling of phase equilibrium under isobaric conditions. Predicting the flash point of a binary mixture requires data on the enthalpy and melting point, enthalpy and boiling point, and flash point of the pure components.

REFERENCES

1. Liaw H.-J., Lee Y.-H., Tang C.-L., et al. A mathematical model for predicting the flash point of binary solutions // J. Loss Prev. Process. 2012. No. 15. P. 429–438.

2. Liaw H.-J. A general model for predicting the flash point of miscible mixture / H.-J. Liaw, Y.-Y. Chiu // J. Hazard Mater. 2016. No. 137. P. 38–46.

3. Affens W.A. Flammability properties of hydrocarbon solutions in air / W.A. Affens, G.W. McLaren // J. Chem Eng. Data. 2012. No. 17. P. 482–488.

4. White D. Flame spread on aviation fuels / D. White, C.L. Beyler, C. Fulper, J. Leonard // Fire Saf. J. 2017. No. 28. P. 1–31.

IMPROVING THE RELIABILITY AND ENERGY EFFICIENCY OF GAS AIR COOLING DEVICES BY USING A REPAIR AND RECOVERY COMPOUND

Bakalavr: Sabirli Sərdar, A4122
Elmi rəhbər: Abbasov Natiq Mayis oğlu

Over the last two decades, Gazprom has placed significant emphasis on the issues of energy efficiency and energy conservation. The allocation of electrical

energy for the operation of air-cooling mechanisms for gas in a compressor station equipped with gas turbine pumping units ranges from 22% to 48%. The primary aim of this study is to improve the durability of the bearings in the electric motor of the gas air cooling device. This will be achieved by investigating various approaches to reduce friction. The objective will be accomplished by the use of advanced surface technology with enhanced strength properties. The use of the Repair and Recovery Compound (RRC) inside the lubrication system or its direct application onto the friction pairs' surface is contingent upon the unique characteristics and design of the particular unit undergoing treatment. The objects undergoing processing included the use of specialist lubricants. The items in question are primarily to the ball bearings that are located inside the drive electric motors of air-cooling fans used in gas compressor stations. The results obtained from the study examining the effectiveness of using serpentine-based compositions on electric motor bearings demonstrate a noticeable impact on the outermost layers of the metal surfaces that come into contact. This impact enables beneficial modifications in the operating characteristics of the device.

The effectiveness of repair and restoration chemicals mostly depends on the manufacturer responsible for their creation. A comprehensive economic assessment is essential when choosing a compound for the processing of rubbing components in equipment. This assessment should include several factors such as the cost of the compound, processing expenditures, and the time necessary for cost recuperation.

REFERENCES

1. Rubtsova I.YE., Mochalin D.S., Kryukov O.V. Osnovnyye napravleniya i zadachi energosberezheniya pri rekonstruktsii KS. Energosberezheniye i avtomatizatsiya elektrooborudovaniya kompressornykh stantsiy [Main directions and tasks of energy saving during compressor station

reconstruction. Energy saving and automation of electrical equipment of compressor stations]. Nizhniy Novgorod, Vektor TiS Publ., 2012. 572 p.

2. Mochalin D.S., Titov V.G. Estimation and forecasting of energy consumption of the air gas apparatus at the compressor station. Truboprovodnyy transport [teoriya i praktika], 2015, no. 1(47), pp. 16-20.

3. Verkholantsev A.A., Suslov A.N., Filippov M.YU. CIP technology for restoration of the technical resource of mining equipment. Gornaya promyshlennost', 2015, no. 2, pp. 46-48.

GRAFEN DOLDURUCULU METAL MATRİSALI HİBRİDKOMPOZİTLƏRİN XASSƏLƏRİNİN TƏDQİQİ

Magistrant:
Nərgiz Tanrıverdiyeva,
II kurs, A4212

Elmi rəhbər :
k.ü.f.d. Oruclu Elnur Nəcəf oğlu

Mühəndislik materialları arasında əhəmiyyətli yer tutan kompozisiya materialları (KM) iki və ya daha çox materialın makro səviyyədə bircins, mikro səviyyədə qeyri-bircins birləşməsiylə yaranan qabaqcıl materiallar qrupudur. Kompozisiyaların strukturundakı bu iki müxtəlif material qrupundan matrisa materialları kimi polimer, metal, keramika istifadə olunur [1]. KM dizayn və optimallaşdırma nəticəsində, müxtəlif konsentrasiyalar və kombinasiyalarla yüksək performanslı və ya heç bir sənaye materiallarının əldə edə bilmədiyi mütərəqqi, müasir və innovativ funksiyaları ala bilmək imkanına sahibdir.

Taraghi və b. [2] apardıqları araşdırmada kevlar/epoksit kompozitlərə əlavə edilən karbon nanoborunun dartılma, əyilmə və zərbə müqavimətinə qarşı təsiri araşdırmış və karbon nanoborularının bu xassələri artırdığı qeyd olunmuşdur. Digər tədqiqatlarda kevlar epoksit kompozitlərinə müxtəlif miqdarda gil nano ovuntuları əlavə etməklə hibrid kompozitlərin (HK) mexaniki xüsusiyyətlərini araşdırılmışdır. Tədqiqatlarının sonunda 1% ovuntu əlavə edilən kompozisiyalarda dartılmaya müqavimətin artdığı müəyyən edilmişdir.

Qısacası, HK və nanokompozitlər də daxil olmaqla qabaqcıl kompozitlər aerokosmik, avtomobil, tikinti və elektronika kimi müxtəlif sənaye sahələrində geniş tətbiq sahəsinə malikdir. Qrafenlə gücləndirilmiş kompozitlərin istifadəsi yüksək möhkəmlik, istilik sabitliyi və elektrik keçiriciliyi tələb olunan sahələrdə xüsusilə perspektivlidir.

ƏDƏBİYYAT

1. Jia, Z., Li, T., Chiang, F. P., & Wang, L "An experimental investigation of the temperature effect on the mechanics of carbon fiber reinforced polymer composites". *Composites Science and Technology*, *154* (2018).

2. Taraghi, Iman, Abdolhossein Fereidoon, and Ali Mohyeddin. "The effect of MWCNTs on the mechanical properties of woven Kevlar/epoxy composites." *Steel Compos. Struct* 17.6: 825-834. (2014).

KƏMƏR BAŞLIĞININ HİSSƏLƏRİNİN HESABI

Magistr:
Əli Mansurov
II kurs, A 4112

Elmi rəhbər:
Texnika üzrə fəlsəfə doktoru
Zenfira Hüseynli

Kəmər başlığı bütün istismar kolonunu vahid sistemdə sərt birləşdirir, onların çəkisindən yaranan gücü qəbul edərək, bütün yükü konduktora ötürür. O, kəmərlər arası fəzanın izolyasiyasını və hermetikliyini təmin etməklə, eyni zamanda quyunun lülə hissəsinin vəziyyətinə nəzarət edilməsinə, lazımi texnoloji əməliyyatların yerinə yetirilməsinə imkan yaradır. Kəmər başlığı quyuya endirilmiş istismar kəmərinin quraşdırılması üçün postament rolunu oynayır. Qazıma zamanı ona qazmadan sonra sökülən atqıyaqarşı avadanlıq-preventor quraşdırılır.Bu elementlərin sayı quyudakı istismar kolonlarının sayından asılı olur.

Kəmər başlığı quyu ağzında endirilməsinə və sementlənmə ardıcıllığına görə düzülür. Onlar qazma zamanı oturdulmuş quyu intervalından sonrakı gözlənilən lay təzyiqini nəzərə almaqla seçilir.

Kəmər başlığının iş şəraiti olduqca çətindir: Dərin quyularda qoruyucu kəmərlərin çəkisindən yaranan yüklənmə bir neçə yüz kilonyutonu keçə bilər. Kəmər başlığı elementləri həmçinin onlarla kontaktda olan mühitin təzyiqini də qəbul edir. Lay mayesində və ya qazda H_2S, CO_2 olduqda və ya lay sularının güclü minerallaşmasında kəmər başlığı onların korroziya təsirinə məruz qalır. Kəmər başlığının etibarlığının pozulması ciddi qəzaların, ayrı-ayrı hallarda isə yanğınların, partlayışların, bədbəxt hadisələrin baş verməsinə səbəb olur.

Xüsusilə çoxkəmərli quyuların kəmər başlıqları böyük kütləyə və şaquli qabaritə malik olurlar. Onların yüksək metal tutumu və böyük tələbatın olması hazırlanmalarına böyük miqdarda, xüsusilə də legirlənmiş poladların sərf olunmasını tələb edir. Kəmər başlığının şaquli qabaritinin böyüməsi ilə quyunun xidmət edilməsi də mürəkkəbləşir.

Açar sözlər: kəmər başlığı, paz asqısı, ekvivalent gərginlik, silindrik hissə, flans

ƏDƏBİYYAT

1.Aslanov Jamaladdin Nuraddin, Huseynli Zenfira Seyidi. Методика расчета параметров герметизации уплотнительного узла пакера. Chapter «Engineering sciences»,DOI:https://doi.org/10.30525/978-9934-588-15-0-49 http://baltijapublishing.lv/download/all-science-3/49.pdf p.8-13

2.Султанова А.Б., Асланов Дж. Н., Гусейнли З.С. Диагностика нефтяного оборудования высокого давления. «Наука и просвещения» SCIENCE and EDUCATION. Пенза, 25 июня, 2021 г. стр.65

PAKERLƏRDƏ BAŞ VERƏN IMTINALARIN TƏHLILI

Bakalavr:
Ləman Əlizadə
IV kurs, Qrup: 441

Elmi rəhbər
Texnika üzrə fəlsəfə doktoru
Zenfira Hüseynli

Açar sözlər: paker, kipləndirici element, imtinalar, qalıq deformasiyası

Təcrübə göstərir ki, rezin kipləndiricilərin az müddətdə belə quyu şəraitində, neft mühitində yüksək təzyiq və temperaturda olması onların dağılmasına gətirir, nəticədə qalıq deformasiyaları meydana gəlir və borulararası fəzanın kipləndirilməsi pozulur.

Məlum olduğu kimi, neft quyularında istifadə olunan pakerlər uzun müddət quyu lüləsində qalmaqla nisbətən ağır iş şəraitində işlənilirlər. Temperatur və pakerləşdirici yükün təsiri altında rezində qalıq deformasiya prosesinin inkişafı özünün son mərhələsinə çatır və rezin kipləndirici element öz kipləndirmə xassəsini itirir. Eyni vaxtda, rezinin neft və qazla uzun müddətli kontaktı onun şişməsinə və fiziki-kimyəvi dağılmasına səbəb olur. Qeyd etmək lazımdır ki, quyudan hər dəfə pakerin çıxarılmasında rezin kipləndirici elementləri dəyişmək lazım gəlmişdir, bir qayda olaraq məhdudlaşdırılmış sıxılmada pakerləşdirmə zamanı manjetlər dağılır. Bu isə pakerlərin təmirarası vaxtının dəyişilməsini və işqabiliyyətinin yüksəldilməsi tələblərini ortaya çıxarır.

Pakerlərin xidmət müddətini, etibarlığını dəqiqləşdirmək və sıradançıxma səbəblərini müəyyənləşdirmək üçün quyularda istismar və təmir üçün istifadə olunan pakerlərin təhlili aparılmışdır. Təhlilin nəticələri riyazi statistika metodları və etibarlılıq nəzəriyyəsinə görə işlənilmişdir. Müxtəlif geoloji-texniki səbəblərə görə baxılan pakerlərin borulararası fəzada kipləndirmə zamanı imtinalarına görə quyudan qaldırılmışdır. Buna görə pakerlərin xidmət müddətinin təyini çətinlik törədir. Paker üçün onların kipləndirmədə ilk imtinasına qədər ümumi iş vaxtının təhlili aparılılmalı və rezin kiplndiricilərin etibarlılığının artırılması işçi mühitin

təsirindən rezinlərin köhnəlməsi və köhnələrək qalıq deformasiyalara uğraması səbəblərinin öyrənilməsi istiqamətində tədqiqat işləri davam etdirilməkdədir.

Nəticə: Pakerlərin kiplndirici elementlərinin aşağı işqabiliyyətinə malik olmaları və mədən şəraitinin tələblərinə cavab vermədiyi aşkar olur.

ƏDƏBİYYAT

1. Aslanov Jamaladdin Nuraddin, Huseynli Zenfira Seyidi. Методика расчета параметров герметизации уплотнительного узла пакера. Chapter «Engineering sciences»,DOI:https://doi.org/10.30525/978-9934-588-15-0-49 http://baltijapublishing.lv/download/all-science-3/49.pdf p.8-13

2. Aslanov C.N., Huseynli Z.S. Research the elastic-fixed well sealant element indication under external pressure action. Journal of Multidisiciplinary Science Studies (JMESS) İSSN:62459, Vol.6 İssure 10, October-2020, p.3551-3554

ASSESSMENT OF THE WAVE LOADS ON FLOATING WIND TURBINE PLATFORMS IN THE CASPIAN SEA

Bachelor:
Kirthivasan Karunanithi
432.21E

Research Advisor
M. A. Ismayilov

Azerbaijan, a country that's been traditionally associated with oil and gas, is now exploring the power of the wind. The country has a huge potential for offshore wind power and it is a renewable resource. The World Bank states that Azerbaijan has a technical offshore wind resource of around 157GW, which is more than 20 times the country's current installed energy capacity.

In 2022, the World Bank and the International Finance Corporation (IFC), along with the Ministry of Energy of the Republic of Azerbaijan, released the first-ever Azerbaijan Offshore Wind Roadmap. This roadmap is a plan for the development of the country's offshore wind potential. It presents two views for offshore wind development in Azerbaijan, one with low growth and the other with high growth.

Azerbaijan has started 4 offshore wind farm projects, but none of them are operational yet. The future of offshore wind power in Azerbaijan seems bright, with the potential to install 7GW of offshore wind power by 2040, provided there is a long-term vision, infrastructure development, investment, and supportive policies. This could significantly help the country's goals of decarbonization and sustainable growth.



Figure 1. Annual installed and cummulative operating capacity in two scenarios

Conclusion

The following works were done during the conducted research.

1) With the aid of the software "SolidWorks," the geometric model of the turbines and their supports was constructed. With the use of the "ANSYS" program, a computer simulation of the impact of storm waves on a mathematical model under specified initial conditions has been produced.

2) Tests were conducted utilizing the "Finite Elements Method" on a variety of scenarios. It is assessed how stressed and fatigued the wind turbines and their supports are.

REFERENCES

1) Rusu, E.; Onea, F. Evaluation of the wind and wave energy along the Caspian Sea.

2) Lebedev, S.A.; Kostianoy, A.G. Satellite altimetry of the Caspian Sea.

3) Cannon, D.J.; Brayshaw, D.J.; Methven, J.; Coker, P.J.; Lenaghan, D. Using reanalysis data to quantify extreme wind power generation statistics.

ASSESSMENT OF EARTHQUAKE LOADS ON FLOATING WIND TURBINE PLATFORMS IN THE CASPIAN SEA

Bachelor:
Bayramzade Matin
3rd year-432.21E

Research advisor:
M.A.Ismayilov

With the ongoing changes in the modern world, the usage of renewable energy sources is increasing. The negative impact of fossil fuels on global warming has led to the search for clean energy sources. Wind energy, which is the most widely used of those sources is the new hope of main future energy resources.

Today, natural hazards in coastal regions are an important problem of human society in optimal exploitation of uses and resources. Numerous studies have been undertaken in this regard, but seismic effects are only newly being considered. In addition to having strong wind zones, the Caspian Sea is in a geographical position through which active fault lines pass.

The Caspian Sea covers a surface area of 371,000 km^2 and it witnesses consecutive earthquakes which have direct effects on the structures of Caspian Sea. The strongest earthquake in the Caspian Sea was the 7.9 magnitude, the 1895 Krasnogorsk earthquake. The parameters of earthquakes with different magnitude

in recent years in the Caspian Sea were analyzed and the characteristic depth was determined based on statistical data.

Attempts to determine their periodicity and attempts to predict for the future have been made on the basis of statistical data of earthquakes occurred within the last 50 years in the Caspian Sea and surrounding regions. In recent years, earthquakes with a magnitude below 5.0 have been accompanied in the Caspian Sea. The characteristic depth of earthquakes is considered ±60 km. The probability of recurrence of an earthquake with a magnitude of 6.8 occurred in 2000 is likely to occur in 2050.

Figure 1. Effect of fault rupture on floating wind turbine platform.



Conclusion

The research conducted resulted in the following accomplishments:

1.Different situations were examined utilizing the 'Finite Element Technique.' The resultant pressures and weariness in the wind turbines and their foundations were ascertained.

2. The turbines and their foundations' geometric model was fashioned using the 'SolidWorks' application. A computer-simulated the mathematical model

under starting conditions to assess the influence of earthquake loads on these models, employing the 'ANSYS' software.

REFERENCES

1. Rahman Piriyev. Periodicity of Earthquakes in the Caspian Sea (2022), ResearchGate

2. https://www.researchgate.net/publication/363664184_PERIODICITY_OF_EARTHQUAKES_IN_THE_CASPIAN_SEA

ASSESSMENT OF THE WIND LOADS ON FLOATING WIND TURBINE PLATFORMS IN THE CASPIAN SEA

Bachelor:
Orxan Elxan
3rd year- 432.21E

Research advisor:
M.A.Ismayilov

Severe wind conditions like typhoons are responsible for extreme loading on wind turbine components including nacelles. Over the years little attention has been devoted to the aerodynamic load on nacelles. Even the IEC guideline does not provide any specification regarding nacelle cover design. Extreme wind is responsible for partial and complete damage of nacelle covers.

Wind turbines are subject to fluctuating winds, and hence fluctuating forces. This is particularly the case if they are located in a very turbulent wind climate.

Components which are subject to repeated bending, such as rotor blades, may eventually develop cracks which ultimately may make the component break. Metal fatigue is a well-known problem in many industries. Metal is therefore generally not favoured as a material for rotor blades.

Designing a wind turbine requires pre-calculating component vibrations and forces during bending. Physicists use computer models for structural dynamics to ensure safe turbine design by manufacturers.

Figure 1. Wind Direction and Speed in Caspian Sea



Conclusion

The research conducted resulted in the following accomplishments:

1. The construction of the geometric model of the turbines and its supports were modelled by 'SolidWorks' software. A software based simulation of the mathematical model was created under specific input conditions to analyze the impact of wind loads on wind turbines, via 'ANSYS' program.

2. Some scenarios were inserted by utilizing the 'Finite Element Method'. As a conclusion the resulting stresses, fatigue loads in the wind turbines and supports of it were investigated.

REFERENCES

1. Jay Prakash Goit et al 2018 J. Phys.: Conf. Ser. 1037 052019

2. Danish Wind Industry Association Updated 19 September 2003

3. Adaramola M (2014) Wind Turbine Technology: Principles and Design. Boca Raton, FL: CRC Press/Taylor & Francis Group.

MAYE-DİSPERS HİSSƏCİKLƏR QARIŞIĞININ KÜRƏKLİ NASOSLARIN İŞİNƏ TƏSİRİNİN TƏDQİQİ

Bakalavr: Əliyeva Aytən 441.21
Elmi rəhbər: Müəllim Həmidova Gülnar

Tezisdə maye-dispers hissəciklər qarışığının kürəkli nasos qurğusunun hissələrinə təsirinin tədqiqinə baxılmışdır.

Bunun üçün maye-dispers hissəciklər qarışığının təsirinin azaldılması üçün istifadə olunan örtüklərdə yeyilmə sürətinin elastiklik modulundan aslılıq qrafiki qurulub və bu qurulan aslılıq sübut edir ki, yeyilmə sürəti örtüyün elastiklik modulu ilə düz mütənasibdir. Mərkəzdənqaçma nasosların hissələrinin sıradan çıxmasının əsas səbəbi maye-dispers hissəcikli axın və korroziv mühit təsiri ilə hidroabraziv yeyilmədir. Nasosun işləyəcəyi mühitdən aslı olaraq yeyilməyədavamlı örtüyün seçilməsi üçün tədqiqat aparılmalıdır, fərqli materiallardan (toz-polimer) hazırlanmış örtüklərdə hidroabraziv yeyilmənin sürəti hesablanmalıdır. Tədqiqatın aparılması üçün çoxpozisiyalı qurğudan istifadə olunmuşdur. Tədqiqat maye-dispers hissəciklər qarışığının axın sürətinin və maye axının örtüyə təsir bucağının veriliş qiymətlərində aparılmışdır. Maye-dispers hissəciklər qarışığı NaCl su məhlulu və abraziv hissəcik kimi kvars qumundan ibarət olmuşdur. Hissəciklərin ölçüsü və temperatur nasosun işləyəcəyi mühitə uyğun olaraq seçilmişdir[1]. Çoxpozisiyalı qurğuda eksperimental sınaqlar aparılmış, nəticələr qeydə alınmış və müqayisəli şəkildə qiymətləndirilmişdir. Təcrübi tədqiqatın nəticəsində müəyyən olunmuşdur ki, polimer örtüklərin elastiklik modulunun qiyməti onun yeyilmə sürəti ilə düz mütənasib olaraq dəyişir. Əldə edilmiş funksional asılılıqlar sübut etmişdir ki, polimer örtüklərin möhkəliyinin artırılması təsir bucağının qiymətindən aslı olmayaraq örtüyün yeyilməyədavalılıq xüsusiyyətini artırır.

ƏDƏBİYYAT SİYAHISI

1. А.С.Казак, И.И.Росин, А.Г.Чичеров Погружные бесштанговые насосы для добычи нефти. М.Недра,

PLAŞKALI PREVENTORLARIN İSTİSMARINDA MÜRƏKKƏBLƏŞMƏLƏRİN VƏ QƏZALARIN QARŞISININ ALINMASI ÜSULLARININ TƏHLİLİ

Bakalavr: Rzayeva Ruqiyyə 441.21
Elmi rəhbər: Laboratoriya müdiri İbayeva Leyla

Tezisdə plaşkalı preventorların istismarında mürəkkəbləşmələrin və qəzaların qarşısının alınması üsulları barədə ətraflı məlumatlar şərh edilmişdir. Qeyd edilmişdir ki, qazıma zamanı açılmış məhsuldar layda quyu dibi hidrostatik təzyiq lay təzyiqindən yuxarıya qalxdıqda qazıma məhlulunun laya hopması qəzası baş verə bilər.yaxud lay təzyiqi quyudakı gilli məhlul sütununun yaratdığı dib təzyiqindən yuxarıya qalxdıqda isə laydan quyuya müxtəlif flüidlər həmlə edə bilər ki, bu da qazılan quyuda tullanış, yəni təzahür hadisəsi yarana bilər, bunların hər ikisi qəza yaxud bəzən fəlakət ola bilir. Bu hadisələr qazma alətinin tutulmasına gətirib çıxarır. Bunun qarşısını almaq üçün məhlulun sıxlığını azaldırlar və struktur özlülüyünü artırırlar. Qazıma zamanı quyu divarında nazik və yapışmayansüzülmə qabığı yaranır, onun yapışqanlılığını azalmaq üçün məhlula xüsusi yağlayıcı əlavələr qatırlar. Quyu divarında gil qabığı qalınlığı artanda quyu lüləsi daralır və qazma aləti tutulur. Quyuların qazılması zamanı açılmış məhsuldar layda quyu dibində hidrostatik təzyiq lay təzyiqindən yuxarı qalxdıqda qazıma məhlulunun laya hopması qəzası baş verə bilər. Yaxud lay təzyiqi quyudakı gilli məhlul sütununun yaratdığı dib təzyiqindən yuxarıya qalxdıqda laydan quyuya neft, qaz və su həmlə edə bilər ki, bu da qazılan quyuda tullanış yarada bilər, yəni təzahür hadisəsi baş verə bilər. Bu hadisələrin hər ikisi

qəza yaxud bəzən fəlakət ola bilər. Qazıma kəmərilə əlaqəli qəzaların xəbərdarlıq edilməsi üçün müntəzəm sürətdə qazıma boruları opressovka edilirlər.

ƏDƏBİYYAT SİYAHISI

1. Ağayev A.C., Şərifov V.H. Neft və qaz quyularının qazılması üçün avadanlıqlar. I hissə. C. 149-156.

“ENERGETİKA” BÖLMƏSİ

BUXAR- QAZ QURĞUSUNUN İSTİSMAR REJİMİNİN TƏDQİQİ

Magistrant:
Əmrahov Əmrah Cövdət oğlu
II kurs, qrup A5312

Elmi rəhbər:
dos. Nəsirov Şükür Nəriman oğlu

Kombinələləşdirilmlş buxar-qaz qurğuları (KBQQ) ayrılıqda müxtəlif energetik avadanlıqlarla (buxar və qaz turbin qurğuları) müqayisədə böyük enerji itehsalı potensialına malikdir. Hal hazırda respublikamızda iqtisadiyyatın enerji təchizatnın xeyli hissəsi istilik və elektrik enerjisi formasında kombinələşdirilmiş qurğularda həyata keçirilir.Mükəmməlləşmə, qazın və buxarın yüksək ilkin parametrləri hesabına bu qurğuların səmərəliyinin daha da artırılması aktual məsələlərdən hesab edilir.

Son illərdə Azərbaycan enerji sektorunda əsasən kombinələşdirilmiş buxar-qaz qurğularında istehsal olunan enerjidən istifadə olunur və bunun inkişaf etdirilməsi həyata keçirilir. KBQQ-lərin əsas xüsusiyyətlərini- yüksək effektivliyə malik olması, soyutma suyuna ehtiyacın az olması, yaxşı manevr qabiliyyətini və.s. səbəbləri nəzərə aldıqda, bu qurğuların geniş tətbiqi elektrik enerjisi istehsalı üçün xüsusi yanacaq sərfini azaltmağa, kapital qoyuluşlarını, avadanlıqlara qulluq və təmir xərclərini azaltmağa, eyni zamanda ətraf mühitəzərərli tullantıları azaltmağa imkan verir[1].

Yeni KBQQ-lərin inşası və istismarda olanların yenidən qurulması üçün təkliflər hazırlananda ən yaxşı texniki və iqtisadi göstəricilərə malik buxar qaz qurğularının optimal iş rejimlərinin tədqiq olunaraq seçilməsi məsələsi ortaya çıxır. Buxar qaz istilik elektrik stansiyasının optimal iş rejiminin müəyyənləşdirilməsi blokun yanacaq xərclərini azaltmağa, stansiyanın və bütövlükdə bütün enerji sisteminin ətraf mühitə təsir göstəricilərini və maliyyə-iqtisadi göstəricilərini yaxşılaşdırmağa imkan verir. Bu amil, seçimin vacibliyini və bu işin aktual olduğunu göstərir. Optimal iş rejimlərinin tədqiqi məqsədilə

KBQ qurğusunun iş rejimi, eləcə də şərti yanacaq sərfi və hasil olunan elektrik enerjisi qiymətləri parametrlərin seçimi nəzərə alınmaqla təhlil edilmişdir[2].

Tədqiqat obyekti olaraq gücü 525 MVt olan Sumqayıt buxar-qaz elektrik stansiyası seçilmişdir. Stansiya layihə gücündən əlavə müxtəlif rejimlərdə də işləyə bilər.

Elektrik stansiyası 1 blokludur, vahid silsilədə 2 qaz-turbin 2 generatorla, 2 util qazanı və bir buxar - turbin generatoru ilə birlikdə istismar edilir.

Bu blok müasir, yeni qaz -turbinləri SGT5-2000E (V 94.2) ilə təchiz olunmuşdur. Turbinə girişdə temperatur 1080 ºC (ISO) - dir. Yüksək temperaturlu qaz- turbini təbii qazla işləyir.

Qaz - turbinindən istifadə olunmuş qazlar qızdırılmadan util qazanlara daxil olur. Bu qazanlar təbii dövranlı və 2 təzyiq pilləli horizontal util qazanları şəklində hazırlanmışdır.

Blokda SST5 - 4000 (DN, 2 x 12,5 m^2) – növlü 2 gövdəli kondensasiyalı turbin istismar edilir.Turbinlərin işlənilmiş buxarları aşağı təzyiqli silindrin hər 2 hissəsində yerləşən 2 gedişli kondensatorda kondensatlaşır. Kondensator dəniz suyu ilə soyudulur.

Stansiyanın iş rejimi ətraf mühitin temperaturu – 5 ºC-dən + 43 ºC - dək olan həddə tam gücü ilə işləyən sistem kimi layihələşdirilmişdir.

Qaz - turbinlərinin və util qazanlarının işə salınması temperatur rejimlərinin tənzimlənməsi ilə həyata keçirilir.

Stansiya az kükürdlü qaz yanacağının yanmasına hesablanmışdır.

Xarici istehlakçılara enerji təchizatı etibarlılığını təmin etmək üçün buxar qaz enerji blokuna 2QT + 2TQ + 1BT əsas avadanlıqların konfiqurasiyası verilir[3,4].

Buxar-qaz qurğusunun müxtəlif istismar rejimləri təhlil edilmiş,istilik sxeminin struktur parametrlərinin və bu parametrlərin optimallaşdırılmaya təsiri tədqiq edilərək uyğun faydalılıq göstəriciləri hesablanmışdır.

BQQ-nin iş reiminin tədqiqindən əldə edilmiş optimallaşdırma həlləri nəzərə alınmaqla mövcud buxar qaz turbinli elektrik stansiyasının istilik səmərəliliyi tədqiq edilmişdir. Alınan nəticələr layihə hesabatında istifadə edilir.

ƏDƏBİYYAT

1. K.M.Abdullayev, F.İ.Kəlbəliyev, C.P.Məmmədova, Ş.N.Nəsirov. İstilik elektrik stansiyasının buxar və qaz turbinləri. Bakı – 2013, «Zaman – 3», 531s.

2. https://www.britannica.com/technology/gas-turbine-engine

3. https://www.siemens-energy.com/global/en/general/corporate-information.html

4. A. R. Navaie, "Thermal Design and Optimization of Heat Recovery Steam Generators and Waste Heat Boilers," Technische Universität Berlin, 2017.

KOMBİNƏLƏŞDİRİLMİŞ İSTİLİK TƏCHİZATI SİSTEMİNİN TƏDQİQİ

Magistrant:
Əliyev İbrahim Sübhan oğlu
II kurs, qrup E5322

Elmi rəhbər:
dosent Nəsirov Şükür
Nəriman oğlu

Hal hazırda Azərbaycanda əhalinin çoxu ənəvi üsüllarla istilik elektrik stansiyalarda və su elektrik stansiyalarda istehsal olunan elektrik enerijsi hesabına təmin olunur. Respublikamızın energetikasının əsasını təskil etməkdə olan həmin iki ana sahələr bəzi tərəflərdən yuxarı səviyyəli həyat şəraiti təmin edirsə, o biri tərəflərdən ətraf mühidə çox yüksək miqdarda zərər vurmaqdadır. Hamıya məlumdur ki, təbii resurslar tədricən azalır. Lakin məsələ heç də əvvəllər düşünüldüyü kimi, onların yaxınlarda tükənməsində deyildir. Birinci növbədə bərpa olunmayan enerji ehtiyatlarından istifadənin insanların yaşadığı mühitə məhvedici təsiri narahatlıq doğurur.

Su elektrik stansiyalarının dünya energetikasındakı payı böyük deyil (orta hesabla 15 %), buna baxmayaraq onlar da təbiətə böyük ziyan vururlar. Atom

energetikasındakı çatışmazlıqlar da hamıya yaxşı məlumdur: radioaktiv tullantıların saxlanması və təkrar emalı, qəzalar zamanı şüalanma ilə çirklənmə təhlükəsi.

Ekoloji cəhətdən ənənəvi enerigetika obiyektlərindən daha təmiz, saf və effektli olan alterinativ enerij mənbələrindən hər yerdə əhatəli istifadə edilməsi bu problemlərin aradan qaldırılması üçün çox effektiv olardı.Son dövrlərdə günəş elektrik stansiyalarının tikilib istismara verilməsi mövcud problemlırin həll edilməsinə yönəlmişdir.

Hazırda qeyri-ənənəvi energetikada yeni praktiki problem -günəş və hibrid günəş enerji sistemlərindən birgə istifadə formalaşmışdır. Günəş və hibrid günəş enerjisindən birgə istifadənin gerçəkləşməsi Abşeron yarımadası təbii şəraiti üçün böyük əhəmiyyət kəsb edəcəkdir.

Azərbaycan Günəs enerjisindən istifadə üçün alverisli ölkədir. Ölkəmizin günəs süalanması intensivliyi ildə 2195-2388 kVt təskil edir, həmin zaman günəs süalanmasının davamlılığı ildə 2495 saatdan çox olur.

İşin praktiki əhəmiyyəti ondan ibarətdir ki, evin davamlı isti su və istiliklə təchizatı prosesi ənənəvi üsullarla paralel alternativ üsullardan da istifadə etməklə real istismar şəraitində uğurla həyata keçirmək olar.

İşin məqsədi Abşeron yarımadasının təbii şəraitində yaşayış evlərinin isti su və istiliklə təchizatını alternativ enerji mənbəyi olan günəş enerjisindən istifadə etməklə optimal sisteminin işlənib hazırlanmasından ibarətdir.

Bu məqsədlə:

1.Əsas iqlim göstəriciləri nəzərə alınaraq toplam günəş radiasiyasının intensivliyi, günəş şüalanmasının davamlılığı təhlil olunaraq 4 nəfərlik kənd ailəsinin Günəş enerjisindən istifadəsi əsasında, su təchizatı 250 l olmaqla isti su təchizatının səmərəli sistemi işlənib hazırlanmışdır.

2.Günəş su qızdırıcısının əsas konstruktiv, istilik-enerij xüsusiyətləri, su qızdırılması üçün istiliyin miqdarı, Günəş kolektorunun (GK) istilikudan

lövhəsinin sahəsi, sistemə giris və çıxışda istilik, Günəş su qızdırıcısının (GSQ) aldığı istilliyin miqdarı, həmiçinin qurğunun məhsuldarlığı ilə faydalı iş əmsalı hesablanmışdır.

3. Toplam günəs süalanmasının fərqli intensivlikləri üçün (650 - 950 Vt/m²) anitifriz əssasında Günəş su qızdırıcısının Günəş kolektorunun istillik-enerij xüsusiyətləri hesabılanmışdır.

Tədqiqat işinin nəticələri suyun Günəş su qızdırıcısında isidilməsi texnoloji prosesinin optimallllasmasına imkan veran Günəş kolektorunun istilik sahəsinin hesablanması üçün istifadə oluna bilər.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Abdullayev K.M., Lətifov Y.I, Abdullayeva G.K. Enerji ehtiyatları, elektrik enerji istehsalı və ətraf mühit. Bakı Zaman , 2005, 465 s.

2. Calilov M.F. « Alternativ regenerativ enerjilər ». Enerji menecmenti (binalarda) magistr ixtisaslaşması üçün, Bakı: AzMİU, 2008, 608 s.

3. Əliyev M.A., Naziyev Y.Z., Əkbərova S.M. İsitmə və iqlim qurğularının layihələndirilməsi. Bakı, 2008, 170 s.

4.Feyziyev H.Q., Cəlilov M.F. İstilik təchizatı. « Yurd », Bakı, 2007, 570 s.

BUXAR- QAZ QURĞUSUNUN İSTİLİK SƏMƏRƏLİLİYİNİN TƏDQİQİ

Magistrant:
Səfərov Mirzağa Əlövsət oğlu
II kurs, qrup A5312

Elmi rəhbər:
dosent Nəsirov Şükür
Nəriman oğlu

Energetika ölkəmizin Xalq təsərrüfatının enerji ehtiyatlarını, müxtəlif enerji

növlərinin istehsalını, çevrilməsini, ötürülməsini və istifadəsini əhatə edən aparıcı sahələrindən biridir.Xalq təsərrüfatında tələb olunan əsasən iki növ enerji

- elektrik və istilik, müasir istilik elektrik stansiyalarda və digər stansiyalarda istehsal olunur.

Müasir texnikanın bütün əsas nailiyyətləri elektrik enerjisinin tətbiqi ilə ayrılmaz surətdə bağlıdır, ən geniş şəkildə elektrik və istilik enerjisindən istifadəni nəzərdə tutur.

Hal hazırda inkişaf etmiş ölkələrdə faydalılığının nisbətən yüksək olması ilə əlaqədar olaraq buxar – qaz qurğuları geniş istismar olunur. Bu həmin qurğuların yığcamlığı, tam avtomatlaşdırılması, normal mühafizə sisteminin olması və asan istismar olunması ilə bağlıdır. Bu da onların tədqiqini aktual edir.[1,2].

Azərbaycanda buxar – qaz qurğulu stansiyalar enerji hasilatında üstünlük təşkil edir. "Şimal-1" stansiyası 2002-ci ildə istismara verilmiş, 2011-ci ildə 400 meqavatlıq "Şimal-2" elektrik stansiyasının əsası qoyulmuş, 2019-cu ildə isə "Şimal-2" Elektrik stansiyasının tikinti işləri tamamlanıb başa çatdırılmışdı."Şimal-1" ilə "Şimal-2" elektrik stansiyalarının ümumi gücü 800 meqavatdır və bu stansiyaların bir mərkəzdən idarə olunur.Stansiyada vahid dispetçer idarəetmə mərkəzi yaradılmışdır."Şimal-1" və "Şimal-2" stansiyalarının ümumi məhsuldarlığı illik 5.7 milyard kilovat-saat təşkil edir. Stansiyada "Mitsubishi" markalı buxar (TC2F – 35,4 tipli) və qaz turbinləri (M701 – F Mitsubishi modelli) istismar edilir.Hər blokda buxar turbininin hesabat gücü 138,3 MVt, qaz turbinin gücü qaz yanacağı ilə işlədikdə 264,4 MVt, maye yanacağı ilə işlədikdə 230 MVt-dir.Burada 560 meqavat gücündə elektrik generatoru və bəzi köməkçi sistemlər quraşdırılıb."Şimal-1" və "Şimal-2" elektrik stansiyaları respublikamızda elektrik enerji istehsalının 20 faizini təşkil edir.Onu da qeyd etmək lazımdır ki,"Şimal" elektrik stansiyasının faydalı iş əmsalı 57.4 faizdir.Bu stansiyanı yüksək təzyiqə malik yanacaqla təmin etmək üçün yeraltı qaz kəməri,tənzimləyici qovşaq və qaz təmzimləyici,qazqızdırıcı qurğular və kompressor stansiyası tikilib istismara verilib.Stansiyanın avadanlıqlarını

soyutmaq üçün Xəzər dənizinin suyundan istifadə edilir.Ətraf mühitin ekologiyasını mühafizə etmək üçün stansiyada əksosmos qurğusu və sənaye tullantıları ilə çirkab suların təmizlənməsi qurğuları inşa edilmişdir[3,4].

Qaz-turbinli energetik qurğularda qazdan istifadə Brayton tsiklində istiliyin səmərəli istifadə edilməsi zamanı işçi cismin orta temperaturunun artırılmasını əhəmiyyətli dərəcədə sadələşdirir. Buna baxmayaraq, istiliyin yüksəlməyə meylli olan tsikldən ayrılması zamanı işçi cismin temperaturunu azaltmaq olduqca çətinlik yaradır.

İşin məqsədi istilik sxemlərinin və işçi cismin fiziki xassələrinin hesablanmasında mövcud olan məlumatlara əsaslanaraq, üç dövrəli buxar qaz qurğularının istilik səmərəliliyinin təhlil olunması və istilik sxeminin müxtəlif xarakteristikalarının BQQ-nin faydalılığından optimal asılılığının müəyyən edilməsidir.

İşdə üç dövrəli buxar-qaz enerji blokunun buxar turbinli hissəsinin əsas parametrlərin kompleks təhlili həyata keçirilmişdir .Aparılan təhlillər göstərmişdir ki, optimal yenidən isitmə təzyiqində buxar temperaturunun artması BQQ-nin BT hissəsinin xalis gücünün artmasına səbəb olur. İstilik dövrəsinin xüsusiyyətlərinin istilik səmərəliliyinin dəyişməsinə təsirinin öyrənilməsi göstərdi ki, BQQ-nin xalis gücünə təsir edən əsas amillərdən biri BT hissədə işlənmiş buxarın kondensatordakı təzyiqdir.

Müəyyən edilmişdir ki,BQQ-nin buxar-su sxeminin optimal parametrlərini əldə etmək üçün məqbul üsul orta illik temperaturda kondensasiyalı rejimdə BQQ-nin buxar-gücü bölməsi üçün optimallaşdırma hesablamalarının aparılmasıdır.

Buxar-qaz qurğusunun müxtəlif istismar rejimlərində parametrlər təhlil edilmiş, istilk sxeminin optimal parametrləri müəyyən edilmiş və uyğun faydalılıq göstəriciləri alınmışdır. BQQ-nin istlik sxeminin tədqiqindən alınan nəticələr layihə hesabatında istifadə edilir.

Ədəbiyyat

1. K.M.Abdullayev, F.İ.Kəlbəliyev, C.P.Məmmədova, Ş.N.Nəsirov. İstilik elektrik stansiyasının buxar və qaz turbinləri. Bakı – 2013, «Zaman – 3», 531s.

2. https://www.britannica.com/technology/gas-turbine-engine

3. http://www.edisontechcenter.org/gasturbines.html

4. A. R. Navaie, "Thermal Design and Optimization of Heat Recovery Steam Generators and Waste Heat Boilers," Technische Universität Berlin, 2017.

GÜNƏŞ FOTOVOLTAİK SİSTEMLƏRİNDƏ GÜNƏŞ İZLƏMƏ TEXNOLOGİYALARI

HÜSEYNOV E.N,İBRAHİMOV A.P
emin.huseynov@asoiu.edu.az, ibrahimovamil254@gmail.com

Xülasə

Günəş enerjisi hazırda dünya enerji tələbatını ödəmək üçün bərpa olunan enerji üçün böyük vədlər bəxş edir. Günəş enerjisi PV panellərdən istifadə edərək fotovoltaik (PV) sistemində elektrik enerjisinə çevrilə bilər. Əməliyyat zamanı günəş işığı PV panelin səthinə perpendikulyar olduğu halda PV paneldən istehsal olunan daha yüksək səmərəlilik yaranacaq. Buna gün ərzində günəşin hərəkətini izləyən PV panel montajından istifadə etməklə nail olmaq mümkündür. Buna səbəblə də, günəş izləmə sistemindən istifadə edərək PV panelin səmərəli istifadəsini artırmaq üçün bir çox araşdırmalar aparılmışdır. Bu məqalədə Günəş izləmə texnologiyalarının səmərəlikləri tədqiq olunmuşdur.

Açar sözlər: Fotovoltaik, İzləyici sistemlər, Tək oxlu izləyiclər, İki oxlu izləyicilər, PV- WATTS Modelləşdirmə.

Giriş

Günəş izləmə sistemləri əsasən PV panelinin səthini günəş radiasiya şüasının istiqamətinə perpendikulyar saxlamaq üçün nəzərdə tutulmuşdur. Günəş izləmə optimal düşmə bucağına nail ola biləcək şəkildə yerləşdirilmək lazımdır ki, bununla da PV panel tərəfindən istehsal olunan elektrik enerjisi maksimum ola bilər. Günəş şüalanması, günəş azimut bucağı, yüksəklik bucağı, meyl bucağı, meyl bucağı və zenit bucağı günəş izləmə sisteminin ən yaxşı mövqeyini müəyyən edən ən vacib parametrlərdir. Günəşin mövqeyini müəyyən edən mühüm bucaqlar hündürlük (yüksəklik) və azimut bucağıdır.



Şək.1. Günəş mövqeyini izləməkdə günəş bucaqları.

Günəş izləmə texnologiyaları

İzləyici sistemlər iki qrupa bölünür: aktiv izləyicilər və passiv izləyicilər. Aktiv izləyicilər motora malik izləyicilərdir. Passiv izləyicilər isə motora malik deyillər.

Aktiv izləyicilər öz növbəsinda iki yerə bölünür: tək oxlu izləyicilər və iki oxlu izləyiciləri.

Tək oxlu izləyiclər: Tək oxlu izləyicilər iki oxdan birinə malik ola bilər: üfüqi və ya şaquli. Üfüqi tip izləyicilər, günorta saatlarında günəşin çox yüksəldiyi zaman ərzində, amma günlərin qısa olduğu tropik ərazilərdə istifadə olunur. Şaquli tip izləyicilər isə günəşin çox yüksək olmadığı zamanlarda yüksək enliklərdə istifadə olunur, amma yay günləri çox uzun ola bilər. Bu tip izləyicilərdə enerji yığımını maksimma çatdırmaq üçün Plc mikro kontrollerdən istifadə olunmuşdur.



Şək.2. Tək oxlu izləyicilər: a) Üfüqi izləyici b) Şaquli izləyici.

İki oxlu izləyicilər: Bu tip günəş izləyiciləri eyni zamanda həm üfüqi, həm də şaquli oxa malik olurlar və buna səbəblə də, onlar günəşin görünən hərəkətini faktiki olaraq mümkün olan bucaq dərəcəsində izləyə bilirlər. İki oxlu izləyici panelləri birbaşa yerdə saxlayaraq günəş massivinin ümumi enerji çıxışını maksimuma çatdırır.Bəzi şirkətlər mikrokontroller prinsipinə əsaslanan iki oxlu günəş izləmə sistemləri təklif edib. Alqoritmdən istifadə edərək, mikrokontrollər PV panelinin mövqeylərini və istiqamətini təyin etmək üçün istifadə edilir.



Şək.3. İki oxlu izləyicilər

Passiv izləyicilər: Passiv günəş izləyiciləri heç bir mexaniki sürücüdən istifadə etmədən öz sensor qurğularını günəş radiasiya şüasının istiqamətinə yönəltmək qabiliyyətinə malik olurlar. Bu izləyicilərin çoxu genişlənən qaz və ya forma yaddaş ərintisi ilə doldurulmuş bir cüt aktuatordan ibarətdir. Bu sistem

termal genişlənmə konseptindən və ya izləyicinin hər iki ucunda iki nöqtə arasında təzyiq bərabərsizliyindən istifadə edir. PV paneli günəşə perpendikulyar olduqda, hər iki tərəf tarazlıq vəziyyəti halındadır. Günəş hərəkət etdikdən sonra bir tərəf qızdırılır və bir tərəfin genişlənməsinə, digərinin isə təmasda olmasına səbəb olur ki, bu da PV panelin fırlanmasına səbəb olur.



Şək.4. Passiv günəş izləyicisi

PV-WATTS Modelləşdirmə: İzlənilən massivin stasionar massivdən üstünlüyünü nümayiş etdirmək üçün, Bakı şəhərinin iqlim və coqrafi şəraiti üçün 4 KVt gücündə PV sisteminin parametrlərini təyin etmək məqsədilə PV-WATTS simulyasiya təminatından istifadə olunmuşdur. Müəyyən edilən bəzi sistem parametrlərinə AC reytinqi/ölçüsü, yerli elektrik xərcləri, PV massiv növü (stasionar və ya izləmə), PV massivinin əyilmə bucağı və PV massivinin azimut bucağı daxildir. Nəticələr bizə göstərir ki, iki oxlu izlənən massiv stasionar massivdən 69.22% çox enerji yarada bilir.

Cəd.1.PV-WATTS 5 KW Enerji sisteminin simulyasiyası: stasionar massiv.

Stansiyanın indentifikasiyası		Nəticələr

Hüceyrə İD	0273367		Ay	Günəş radiasiyası (kWh/m^2/gün	AC Enerji (kWh)	Enerji Dəyəri (Manat)
Şəhər	Bakı		Yanvar	0.80	82	11.48
Horizontal	47.85 ^{0} Ş		Fevral	1.68	160	22.4
Meridian	39.74 ^{0} Q		Mart	2.93	306	42.84
Pv sistemin parametrləri			Aprel	5.86	559	78.26
DC Güc	4.00 kW		May	6.07	581	81.34
DC-nin AC-yə çevrilmə əmsalı	1.20		İyun	7.60	685	95.9
AC Güc	3.85 kW		İyul	6.01	553	77.42
Massiv növü	Stasionar		Avqust	6.77	633	88.62
Massiv əyilməsi	20 ^{0}		Sentyabr	4.55	427	59.78
Massiv azimutu	180.0 ^{0}		Oktyabr	3.34	332	46.48
Enerji Parametrləri			Noyabr	2.15	219	30.66
Elektrik enerjisinin dəyəri	0.14 e/kWh		Dekabr	0.64	64	8.96
4 kW-luq enerji sisteminin təhlili 41.8 dərəcədə sabit massiv Enerji=4601kWH			İl	4.03	4601	644.14

Cəd.2.PV-WATTS 5 KW Güc sisteminin simulyasiyası: iki oxlu izləyicilər.

Stansiyanın indentifikasiyası		Nəticələr

Hüceyrə İD	0273367		Ay	Günəş radiasiyası (kWh/m^2/gün	AC Enerji (kWh)	Enerji Dəyəri (Dollar)
Şəhər	Bakı		Yanvar	1.28	130	18.2
Horizontal	47.85 ^{0} Ş		Fevral	2.46	226	31.64
Meredian	39.74 ^{0} Q		Mart	4.06	406	56.84
Pv sistemin parametrləri			Aprel	8.19	780	109.2
DC Güc	4.00 kW		May	8.50	818	114.52
DC-nin AC-yə çevrilmə əmsalı	1.20		İyun	11.04	1007	140..98
AC Güc	3.85 kW		İyul	8.30	772	108.08
Massiv növü	2-Ox izləmə		Avqust	9.79	922	129.08
Massiv əyilməsi	0 ^{0}		Sentyabr	6.29	589	82.46
Massiv azimutu	180 ^{0}		Oktyabr	5.18	514	71.96
Enerji Parametrləri			Noyabr	3.72	372	52.08
Elektrik enerjisinin dəyəri	0.14 e/kWh		Dekabr	1.05	108	15.12
PV-WATTS Analiz: 4 kW günəş enerji sistemi 2-ox izləmə; Enerji=6644 kWH			İl	5.82	6644	930.16

Nəticələr

1. Fotoelektrik sistemlərində istifadə olunan izləyici texnoloqiyalarının icmalı aparılmışdır.

2. Bakı şəhəri üçün stasionar və izləyici sistemi olan parametrlər PV-WATTS simulasiya təminatı vasitəsilə əldə olunmuşdur.

Ədəbiyyat

1. Yasser M. Safan, S. Shaaban and Mohamed I. Abu El-Sebah 2018 Performance evaluation of a multi-degree of freedom hybrid-controlled axis solar tracking system, Solar Energy vol. 169 pp 576-584

2. W.Z. Leow, Y.M. Irwan, M. Irwanto, M. Isa, A.R. Amelia and I. Safwati 2016 Temperature Distribution of Three-Dimensional Photovoltaic Panel by Using Finite Element Simulation, International Journal on Advanced Science, Engineering and Information Technology vol. 6 pp 607-612

3. http://gisatnrel.nrel.gov/PVWatts_Viewer/index.html Date accessed: 4/11/13.

4. Hassan Fatha Badi 2016 Novel highly efficient offline sensor less dual-axis solar tracker or using in photovoltaic systems and solar concentrators, Renewable Energy vol.95 pp. 485-494

Краткое содержание

Солнечная энергетика в настоящее время имеет большие перспективы в качестве возобновляемой энергии для удовлетворения мировых энергетических потребностей. Солнечная энергия может быть преобразована в электричество в фотоэлектрической (PV) системе с использованием фотоэлектрических панелей. Когда солнечный свет во время работы перпендикулярен поверхности фотоэлектрической панели, фотоэлектрическая панель обеспечивает более высокую эффективность. Этого можно добиться, используя крепление для фотоэлектрической панели, которое следует за движением солнца в течение дня. По этой причине было проведено множество исследований по повышению эффективности фотоэлектрических панелей с использованием системы слежения за

солнечной энергией. В этой статье рассматривается эффективность технологий слежения в сравнении со стационарными системами..

Ключевые слова: Фотовольтаика, Системы слежения, Одноосные трекеры, Двухосные трекеры, PV-WATTS Моделирование.

Summary

Solar energy currently holds great promise for renewable energy to meet the world's energy demand. Solar energy can be converted into electricity in a photovoltaic system using PV panels. When the sunlight is perpendicular to the surface of the PV panel during operation, a higher efficiency will be produced from the PV panel. This can be achieved by using a PV panel mount that follows the movement of the sun throughout the day. For this reason, many studies have been conducted to increase the efficiency of PV panel using solar tracking system. This article examines the effectiveness of solar tracking technologies in comparison with stationar PV systems.

Keywords: Photovoltaics, Tracking systems, Single-axis trackers, Dual-axis trackers, PV- WATTS Modeling.

NEFT MƏDƏNLƏRİNİN ELEKTRİK TƏCHİZAT SİSTEMLƏRİNDƏ ENERJI İTKİLƏRİNİN AZALDILMASI

Bakalavr: Aysu Qeşova,
IV kurs, 525.20

Elmi rəhbər: t.e.n., dosent
Rəhilə Muradova

Tezisdə mövcüd neft mədənlərının elektirik təchizat sxemləri araşdırılmış və avadanlıqlarda yaradılan elektrik enerji itkiləri müəyyənləşdırılmışdır. Neft mədənlərinin elektrik təchizatı sxemləri iki yerə,daxili və xarici elektrik təchizatı sxemlərinə bölünür.Daxili təchizat sistemlərinə daxildir;baş alçaldıcı yarımstansiyalar(BAY), yaxud mərkəzi paylayıcı quruluş(MPQ) və sənayənin yüksək gərginlikli elektrik şəbəkəsidir.Mədənlərin daxili elektrik təchizatı

sistemləri 6;35; kV təmin olunurlar.Bəzi hallarda,xüsusən də qida mənbələri enerjı sistemləri olduqda və onlar mədəndən uzaqda olduqda,xarici təchizat sixemlərindən istifadə olunur.

Məlumdur ki, mövcüd neft mədən yarımstansiyalarında və eləcə də paylayıcı şəbəkələrdə xeyli miqdarda elektrik enerji itkilərinə yol verilir.Elektrik enerjı itkilərini azaldılması başqa sahələrdə olduğu kimi neft mədənlərində də aktual olaraq qalır.Odur ki, elektrik enrjı itkilərinin azaldılması,güc əmsalının yüksəldilməsi günün aktual məsələlərindəndir.

Neft mədənlərinin elektrik təchizatı sistemlərində enerji itkilərini azaltmaq üçün bir sıra tədbirlər mövcuddur. İlk olaraq, effektiv enerji istifadəsi üçün avtomatlaşdırılmış nəzarət sistemlərini tətbiq etmək vacibdir. Bu, enerji istehsalını tənzimləyərək optimal səviyyədə tutmağa kömək edir.Həmçinin, energetik qurğuların səliqəli təmiri və baxımı, elektrik cihazlarının effektiv idarəsini təmin edir və enerji itkilərini minimuma endirir. İdarəetmə sistemlərini tənzimləməsi, energetik istehsal və effektiv şəkildə idarə etmək üçün istifadə əsasdır.Energetik effektiv cihazların istifadəsi də bu məqsədə nail olmaq üçün kömək edir. LED işıqları, energetik cərəyanı azaltmaq və uzun ömürlü olaraq göstərərək enerji itkilərini azaltmağa kömək edir. Bu qurğular birləşdirilərək, neft-mədənlərinin elektrik təchizat sistemlərində enerji itkiləri ən aza endirilə bilər.Bu nöqtəyə nəzərən hazirladığım tesiz neft mədənlərinin elektrik təchizat sistemlərində enerji itkilərinin azaldılması məsələlərinə həsr olunmuşdur.Məsələnin həlli üçün konkret olaraq verilmiş yüklər üzrə tələb olunan güclər hesablanmış,nəticəvi yüklərə görə mədən transformator yarimstansiyalarının gücü və sayı təyin olunmuşdur.

ƏDƏBİYYAT SİYAHISI

1. M.H.Həmidov, T.D.Vəliyeva, **Neft sənayə müəssisələrində elektrik enerjisinə qənaət və səmərəlı istifadə,** səhifə72,Bakı 2010

2. M.H.Həmidov, **Elektrik təchizatı sistemlərində modelləşdirmə**, Bakı 2008

TRANSFORMATOR YARIMSTANSİYALARINDA GÜC İTKİLƏRİNİN MİNİMALLAŞDIRILMASI YOLLARININ ANALİZİ

Bakalavr: İsayeva Ruhəngiz
4-Cü Kurs , 525.20

Elmi Rəhbər: Dosent
Gülgəz İsmayılova

Yarımstansiyada transformatorların gücünü və sayını seçərkən yüklərin qiymətinə və xarakterinə, təchizatının etibarlılığına və elektrik enerjisi istehlakının xarakterinə, yüklərin yerləşməsinə və onların dəyişməsinə,həmçinin texniki və iqtisadi hesablamalara diqqət yetirilir [1].

Bir çox yarımstansiyada transformatorların yükü dəyişir və uzun müddət nominal yükdən az ola bilər. Transformatorların istismarı üçün əksəriyyəti qəza rejimindən sonrakı rejim üçün seçilir və buna uyğun olaraq da 40° ətraf mühitin temperaturunda işləmək üçün nəzərdə tutululur. Amma buna baxmayaraq daha az yüklənirlər. Normal rejimdə onlar 30° C-ə qədər tempraturda işləyirlər.Həmçinin, nəzərdə tutulan hadisələr nəzərə alınmaqla transformatorun həddən artıq yüklənməsi təyin olunmuş xidmət müddətində heç bir ziyan vurmadan həyata keçirilə bilər [2].

Transformatorun elektrik şəbəkəsindəki yerini təyin etdikdən sonra bilmək lazımdır ki, transformator stansiyadan nə qədər uzaqda olarsa gücü bir o qədər az və vahid gücə düşən itkilər bir o qədər çox olar. Yüksüz işləmə itkiləri sabitdir. Onlar yük cərəyanından təsirlənmir və transformator şəbəkəyə qoşulduqda daima mövcud olur. Yük itkiləri yük cərəyanından təsirlənir və yük qrafikinin əyrisindən asılıdır.

Yüksüz işləmədə itkiləri azaltmaq üçün təkmilləşdirilmiş maqnit xüsusiyyətləri olan elektrik poladdan istifadə olunur. Yük itkilərini azaltmaq üçün cərəyan sıxlığı azaldılır, bunun üçün sarğılarda metal kütləsi artırılır [3].

Normal rejimdə transformatorun buraxılabilən həddindən artıq yüklənməsi onun sarğılarının izolyasiyasının köhnəlməsi ilə nəticələnir. Bu , izolyasiyada mexaniki, elektrik dəyişikliklərə səbəb olur. Transformatorun təxmini xidmət müddəti 20 ildir.

İşlədicilərin etibarlı eletrik enerjisi ilə təmin edilməsi məqsədilə yarımstansiyalarda iki ədəd transformator quraşdırılır. İki transformatorlu yarımstansiyalarda hər bir transformatorun gücü qəza iş rejimindən istifadə etməklə müəyyən edilir.Onların gücü elə seçilir ki, biri sıradan çıxdıqda, digəri artıq yüklənmədə işləyə bilsin.

Birdən çox transformatoru olan yarımstansiyada Snom transformatorunun (MV·A) nominal gücü (1) ifadəsindən müəyyən edilir:

$$S_{nom} \geq \frac{P_{hes}}{k_{qəza}(n-1)cos\varphi} \quad `(1)$$

Burada $P_{hes} = P_{max} \cdot k_{\text{I-II}}$ -hesabat gücü, MW; P_{max} - istismarın beşinci ilində yarımstansiyanın maksimal aktiv gücü, MVt, yükün tərkibində I-II kateqoriyalı istehlakçıların mövcud olmasını göstərən əmsal; $k_{qəza}$ qəza əmsalı; Cosφ - güc əmsalı.

Paralel işləyən iki transformatorda ümumi itkilər (2) ifadəsindən istifadə etməklə hesablanır:

$$\Delta P_{\sum} = \Delta P`_{x1} + \Delta P`_{k1} (S_1 \backslash S_{nom})^2 + \Delta P`_{x2} + \Delta P`_{k2} (S_2 \backslash S_{nom2})^2 . \quad (2)$$

Qeyd edək ki, iki transformatorlu yarımstansiyanın işinin optimallaşdırılması enerji təchizatı sistemlərində elektrik enerjisi itkilərini azaldır. Yarımstansiyanın səmərəliliyini müəyyən edən əsas amil elektrik istehlakçıların yük qrafikinin və yarımstansiya avadanlıqlarının tərkibinin birləşməsidir. Güc həddi, transformatorda güc itkiləri baxımından bir iş rejimindən digərinə keçmək daha sərfəli olduqda istehlakçıların yükünü müəyyən etməyə imkan verir. Buna görə də, həm transformatorların, həm də enerji təchizatı sistemlərinin enerji

itkilərini azaltmaq üçün transformatorlar arasında yüklərin bölüşdürülməsi üçün adaptiv sistemlərin hazırlanması vacibdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Wang, C.; Wu, J.; Wang, J.; Zhao, W. Reliability Analysis and Overload Capability Assessment of Oil-Immersed Power Transformers. Energies 2016, 9, 43.

2. Tenbohlen, S.; Coenen, S.; Djamali, M.; Müller, A.; Samimi, M.H.; Siegel, Wang, C.; Wu, J.; Wang, J.; Zhao, W. Reliability Analysis and Overload Capability Assessment of Oil-Immersed Power Transformers. Energies 2016, 9, 43.

3. Алюнов, А.Н. Оптимизация режимов работы силовых трансформаторов / А.Н.

4. Алюнов, В.А. Бабарушкин, О.С. Вяткина // Онлайн Электрик: Электроэнергетика. Новые технологии, 2014.-URL:

https://online-electric.ru/articles.php?id=114

GÜNƏŞ PANELİNİN PARAMETRLƏRİNƏ ŞÜALANMANIN VƏ ƏTRAF MÜHİTİN TEMPERATURUNUN TƏSİRİ

SƏLİMXANOV E.F
selimxanovelsen2001@gmail.com

Xülasə: Günəş panellərinin elektrik parametrlərindən bir neçəsi onun əsas keyfiyyət göstəricilərini təyin etməyə və onun effektiv işini təmin etməyə imkan verir. Bunlardan vacib olanlarından biri panelin səthindən udulan şüanın neçə fazinin elektrik enerjisiniə çevrilməsini göstərən, yəni panelin effektivliyini təyin edən göstəricidir. Bu göstərici əsas etibari ilə panelin hazırlanma texnologiyasından və istifadə edilən materialın növündən asılı olur. Digər faktor isə eyni material və texnologiyadan istifadə etməklə eyni şərtlər daxilində daha effektiv göstəriciyə nail olmaq səyləridir. Bunun üçün günəş panelinin volt amper

xarakteristikası və maksimum gücü izləmə prosedorurunun tətbiq edilməsi və digər kimi amilləridir.

Açar sözlər: fotoeffekt, şuntlayıcı müqavimət, diod, gərginlik düşgüsü, xarakterik parametrlər.

1. Giriş: Günəş panellərində baş verən elektrik dəyişmələrinin izlənilməsi üçün onun əvvlcə mövcud əvəz sxemləri və bunun əsasında riyazi hesabat düsturlarının təyin edilməsi vacibdir. Baxılan istiqamət üzrə əvvəlcə günəş panelinin ilkin əvəz sxemini şəkil 1 – də təsvir edirik [1].



Şəkil 1. Günəş panelinin əvəz sxemi.

Bu sxemə uyğun olaraq verilən sxemin elektrik dövrəsində axan cərəyanın ifadəsini qeyd edək [1]:

$$I = I_{PV} - I_O\left[\exp\left(\frac{V + IR_S}{aV_T}\right) - 1\right] - \left(\frac{V + IR_S}{R_P}\right)$$

Burada:

İ_{PV} – fotoeffekt hadisəsində əmələ gələn cərəyandır,

İ_0 – foto diodların doyma cərəyanı,

V – hər bir foto dioda düşən gərginlik,

a – düzəliş əmsalı,

V_T – istilik hadisəsində element uclarındakı gərginlik,

R_S – ardıcıl birləşmiş müqavimətlər,

R_P – şuntlayıcı paralel müqavimətdir.

Günəş panelinin lövhəsindən axacaq cərəyanın qiymətinin şüalanmadan və istilikdən asılılıq ifadəsini qeyd edək [2]:

$$I_{PV} = \left(I_{PV_STC} + K_I \Delta T\right)\frac{G}{G_{STC}}$$

Burada:

$K_İ$ – fotoelementin qısaqapanma cərəyanın temperatur əmsalıdır,

G – günəşin şüalanma enerjisidir, W/m^2,

G_{STC} – günəşin nominal şüalanmasıdır, W/m^2,

$İ_{PV_STC}$ – simulyativ tədqiqat zamanı verilən cərəyandır.

Bu mövzu üzrə günəş panellərinin həm ətraf mühitinin istiliyinin onun effektivliyinə olan təsirini həm də günəşin şüalanma enerjinin panelin çıxışında yaratdığı istehsal gücünün xarakteristikasını təyin etməliyik [3]. Prosesin icrası üçün yuxarıda verilən ifadələr əsasında və müəyyən ölçülü və parametrlərə malik olan günəş panelinin ilkin məlumatlarını verilənlər olaraq ifadəyə daxil edib tədqiqatın icrasını MATLAB Simulink proqramında icra edəcəyik [4].

2. Simulyativ tədqiqatlar: Simulink proqramında prosesin icrası üçün günəş panelinin ilkin verilən parametrlərini cədvəl 1 – də qeyd edirik.

Cədvəl 1.

S/S	Parametrlər	Qiymətləri
1	I_{mp}	7.61 A
2	V_{mp}	26.3 V
3	I_{sc}	8.21 A
4	P_{max}	200.143 W
5	V_{oc}	32.9 V
6	K_v	-0.1230 V/K
7	K_i	0.0032 A/K
8	N_s	54
9	N_p	4

İndi isə günəş panelinin günəş müxtəlif şüalanma enerjilərinin olması hallarında onun xarakteristik parametrlərindən olan çıxış cərəyanı, gərginlik və istehsal güclərinin Simulinkdən əldə edilmiş nəticələri əsasında şəkil 2 – də qeyd edirik.



Şəkil 2. Günəş panelinin xarakteristik parametrləri

İndi isə panelin ətraf mühitin müxtəlif temperaturlarında günəş panelinin xarakteristik parametrlərinin dəyişməsini izləyək. Bu qrafik əyrini şəkil 3 və şəkil 4 – də qeyd edirik.



Şəkil 3. Günəş panelinin temperaturdan asılı olan volt-amper xarakteristikası



Şəkil 4. Günəş panelinin istehsal gücünün temperaturdan asılıq qrafiki

3. Nəticə: Müxtəlif situasiyalar üçün günəş panelinin elektrik parametrlərinin dəyişməsini tədqiq edərək aşağıdakı nəticələrə gəlirik: Günəş panelinin fotoelementlərinin ardıcıl birləşməsi səbəbindən 25 voltdan yuxarı gərginliklərdə artıq onun güc istehsalının azalmasının şahidi oluruq. Bu fotoelementlərin gərginliyə görə doyması səbəbindən baş verir. Baxılan nümunədə 25 volt mütləq limit həddi deyildir. Bu baxılan nümunə üçün keçərlidir. Günəş şüasının intensivliyinin artması ilə eyni çıxış gərginlikdə cərəyanın artmasına imkan yaradır ki, bu da öz növbəsində panelin gərginlik limit həddində yuxarı günəş intensivliyində daha çox çıxış gücü istehsal etməsinə imkan yaradır.

Şəkil 3 və 4 – də alınan nəticələrdən isə ətraf mühitin temperaturunun birbaşa cərəyana yox fotoelementin işçi gərginliyinə təsirini görürrük. Bunun səbəbi elementin ətraf mühitin temperaturuna münasibəttə qızması və daha çox gərginlik düşgüsü yaratmaqla izah edə bilərik. Yəni ətraf mühitini temperaturu az olduqca günəş panelinin vahid fotoelementinə düşən gərginliyin limit həddi artır və nəticədə daha çox güc istehsal edilmiş olur. Baxılan xüsusda yekun olaraq deyə bilərik ki, günəş panelinin effektiv işləməsi təkcə günəş şüasının vahid sahəyə yaydığı enerjidən savayı biz panelləri quraşdıracağımız yerin orta illik temperatur normasını da mütləq nəzrdə saxlamalıyıq.

Ədəbiyyat siyahısı

1. T.Salmi, M.Bouzguenda, A.Gagtli, "MATLAB/Simulink based modeling of solar photovoltaic cell", International journal of renewable energy research, vol.2, no.2, 2012.

2. S.Meenakshi, K.Rajambal, S.Elangovan "Intelligent controller for stand-alone hybrid generation system", IEEE, May. 2006.

3. Nabil A.Ahmed, Masafumi Miyatake, "A stand-alone hybrid generation system combining solar photovoltaic and wind turbine with simple maximum power point tracking control", IPEMC 2006, IEEE 2006.

4. M.G.Villalva, J.R.Gazoli, "Modeling and circuit based simulation of photovoltaic arrays", Brazilian power electronics conference (COBEP), 2009.

5. Marcelo Gradella Villalva, Jonas Rafel Gazoli, "Comprehensive approach to modeling and simulation of photovoltaic arrays", IEEE transaction on power electronics,vol.24, no.5, May 2009.

Резюме: Некоторые электрические параметры солнечных батарей позволяют определить ее основные показатели качества и обеспечить ее эффективную работу. Одним из важнейших из них является показатель, который показывает, сколько фаз луча, поглощенного поверхностью панели,

преобразуется в электрическую энергию, то есть определяет КПД панели. Этот показатель в основном зависит от технологии изготовления панели и типа используемого материала. Другим фактором являются усилия по достижению более эффективной работы в тех же условиях, с использованием тех же материалов и технологий. Для этого отслеживают вольт-амперную характеристику и максимальную мощность солнечной панели, применяя методику и другие коэффициенты.

Ключевые слова: фотоэффект, шунтирующее сопротивление, диод, падение напряжения, характеристические параметры.

Abstract: Some of the electrical parameters of solar panels allow to determine its main quality indicators and ensure its effective operation. One of the most important of these is the indicator that shows how many phases of the beam absorbed by the surface of the panel are converted into electrical energy, that is, it determines the efficiency of the panel. This indicator mainly depends on the panel manufacturing technology and the type of material used. Another factor is efforts to achieve a more effective performance under the same conditions using the same material and technology. For this, the volt-ampere characteristic and maximum power of the solar panel are followed by applying the procedure and other factors.

Keywords: photoeffect, shunting resistance, diode, voltage drop, characteristic parameters.

GÜC TRANSFORMATORUNUN DOLAQ İZOLYASİYASININ İFRAT GƏRGİNLİKLƏRƏ QARŞI DAYANIQLIĞININ YÜKSƏLDİLMƏSİ

f-r.e.n.dos. Elbrus Əhmədov[1], Seymur Sadıqov[2]
[1] elbrusahmed@gmail.com , [2] seymursadiqov59@gmail.com

Xülasə

Elektrik enerjisinin uzaq məsafələrə ötürülməsində istifadə olunan güc transformatorları, yüksək gərginlik sinfinə və böyük güc ötürmə qabiliyyətinə malik olmaqları ilə seçilir. Belə transformatorların hazırlanmasında onların etibarlılığına qarşı standartlar sərt tələblət qoyur. Təqdim olunan işdə 330 kV və daha yüksək gərginlik sinfinə aid olan transformatorların ildırım impuls sınaq gərginliyinə qarşı dayanıqlı şəkildə hazırlanması məsələsinə baxılmışdır. Laboratoriya şəraitində, ildırımın transformatoru birbaşa vurması zamanı yaranan təsirlərə uyğun olaraq sınaq aparılmışdır. Transformatorun yüksək gərginlik dolaqlarına ənənəvi və qeyri-ənənəvi metodlar tətbiq edilməklə sınağı aparılmış və nəticələr müqayisəli analiz edilmişdir. Analizin nəticəsi olaraq transformatorun dolaqlarının dəyişən şəkilli sarınma metodu təklif edilmişdir ki, bu da dolaq izolyasiyasının impuls elektrik möhkəmliyinin daha da yüksəlməsinə və bütövlükdə transformatorun maya dəyərinin aşağı düşməsinə səbəb olmuşdur.

Açar sözlər: yüksək gərginlikli transformator, ildırım impuls gərginliyi, dolaqların sarınması.

Giriş

Transformatorlar elektrik şəbəkəsinin ayrılmaz vacib elementlərindən biridir. Elektik stansiyalarında və yarımstansiyalardalarda istifadə olunan transformatorlar böyük güc ötürməsinə və yüksək gərginlik sinfinə aid olmaları ilə seçilir. Belə transformatorlar uzun müddətli istifadə üçün nəzərdə tutulur. Transfrmatorların uzun müddətli iş şəraitində müəyyən zədələnmələr müşahidə olunur. Transformatorun zədələnməsi müxtəlif səbəblərdən ola bilir: dolaqların

izolyasiyasının köhnəlməsi, qəza və normal iş rejimlərinin yaratdığı zədələr, keyfiyyətsiz təmir, istismar qaydalarına əməl olunmaması və s. Stasistika göstərir ki, nasazlıqların üçdə ikisi pis təmirin, düzgün olmuyan istismarın nəticəsində və üçdə biri zavodda buraxılan defektlərin nəticəsində baş verir. Cədvəl 1 -də transformatorların ayrı-ayrı hissələrinin zədələnmə nisbətləri verilmişdir [6].

Cədvəl 1

Transformatorların ayrı-ayrı hissələrində baş verən zədələnmələrin statistikası

Transformatorun hissələri	Zədələnmə, %
Dolaqlar	30
Girişlər	14
Çevirgəclər	40
Çən	6
Maqnit dövrəsi (nüvə)	5
Qapaq, genişləndirici, radiator	5

Cədvəldən göründüyü kimi transformatorun zələnməsinin böyük hissəsi dolaqlarda və cərəyan keçən hissələrdə baş verir. Belə zədələnmələri nəzərə alaraq dolaqların izolyasiyasında elektrik möhkəmliyinin yaxşılaşdırılması və elektrik sahə intensivliyinin bərabər paylanması üçün müəyyən tədbirlər görülür.

Gərginlik sinifi 145 kV-dan yuxarı olan transformatorların müntəzəm sınaqlar aparılmalıdır ki, bunlara da, ildırım impuls gərginliyi, kəsilmiş ildırım impuls gərginliyi və kommutasiya impuls gərginlikləri daxildir [4]. Belə sınaqlar zamanı yüksək gərginlik giriminə 50 *mks* ərzində təyin olunmuş ildırım ifrat gərginlik tətbiq edilir. Bu zaman dolaqlar arası və dolaq daxilində sarğılar arası qapanmalar (zədələr) baş verə bilər. Dolaq daxili qısa-qapanmaların qarşısının alınmasında müxtəlif üsullardan istifadə olunur. Bunlara daxildir:

- ✓ sarğılar arası ekranlayıcı sarğı yerləşdirmək (*contra shield*);
- ✓ əlavə karton izolyasiyadan istifadə etmək (*conten*);

✓ sarğılar arası yerdəyişmənin (*interleaved*) aparılması [3].

Qeyd etdiyimiz bu üsullardan ən effektivi "sarğılar arası yerdəyişmə" üsulunun olması iddia edilir. Transformatorun gərginlik sinfi 330 kV-dan yüksək olduğu halda mütləq şəkildə "sarğılar arası yerdəyişmə üsulundan istifadə edilməsi məsləhət görülür [5]. Yüksək gərginlik dolaqlarında sarğac (disk) formalı sarğılardan istifadə olunur. Belə olan halda iki sarğac arası potensiallar fərqi çox böyük qiymət alır.

Məsələnin qoyuluşu

1906-cı ildən yağ transformatorlarının istehsal olunmasına başlanmışdır. O vaxtdan hazırkı dövrə qədər, transformatorun işləmə prinsipi və qanunauyğunluğu bir o qədər də dəyişməmişdir [1]. Lakin, yeni izolyasiya materiallarının əldə olunması və istifadə olunan avadanlıqların mürəkkəbləşməsi transformatorların etibarlılığının artırılması istiqamətində tətqiqinin yenidən aparılmasına zərurət yaranmışdır. Transformatorların yüksək gərginlik sinfinin 1150 kV olması da transformator sahəsindəki yeniliklər siyahısındadır. Nəzərə alsaq ki, IEC sdandartına əsasən 1150 kV gərginlik sinfinə tətbiq olunacaq ildırım impuls sınaq gərginliyi 2250 kV təşkil edir. Transformator dolaqları üçün elektrik hesabatı elə aparmalıdır ki, ildırım impuls sınaq gərginliyinə cavab verəcək şəkildə olsun. Bu zaman elektrik hesabatının nə dərəcədə optimal olması da önəm daşıyır. Transformatorun yüksək gərginlik dolaqlarına təqbiq olunacaq sarğılar arası yerdəyişmə üsulunun nə dərəcədə effektiv olmasını, həm real test nəticələri üzərindən və həm də EHM-lər vasitəsilə araşdırmaq mümkündür.

Bu mövzu ilə əlaqədar olaraq hesablamalar və tətqiqatlar kifayət qədər olmasına baxmayaraq daha effektiv üsul ilə sarınma metodunun müəyyən edilməsi məqsədilə qarşılıqlı müqayisənin aparılmasına ehtiyac vardır. Təqdim olunan işdə transformatorun real sınaq nəticələri ilə VLN proqramının köməyi ilə əldə edilmiş nəticələrin müqayisəli analizi aparılmışdır.

Məsələnin Həlli

Sarğılar arası yerdəyişmə üsulunun (*Methods of İnterleaved*) tətbiq olunmasında məqsəd sarğı qatları arasında elektrik sahəsinin intensivliyini və qeyri-bircinsliliyini azaltmaq və bununla boşalmanın yaranması riskinin minumuma endirilməsidir [2]. Dolaqda birinci və ikincil sarğıların istiqaməti dəyişdirilərkən, sarğılar arasında elektrik sahəsi daha bərabər paylanır, bu da qismi böşalma üzrə deşilmə riskini azaldır. Elektrik sahəsi transformatorunun dolaqlarının sarığıları arasında bərabər paylanır və bitişik sarğılar arasındakı gərginlik sabit qalır. Bununla belə, tutumun effektinin təsiri səbəbindən gərginlik sıçrayışları dolağın sonundakı sarğılar arasında daha yüksək gərginlik yarada bilir.

Tədqiqat obyekti kimi ATEF-şirkəti tərəfindən yeni istehsal olunmuş gərginliyi 330 kV-olan birfazlı avtotransformatora baxılmış və onun parametrləti cədvəl1-də göstərilmişdir.

Cədvəl.1

Yüksək gərginlikli transformatorun parametrləri

Avto-transformator	АОДЦТН-133000/330/√3
Faz sayı	1
Gücü , kVA	133000/133000/133000
Gərginlik, kV	330/√3 / 230/√3 / 10.5
Birləşmə qrupu	İa0i0
Tezlik, Hs	50
Standart	IEC 60076-1

Transformatorun izolyasiyasının etibarlılığnı təyin etmək üçün IEC60076-3 standartına görə snağı aparılmışdır. Sınaqlar ildırım impuls gərginliyinin, kəsilmiş ildırım impuls gərginliyinin və kommutasiya ifrat gərginliklərinin təsiri ilə sınaqdan keçirilmişdir. Transformatorun yüksək gərginlik dolağına tətbiq edilən ildırım snaq gərginliyinin qiymətləri cədvəl 2-də göstərilmişdir.

Cədvəl 2

330 kV-luq transformatora tətbiq edilən ildırım impuls -sınaq gərginliyinin parametrləri

Transformatorun maksimal işçi gərginliyi U_m, kV	İldırım impuls gərginliyi LI, kV	Kəsilmiş ildırım impuls gərginliyi LIC, kV
362	1050	1155

Biz izolyasiyanın elektrik möhkəmliyinin daha da artırılması üçün müxtəlif sarğı üsullarının (contra shield, interleaved) müqayisəli təhlilini aparmış və ən effektiv üsul olaraq interleaved sarınma üsulun olması nəticəsinə gəlmişik. Sarğıların izolyasiyasının elektrik möhkəmliyinin, onlara düşən elektrik sahəsinin nisbətən bərabər paylanmasının təmin edilməsi ilə, daha da yüksəldilməsinə nail olmaq üçün dolağa əlavə elementlər daxil edilmişdir. Belə ki, sarğılararasına müəyyən qaydada əlavə ekranlayıcı sarğı və elektrotexniki karton yerləşdirmişdir (şək.1). Yüksək gərginlik dolağının konstruktiv elementləri barəsində məlumatlar cədvəl 3-də verilmişdir.

Cədvəl 3

330 kV-luq transformatorun yüksək gərginlikli dolağının sarınma konstruksiyası barəsində məlumatlar

Dolaq növü	Orta hissədən giriş (middle input)
Sarğac sayı	54 + 54
Hər sarğacda sarğı sayı	6
Naqilin növü	cüt naqil
Naqilin ölçüləri, mm	8 x 1.7
Kağız izolyasiyası, mm	1.6
Sarğaclar arası yağ kanalının eni, mm	4.5
Radial / Aksial	3 / 1
Ekranlayıcı sarğılar sayı	2
Ekranlayıcının yerləşdiyi maraka sayı	10 + 10



Şəkil 1. 330kv-luü transformatorun yüksək gərginlik dolağının sxemi. 54B-62B-sarğıların mömrələri; 1.1 və 1.1/-yüksək gərginlik dolağının girişi; 1-əlavə karton izolyasiya; 3-ekranlayıcı sarğı.

Tədqiqi edilən transfomator “HIGH VOLT” laboratoriyasında, cədvəl 2-də göstərilmiş sınaq gərginliklərinə müvafiq olaraq yoxlanmışdır. Alınan nəticələr əyrilər şəklində şəkil 2 və şəkil 3-də və parametrlərin qiymətləri isə cədvəl 4-də verilmişdir. Əyrilərərin anlizindən görünü ki, transformator sənaqdan uğurla keçmiş və iziolyasiyannı elektrik möhkəmliyi tələb olunan səviyyədədir.



Şəkli.2 Transformatorun dolağının LI-1050kV gərginlklə sınağının nəticələri:

U_t = -1040.448 kV; T_1 = 1.055 µs; T_2 = 41.630 µs; T_c = ... µs



Şəkli.3 Transformatorun dolağının LIC-1155 kV gərginlklə sınağının nəticələri:
Ut = -1130.634kV; T1 = 1.106 µs; T2 = µs; Tc = 2.495 µs

Şəkil 1-də göstərilmiş qaydada dolağın sarınması üsulunun müsbət cəhətləri texnologiyasının sadə olması, dolağın hazırlanmasında sərf edilən vaxtın az olması. Belə sarınma üsulunun mənfi cəhəti, əlavə mis materialının sərf olunmasını tələb edən ekrayınlayıcı sarğıdan istifadə edilməsi, dolaq sarınarkən ekranlayıcı sarğının olması səbəbindən, hər sarğacın üzərinə düşən sarğı sayının azalması və 400 kV və daha yuxarı gərginlik siniflərinə uyğun gələn ildırım sınaq gərginliyinin tələb olunan qiymətlərinə qarşı möhkəmliyin təmin edilməməsidir.

Məlum olduğu kimi sarğac tipli dolaqların hər bir sarğacı radial istiqamətdə qat-qat sarınmış sarğılardan ibarət olur. Bu zaman sarğacın üzərinə düşən sarğı sayı müxtəlif ola bilər. Lakin, sarğı sayının çox olması, radial ölçünün artırması ilə yanaşı sarğacların son sarğılararası hissələrinə düşən potensiallar fərqinin qiymətini də artırmış olur. Eyni zamanda hər sarğac arasında induktivlik və tutum yaranır ki, bunun da nəticəsində ildırım impuls gərginliyi ilə sınaq zamanı dolaqdakı ayrı ayrı hissələrə düşən gərginliklərin fərqli yüksək qiymət ala bilir. Bu da izolyasiyanın zədələnməsinə və bütövlükdə transformatorun istismar müddətinin azalmasına və hətta sınaq zamanı sıradan çıxmasına səbə ola bilir.

Yuxarıda qeyd edilən çatışmazlıqların aradan qaldırılması üçün biz yüksək gərginlikli transformatorlarda dolaqların, sarğılararası yeridəyişmə aparmaqla sarınma üsulunu təklif edirik (şək4.b).



Şəkil 4. a) ekraranlayıcı ilə birlikdə ardıcıl sarımış dolaq; b) Yerdəyişmə şəkilli sarınmış dolaq

Təklif edilən yeni sarınma üsulunun ifrat və sınaq gərginliklərinə qarşı effektliyinin yoxlanması üçün VIT proqramlar toplusuna daxil olan VLN proqramından istifadə etmişik. Bu proqram Ukrayna transformator düzəltmək üçün layihə və texnoloji tədqiqat institutu tərəfindən hazırlanmışdır . VLN proqramı vasitəsilə transfromatorun istənilən gərginlikdə sınağının simulyasiya edilməsi mümkündür. Bu sınaqlara yüksüz işləmə sınağı, qısa qapanma sınağı, qısa qapanmada dözümlülük sınağı, istilik sınağı, ildırım sınağı və s. aiddir. VLN proqramı həmçinin ildırım impuls gərdinliyinin tətbiq olunması nəticəsində dolaqlar arası, dolaqlar və torpaqlanmış hissələr arası və eyni zamanda dolağın daxilində ayrı ayrı nöqtələr arasında yaranan potensiallar fərqini əldə etməyə imkan verir. Bu parametrlər üzərindən hesabatların aparılması və transformatorun dolaqlarının izolyasiyasının nə dərəcədə dayanıqlı olmasını təyin eymək mümkündür.





Şəkil 5. VLN proqramında dolaq və sarğıların düzülüşü.

Şəkil 5.a-da real transformatorda tətbiq edilən dolağın və şəkli5,b-də isə təklif etdiyimiz sarıma formasında dolaqların VLN proqramında tərtib edilmiş modelləri göstərilmişdir. Şəkil 6-də VLN proqramının simulyasiya nəticələri verilmişdir. Burda hər bir əyri ayrı-ayrı sarğaclararası gərginliyin paylanmasına müvafiq olaraq impuls dalğasının hansı formada dəyişilməsi göstərilmişdir. Yoxlanılan transformatorun dolağının girişi onun orta hissəsində olduğuna görə həmin nöqtədən yuxarı və aşağı tərəfdə olan nəticələr eynilik təşkil edəcək. Sadəlik üçün simulyasiyanın yalnız dolağın alt yarım hissəsi üçün olan nəticələri vermişik.



Şəkil 6. VLN proqramında aparılmış simulaysiyasiyanın nəticələri. Hər bir əyri sarğacların yerlşmə sırasına və nömrəsinə yuğun olaraq göstərilmişdir

Şəkli7-də 330 kV-luq real transformatorun dolağı və təklif etdiyimiz yeridəyişmə şəkilli sarınmış dolağı üçün VLN proqramının simulyasiya nəticələri qiymətlər şəklində verilmişdir. Burada hər bir sarğaclararsı məsafəyə düşən gərginliyin, impuls gərginliyinin təsir müddəti (mikrosaniyələrlə) və minimal təhlükəsizlik faktoru göstərilmişdir. Alınmış parametrlərin analizinə əsasən, şəkildə sarı rənglə qeyd edilmiş hissədəki parametrlər təhlükəli faktorlar kimi qiymətləndirilir.

Gap number	Gap designation	Maximum voltage, kV	Duration of applied voltage, us	Calculation diagram for maximum voltage	Calculation mode for maximum voltage	Minimum safety factor	Calculation diagram for minimum safety factor	Calculation mode for minimum safety factor
1	SW (5) RK_1	52.737	10.5	HV-MVNOM-	1	2.61	HV-MVNOM-	2
2	SW (5) RK_2	54.519	10.7	HV-MVNOM-	1	2.52	HV-MVNOM-	2
3	SW (5) RK_3	56.111	10.7	HV-MVNOM-	1	2.45	HV-MVNOM-	2
4	SW (5) RK_4	57.855	10.8	HV-MVNOM-	1	2.37	HV-MVNOM-	2
5	SW (5) RK_5	61.416	10.4	HV-MVNOM-	1	2.24	HV-MVNOM-	2
6	SW (5) RK_6	65.592	10.5	HV-MVNOM-	1	2.1	HV-MVNOM-	2
7	SW (5) RK_7	66.362	11.3	HV-MVNOM-	1	2.06	HV-MVNOM-	2
8	SW (5) RK_8	69.967	11.5	HV-MVNOM-	1	1.95	HV-MVNOM-	2
9	SW (5) RK_9	70.118	8.6	HV-MVNOM-	1	1.99	HV-MVNOM-	2
10	SW (5) RK_10	71.661	12.1	HV-MVNOM-	1	1.9	HV-MVNOM-	2
11	SW (5) RK_11	71.897	12.1	HV-MVNOM-	1	1.89	HV-MVNOM-	2
12	SW (5) RK_12	72.812	12.2	HV-MVNOM-	1	1.87	HV-MVNOM-	2
13	SW (5) RK_13	70.567	12.2	HV-MVNOM-	1	1.93	HV-MVNOM-	2
14	SW (5) RK_14	71.5	12.5	HV-MVNOM-	1	1.9	HV-MVNOM-	2
15	SW (5) RK_15	69.427	12.1	HV-MVNOM-	1	1.96	HV-MVNOM-	2
16	SW (5) RK_16	67.455	12.5	HV-MVNOM-	1	2.01	HV-MVNOM-	2
17	SW (5) RK_17	65.874	13.3	HV-MVMAX	1	2.05	HV-MVMAX	2
18	SW (5) RK_18	66.216	13.5	HV-MVMAX	1	2.04	HV-MVMAX	2
19	SW (5) RK_19	65.209	13.5	HV-MVMAX	1	2.07	HV-MVMAX	2
20	SW (5) RK_20	67.065	13.6	HV-MVMAX	1	2.01	HV-MVMAX	2
21	SW (5) RK_21	66.006	13.5	HV-MVMAX	1	2.05	HV-MVMAX	2
22	SW (5) RK_22	67.893	13.5	HV-MVMAX	1	1.99	HV-MVMAX	2
23	SW (5) RK_23	68.116	13.3	HV-MVMAX	1	1.98	HV-MVMAX	2
24	SW (5) RK_24	67.652	13.7	HV-MVMAX	1	1.99	HV-MVMAX	2
25	SW (5) RK_25	65.359	14	HV-MVMAX	1	2.06	HV-MVMAX	2
26	SW (5) RK_26	65.628	14.5	HV-MVMAX	1	2.05	HV-MVMAX	2
27	SW (5) RK_27	62.828	14	HV-MVMAX	1	2.13	HV-MVMAX	2
28	SW (5) RK_28	63.405	15.8	HV-MVMAX	1	2.14	HV-MVMAX	2
29	SW (5) RK_29	60.933	15.9	HV-MVMAX	1	2.19	HV-MVMAX	2
30	SW (5) RK_30	61.404	16.2	HV-MVMAX	1	2.17	HV-MVMAX	2
31	SW (5) RK_31	59.781	16.4	HV-MVMAX	1	2.24	HV-MVMAX	2
32	SW (5) RK_32	60.47	15.6	HV-MVMAX	1	2.21	HV-MVMAX	2
33	SW (5) RK_33	59.023	15.3	HV-MVMAX	1	2.27	HV-MVMAX	2
34	SW (5) RK_34	60.995	2.9	HV-MVNOM-	3	2.23	HV-MVMAX	2
35	SW (5) RK_35	63.77	2.9	HV-MVNOM-	3	2.26	HV-MVMAX	2
36	SW (5) RK_36	65.414	2.8	HV-MVNOM-	3	2.21	HV-MVMAX	2
37	SW (5) RK_37	67.961	11.9	HV-MVNOM-	2	2.2	HV-MVMAX	2
38	SW (5) RK_38	71.94	12	HV-MVNOM-	2	2.06	HV-MVNOM-	4
39	SW (5) RK_39	74.777	11.8	HV-MVNOM-	2	2.01	HV-MVNOM-	4
40	SW (5) RK_40	76.805	11.9	HV-MVNOM-	2	1.96	HV-MVNOM-	4
41	SW (5) RK_41	77.762	11.9	HV-MVNOM-	2	1.94	HV-MVNOM-	4
42	SW (5) RK_42	75.41	11.9	HV-MVNOM-	2	1.96	HV-MVNOM-	4
43	SW (5) RK_43	76.531	4	HV-MVNOM-	4	2.02	HV-MVNOM-	4
44	SW (5) RK_44	80.985	4	HV-MVNOM-	4	1.85	HV-MVNOM-	4
45	SW (5) RK_45	83.164	2.8	HV-MVNOM-	4	1.78	HV-MVNOM-	4
46	SW (5) RK_46	93.164	2.8	HV-MVNOM-	3	1.62	HV-MVNOM-	4
47	SW (5) RK_47	99.026	2.8	HV-MVNOM-	3	1.53	HV-MVNOM-	4
48	SW (5) RK_48	100.664	2.8	HV-MVNOM-	3	1.48	HV-MVNOM-	4
49	SW (5) RK_49	100.859	2.9	HV-MVNOM-	3	1.5	HV-MVNOM-	4
50	SW (5) RK_50	97.181	11.9	HV-MVNOM-	2	1.55	HV-MVNOM-	4
51	SW (5) RK_51	101.692	11.9	HV-MVNOM-	2	1.49	HV-MVNOM-	4
52	SW (5) RK_52	104.284	11.9	HV-MVNOM-	2	1.46	HV-MVNOM-	4
53	SW (5) RK_53	106.422	11.9	HV-MVNOM-	2	1.44	HV-MVNOM-	4
54	SW (5) RK_54	4.066	0	MVMAX	8			

Gap number	Gap designation	Maximum voltage, kV	Duration of applied voltage, us	Calculation diagram for maximum voltage	Calculation mode for maximum voltage	Minimum safety factor	Calculation diagram for minimum safety factor	Calculation mode for minimum safety factor
1	SW (5) RK_1	80.565	1.4	HV-MVNOM+	2	2.15	HV-MVNOM+	2
2	SW (5) RK_2	68.014	2.1	HV-MVNOM+	3	2.38	HV-MVNOM+	3
3	SW (5) RK_3	66.062	2.3	HV-MVMAX	3	2.39	HV-MVNOM-	1
4	SW (5) RK_4	61.594	6.9	HV-MVNOM-	1	2.3	HV-MVNOM-	1
5	SW (5) RK_5	62.41	6.7	HV-MVNOM-	1	2.29	HV-MVNOM-	1
6	SW (5) RK_6	63.379	6.7	HV-MVNOM-	1	2.25	HV-MVNOM-	1
7	SW (5) RK_7	62.303	6.5	HV-MVNOM-	1	2.3	HV-MVNOM-	1
8	SW (5) RK_8	63.334	13.2	HV-MVNOM-	1	2.14	HV-MVNOM-	1
9	SW (5) RK_9	62.182	5	HV-MVNOM-	1	2.31	HV-MVMAX	1
10	SW (5) RK_10	64.916	11.3	HV-MVNOM-	1	2.11	HV-MVNOM-	1
11	SW (5) RK_11	64.774	5.4	HV-MVNOM-	1	2.25	HV-MVNOM-	1
12	SW (5) RK_12	68.596	5.7	HV-MVNOM-	1	2.12	HV-MVNOM-	1
13	SW (5) RK_13	68.604	5.6	HV-MVNOM-	1	2.12	HV-MVNOM-	1
14	SW (5) RK_14	72.821	5.8	HV-MVNOM-	1	2	HV-MVNOM-	1
15	SW (5) RK_15	72.281	5.8	HV-MVNOM-	1	2	HV-MVNOM-	1
16	SW (5) RK_16	75.289	6	HV-MVNOM-	1	1.91	HV-MVNOM-	1
17	SW (5) RK_17	75.591	6.2	HV-MVNOM-	1	1.9	HV-MVNOM-	1
18	SW (5) RK_18	76.016	6.4	HV-MVNOM-	1	1.89	HV-MVNOM-	1
19	SW (5) RK_19	75.463	6.5	HV-MVNOM-	1	1.92	HV-MVNOM-	1
20	SW (5) RK_20	74.643	7.5	HV-MVNOM-	1	1.89	HV-MVNOM-	1
21	SW (5) RK_21	73.115	7	HV-MVNOM-	1	1.96	HV-MVNOM-	1
22	SW (5) RK_22	69.501	8.6	HV-MVNOM-	1	2.01	HV-MVNOM-	1
23	SW (5) RK_23	70.141	8.8	HV-MVNOM-	1	2.1	HV-MVNOM-	1
24	SW (5) RK_24	64.95	7.8	HV-MVMAX	1	2.17	HV-MVMAX	1
25	SW (5) RK_25	65.076	8.7	HV-MVNOM-	1	2.16	HV-MVMAX	1
26	SW (5) RK_26	69.3	8.9	HV-MVMAX	1	2.13	HV-MVMAX	1
27	SW (5) RK_27	64.330	9	HV-MVMAX	1	2.16	HV-MVMAX	1
28	SW (5) RK_28	66.081	9.2	HV-MVMAX	1	2.1	HV-MVMAX	1
29	SW (5) RK_29	65.537	9.6	HV-MVMAX	1	2.11	HV-MVMAX	1
30	SW (5) RK_30	64.740	9.7	HV-MVMAX	1	2.14	HV-MVMAX	1
31	SW (5) RK_31	62.841	9.8	HV-MVMAX	1	2.2	HV-MVMAX	1
32	SW (5) RK_32	65.098	9.8	HV-MVNOM-	4	2.27	HV-MVNOM-	1
33	SW (5) RK_33	66.065	9.8	HV-MVNOM-	4	2.24	HV-MVNOM-	1
34	SW (5) RK_34	71.435	9.7	HV-MVNOM-	4	2.12	HV-MVNOM-	4
35	SW (5) RK_35	73.144	9.7	HV-MVNOM-	4	2.07	HV-MVNOM-	4
36	SW (5) RK_36	77.587	9.8	HV-MVNOM-	4	1.96	HV-MVNOM-	4
37	SW (5) RK_37	79.756	9.8	HV-MVNOM-	4	1.89	HV-MVNOM-	4
38	SW (5) RK_38	83.565	9.7	HV-MVNOM-	4	1.81	HV-MVNOM-	4
39	SW (5) RK_39	86.412	9.7	HV-MVNOM-	4	1.75	HV-MVNOM-	4
40	SW (5) RK_40	90.377	9.9	HV-MVNOM-	3	1.68	HV-MVNOM-	4
41	SW (5) RK_41	93.838	9.8	HV-MVNOM-	3	1.64	HV-MVNOM-	4
42	SW (5) RK_42	98.698	9.9	HV-MVNOM-	2	1.57	HV-MVNOM-	4
43	SW (5) RK_43	103.198	9.9	HV-MVNOM-	2	1.52	HV-MVNOM-	3
44	SW (5) RK_44	108.573	11.8	HV-MVNOM-	2	1.46	HV-MVNOM-	3
45	SW (5) RK_45	112.998	11.8	HV-MVNOM-	2	1.43	HV-MVNOM-	3
46	SW (5) RK_46	113.153	11.9	HV-MVNOM-	2	1.43	HV-MVNOM-	3
47	SW (5) RK_47	113.958	12	HV-MVNOM-	2	1.47	HV-MVNOM-	2
48	SW (5) RK_48	105.547	12	HV-MVNOM-	2	1.46	HV-MVNOM-	4
49	SW (5) RK_49	97.355	0.6	HV-MVNOM-	4	1.68	HV-MVNOM-	4
50	SW (5) RK_50	139.238	12.9	HV-MVNOM-	3	1.04	HV-MVNOM-	4
51	SW (5) RK_51	148.61	13.7	HV-MVNOM-	2	2.13	HV-MVNOM-	4
52	SW (5) RK_52	146.175	13.7	HV-MVNOM-	4	1.68	HV-MVNOM-	4
53	SW (5) RK_53	19.961	3.5	HV-MVNOM-	4	2.79	HV-MVNOM-	4
54	SW (5) RK_54	4.382	3	MVMAX	8			

Şəkil 7. a) ardıcıl sarım olan dolağın nəticələri ; b) Yerdəyişmə tətbiq olunmuş dolağın nəticələri

Nəticə

330kV-luq yüksək gərginlikli transformatorun “ardıcıl sarınma” üsulu ilə sarınmış sarğac tipli dolağının izolyasiyasının elektrik möhkəmliyinin müəyyən edilməsi məqsədilə IEC60076-3 standartına görə real impuls elektrik gərginliyi tətbiqi edilmişdir. Alınan nəticələr “yeridəyişmə” üsulu ilə sarınmış sarğac tipli dolağa eyni gərginliyin təsiri ilə VLN proqramında aparılmış simulyasiya sınaqlarının nəticələri ilə müqayisə edilmişdir. Analizin nəticələrinə əsasən dolağın ən təhlükəli nöqtəsində izolyasiyanın impuls elektrik möhkəmliyinin “yerdəyişmə üsulu” ilə sarınmş dolaqda 90% -ə qədər yaxşılaşmanın olduğu müəyyən edilmişdir. Bu üsülun tətbiqi eyni zamanda əlavə material itkisinin

qarşısını alır və 330 kV gərginlik sinfindən yuxarı olan transformatorların istehsalına imkan yaradır.

ƏDƏBİYYATLAR

1. Elektrik maşınları (1. Hissə) , Osmanov Sabir, Bakı – 2013
2. Yüksək Gərginliklər və Elektrik İzolyasiyası Texnikası , Həsənov Q. Ə., BAKI-2009
3. Fang Zhu, Baitun Yang - Power Transformer Design Practices-CRC Press (2021)
4. IEC 60076-3-2013-Dielectric tests
5. Impulse Testing of Power Transformers Using the Transfer Function Method (1988)
6. Optimized Insulation Design of Power Transformer Windings under Fast Voltage Pulses

PROJECT OF SMART WATCH

Bakalavr:
Sərkərov Nihad Qüdrət
IV kurs, 510.20E

Elmi rəhbər:
Mərufov İ.M

Abstract: Smartwatch (SW) is a wearable gadget used in everyday life. It is equivalent to a customary wristwatch and offers features similar to a smartphone. These features include access to the internet, making a call, weather updates, text or video messages, GPS navigation, health, physical fitness information, etc.

Keywords: navigation, biomedical, analyzed

Azərbaycan təhsilinin milli tariximizdə coşğun yüksəlişi, əsl intibah illəri kimi daxil olan ilk mərhələsi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edir. Ümumilli lider Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən ölkəmizdə elmin və təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərməyə başlamışdır. Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir. Dövlət rəhbəri və siyasətçi kimi bütün müsbət xüsusiyyətləri özündə cəmləşdirən Heydər Əliyev elm və təhsil sahəsinə xüsusi diqqət göstərməsi təqdirəlayiqdir. Sual oluna bilər ki, Heydər Əliyev niyə təhsilə bu qədər önəm verirdi? Çünki dahi lider bilirdi ki, bir milləti irəliyə aparan yeganə önəmli faktor, aparıcı qüvvə təhsildir. Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda Ulu öndər Azərbaycan xalqını və dövlətini məhv olmaqdan xilas etmişdir.

Heydər Əliyev təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğunu aydın görürdü və təhsil sistemində ciddi islahatlar həyata keçirirdi. 1972-ci ildə “Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında” və 1973-cü ildə “Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında” qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənar qoymurdu. Ümummilli lider öz çıxışlarında da dəfələrlə təhsilin

mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdi ki, təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə də ticarətdir. Bu cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən bir sahədir.

2002-ci ildə ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. 17 fevral 2003-cü ildə "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın təsdiq edilməsi haqqında" sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılmasında mühüm rol oynamışdır. Hakimiyyətdə olduğu illərdə maraqlı bir ənənə yaradan Heydər Əliyev hər il yeni dərs ilinin başlanğıcında məktəblərin açılışında iştirak edir, yaranmış şəraitlə tanış olurdu. Ulu öndər təhsilin dünya standartlarına uyğun inkişafı ilə bağlı onlarla tarixi əhəmiyyətli fərmanlar və sərəncamlar imzalamışdır.

Bu gün əldə edilən ciddi uğurların əsas səbəbi Heydər Əliyevin bütün həyatı boyu məqsədyönlü şəkildə atdığı addımların, islahatların nəticəsidir.Ölkəmizdə qısa müddət ərzində əldə olunmuş böyük uğurların təməlində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyi dayanıb.

İlham Əliyevin hələ 2003-cü ildə prezident kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən hakimiyyəti xalqa xidmət vasitəsi hesab etdiyini bildirməsi varisliyin layiqli siqnalı idi. Onun ümummilli lider Heydər Əliyevin siyasi xəttini yüksək səviyyədə inkişaf etdirməsi müasir dövrdə Azərbaycanın dinamik tərəqqisini şərtləndirən mühüm amildir. Prezident İlham Əliyev Azərbaycanda alternativsiz lider, Cənubi Qafqaz regionunda isə Heydər Əliyevdən sonra ikinci böyük siyasi xadimdir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR:

1.Yaşar Əhmədov, Azərbaycan elminin və təhsilinin himayədarı, 2023
2.https://azertag.az/xeber/azerbaycan_tehsilinin_inkisafinda_ulu_onder_heyder_eliyevin_tarixi_xidmetleri-2341676
3.https://www.azerbaijan-news.az/az/posts/detail/heyder-eliyev-ve-tehsil-siyaseti-1670880755

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ

Bakalavr: Elmi rəhbər: İzzət Alıyeva
Nuri Namiq Anar
I kurs 131.23 qrup. ulkarhasani@gmail

Ümumilli liderimiz Heydər Əliyev demişdir: "Təhsil millətin gələcəyidir".Yəni gələcəyimiz savadlı, bilikli, ziyalı nəsil yetişdirməyə bağlıdır.Təhsili möhkəm olan xalqı heç bir qüvvə yıxa bilməz. Ana dilinin qanunlarını mükəmməl bilən şəxslərin əlavə dilləri öyrənməsi məqbuldur. Poliqlot insanların əhatə dairəsi, dünyagörüşü geniş olur. Bu mənada H.Əliyev demişdir: "Mən keçmişdə də demişəm, bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdirki, hər bir azərbaycanlı çox dil bilsin". Ancaq birinci növbədə öz ana dilini-dövlət dilini yaxşı bilsin.

Zaman-zaman böyük şəxsiyyətlərimiz də dil haqqında qiymətli fikirlər söyləyiblər. Ş.İ.Xətayi demişdir: "Üç əsas amil dövlətin var olma səbəbidir-dilimiz, qeyrətimiz, məmləkətimiz". Bu üç amil hər bir dövlətin var olma səbəbidir.

Yenə də fikrimi ümumilli liderimizin dəyərli ifadələri ilə davam etdirərək bildirmək istəyirəm ki, H.Əliyev çox dil bilməyin tərəfdarı olmuşdur və bildirmişdir: "Çox dil bilmək, əlbəttə, ki, lazımdır, vacibdir. Mən bir daha arzu edirəm ki, vətəndaşlarımız ingilis dilini də, rus dilini də, fransız dilini də, ərəb dilini də, fars dilini də, hətta Çin dilini də bilsinlər". Bəli, gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünya görüşə malik olacaqlar. Bu, müasir dünyanın tələbləridir. Amma ən əsası ondan ibarətdirki,hər bir Azərbaycan vətəndaşı,hər bir azərbaycanlı öz ana dilini -

Azərbaycan dilini, dövlət dilini mükəmməl səviyyədə bilməlidir. Gənclərimizə tövsiyə edirəm ki, əgər kiminsə bu barədə çatışmazlığı varsa, çalışın bunu aradan qaldırın.

Xaricdə təhsil alarkən, xarici dildə danışarkən,eyni zamanda başqa dilləri öyrənərkən öz ana dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şey ola bilməz.

Mən bir Azərbaycan gəncliyinin timsalı olaraq Ümumilli liderimizin bütün tövsiyələrini dərk edirəm, dilimi çox sevirəm, onu heç bir dilə dəyişməyəcəyimə və qoruyacağıma dair söz verirəm.

Mənim dilim - doğma dilim - Azərbaycan dilim mənim mənəviyyatım, mənim var olma səbəbim, keçmişim, bu günüm,uğurlu gələcəyimdir!

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR:

1.https://mod.gov.az/az/pre/25662.html

2. https://ikisahil.az/post/53204-news-53204

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN ƏDƏBİYYATININ TARİXİNDƏ

Bakalavr: Elmi rəhbər: müəllim Abdullayeva Könül
Həsənli Ülkər Abukərim
I kurs, 732.23E

Heydər Əliyev Azərbaycan tarixinin yetişdirdiyi ən nadir simalardan biri, türk dünyası və bəşəri-sivil dünyanın qüdrətli şəxsiyyətidir. Onun Azərbaycan ədəbiyyatının inkşafı ilə əlaqədar gördüyü işlər, heç nə ilə müqayisə olunmayan fədakarlığı, Azərbaycan ədəbiyyatı tarixinin yaddaşlarında silinməz izlərlə həkk olunub. Heydər Əliyev böyük bir dövrü əhatə edən zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamışdır. Məhz buna görə xalqımız onun adını tarixə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi həkk etmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev azərbaycançılığı çox gözəl ifadə etmiş və ona layiqli qiymətini vermişdir: “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə

qürur hissi keçirməlidir və biz azərbaycançılığı -Azərbaycan dilini, mədəniyyətini milli-mənəvi dəyərlərini adət-ənənələrini yaşatmalıyıq". Bəli, təsadüfi deyil ki, onun hakimiyyətdə olduğu illərdə Bakının görkəmli yerlərində Mikayıl Müşviq, Hüseyn Cavid, Nəsimi, Cəfər Cabbarlı kimi yazarların heykəlləri qoyulub, Məhəmməd Füzulinin 500 illiyi, Dədə Qorqudun 1300 illiyi, Səməd Vurğunun 90 illiyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox yerlərində təbliğ olunub. Ulu Öndər hakimiyyətinin ilk illərində 12 avqust 1969-cu ildə Qazaxda Molla Pənah Vaqifin ev muzeyinin yaradılması qərarının verilməsi öz dövrü üçün böyük ədəbi hadisə olmaqla yanaşı, milli hadisə idi. 1978-ci ildə isə Şamaxıda Ədəbiyyat Muzeyi yaratmaq haqqında qərar qəbul edilməsi həmin bölgənin tarixi şöhrətini daha da artırdı. 1980-ci ilin 11 dekabrında Naxçıvan şəhərində Hüseyn Cavid kimi bir şəxsiyyətin ev muzeyinin yaradılması qərarına imza atmaq həmin zaman kəsiyi üçün əvəzolunmaz iş idi. Bunu Hüseyn Cavidin faciəvi həyat tarixçəsinə əsaslanaraq söyləmək daha inandırıcı olar. Bir imperiyanın məhv etdiyi bir dahini hələ o imperiyanın mövcud olduğu bir zamanda vətəninə qaytarmaq tarixi ədalətsizlik üzərində milli qələbə idi. 1995-ci il iyunun 10-da Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı müşavirədə çıxışında Ulu Öndər bildirmişdi: "Hüseyn Cavid bizim üçün doğrudan da əzizdir. O, tariximizdə böyük bir şəxsiyyətdir və böyük bir irs qoyub. Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcək. "Heydər Əliyev 15 yanvar 1982-ci ildə Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak edir. Bu hadisənin tarixi əhəmiyyətini həmin tədbirin iştirakçısı və şahidi olmuş şairlərimiz sonralar əsərlərində xüsusilə qeyd etmişlər. Ulu Öndər özü isə 1997-ci il oktyabr ayının 30-da Azərbaycan Yazıçılarının X Qurultayında bununla bağlı bildirib: "Vaqifin vəfatından 200 il sonra biz Şuşada onun məzarı üzərində əzəmətli bir məqbərə ucaltdıq. Bu, həm Vaqifin yaradıcılığına, həm də, ümumiyyətlə, ədəbiyyata, şeirə, mədəniyyətə olan münasibətimiz idi."

Bütün bunlarla yanaşı, hakimiyyətdə olduğu dövrün birinci mərhələsində istər müasir, istərsə də klassik şair və yazıçıların yubileylərinə xüsusi qayğıkeşliklə yanaşmasını unutmaq olmaz.1972-ci ildə Nəriman Nərimanovun 100 illik yubileyi qeyd edilməklə bərabər, heykəlinin ucaldılması ədəbiyyat tariximiz üçün önəmli hadisə idi. Həmçinin 13 sentyabr 1973-cü ildə bəşəri klassikimiz İmadəddin Nəsimin 600 illik yubileyinin Bakı ilə yanaşı Moskvada da keçirilməsi bütün imperiyanı Azərbaycana diqqət ayırmağa sövq etmək demək idi. Nəticədə 1980-ci ildə Bakıda İmadəddin Nəsimin abidəsi qoyuldu. Bununla əlaqədar Ulu Öndər 1999-cu il aprelin 8-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının növbəti iclasında bidirmişdir: "Biz Nəsimini dünyaya tanıtmaqla Azərbaycanı yenidən tanıtdıq."

Bu münasibətlə 6 yanvar 1979-cu ildə "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edilir. Dövrün bütün ziddiyyətlərinə baxmayaraq, qərarda Nizami Gəncəvinin məhz Azərbaycan şairi olmasının qabarıq vurğulanması əsas önəmli fakt idi. Bu o demək idi ki, böyük bir imperiya Nizami Gəncəvini Azərbaycanın şairi olaraq öyrənir və təbliğ edirdi. Qərarın icrasından irəli gələrək, 1981-ci ildə şairin 840, 1991-ci ildə isə 850 illiyi dövlət səviyyəsində keçirilmişdir.

Bir sözlə, Ulu Öndər əbədiyyətə qovuşsa da, onun Azərbaycan xalqı üçün olan misilsiz xidmətləri əbədi olaraq yaşayacaq.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR:

1.İ.R.Məmmədzadə, Ə.M.Tağıyev, S.S.Həsənov, T.S.Quliyev, S.S.Əliyeva, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümünə həsr edilmiş ümumrespublika elmi-praktik konfransının materialları,"Təknur" 2008.

2.Ulu öndər Heydər Əliyev və Azərbaycan dili - "İki sahil".

AZƏRBAYCAN ORDU QURUCULUĞU- HEYDƏR ƏLIYEV DÖVRÜ

Bakalavr: Elmi rəhbər:
Məmmədov Elgün Elşən fil.ü.f.d. Aslanova Ülkər
I kurs, 645.23

Ümummilli liderin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irs, ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən çoxcəhətli, fundamental fəaliyyət proqramının əsasını, heç şübhəsiz, ordu quruculuğu təşkil edir. Bu istiqamətdəki fəaliyyətin qlobal miqyası ölkəmizin bugünkü reallıqlarının, keçmişinin və gələcəyinin prizmasından olduqca əzəmətli görünür. Ulu öndəri şəxsi müdaxiləsi və qayğısı ilə 70-ci illərdən başlayaraq Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin arasında azərbaycanlıların sayı sürətlə artmağa başladı, hərbidə də milliləşdirmə prosesinə start verildi. Milli hərbi kadr hazırlığı sahəsində ən kardinaladdım Cəmşid Naxçıvanski adına Hərbi liseyin yaradılması oldu ki, bu da azərbaycanlılar arasında hərbi sahəyə marağın kütləvi xarakter almasına gətirib çıxardı.

Ümummilli liderin təşəbbüsü ilə Azərbaycan Maarif Nazirliyi və respublika hərbi komissarlığı Azərbaycan KP MKbürosunun 1971-ci il 29 aprel tarixli qərarını əsas götürərək, hərbi təmayüllü internat məktəbinin açılması üçün 1971-ci il iyunun 16-da müraciət hazırlayır. Bu müraciət dərhal müzakirə olunur və 20 iyul 1971-ci ildə "İxtisaslaşdırılmış internat məktəbinin yaradılması haqqında" Azərbaycan KP MK bürosu qərar qəbul edir. 1971-ci ilin noyabr ayında dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü, zəhməti və uzaqgörənliyi sayəsində, böyük əziyyətlər bahasına tarixi bir addım atıldı – Bakı şəhərindəki 2 nömrəli 8 illik internat məktəbinin bazasında yüzlərlə Azərbaycan vətəndaşının təhsil almağa başladığıhərbi təmayüllü məktəbin açılışı olmuş, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev bu təntənəli mərasimdə iştirak etmişdir. C.Naxçıvanski adına hərbi məktəbin açılması Ulu öndərin xalqın sabahı naminə uzaqgörənliklə həyata keçirdiyi siyasətin real bəhrəsi idi.

1976 – 1977-ci illərdən başlayaraq SSRİ-nin ali hərbi məktəblərinə ildə 800 – 900 nəfər gəncin göndərilməsinə nail olundu. Bu çox böyük ustalıqla, siyasi

baxışlarla, dünyagörüşü ilə gələcəyə hesablanmış əhəmiyyətli məsələ Ulu öndərin xalq qarşısındakı tarixi xidmətlərindən biri idi. Gələcəkdə milli ordusunun formalaşdırılmasında güclü zabit ehtiyatı, bacarıqlı, savadlı hərbi kadrlarla zəngin olan qüdrətli ordunun yaradılması müstəqilliyin təməllərinin birinin hazırlanmasına hesablanmışdır. Belə uzaqgörən siyasətin bəhrəsi kimi bu gün mövcud olan güclü, qüdrətli, düşmənlərə layiqli cavab verən milli ordunun formalaşmasının, bacarıqlı hərbi kadrların hazırlanmasının əsası məhz böyük tarixi şəxsiyyət Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində mümkün olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli Sərəncamı və müdafiə nazirinin09 aprel 1998-ci il tarixli əmri ilə 1998-ci ildə Naxçıvan Muxtar Respublikasında C.Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialı açılmışdır. Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə C.Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialı ləğv edilmiş və onun əsasında Heydər Əliyev adına Hərbi lisey yaradılmışdır. C.Naxçıvanski və Heydər Əliyev adına Hərbi liseylər hərbiləşdirilmiş tam orta təhsil müəssisələridir. Hərbi liseydə təhsil müddəti iki ildir. 2004-cü ilin iyununda Heydər Əliyev adına Hərbi liseyin 138 nəfər məzunla ilk buraxılışı oldu. İki nəfər kursant-məzun yeni liseyin ilk fərqlənmə attestatını aldı. Ölkə başçısının xüsusi Sərəncamı iləHeydər Əliyev adına Hərbi lisey 2008 – 2009-cu dərs ilində "İlin ən yaxşı ümumtəhsil məktəbi" adına layiq görülmüşdür. Qısa tarix ərzində liseyi 5 kursant qızıl, 5 kursant gümüş medalla, 12 kursant isə fərqlənmə attestatı ilə bitirmişdir. Onlarla məzun xarici dövlətlərdə, o cümlədən Rusiya Federasiyasında, Türkiyə və İtaliyada təhsillərini davam etdirmiş, liseyin 7 nəfər əməkdaşı xüsusi xidmətlərinə görə müxtəlif fəxri adlar və təltiflərlə mükafatlandırılmışdır. Müdrik insan və siyasət korifeyi olan Ümummilli liderin xalqın qarşısındakı əvəzedilməz xidmətlərindən biri də müstəqil dövlətimizin müdafiə qüdrətinin ardıcıl olaraq möhkəmləndirməsi idi. 1999-cu il fevralın 20-də Prezidentin Fərmanı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldı,

2001-ci il avqustun 20-də Prezidentin Azərbaycan Ali HərbiMəktəbi, Ali Hərbi Dənizçilik Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi ilə bağlı Fərmanı imzalandı.

Məktəbinin 500-dən çox kursantı və zabit-gizir heyəti də qatılmışdır. Hazırda respublikamızınSilahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulmuş digər hərbi birləşmələr üçün müxtəlif kateqoriyadan olan hərbi kadrların hazırlanması xüsusi təyinatlı ali təhsil müəssisələrində, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində, Hərbi İdarəetmə İnstitutunda və digər hərbi təhsil müəssisələrində uğurla həyata keçirilir. 1997-ci ildən bu məktəblərdə NATO standartlarına uyğun tədris proqramı tətbiq olunur. 1994-cü ilin mayından Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin zabitləri NATO-nun strateji və regional qərargahlarında müxtəlif vəzifələrə təyin edilmişlər. Hərbçilərimiz sülhməramlı, humanitar və digər çoxmillətli təlimlərin planlaşdırılması, hazırlanması və həyata keçirilməsində yaxından iştirak edirlər. Son illərdə NATO-nun müxtəlif tədbirlərində Azərbaycan Ordusunun yüzlərlə nümayəndəsi iştirak etmişdir. NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində respublikamızda bir neçə çoxmillətli komanda-qərargah təlimləri keçirilmişdir. "Kooperativ Determineyşn", "Regional cavab- 2009" kimi təlimlərdə NATO üzvü və tərəfdaş dövlətlərdən nümayəndələr iştirak etmişdir

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR:

1. Mirzəzadə, A. Xalqın böyük xilaskarı / A.Mirzazadə – Bakı: Azərbaycan nəşriyyatı, – 2001. –607 s.
2. Əliyev, H. Müstəqilliyimiz əbədidir / H.Əliyev – Bakı: Azərnəşr, – 1998. – 479 s.
3. Əliyev, İ. Azərbaycanıma inanıram / İ.Əliyev – Bakı: – Azərnəşr, –2007. – 206 s.
4. Əliyev, H. Müstəqillik yollarında / H.Əliyev – Bakı: Azərnəşr, – 1997. – 569 s.
5. Hüseynova, İ. Dövlətçilik naminə / İ.Hüseynova – Bakı: Azərbaycan, – 2001. – 293 s.

6. Xəlilov, S. Lider. Dövlət. Cəmiyyət / S.Xəlilov – Bakı: Azərbaycan Universiteti, – 2001. – 357s.
7. Əhmədov, Y.P. Bəşəriyyət mənəvi süqut ərəfəsindədir / Y.P.Əhmədov – Bakı: UniPrint, –2011. – 305 s.
8. Əhmədov, Y.P. Vətən müharibəsi fəlsəfəsi / Y.P.Əhmədov – Bakı: ADNSU, – 2022. – 357 s.

HEYDƏR ƏLİYEV AZƏRBAYCANÇILIĞIN SİYASİ MƏKTƏBİDİR

Bakalavr:
Şıxaliyev Rəvan İlqar Sədaqət
II kurs., qr.:431.22

Elmi rəhbər:
müəllim Qasımova

Heç şübhəsizdir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə tanınan, öz sözünü deyə, öz mövqeyini qoruya bilən haqq səsini dünyaya çatdıran, yüksək iqtisadi,hərbi potensiala malik ölkədir. Ölkəmizin gücə gəlib çatmasının təməli Ulu öndərin düzgün siyasətinin nəticəsidir.

Müstəqilliyimizin ilk illərində ölkənin ağır muharibə şəraitində utanmadan hakimiyyət sevdasına düşən şəxlərin, ölkəni idarə edə bilməməsi hətda parçalamaq həddinə gətirməsindən təngə gələn xalqımız inadla uzaq görən lideri Heydər Əliyev cənablarını Bakəya dəvət etdi. Bu mənadan Azərbaycan xalqı şanslıdır ki onun dünya miqyaslı dahi şəxsiyyəti, xalqımızı və dövlətçiliyimizi düzgün yönəltməyi bacaran öndəri olub.

1923-cü ildə dünyaya gələn ümumillilider heç şübhəsiz ki, bu Azərbaycançılıq sevgisini uşaq vaxtlarından almış, o Azərbaycançılıq sevgisi ilə böyüdülmüşdür. Bunun nəticəsidir ki, 1969-cu ildə Azərbaycan Komunist Partiyasının Mərkəzi Komitəsinin 1-ci katibi seçilmiş Heydər Əliyev tez bir zamanda öz fitri istedadı və düzgün siyasi yolu nəticəsində Azərbaycanı digər SSRİ respublikaları arasında önə çıxarmışdır. O bu dövrdə xalqımıza qarşı qərar qəbul edilməsinə icazə verməmiş, Azərbaycan əleyhinə fikir səsləndirənləri yerinə oturtmuşdur.

Ümumilli lider 1993-cü ildə Azərbaycan xalqının dövlətinin qurtuluşuna imza ataraq, ölkə başçısı seçildikdən sonra, öz düzgün siyasi yolu, məsuliyyəti, əməyi nəticəsində Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqiyə nail oldu.

Ulu önderin rəhbərliyi ilə milli təhsilimiz xüsusi inkisaf mərhələlərindən keçmişdir: Azərbaycan təhsilinin inkisafın yüksəlişi (1970-1982). Azerbaycan təhsilinin xüsusi mərhələsi (1982-1987). Müsteqil Azerbaycanda yeni tehsil quruculuğu dövrü oldu (1988-1993).

Xalqımız çox gözəl bilirdi ki, belə bir hər tərəfli savada, yüksək insani keyfiyyətlərə malik, ən əsası millətini və dövlətini uca tutmağı bacaran, Azərbaycan coşqusuyla nəfəs alan siyasi lider Heydər Əliyev xilas edə bilər.

Heydər Əliyev müstəqillik illərimizdə də imperiyalist ölkələrin maraqlarında olan ölkəmizi, düzgün iqtisadi əməkdaşlıqlar, balanslı siyasəti ilə təhlükəsizliyini təmin edib, bir-başa onun inkişafına yol açdı. 1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında ADNŞ ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstanın iri neft şirkətləri daxil olan konsersum (sonralar bu konsersuma Yaponiya şirkəti də qoşuldu) arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 il müddətinə imzalanmış "Əsrin müqaviləsi"nə əsasən 30 neft şirkəti ilə 57 milyard sərmayə qoyuluşu nəzərdə tutulan 20 neft müqaviləsi imzalandı.

2003-cü ildə 1993-cü ildə olduğu kimi Azərbaycan xalqı öz dahiliyini sübut edərək Heydər Əliyev siyasi yolunu davam etdirən şəxsi ölkə rəhbəri seçdi. Bu düzgün seçimin nəticəsidir ki, yaxın keçmişdə baş verən 44 günlük günlük

ƏDƏBİYYAT SİYAHISI

1)Xudiyev N.M. Uğurlu yolun layiqli davamçısı. Bakı – 2007.

2)Müstəqilliyimiz əbədidir: 2-ci kitab.Bakı:Azərnəşr,1997

3)Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı – 2003. 504 səh

4) İradə Nuriyeva-Azərbaycan tarixi. Bakı-2021

ŞUŞA BƏYANNAMƏSİ AZƏRBAYCAN-TÜRKİYƏ DOSTLUĞUNUN TƏMİNATIDIR!

Bakalavr:
Fərda Babayev
I kurs, 633.23

Elmi rəhbər:
s.e.d., prof. Nuriyeva İradə

Şuşa bəyannaməsi - 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanmış bəyannamədir.

Əsas təməli Ümummilli Lider H.Əliyevin " Bir millət, iki dövlət!" və Türkiyə Cumhurriyətinin qurucusu olan Musatafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimizdir!" ideyaları üzərinə qurulan bu bəyannamənin imzalanmasında əsas məqsəd Azərbaycan-Türkiyə dostluq münasibətlərinin bir daha rəsmi şəkildə təsdiq olunmasıdır.Bu bəyannamə 15 iyun 2021-ci il tarixdə, Azərbaycanımızın mədəniyyət beşiyi olan Şuşa şəhərində, Azərbaycan Respublikasının Prezidenti, Cənab Ali Baş Komandan İlham Əliyev və qardaş Türkiyə Cumhurriyətinin Prezidenti Rəcəb Tayyip Erdoğan arasında imzalanmış və Azərbaycan və Türkiyə Respublikaları arasında regional təhlükəsizlik baxımından müstəsna əhəmiyyət kəsb edən müttəfiqlik münasibətləri haqqında bağlanmış birmüqavilədir.

Azərbaycan xalqının Milli Qurtuluş günü və Qarabağla Zəngəzur üçün çox mühüm olan QARS müqaviləsinin 100-cü il dönümü günü ŞUŞA BƏYANNAMƏSİNİN imzalanması xüsusi rəmzi məna daşıyır. Həm o vaxt, həm də indi ABŞ,Rusiya,Bğyük Britaniya, Fransa və İran açıq şəkildə Cənubi Qafqazda hegemonluq uğrunda mübarizə aparırlar. Amma bu dəfə fərq ondan ibarətdir ki, hadisələr Azərbaycanın maraqlarına uyğun cərəyan edir.Əgər o zaman hadisələr Ermənistanın və onun havadarlarının xeyrinə başa çatıbsa, bu gün Cənubi Qafqazda yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qələbəsi deməkdir. Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi,

bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eyni zamanda region ölkələri arasında münasibətlərin normallaşdırılması və davamlı sülhün təmin edilməsi istiqamətində Azərbaycan və Türkiyə dövlətlərinin birgə təşəbbüsləri bu münasibətlərin daha da möhkəmləndirilməsinin və inkişaf etdirilməsinin zəruriliyini göstərən ən bariz nümunədir. Bütün dünyaya nümunə olan Azərbaycan-Türkiyə həmrəyliyi və strateji tərəfdaşlığı ən yüksək zirvəyə çatmışdır və bu daimidir!

HEYDAR ALIYEV'S ROLE IN PROTECTING ISLAMIC VALUES IN AZERBAIJAN

Bachelors: Scientific adviser: teacher Aghayeva
Aziza
Safarova Khadija Ehtibar
II course. Group: 126.22E

There are geniuses who have an important historical mission in the achievement of independence, religious and national-spiritual values and progress of every people and nation. HeydarAliyev was one of these personalities in Azerbaijan, which has a place in world and human history.

The national leader of the Azerbaijani people, the great leader HeydarAliyev, respected the national traditions of the nation, as well as its religious values. Azerbaijan's successes in many fields over the years are undoubtedly the result of the life and activities of the Great Leader HeydarAliyev.After the rapid collapse of the Soviet ideology, Islam took a special place in Azerbaijan. Therefore, as the leader of Azerbaijan, he started to resolve the country's relationship with Islam on a healthy level. To summarize a few points:

1. Islam is the religious belief of the people of Azerbaijan and is an integral part of their national culture.

2. Religion acts as an important factor of national, moral and spiritual integrity of society.

3. In modern times, there is a need for proper regulation of state-religion relations.

4. Understanding and dialogue between religions and peoples is one of the main requirements of the new international conditions.

HeydarAliyev's book "Let us all be free in the path of God" is available. In 1993, this book was published in Azerbaijani and several foreign languages.

In July 1994, the National Leader visited the holy cities of Mecca and Medina.The rebuilding of the Bibiheybat Mosque and its shrine, which was destroyed by the Soviet regime, by the order of the great leader HeydarAliyev, is an indicator of his services in this field. Also, the restoration of the largest mosque of Baku, the Tazāpir Mosque, the shrine of Mir Mohsen Agha, was carried out directly under hispatronage. The number of examples of this type is quite large.

Of course, the Soviet political-ideological system was the direct cause of the isolation of the Azerbaijani people from their religion in other Muslim nations living in the former USSR, and this consideration was always brought to the fore in HeydarAliyev's analysis. But at the same time, interpreting that event as a test of God, he said: "The people of Azerbaijan have been deprived of their religion for a long time. This is, of course, a sad situation for us. But what about you?" , nor did it depend on me. Maybe this is God's work. And this is a test to see how much happiness a person gets after being deprived of his religion and how much happiness he gets after he is deprived of his religion."

These and other opinions of HeydarAliyev show that he highly appreciates the role of Islam in the acquisition of common and human values of our people.

LITERATURA PART

1. https://az.trend.az/azerbaijan/politics/2743547.html
2. https://www.elibrary.az/docs/qazet/qzt2017_1258.htm

3. https://www.yeniazerbaycan.com/Sosial_e34173_az.html

IDEOLOGICAL CHALLENGES AND NATIOONAL UNITY IN AZERBAIJAN: UNVELLING THE THREATS OF PAN-IRANISM, “GREAT ARMENIA AND SECTARIANISM”

Bakalvr: Süleymanov Asif Rasim, 2-ci qrup,622.22E
Elmi rəhbər: s.e.ü.f.d.Səmədli Ziya

This presentation explores the ideological challenges to national unity in Azerbaijan. It examines the threats posed by Pan-Iranism, 'Great Armenia', and sectarianism. By understanding these challenges, we can develop strategies to strengthen national unity and safeguard our country'interests. Azerbaijan has faced historical ideological challenges that threaten national unity. Pan-Iranism seeks to unite Iranian-speaking peoples, potentially undermining Azerbaijani sovereignty. The concept of 'Great Armenia' aims to expand Armenian territory, posing a threat to Azerbaijan's territorial integrity. Sectarianism, with its potential for religious divisions, also poses challenges to national unity. Pan-Iranism promotes the idea of a pan-Iranian identity, encompassing all Iranian-speaking peoples.

This ideology challenges Azerbaijani national unity by emphasizing cultural and linguistic ties to Iran. It can lead to internal divisions and potential separatist movements. It is crucial to address and counteract the influence of Pan-Iranism to preserve Azerbaijan's sovereignty and national identity. The concept of 'Great Armenia' poses a threat to Azerbaijan's territorial integrity. It advocates for the expansion of Armenian territory, including areas historically inhabited by Azerbaijanis. This territorial claim undermines national unity and can lead to conflicts. It is essential to raise awareness about the risks associated with 'Great Armenia' and work towards peaceful resolutions to maintain stability in the region.Sectarianism, based on religious differences, poses challenges to national

unity in Azerbaijan. It can create divisions among different religious communities and undermine social cohesion. Promoting interfaith dialogue, tolerance, and understanding is crucial to counteract sectarianism and foster a united and harmonious society. Implementing educational initiatives is vital in countering ideological challenges and promoting national unity. By incorporating comprehensive and inclusive curricula, we can foster a sense of shared identity and understanding among Azerbaijani citizens. Education plays a crucial role in shaping attitudes, values, and beliefs, making it an effective tool in combating threats to national unity.

The media and communication channels play a significant role in shaping public opinion and national unity. Promoting responsible and unbiased reporting, fostering dialogue, and countering misinformation are essential in combating ideological threats. By utilizing media platforms effectively, we can promote a shared national narrative and counter divisive ideologies. Government policies and initiatives are crucial in addressing ideological challenges and ensuring national unity. Developing comprehensive strategies that prioritize inclusivity, equal rights, and social cohesion can help counteract divisive ideologies. It is essential for the government to actively engage with various communities and promote policies that protect national unity and preserve Azerbaijan's sovereignty. Engaging civil society organizations and promoting grassroots initiatives is vital in strengthening national unity. By fostering collaboration and dialogue among different groups, civil society can play a significant role in countering ideological challenges. Encouraging active citizen participation and supporting initiatives that promote inclusivity and social cohesion will contribute to a more united Azerbaijan. In conclusion, Azerbaijan faces ideological challenges to national unity, including Pan-Iranism, 'Great Armenia', and sectarianism. By understanding and addressing these threats through educational initiatives, media engagement, government policies, and civil society engagement, we can

safeguard our country's sovereignty and foster a united and harmonious society. Together, we can overcome these challenges and build a stronger Azerbaijan.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR:

1. https://en.wikipedia.org/wiki/Pan-Iranism
2. https://top-center.org/en/analytics/3577/armenia-and-azerbaijan-at-a-critical-juncture
3. https://bakuresearchinstitute.org/en/two-shores-the-role-of-iranian-azerbaijan-in-the-construction-of-identity-in-the-republic-of-azerbaijan/
4. https://lib.aliyevheritage.org/az/2729622.html

PROBLEM OF MUSLIM MINORITIES IN EUROPIAN COUNTRIES

Bachelor: Rasulov Rashid Zulfuqar
II course group:382.22E
Scientific adviser: teacher
Aliyev İlqar

The main problems that Muslims face in European countries are lack of understanding and condemnation from other people for their faith and what they follow, the small number of mosques, stereotypes and criticism and other problems that surround Muslims especially in Muslim countries. The basis of the religion of Islam These are Shahada (worship of only one god and denial of other gods), Namaz (five times prayer), fasting during the holy month of Ramadan, Zakat (alms) and Hajj pilgrimage to Mecca (if physical and material resources are available). Unfortunately, some people don’t even want study Islam so that you understand what it is about and because of their beliefs, which people themselves come up with, they are extremely unfriendly to people who profess Islam. There are two main problems of Muslims, the first of which lies in the people themselves, and the second is the problems that make the life of Muslims uncomfortable The solution to the first problem is an adequate reaction to people who profess different faiths, including Islam, and for the sake of improving your knowledge and increasing your worldview, study religion before looking at some

of the laws of Islam with misunderstanding and condemnation. The second problem depends on the leaders of European countries that do not create appropriate living conditions for Muslims, such as: a small number of places where halal meat products are sold, a small number of mosques, stereotypes that Muslims face even in government jobs, etc.To solve these problems, first, strengthen lobbying and establish contact with local Christian communities. Second, strengthen educational activities (newspaper, magazine, radio and television appearances). to work and achieve the participation of members of Muslim associations in the fifth international organizations.To be in constant dialogue with the law-making and law enforcement agencies against persecutions from the point of view of religion (hijab, beard, prayer, gathering in mosques) in the countries where they live.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR:

- Parliamentary Assembly
- Assembly debate on 23 June 2010
- Brookings

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN SƏHİYYƏSİ

Bakalavr : Elmi rəhbər: müəllim Əliyev İlqar
Kazımova Röya Nuru
II kurs qr.:382.22E

Tarixi mənbələrə istinad edərək demək olar ki, ötən əsrlər ərzində Azərbaycanda əhaliyə tibbi yardımın necə göstərilməsi barədə birmənalı məlumatlar mövcuddur. Mənbələr göstərir ki, ötən əsrlərdə Azərbaycan əhalisinə tibbi yardım həm Azərbaycanda, həm də qonşu Şərq ölkələrində fəal olmuşdur. Bu işləri mədrəsə təhsili almış həkimlər həyata keçirirdilər. İslam dininin qoyduğu qadağalar ucbatından bu mədrəsələrdə təbabətin əsası olan insan anatomiyası və

fiziologiyası öyrənilməmişdir ki, bu da səriştəsiz kadrların yaranmasına səbəb olmuşdur. Onların ayrı-ayrı xəstəliklər haqqında təsəvvürləri olmadığı üçün xəstəliklərin müalicəsində və qarşısının alınmasında kömək edə bilmirdilər. Digər tərəfdən həm həkimlərin, həm də stasionar və ambulator müalicə mərkəzlərinin çatışmazlığı bu işə mane olurdu. Bu, o vaxtdan bəri mövcud olmuş mamalara, cadugərlərə, din xadimlərinə əhaliyə tibbi yardım sahəsində qanadlarını açmaq üçün geniş imkan yaratmışdır.

Bəzi tarixi həqiqətləri vurğulamaq istəməsək də, onları inkar edə bilmərik. Tarixi faktlara əsaslanaraq etiraf etməliyik ki, Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında əsaslı mütərəqqi dönüş 1813-cü ildə "Gülüstan" müqaviləsindən sonra Rusiyanın tərkibinə daxil olduqdan sonra başlamışdır. 1818-1917-ci illər arasında Azərbaycanda tibbi yardımın təşkili və inkişafının tarixi fonunda bunu aydın görmək olar.

Tarixi mənbələrdən aydın olur ki, ötən əsrlərdə Azərbaycanın görkəmli tibb alimləri olub. Şərq və Qərb ölkələrinin qabaqcıl və məşhur təhsil ocaqlarında yetişən bu mütəxəssislər Azərbaycanda azlıq təşkil edirdilər və ölkədə gedən sosial-iqtisadi, mədəni proseslər zamanı belə mütəxəssislərə böyük ehtiyac duyulurdu. 1913-1914-cü illərin tibb mənzərəsini əks etdirən arxiv sənədlərində qeyd olunur ki, həmin dövrlərdə Azərbaycanın bütün şəhər-ambulatoriya və müalicə ocaqlarında cəmi 45 həkim işləyirdi.

Tibbi-sanitariya sistemi və sahə bölməsi yaradıldıqdan sonra onun statistikası, xüsusilə epidemioloji statistika tənzimlənmişdir. Bu, həm də statistik məlumatların vaxtında toplanmasına, şəhərdə sanitar epidemioloji vəziyyətin real mənzərəsinin yaradılmasına, eləcə də xəstələrin, eləcə də şəhərdə doğulanların və ölənlərin sayının konkret mənzərəsini yaratmağa imkan verib. Bu məlumatlar o dövrdə dərc edilən "Tibbi-sanitariya bürosunun məlumatlarında tam əksini tapmışdır. Həqiqətən də onun hakimiyyətə gəlişi respublikanın həyatında intibah idi. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə istehsalı məhdud olan fabrik və

zavodlar, müflis olmuş kolxoz və sovxozlar, çoxdan unudulmuş tikinti obyektləri canlanaraq inkişaf yoluna qədəm qoydu. Sözün əsl mənasında, ölkənin həyatında yeni quruculuq və quruculuq dövrü başlayıb. Bu proses cəmiyyətdə, iqtisadiyyatda, mənəviyyatda daha qabarıq şəkildə özünü göstərdi. Ölkəni yeni dövrə aparan, yeni cəmiyyətin memarı olan Heydər Əliyev tezliklə bütün respublikanı - şəhərləri, kəndləri tikinti meydanına çevirdi. Onun bilavasitə səyi nəticəsində respublikanın daxili imkanları ilə yanaşı, Ümumittifaq fondundan külli miqdarda vəsait daxil oldu, nəhəng sənaye obyektlərinin tikintisinə başlandı. Maddi-texniki vəziyyəti acınacaqlı olan səhiyyəyə kifayət qədər vəsait ayrılıb. Bundan sonra hər zaman yerində olan Azərbaycan səhiyyəsi canlandı və dünya səhiyyəsi ilə inteqrasiyaya keçdi.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR:

1. “Dövlətçilik naminə, Bakı, 2001.
2. “Azərbaycan – 1993”, Bakı, 2000.
3. “Xalqın böyük xilaskarı”, Bakı, 2001.
4. Ümid işığı, Bakı, 2003.

ALBANİAN TEMPLES

Bachelors: Aziza
Abbasova Nuray Vasif
II course, gr.126.22E

Scientific supervisor: teacher Aghayeva

In the early Middle Ages, numerous Christian religious buildings were built in the northern lands where the Caucasian Albania state of Azerbaijan existed. The adoption of Islam marked the beginning of a new stage in Caucasian Albania (now Northern Azerbaijan). In the Karabakh region of Azerbaijan, a large number of mosques and minarets were built by master craftsmen during the Islamic era.This was according to the law, because every nation that respects its religion treats

other religions with respect. The Armenians, who presented themselves as an "oppressed ancient people", did the exact opposite.

As a result of numerous wars, the small part that has survived the destructive effects of time and nature and reached our times is located mainly in the northern and western regions of our country. Among them, several Albanian churches of the IV-XVI centuries that reflect Albanian architecture in Karabakh have survived to our time. As an example, among them, Agoglan monastery located in Lachin district, Khudaveng monastery in Kalbajar district, Amaras monastery in Khojavand district, Saint Elisey temple complex in Aghdara district, Ganjasar monastery in Aghdara district and others can be mentioned.

Now I want to talk about the Agoglan monastery complex, which was built in the IX century and operated for a long time, located on the banks of the Agoglan river in the territory of Lachin region. As a geologist, I can also say that this magnificent monastery, built of solid basalt stone, occupies a special place among the monuments of Albanian Christian architecture due to its skillful structural solution. The internal volume of the monastery building consists of 3 parts. The high stone columns supporting the roof made of stones are completed with cylindrical arches.

I would like to talk about many more of the examples I have listed. However, the scene we saw after the liberation of the Karabakh land from the occupation of Armenia by the victorious Azerbaijani army as a result of the Glorious Victory we achieved in the 44-day Patriotic War, which began on September 27, 2020, was not at all encouraging. The rich cultural heritage of the Azerbaijani people was looted, destroyed and destroyed by Armenian vandals. However, historical documents and, first of all, the epigraphic monuments of Karabakh once again confirm that these lands are ancient Azerbaijani lands.

Reference list:

1.Məmmədova G.,Hacıyeva S. Azərbaycan memarlıq Tarixi.Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı.I cild Bakı.Bakı,"Şərq-Qərb" Nəşriyyat Evi 2013

2.https://www.aa.com.tr/en/analysis/opinion-albanian-churches-in-karabakh-and-endless-armenian-lies/2085835

MULTICULTURALISM AND IMMIGRATION PROCESSES: VIEW FROM AZERBAIJAN.

Bachelor:
Hajili Nijat İlham
2 course. Group: 382.22E

Scientific adviser:
f.ü.f.d.Qasımova
Nərminə Vaqif

In our interconnected world, the confluence of multiculturalism and immigration processes stands as a defining force shaping the intricate tapestry of our societies. Today, I am delighted to guide you through a journey that delves into the core of this synergy — "Embracing Diversity: Multiculturalism and Immigration Processes."

Multiculturalism, beyond a mere catchphrase, is a profound concept weaving the very fabric of our societies. This presentation endeavors to define multiculturalism not as a buzzword but as a celebration of diversity, a recognition and respect for different cultures, and the nurturing of an inclusive environment.

Why does multiculturalism matter? Beyond the surface allure of festivals and culinary diversity, embracing diversity emerges as a potent force enriching us socially, economically, and culturally. Numerous studies converge on the idea that diverse communities not only foster innovation and creativity but also contribute significantly to the dynamic tapestry of our interconnected world.

Yet, the journey toward multiculturalism is not a seamless one. Navigating through cultural clashes and integration issues presents challenges that demand our attention. Striking the delicate balance between preserving individual cultures

and forging a unified identity emerges as a crucial aspect for the harmonious coexistence of diverse communities.

Shifting our focus to immigration processes, we embark on an exploration of their various facets. From economic migrants to refugees and family reunification, understanding these processes becomes essential. Global migration trends play a pivotal role in shaping the multicultural landscape, creating a mosaic of perspectives and experiences.

Delving into the impact of immigration on multiculturalism, we uncover that immigrants bring unique perspectives, contributing indispensably to the rich tapestry of our societies. Through illustrative case studies, we dissect the success stories of multicultural societies and the challenges faced by others, unraveling the nuanced dynamics at play.

Transitioning to the administrative realm, we scrutinize immigration policies worldwide. Diverse approaches adopted by different nations wield significant influence, either nurturing or hindering the spirit of multiculturalism. Recognition of challenges is merely the first step; we further explore strategic avenues such as education, cultural awareness programs, and community involvement to surmount obstacles in multicultural societies.

As we cast our gaze toward the future, a discussion ensues on emerging trends in global migration patterns and multiculturalism. Contemplating the role of technology in shaping societies, we anticipate the challenges that lie ahead. In conclusion, the imperative of embracing diversity extends beyond moral considerations; it is an economic and cultural necessity. This presentation invites reflection, dialogue, and ongoing exploration of the captivating beauty that unfolds when diverse cultures converge. Together, let us navigate the evolving landscape of multiculturalism and immigration, cultivating a world that not only acknowledges but celebrates the inherent richness of diversity.

MÜASİR DÖVRDƏ TƏHSİLİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

Magistrant:
Xatirə Xalıqzadə

II kurs
Təhsildə qiymətləndirmə
və monitorinq

Elmi rəhbər:
Pedoqogika üzrə fəlsəfə

doktoru, dosent Sahil Cəfərov

Bu gün hər birimiz Respublikamızda sürətlə gedən hərtərəfli inkişaf dinamikasına şahidik. Baş verən inkişafın müxtəlif istiqamətləri mövcuddur.

Mövcud inkişafın prioritet istiqamətlərindən biri də elmdir. Elmin formalaşmadığı, inkişaf etmədiyi toplumda müsbət nailiyyətlər, tərəqqi əldə etmək mümkün deyil. Bu gün dünyanın bir çox ölkələrində elm və təhsilin irəliləyişi üçün əvəzsiz imkanlar yaradılır. Bu da təhsil alan hər bir şəxsin cəmiyyətin, dövlətin layiqli üzvü kimi fomalaşmasına imkan yaradır. Ümummilli liderimiz Heydər Əliyev də elm və təhsilin inkişafına xüsusi qayğı göstərmiş, inkişafı üçün mütərəqqi addımlar atmışdır. Heydər Əliyev deyirdi: "Ümumi çətinliklər nə qədər çox olsa da, biz elmə, təhsilə daim qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha da çox istifadə etməliyik".

Elmin və təhsilin inkişaf strategiyasının müəyyənləşdirilməsi üçün fundamental idea mənbəyi kimi səslənən bu fikirə dəqiq və məntiqlə istinad olunsa daha uğurlu nəticələr əldə olunar. Bu mənada Ulu öndərimizin səsləndirdiyi fikir bizim qarşımıza daha mükəmməl vəzifələr qoyur.

Ulu öndərimizin təməlini qoyduğu inkişaf siyasətini prezidentimiz İlham Əliyev uğurla davam etdirir. Hazırki dövrdə təhsili inkişaf etdirmək məqsədi ilə bir sıra strateji addımlar atılır. Təhsil müəssisələrinin infrastrukturu müasirləşdirilir, məktəblərdə təmayülləşmə həyata keçirilir, müəllimlərin peşəkarlıq səviyyəsi yüksəldilir, yeni qiymətləndirmə mexanizmləri yaradılır.

Qarşımızda duran ən mühüm vəzifələr sırasına təhsilin inkişafını daha yüksək səviyyələr üzrə formalaşdırmaqdır.

Hesab edirəm ki, ilk növbədə maddi-texniki bazanın müasirləşdirilməsi məqsədəmüvafiq olar. Təhsil müəssisələrinin müasir maddi-texniki resurslarla təmin olunması ilk addımda təhsilalanların çalışqanlığını artıracaq. Digər tərəfdən müasir səviyyədə resurslarla təchizat təhsilalanlarda müasir texnologiyalardan istifadə vərdişlərini formalaşdıracaq.

Fikrimcə, diqqət yetiriləcək əsas məsələlərdən biri də təhsil alanlarda tədqiqatçılıq bacarığının formalaşdırılmasıdır. Əlavə olaraq deyə bilərik ki, təhsilin müasir paradiqmalar üzrə həyata keçirilməsi məqsədəuyğundur. Çünki müasir texnologiyaların inkişaf tendensiyası ilə təlim texnologiyaları arasında harmoniya gözlənilməlidir. İnanırıq ki, hər iki sfera üzrə mütənasiblik təhsil alanların müasir şəxsiyyət modeli üzrə formalaşmasını təmin edəcəkdir.

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DİLİNİN MAHİR BİLİCİSİDİR

Bakalavr:
Ömərova Nigar Elbəyi,
Əlizadə Vasif Vaqif
I kurs, qrup 305.23

Elmi rəhbər: müəllim Könül Abdullayeva

Milli mənəvi sərvətdən, mənəviyyatdan bəhs olunanda ilk növbədə insanın dili yada düşür. Hər bir xalqın kimliyini,tarixini,özünəməxsusluğunu müəyyən edən keçmişi ilə bu günü və gələcəyi arasında qırılmaz körpü yaradan onun dilidir. Dil insanın,millətin,xalqın ruhunun tərcüməçisidir. Dil bir millətin var olma göstəricisidir. Dil tanınma damğasıdır,soy bağıdır, birlik və bərabərliyin təminatçısıdır. Biz Azərbaycan türklərinin ana dili türk dillərinin “Oğuz” qrupuna aid olan Azərbaycan dilidir Azərbaycan türkcəsidir.Düşünsək ki,bu gün sahib olduğumuz bu milli sərvətin yaşı min illərlə ölçülür,deməli bizim söylədiyimiz hər bir söz bir tarixdir.Dilimizin tarixinə nəzər salsaq görərik ki,dilimiz necə maneələrlə qarşılaşıb,lakin bunlara baxmayaraq dilimizi qoruyub bu günlərə

gətirən bir çox yazıçılarımızla,şairlərimizlə yanaşı elə bir müəllif düşünün ki Azərbaycan kimi böyük bir əsərin müəllifi,elə bir şəxsiyyət düşünün ki,qəlbi yalnız vətən üçün atsın,tarixin axışını,millətin ağır taleyini dəyişsin.Heydər Əliyev. öz çıxışları ilə dilin zəngin söz xəzinəsindən bacarıqla istifadə etməyi,onun saflığını qorumağı,onunla fəxr etməyi və bu dili hər zaman hər yerdə təbliğ etməyi ilə hamıya nümunə oldu. Dilimizin mahir bilicisi Heydər Əliyev Respublikanın rəhbəri seçiləndən bir neçə ay sonra Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində nitq söylədi və bu cümləni xüsusilə nida ilə vurğuladım ,çünki həmin dövrdə belə bir addım,həqiqətən,böyük bir cəsarət istəyirdi və ən başlıcası millilik,soy,kökə bağlılıq anlamına gəlirdi.Həmin tarixi günü Heydər Əliyev tam 25 ildən sonra,BDU-nun 75 illiyinə həsr edilən iclasda artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı:"Xatirəmdədir,universitetin 50 illik yubileyində çıxış edərkən,şübhəsiz ki,ana dilimdə, Azərbaycan dilində danışdım.Bu böyük sensasiya kimi qarşılandı.Nə cür olur ki,Respublikanın rəhbəri,Azərbaycan dilində çıxış edir və heç də pis danışmır.Bəziləri məni bu hadisə münasibət ilə təbrik etdilər,minnətdarlıqlarını bildirdilər.Dilini sevən milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük hadisə kimi qəbul etdilər." Böyük öndər yenə həmin dövrdə ölkədə keçirilən bütün tədbirlərdə doğma dilində danışmaqdan çəkinmirdi. Uzun illər boyu sıxışdırılan dilimizin sabahına işıq salır, cəsarəti, şəxsi nümunəsi ilə minyonlarla insanın ürəyindən keçənlərin ifadəçisinə çevrilir, haqq sözünü deyir, dilimizin ən ali mərtəbəyə layiq olduğunu bəyan edirdi. Bu günlərdə onun dünyaya gəlişinin yüzüncü ildönümü böyük bir məhəbbətlə və fəxr ilə qeyd edirik. Onun sadəcə doğum və ölüm günündə deyil, hər an, hər saat minnətdarlıqla anırıq və təbii ki, dünya durduqca, müstəqil Azərbaycanımız durduqca, qədirbilən xalqımız durduqca onu heç unutmayacaq,onun xatirəsinin işıqına toplaşacaq,ona minnətdar olacağıq.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR:

1. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm
2. https://azertag.az/xeber/azerbaycan_tehsilinin_inkisafinda_ulu_onder_heyder_eliyevin_tarixi_xidmetleri-2341676

XXI ƏSRDƏ DİLİMİZLƏ BAĞLI TƏDBİRLƏR

Bakalavr: Elmi rəhbər: müəllim Əmirova Sevda
Ələkbərova Aygül Vüqar q.
I kurs, 303.23qrup

Azərbaycan dili böyük inkişaf yolu keçmiş,qədim və zəngin ədəbi dillərdəndir.Dövlət dilimiz olan Azərbaycan dili son bir əsrlik dövr ərzində məqsədyönlü islahatlar nəticəsində lüğət tərkibini zənginləşdirib və dünya dilləri içərisində özünəməxsus yer tutub.

Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə dilimizin inkişafına xüsusi önəm verilib,bu istiqamətdə müxtəlif taleyüklü fərman və sərəncamlar qəbul olunub.Ana dilinə hər zaman həssaslıqla yanaşan,dilimizin dərin bilicisi olan Ümummilli Lider deyirdi:"Dil hər bir millətin mənliyinin əsasıdır.İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir,ölməzdir,böyük gələcəyə malikdir.Bizim çox gözəl,zəngin dilimiz var".

